

**“Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir və xalq-iqtidar birliyi bu gün də göz qabağındadır. Bizim uğurlu siyasətimizin təməlində xalq tərəfindən göstərilən dəstək dayanır.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

*Elmi-praktiki jurnal*

*Yanvar - Mart (2018-ci il)*

**REDAKSİYA HEYƏTİ**

**Baş redakor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
(nazirbairamov@mail.ru)

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:**
Günay Əyyubova

**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, S.Tağızadə küçəsi, 78 A.
**Tel. / Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən, rübdə bir dəfə dövrilikdə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 1 iyun 2010-cuil tarixli, 10/53 nömrəli "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiqedilməsi haqqında əmrinə əsasən, Azərbaycan Respublikası Prokurorluğunun elmi-praktiki mətbu orqanı olan "Azərbaycan Prokurorluğu" jurnalının fəaliyyəti üçün məsul qurum kimi Baş Prokurorluğun Elm-Tədris Mərkəzi müəyyənləşdirilmişdir.

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 12.04.2018
60x84 1/8 formatda 128 səhifə həcmdə çap olunmuşdur.
Tiraj: 770 nüsxə

© "Azərbaycan Prokurorluğu", 2018

# MÜNDƏRİCAT


## İCTİMAİ-SİYASİ TƏDBİRLƏR

**4** Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**15** Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib

**18** 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**18** Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**19** Yeni Azərbaycan Partiyasının VI qurultayı keçirilib. Yeni Azərbaycan Partiyasının VI qurultayı aprelin 11-də keçiriləcək prezident seçkilərində partiyanın sədri, Prezident İlham Əliyevin namizədliyini irəli sürüb

**28** Cənab İlham Əliyevə prezidentliyə namizədlik vəsiqəsi təqdim edilib

**29** Prezident İlham Əliyev Xocalı soyqırımı qurbanlarının xatirəsini anım mərasimində iştirak edib

**32** Prezident İlham Əliyev Xocalı soyqırımı ilə əlaqədar müsahibə verib

**33** Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub

**34** Prezident İlham Əliyev yanğın baş verən Respublika Narkoloji Mərkəzinə gələrək vəziyyətlə tanış olub

**35** Prezident İlham Əliyev 8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib

**36** Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

**37** Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib

## RƏSMİ TƏDBİRLƏR

**49** Baş Prokurorluqda əməliyyat müşavirəsi keçirilib

**52** Baş Prokurorluqda geniş kollegiya iclası keçirilib

**56** Hərbi Prokurorluqda geniş kollegiya iclası keçirilib

**61** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda kollegiya iclası keçirilib

**64** Bakı şəhər prokurorluğunda kollegiya iclası keçirilib

**66** Azərbaycan Prokurorluğunun kollektivi Şəhidlər xiyabanını ziyarət edib

**66** Baş prokuror Zakir Qaralov rusiyalı həmkarına müraciət edib

**66** ATƏT-in DTİHB-nin seçki müşahidə missiyasının rəhbəri Baş Prokurorluqda olub

**67** Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

**70** Hərbi Prokurorluqda kollegiya iclası keçirilib

**72** Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar Hərbi Prokurorluqda tədbirlər keçirilib

**75** Azərbaycanlıların soyqırımının 100-cü ildönümü ilə bağlı Hərbi Prokurorluqda elmi-praktiki konfrans keçirilib

## TƏHLİLLƏR, TƏKLİFLƏR

**76** Nazir Bayramov – "Cinayətin provokasiyası" ilə əldə edilmiş sübutların mümkünlüyünün formal və leqal əlamətləri barədə

**82** Firad Əliyev – Residivə görə cəza təyin etmənin xüsusiyyətləri

## CÜMHURİYYƏT – 100

**84** Cahangir Nəsirov – Azərbaycan Xalq Cümhuriyyətinin qanunvericilik fəaliyyəti tarixindən

## İCTİMAİYYƏTƏ HESABAT

**88** 1988-ci il Sumqayıt iğtişaşları ilə əlaqədar bəyanat

**89** Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar bəyanat

**91** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2017-ci il ərzində görülmüş işlərə dair hesabatla çıxış edib

**96** Prokurorluq orqanlarına qulluğa qəbulla bağlı elan edilmiş müsabiqənin ilkin mərhələsi olan test imtahanı keçirilib

**98** "Prokurorluğun normativ hüquqi aktları" informasiya sistemi yaradılıb

**101** Beynəlxalq ekspertlər Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin fəaliyyətinə maraq göstərirlər

**102** Baş Prokurorluğun işçiləri "Azərbaycanda ədliyyə islahatlarına dair təşəbbüslərə dəstək" layihəsinin təqdimatına həsr olunmuş konfransda iştirak ediblər

**104** Prokurorluq işçiləri hakimlərin toxunulmazlığının məhdudlaşdırılmasına dair qanun layihəsinin müzakirəsində iştirak ediblər

**106** Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi tərəfindən müxtəlif sahələr üzrə seminarlar təşkil olunub

**108** Culfa rayon prokurorluğunda "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanununun öyrənilməsi məqsədilə tədbir keçirilib

**109** Naxçıvan şəhər prokurorluğunda "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi (Ədalətli məhkəmə araşdırması hüququ)" mövzusunda seminar keçirilib

**109** Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında vakant vəzifələrin tutulması üçün test imtahanı keçirilib

**110** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən http://www.naxcivantv.az/ saytında "Hüquq guşəsi" yaradılıb

## BEYNƏLXALQ ƏLAQƏLƏR

**112** Baş Prokurorluğun nümayəndə heyəti İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin Baş prokurorlarının III görüşündə iştirak edib

**113** Azərbaycan və Türkiyə dövlətlərinin məhkəmə, prokurorluq və ədliyyə orqanları arasında əməkdaşlıq genişlənir

**115** Quba şəhərində sərhədyanı əməkdaşlıq məsələlərinə həsr edilmiş tədbir keçirilib

## HÜQUQİ AKTLAR

**116** Qanunvericiliyə dəyişikliklər

**128** Prokurorluq üzrə hüquqi aktlar

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib**

Yanvarın 10-da Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlət başçısı iclasda giriş nitqi söylədi.

## Prezident İlham Əliyevin giriş nitqi



– Nazirlər Kabinetinin bugünkü iclasında biz 2017-ci ilin yekunlarını müzakirə edəcəyik, bu il görüləcək işlər haqqında danışacağıq.

2017-ci ildə ölkəmiz sürətlə və uğurla inkişaf etmişdir. Həyatımızın bütün sahələrində əldə edilmiş nəticələr ölkəmizin ümumi inkişafına böyük töhfə vermişdir. Azərbaycan xalqı 2017-ci ildə də sabitlik və təhlükəsizlik şəraitində yaşamışdır. Bu gün dünyanın müxtəlif yerlərində risklər, təhlükələr artır, qanlı münaqişələr, qarşıdurmalar geniş vüsət alır. Bir sözlə, dünyada risklər artmaqdadır və görünür ki, bu tendensiyalar hələ davam edəcək. Belə bir mənzərə ilə üzləşərək əlbəttə ki, dünya ictimaiyyəti narahatlıq hissi keçirir. Azərbaycanda isə sabitlik, təhlükəsizlik, normal həyat təmin edilir. Hesab edirəm ki, indiki dünyada mövcud olan mürəkkəb geosiyasi vəziyyəti nəzərə alaraq bizdə bu sahədə əldə edilmiş nəticələr yüksək qiymətə layiqdir.

Sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, aksiomadır. Bunu biz yaxın tarixdə dəfələrlə görmüşük. Sabitlik pozulan zaman inkişaf da dayanır, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır, sərmayə qoyuluşu dayanır. Bir sözlə, sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Azərbaycanda isə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və eyni zamanda, bizim apardığımız siyasətdir. Çünki bizim siyasətimiz milli maraqlara söykənir, milli maraqlarımız bizim üçün hər şeydən üstündür. Ölkəmizin təhlükəsizliyi, sabitliyi, iqtisadi və sosial inkişafı, beynəlxalq arenadakı artan rolu sabitliyin təminatçısıdır.

Əminəm ki, 2018-ci ildə də Azərbaycanda bu müsbət meyillər daha da güclənəcək. Xalq-iqtidar



birliyi bizim uğurlarımızın əsas şərtidir və xalq-iqtidar birliyi bu gün də göz qabağındadır. Bizim uğurlu siyasətimizin təməlində xalq tərəfindən göstərilən dəstək dayanır. Bu müsbət meyillərin gücləndirilməsi, əlbəttə ki, ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin edəcəkdir.

2017-ci ildə iqtisadi sahədə çox böyük uğurlar əldə edilibdir. Mən artıq demişəm, bir daha demək istəyirəm ki, 2017-ci il dərin iqtisadi islahatlar ilidir. Mən bu tezisi elə ilin əvvəlində bəyan etmişəm ki, 2017-ci il dərin iqtisadi islahatlar ili olmalıdır. Belə də oldu və bunu mötəbər beynəlxalq maliyyə qurumları da, mötəbər təşkilatlar da təsdiqləyir və qeyd edir. Həm Dünya Bankı, həm Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda gedən proseslərə yüksək qiymət verirlər, eyni zamanda, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək, dünya miqyasında 35-ci yerdə qərarlaşıb. Bu, çox böyük göstəricidir, ilk növbədə onu göstərir ki, hətta iqtisadi cəhətdən o qədər də asan olmayan ildə də biz inkişaf edirik. Digər tərəfdən, dünya miqyasında 35-ci yeri tutmaq doğrudan da böyük nəticədir, böyük qələbədir. Biz uzun illərdir ki, MDB məkanında liderlik mövqeyimizi qoruyuruq və möhkəmləndiririk. Hesab edirəm ki, beynəlxalq iqtisadi birlik tərəfindən bizim iqtisadi islahatlarımıza verilən ən böyük qiymət məhz Davos Forumunun reytinqidir və bunun da əsası var. Çünki son illər ərzində ölkəmizdə aparılan quruculuq və inkişaf işləri, bax, bu nəticələrə gətirib çıxarıbdır.

Ölkə iqtisadiyyatı 2017-ci ildə artıb, bu, çox müsbət göstəricidir. Ümumi daxili məhsul az da olsa artmışdır. Ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorumuz artıb və burada artım 2,5 faiz təşkil edir. Sənaye sahəsində qeyri-neft sektorumuz 3,6 faiz, kənd təsərrüfatı isə 4,1 faiz artıbdır. Bizim valyuta ehtiyatlarımız artıb. Keçən il ölkəmizdə bir çox önəmli infrastruktur və sosial layihələr icra edilmişdir. O layihələr böyük pul tələb edir. Buna baxmayaraq, 2017-ci ildə valyuta ehtiyatlarımız 4,5 milyard dollar artmışdır və hazırda təxminən 42 milyard dollar təşkil edir. Ölkəmizin əhalisini nəzərə alaraq, hesab edirəm ki, adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə Azərbaycan dünya miqyasında ön yerlərdən birini tutur.

Ölkə iqtisadiyyatına 14,6 milyard dollar sərmayə qoyulub. Bu da çox gözəl göstəricidir. Onu göstərir ki, həm yerli və həm də xarici investorlar ölkəmizə vəsait qoymaqda maraqlıdırlar. Bu, eyni zamanda, qeyd etdiyim sabitliyin təzahürüdür. Çünki indiki dünyada mövcud olan maliyyə və iqtisadi vəziyyətdə

xarici ölkələrə vəsait qoymaq bir çox investorlar tərəfindən o qədər də məqbul sayılmır. Ancaq sabit olan ölkələrə və gözəl gələcəyi olan ölkələrə xaricdən investisiyalar qoyulur. Ona görə il ərzində təxminən 15 milyard dollar investisiyaları cəlb etmək hesab edirəm ki, böyük nailiyyətdir.

Bizim ixrac potensialımız artır. 2017-ci ildə ixrac 19 faiz artmışdır, qeyri-neft ixracımız isə 24 faiz artmışdır. Bu, görülən işlərin nəticəsidir. Əhalimiz artır. Hər il əhali ən azı 100 min nəfər artır. İstehlak artır, turistlərin sayı çoxalır. Keçən il 2016-cı ilə nisbətən 500 minə yaxın çox turist gəlmişdir. Bu da təbii ki, istehlakın artmasına gətirib çıxarır. Buna baxmayaraq, bizim qeyri-neft ixracımız, o cümlədən ərzaq məhsullarının ixracı sürətlə artır. İl ərzində qeyri-neft ixracının 24 faiz artması görülən işlərin nəticəsidir.

İdxal isə təqribən cəmi 1 faiz artmışdır və bu da təbiidir. Çünki, ilk növbədə, Azərbaycan öz daxili tələbatını daha böyük həcmdə daxili istehsal hesabına təmin edir, digər tərəfdən vətəndaşların alıcılıq qabiliyyəti artır. Beləliklə, idxalın sabit səviyyədə qalması hesab edirəm ki, çox böyük nəticəmizdir. Ticarət balansımızın müsbət saldosu isə 6,2 milyard dollardır. İqtisadiyyatçılar yaxşı bilirlər ki, bu, çox gözəl göstəricidir. Əminəm ki, bu il və bundan sonrakı illərdə bizim saldomuz həmişə müsbət olacaq. Hesab edirəm ki, fərq daha da böyük olacaq və beləliklə, makroiqtisadi vəziyyətimizin yaxşılaşdırılması, manatın məzənnəsinin sabit səviyyədə saxlanması üçün bu, çox mühüm amillərdən biridir.

Bir sözlə, iqtisadi sahənin əsas göstəriciləri çox müsbətdir. Hesab edirəm ki, hər bir ölkə belə nəticələrlə fəxr edə bilər. Biz də fəxr edirik ki, 2017-ci ili belə gözəl nəticələrlə başa vurmuşuq.

Regionların inkişafı daim diqqət mərkəzində olmuşdur. Keçən il mən 30-dan çox rayona səfər etmişəm. Bu səfərlər çərçivəsində həm yeni müəssisələrin açılışları qeyd olunmuşdur, yeni müəssisələrin təməli qoyulmuşdur, həm də bölgələrdə gedən vəziyyətlə bağlı mənə məruzələr edilmişdir. Mən hər il bölgələrə səfərlər edirəm və keçən il demək olar ki, rayonlarımızın yarısında olmuşam. Bu, əlbəttə ki, həm mənim üçün çox əhəmiyyətlidir, çünki mən yerlərdə vəziyyətlə tanış oluram və müvafiq göstərişlər verirəm. Bilirəm ki, bu, bölgələrdə yaşayan vətəndaşlar üçün də çox önəmlidir. Əlbəttə ki, bu, nizam-intizamın möhkəmləndirilməsi üçün də çox önəmlidir. Çünki mən Azərbaycanın hər bir rayonunda dəfələrlə olmuşam və verilmiş tapşırıqların yerinə yetirilməsini də özüm şəxsən nəzarətdə saxlayıram.

2017-ci ildə 221 min yeni iş yeri açılmışdır ki, onların 177 mini daimi iş yeridir. Bu, çox böyük göstəricidir. Hesab edirəm ki, son illər ərzində açılan iş yerlərinin sayına görə bu, rekord göstəricidir. Onu da qeyd etməliyəm ki, keçən il 47 min iş yeri bağlanmışdır. Bu da təbii prosesdir. Ancaq, eyni zamanda, biz ciddi təhlil aparmalıyıq, görməliyik ki, hansı səbəblər üzündən 47 min iş yeri bağlanmışdır. Ancaq bununla belə 177 min daimi iş yerinin açılması, 47 min iş yerinin bağlanması yenə də burada da müsbət saldonu təmin edir və beləliklə, ölkəmizdə işsizliyin aşağı səviyyədə saxlanması üçün yaxşı imkanlar yaradır. Qeyd etməliyəm ki, ilin yekunlarına görə Azərbaycanda işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsindədir. Hesab edirəm ki, bu da dünya miqyasında ən yaxşı nəticələrdən biridir.

Keçən il infrastruktur layihələrinin icrası üçün böyük vəsait ayrılmışdır və bu istiqamətdə çox önəmli addımlar atılmışdır. Elektrik təchizatı yaxşılaşdırılmışdır, bir çox bölgələrdə yeni yarımstansiyalar işə düşmüşdür. Bizim sürətlə artan sənaye və kənd təsərrüfatı potensialımız tələb edir ki, elektrik təchizatının inkişafı daim diqqət mərkəzində olsun.

Bölgələrdə sürətli qazlaşdırma işləri aparılır. Keçən ilin yekunlarına görə ölkəmizin 93 faizi qazlaşdırılıb. Bu il dövlət büdcəmizdə qazlaşdırma üçün əlavə vəsait nəzərdə tutulur. Bu rəqəm daha da artacaq.

Görülən tədbirlər nəticəsində 100 min hektardan çox sahə suvarılmağa başlanmışdır. Bu, çox böyük rəqəmdir. Əlbəttə ki, kənd təsərrüfatının inkişafına və kənd təsərrüfatı məhsullarının ixracına bunun çox böyük dəstəyi olacaq.

2017-ci ildə 1300 kilometr avtomobil yolu salınmışdır. Bu da çox böyük göstəricidir. Beş yüzdən çox kəndə yeni yol salınmışdır. Biz ilin əvvəlində bəyan etmişdik ki, şərti olaraq 40 kənd yolu layihəsini icra edəcəyik, ancaq hər bir layihənin əhatə dairəsi çox genişdir. Biz il ərzində yol infrastrukturunun yaradılmasına əlavə vəsait ayırdıq və beləliklə, 500-dən çox kəndə yeni gözəl yol salınıbdır.

İçməli su layihələri uğurla icra edilir. Bir çox şəhərlərin içməli su problemi keçən il öz həllini tapıbdır. Biz bütövlükdə əsas infrastruktur layihələrinin icrası istiqamətində qarşımızda duran hədəfə demək olar ki, çatırıq.

Sosial infrastrukturla bağlı çox ciddi addımlar atılmışdır – 133 yeni məktəb tikilmişdir, 14 məktəb əsaslı təmir edilmişdir, 500-ə yaxın məktəbdə isə cari təmir aparılmışdır. Otuz tibb müəssisəsi tikilib və əsaslı təmir edilmişdir. İki Olimpiya İdman Kompleksi istifadəyə verilmişdir.

Ünvanlı sosial yardım alan ailələrin sayı 116 minə bərabərdir. Bu, 400 mindən çox insanı əhatə

edir. Orta hesabla hər ailəyə 150 manat sosial yardım göstərilir. Bu da bizim sosial siyasətimizin təzahürüdür. Eyni zamanda, – mən bunu əvvəlki müşavirələrdə də bildirmişəm, – biz çalışmalıyıq ki, ağır vəziyyətdə yaşayan vətəndaşları işlə təmin edək, onlar üçün şərait yaradaq, o cümlədən onları özünüməşğulluq proqramı çərçivəsində işə cəlb edək ki, ünvanlı sosial yardıma ehtiyacı olanların sayı azalsın.

Sosial infrastruktur layihələri, əlbəttə ki, çox böyük əhəmiyyət daşıyır və bizim siyasətimizin istiqamətini əks etdirir. Hətta iqtisadi cəhətdən çətin olan illərdə biz sosial məsələlərin həlli üçün əlimizdən gələni edirik və böyük işlər görürük. Bu il bu sahədə görüləcək işlər demək olar ki, sosial infrastrukturla bağlı məsələlərin böyük əksəriyyətini həll edəcəkdir.

Məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu baxımdan 2017-ci il də əlamətdar il olmuşdur, 2300 ailə yeni evlərə, mənzillərə köçürülüb. Beləliklə, 12 mindən çox köçkün yeni evlərlə, mənzillərlə təmin edilibdir. Cocuq Mərcanlı kəndinin bərpası tarixi nailiyyətdir, indi 150 evdən ibarət gözəl qəsəbə yeni həyatını yaşayır. Köçkünlər o qəsəbəyə qayıdıblar, qayıdırlar və bu, tarixi, əlamətdar hadisədir. Azərbaycan dövləti Cocuq Mərcanlının timsalında bir daha göstərib ki, heç vaxt işğalla barışmayacaq. Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmayacaq və bütün köçkünlər bir arzu ilə yaşayırlar ki, tezliklə öz doğma torpaqlarına qayıtsınlar. Cocuq Mərcanlının qısa müddət ərzində bərpası, yenidən qurulması onu göstərir ki, işğaldan azad ediləcək bütün ərazilərdə biz qısa müddət ərzində bütün təmir-bərpa işlərini aparacağıq, şəhərləri, kəndləri yenidən quracağıq və bu gün ağır vəziyyətdə, dağılmış vəziyyətdə olan şəhər və kəndlərimizə tezliklə həyat qayıdacaq.

Eyni zamanda, 2017-ci ildə Şıxarx qəsəbəsində 1170 ailə üçün yeni şəhərcik salınıb. Bu da əlamətdar hadisədir. Təkcə ona görə yox ki, böyük köçkün şəhərciyi yaradılıb. Ona görə ki, Şıxarx qəsəbəsi vaxtilə işğal altında olan ərazidir. Bu ərazi erməni işğalçılarından təmizlənmişdir, azad edilmişdir və o yerdə yeni böyük şəhərciyin salınması bir daha onu göstərir ki, Dağlıq Qarabağ bizim əzəli torpağımızdır. Bu, həmişə belə olub, bu gün belədir, sabah da belə olacaq və Dağlıq Qarabağ probleminin həlli ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür. Bunun heç bir başqa yolu yoxdur.

Bizim prinsipial mövqeyimiz ədalətli mövqedir, beynəlxalq hüquqa əsaslanan mövqedir və daha çox beynəlxalq dəstək qazanan mövqedir. Bunu əks etdirən bir neçə önəmli hadisə olmuşdur. Onlardan biri Dağlıq Qarabağda separatist rejim tərəfindən keçirilmiş qanunsuz "referendum"un dünya ictimaiyyəti tərəfindən tanınmamasıdır. Həm qonşu ölkələr, həm Avropa ölkələri, Avropa İttifaqı, beynəlxalq təşkilatlar "referendum"un tanınmaması haqqında birmənalı şəkildə ciddi bəyanatlar vermişlər. Bu bəyanatlar bir daha onu göstərir ki, bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bu dəstək getdikcə daha da artır.

Bilirsiniz ki, ilin sonunda Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Zirvəsində qəbul edilmiş Bəyannamədə də "Şərq tərəfdaşlığı"na üzv olan ölkələrin ərazi bütövlüyü, suverenliyi Avropa İttifaqı tərəfindən birmənalı şəkildə dəstəklənmişdir. Bu, işğalçı Ermənistana növbəti zərbə olmuşdur. Bu, ədalətin təzahürüdür və eyni zamanda, onu göstərir ki, bu gün Avropa qurumları, dünya mərkəzləri həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı, eyni zamanda, ümumiyyətlə dünyada gedən proseslərlə bağlı daha müsbət yanaşma ortaya qoyurlar. O da həqiqətdir ki, hazırda Avropanın özü separatizmdən əziyyət çəkir və görür ki, separatizm nədir. Biz isə aqressiv separatizmlə üzləşmişik. Bizə qarşı soyqırımı törədilmişdir. Bizim vətəndaşlarımız öz doğma torpaqlarından silah gücünə çıxarılmışdır. Əlbəttə, dünyada, o cümlədən Avropada separatizmin baş qaldırması beynəlxalq ictimaiyyətə bir siqnaldır ki, yalnız vahid yanaşma tətbiq olunmalıdır. Biz həmişə bunu demişik. Mən dəfələrlə bunu deyirəm ki, bütün münaqişələrə, bütün separatizm təzahürlərinə vahid yanaşma tətbiq olunmalıdır, ikili standartlara yer olmamalıdır, bundan əl çəkilməlidir. Biz bunu artıq görürük. Hesab edirəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bu, önəmli hadisələrdir. Azərbaycan öz prinsipial mövqeyindən geri çəkilməyəcək və ölkəmizin ərazi bütövlüyünün bərpası bizim üçün əsas məsələdir.

Bununla yanaşı, təbiidir ki, biz hərbi gücümüzü də artırırıq. Bu gün beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordumuz üçün nə lazımdırsa biz onu da edirik. Ordumuzun maddi-texniki bazası möhkəmlənir. Hərbi bazalar, şəhərciklər, hərbi hissələr yenidən qurulur, əsaslı təmir edilir. Bizim hərbi şəhərciklərimizin, bazalarımızın, hissələrimizin 80 faizi artıq beynəlxalq standartlara cavab verir. Təmirə ehtiyacı olan qalan hərbi hissələrin təmir işləri növbəti illərdə yekunlaşmalıdır. Nə qədər lazımdırsa vəsait ayrılır və ayrılacaq. O cümlədən yeni müasir silahların alınması üçün lazım olan vəsait ayrılır. Yoxsul Ermənistandan fərqli olaraq, biz öz hesabımıza yaşayırıq, o cümlədən hərbi gücümüzü öz hesabımıza artırırıq. Ermənistandan fərqli olaraq heç kimdən dilənmirik, heç kimə yalvarmırıq, kredit

üçün müraciət etmirik. Ona görə Azərbaycan ictimaiyyəti və düşmən bilməlidir ki, Azərbaycan Ordusu bundan sonra da güclənəcək və istənilən tapşırığı yerinə yetirməyə hazırdır. Yaxın tarix bunu göstərmişdir.

2017-ci ildə energetika sahəsində tarixi hadisələr baş vermişdir. Onlardan biri "Azəri-Çıraq-Günəşli" yatağı üzrə kontraktın müddətinin 2050-ci ilə qədər uzadılması məsələsidir. Bu, bizə imkan verəcək ki, bundan sonra uzun illər ərzində – ən azı 2050-ci ilə qədər hasilat səviyyəsi sabit qalsın. Bu, imkan verəcək ki, Azərbaycanın neft sektoruna xarici investorlar tərəfindən bundan sonra da böyük həcmdə sərmayə qoyulsun. Burada söhbət on milyardlarla dollardan gedir. Əlbəttə ki, bu investisiyalar iqtisadiyyatımızın bütün sahələrinə öz müsbət təsirini göstərəcək, yeni iş yerlərinin, yeni yerli müəssisələrin yaradılması nəzərdə tutulur. Əlbəttə, neft hasilatının sabit saxlanması imkan verəcək ki, biz öz iqtisadi inkişafımızı planlaşdıraq və tədricən bundan sonra da neftdən asılılığı azaldaq. Son iki il ərzində biz buna demək olar ki, böyük dərəcədə nail olmuşuq.

"Azəri-Çıraq-Günəşli" kontraktının müddətinin uzadılması bizə sərmayədən başqa digər önəmli dividendlər gətirir. İlk növbədə, SOCAR-ın payı 11 faizdən 25 faizə artırılır. Mənfəət neftinin 75 faizi Azərbaycan tərəfinə qalacaq. Deyə bilərəm ki, bu da gənc, müstəqil ölkə üçün xarici investorlarla neft sahəsində əldə edilmiş ən gözəl nəticədir. Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR layihənin operatoru kimi bu işdə digər tərəfdaşlarla birlikdə iştirak edəcək və kontraktın uzadılmasına görə, baxmayaraq ki, xarici investorlar on milyardlarla dollar sərmayə qoyacaqlar, ondan əlavə 3,6 milyard dollar səkkiz il ərzində bərabər hissələrlə bizə bonus kimi veriləcəkdir. Birinci tranş bizə bu il veriləcəkdir. Bax, belə qısa desəm, "Azəri-Çıraq-Günəşli"nin əsas əhəmiyyəti bundan ibarətdir.

Eyni zamanda, Cənub Qaz Dəhlizinin uğurlu icrası təmin edilmişdir. İlin əvvəlində üçüncü dəfə "Cənub Qaz Dəhlizi"nin Məşvərət Şurasının toplantısı Azərbaycanda keçirilmişdir. Bütün lazımi məsələlər müzakirə olundu və il ərzində layihənin icrası təmin edilmişdir. Son məlumata görə, "Şahdəniz-2" layihəsinin icrası 99 faizə çatıbdır, demək olar ki, yekunlaşıb. Azərbaycanı Gürcüstanla birləşdirən Cənubi Qafqaz kəməri 93 faiz icra edilib və TANAP layihəsinin icrası 90 faizə bərabərdir. Bu, artıq onu göstərir ki, Cənub Qaz Dəhlizi reallaşıb. TAP layihəsinə gəldikdə isə, orada da işlər demək olar ki, qrafik üzrə gedir. Bilirsiniz ki, TAP layihəsində Azərbaycan əsas paya malik deyil. Bizim orada 20 faiz payımız var, amma biz iştirak edirik. Mənə verilən məlumata görə, o layihənin icrası 60-62 faiz səviyyəsindədir.

Energetika sahəsində bu iki önəmli layihə ölkəmizin bundan sonra da uğurlu inkişafını təmin edəcək və bizə imkan verəcək ki, qeyri-neft sektorunun inkişafı ilə daha çox məşğul olaq. Hesab edirəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı nəinki ölkəmiz üçün, bölgə üçün, dünya üçün önəmli hadisə olmuşdur. Bu yol Bakıdan başlanır. Təsadüfi deyil ki, təntənəli açılış mərasimi Azərbaycanda keçirilmişdir. Uzunluğu 850 kilometrə yaxın olan dəmir yolunun 504 kilometri Azərbaycan ərazisində tikilib, bərpa edilib. Bilirsiniz ki, Azərbaycan bu yolun icrasında ən böyük maliyyə yükünü öz üzərinə götürmüşdür. Bu tarixi layihənin icrası Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirəcək və artıq çevirir. Yol açılandan sonra qısa müddət ərzində – cəmi iki ay ərzində bir çox ölkələrdən Bakı-Tbilisi-Qarsa qoşulmaq haqqında bizə müraciətlər olmuşdur. Artıq bir neçə həmkarımla bu məsələni mən şəxsən müzakirə etmişəm. İndi müvafiq göstərişlər verilmişdir ki, bir çox ölkələrlə işçi qrupları yaradılsın və bu xəttə qoşulmaq istəyənlərin yük potensialı təhlil edilsin. Əlbəttə ki, biz bütün tərəfdaşlarla bu layihə çərçivəsində uğurlu əməkdaşlıq etməyə hazırıq.

Şimal-Cənub nəqliyyat dəhlizinin icrası istiqamətində önəmli addımlar atılmışdır. Azərbaycan öz üzərinə düşən vəzifələri icra edib, İran sərhədinə qədər dəmir yolunun tikintisini təmin edib, eyni zamanda, dəmir yolu körpüsünü də inşa edib. Beləliklə, Azərbaycan öz ərazisində bu layihə üzrə bütün lazımi tədbirləri görüb və layihənin ümumi icrası ilə bağlı da öz töhfəsini verməyə hazırdır.

Ötən il Azərbaycanda İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Bizim siyasi, diplomatik, iqtisadi uğurlarımıza bir uğur da əlavə edildi – idman uğurumuz. Bu Oyunlar ən yüksək səviyyədə keçirilmişdir. Azərbaycan bütün müsəlman aləmini qəbul etmişdir, öz qonaqpərvərliyini göstərmişdir və idmançılarımız da bizi sevindirmiş, Azərbaycan komanda hesabında birinci yerə layiq görülmüşdür. Eyni zamanda, bu Oyunlar İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində atılan önəmli addımdır və ölkəmizin niyyətini, siyasətini göstərir.

Bildiyiniz kimi, keçən il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilmişdir. Bu qərar bir daha onu göstərir ki, biz öz tarixi, dini köklərimizə bağlıyıq. Nəinki ölkə ərazisində İslam həmrəyliyi təmin edilir, bütövlükdə bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Biz istəyirik ki, bu tendensiyalar bölgəmizdə və dünyada daha da güclənsin. İl ərzində həm Azərbaycanda, həm də xaricdə keçirilmiş bir çox tədbirlər göstərir ki, bu qərar – 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməyimiz İslam aləmində çox böyük dəstəyə və rəğbətə səbəb oldu. Son

önəmli tədbir – dekabrın axırında Bakıda beynəlxalq konfransın keçirilməsi və bu konfransda dünya liderlərinin təbrik məktubları, yüksək səviyyəli qonaqların iştirakı bir daha göstərir ki, Azərbaycan dünya miqyasında həm İslam həmrəyliyi işlərinin təşkili, eyni zamanda, multikulturalizmin təbliği üçün əvəzolunmaz ölkəyə çevrilir.

Əlbəttə ki, il ərzində bir çox hadisələr baş vermişdir. Mən onlar haqqında burada danışsam bir neçə saat vaxt lazım olacaq. Sadəcə olaraq mən əsas, önəmli məsələləri qeyd etdim. Bir daha demək istəyirəm ki, 2017-ci il ölkəmiz üçün uğurlu olmuşdur, ölkəmiz daha da güclənmişdir və ölkəmiz gələcəyə nikbinliklə baxır. Əminəm ki, bu il də uğurlu il olacaqdır.

***

Sonra maliyyə naziri Samir Şərifov, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov və "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyev çıxış etdilər.

Daha sonra Prezident İlham Əliyev iclasda yekun nitqi söylədi.

## Prezident İlham Əliyevin yekun nitqi



– Əminəm ki, bu il ölkə iqtisadiyyatı öz inkişaf yolu ilə gedəcək. İl ərzində bir çox önəmli layihələrin icrası nəzərdə tutulur. Əlbəttə, biz çalışmalıyıq ki, 2018-ci ildə makroiqtisadi vəziyyət sabit olsun. Mən şübhə etmirəm ki, belə də olacaq. Makroiqtisadi sabitlik hər bir ölkə üçün önəmli amildir. Keçən ilin son aylarında makroiqtisadi vəziyyət sabitləşmişdir, inflyasiyanın səviyyəsi aşağı idi. Əminəm ki, bu müsbət meyillər 2018-ci ildə daha da güclənəcək. Manatın məzənnəsi sabitdir. Qeyd etdiyim kimi, 6,2 milyard dollar müsbət saldomuz makroiqtisadi sabitlik üçün çox önəmli amildir.

Onu da qeyd etməliyəm ki, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən, makroiqtisadi mühitə görə Azərbaycan dünya miqyasında 39-cu, MDB məkanında isə birinci yerdədir. Yəni, bu, Davosun qiymətləndirməsidir. Əlbəttə, çox əlamətdar haldır ki, beynəlxalq təşkilatlar Azərbaycanda makroiqtisadi vəziyyətlə bağlı görülmüş işlərə çox müsbət reaksiya verirlər və yüksək qiymətləndirirlər.

Biz çalışmalıyıq ki, Neft Fondunun gəlirlərini artıraq. Ümumiyyətlə, bizim valyuta ehtiyatlarımız, Dövlət Neft Fondunun valyuta ehtiyatları ildən-ilə artır. Əlbəttə, bu, bizə imkan verəcək ki, ölkə qarşısında duran önəmli layihələr üçün vəsait ayıraq və ölkəmizin iqtisadi dayanıqlılığını təmin edək. Valyuta ehtiyatlarının həcmi və artması bizə iqtisadi müstəqillik verir. Biz heç bir maliyyə qurumundan asılı deyilik. Biz kreditlər alırıq. Ancaq onu da qeyd etməliyəm ki, kreditlərin alınması ilə bağlı biz daha da ciddi siyasət aparmalıyıq. Hesab edirəm ki, bundan sonrakı illərdə dövlət xarici borcunun azaldılması istiqamətində işlər aparmalıdır. Bu gün də xarici borcumuz məqbul səviyyədədir. Dünya miqyasında biz xarici borcun səviyyəsinə görə müsbət mənada qabaqcıl ölkələrdənik. Ancaq mən qarşıya vəzifə qoymuşam, çalışmalıyıq ki, bundan sonra xarici borcu artırmayaq, əksinə, bunu azaldaq.

Valyuta ehtiyatlarımızın artırılması bizə iqtisadi müstəqillik verir. Qeyd etdiyim kimi, biz özümüz kreditlər veririk və xarici kreditləşmədən asılı deyilik. Hətta neftin qiymətinin çox aşağı səviyyədə olduğu bir vaxtda biz ölkə üçün strateji əhəmiyyət daşıyan Cənub Qaz Dəhlizinin maliyyələşməsində heç bir yubanmaya yol vermədik və demək olar ki, bu layihə artıq başa çatmaq üzrədir. Odur ki, valyuta ehtiyatlarımızın yüksək səviyyədə olması iqtisadi



müstəqilliyi gücləndirir. Bu da öz növbəsində bizim siyasi müstəqilliyimizi möhkəmləndirir.

Azərbaycan bu gün dünya miqyasında müstəqil siyasət aparan ölkələrdən biridir. Belə ölkələrin sayı çox deyil, xüsusilə əhali və ərazi baxımından böyük olmayan ölkələrə bu, o qədər də xas deyil. Biz isə müstəqillik yolu ilə gedirik və azad, müstəqil həyatımız bizim üçün hər şeydən üstündür. Ona görə iqtisadi potensialımız, sadəcə olaraq, bizə iqtisadi məsələlərin həlli üçün lazım deyil. Bizim iqtisadi potensialımız siyasi gücümüzü artırır, bölgədəki vəziyyətimizi möhkəmləndirir, imkan verir ki, ölkəmizin uzunmüddətli strategiyasını düzgün müəyyənləşdirək və onu icra edək. "Cənub Qaz Dəhlizi", Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, "Şimal-Cənub" layihələrinin və digər önəmli layihələrin maliyyələşməsində əlbəttə ki, bizim iqtisadi gücümüz əsas rol oynamışdır. Biz önəmli strateji layihələrin icrası üçün xarici kreditlər də almışıq. Ancaq əgər bizim çox möhkəm iqtisadi vəziyyətimiz olmasaydı, bu kreditləri ala bilməzdik. Biz yaxşı xatırlayırıq ki, pulumuz olmayanda bizə kredit vermək istəyənlərin sayı çox deyildi, demək olar ki, yox idi. Elə ki, biz iqtisadi cəhətdən gücləndik, Neft Fondunun vəsaiti artmağa başladı, ondan sonra bizə kredit vermək istəyənlərin sayı çoxaldı və biz artıq bu seçimi edirik.

Bir sözlə, xarici borcumuzun səviyyəsi aşağı düşməlidir. Builki büdcəmizdə xarici borcun qaytarılması üçün vəsait nəzərdə tutulub. Əsas vəzifə ondan ibarətdir ki, biz o qədər də vacib olmayan layihələrə xarici borc götürməyək. Biz ancaq texnoloji cəhətdən önəmli layihələrə xarici borc götürməliyik. Yoxsa, hansısa binanın tikintisinə, yaxud da ki, daxili imkanlar hesabına edə biləcəyimiz digər layihəyə xaricdən kredit almaq düzgün deyil.

Əminəm ki, bu il sərmayə qoyuluşu əvvəlki ilin səviyyəsində olacaq. Qeyd etdiyim kimi, keçən il 14,6 milyard dollar sərmayə qoyulub. Əlbəttə ki, ilin əvvəlində dəqiq proqnoz vermək çətindir. Ancaq biz hesablamalar aparmışıq və təxminən 15 milyard dollar səviyyəsində sərmayə qoyuluşu gözlənilir. Bu rəqəm arta da bilər və biz çalışmalıyıq ki, bu, artsın. Çünki Azərbaycan bu gün dünya miqyasında sərmayə qoyuluşu üçün çox cəlbedici ölkəyə çevrilibdir. Həm iqtisadi sabitlik, valyuta ehtiyatlarımız, siyasi sabitlik və Azərbaycanda həyata keçirilən önəmli layihələrin kommersiya cəlbediciliyi xarici sərmayənin cəlb edilməsində bizə kömək göstərəcəkdir.

Qeyri-neft sektorunun inkişafı daim diqqət mərkəzindədir. Mən bu barədə dəfələrlə danışmışam və praktiki addımlar atılır. Sahibkarlara dövlət tərəfindən güzəştli kreditlərin verilməsi bu il davam etdiriləcək. Bu məqsədlər üçün 170 milyon manat kredit resursu təmin ediləcək. Sevindirici hal ondan ibarətdir ki, bu vəsait vaxtilə verilmiş və qaytarılmış kreditlər hesabına təkrar veriləcəkdir. Bu, ilk növbədə onu göstərir ki, dövlətdən kredit alan sahibkarlar öz məsuliyyətlərini dərk edirlər və bu kreditləri qaytarırlar. Digər tərəfdən, onu göstərir ki, vaxtilə Sahibkarlığa Kömək Milli Fonduna dövlət büdcəsindən ayrılmış vəsait işləyir. Büdcədən heç bir xərc etmədən bu il sahibkarlara güzəştli şərtlərlə 170 milyon manat kredit veriləcək. Baxarıq, əgər layihələrin sayı çoxalarsa, biz bu məbləği prinsipcə artıra bilərik. Çünki bu, sahibkarlığın, regionların inkişafı üçün çox önəmli bir vasitədir və kreditlərin mütləq əksəriyyəti bölgələrə, iqtisadiyyatın real sektoruna verilir.

Yeni iş yerlərinin yaradılması istiqamətində işlər davam etdiriləcək. Qeyd etdiyim kimi, ötən il bu sahədə çox əlamətdar il olmuşdur. Ancaq bu, daimi proses olmalıdır. Çünki bəzi ölkələrdən fərqli olaraq Azərbaycanda əhali artır. Bu da çox müsbət haldır və eyni zamanda, ölkəmizdə gedən uğurlu proseslərin təzahürüdür. Çünki əhalinin artımı onu deməyə əsas verir ki, ölkə düzgün istiqamətdə inkişaf edir. Yəni, Azərbaycanda demoqrafik vəziyyət çox müsbətdir. Bu, bizim potensialımızı gücləndirir, eyni zamanda, daim qarşımızda vəzifələr – ilk növbədə, infrastrukturla, sosial infrastrukturla və iş yerlərinin yaradılması ilə bağlı vəzifələr qoyur. Əhali artdıqca məktəblərin, uşaq bağçalarının sayı da artmalıdır. Bu məqsədlər üçün yeni yerlər müəyyən edilməlidir, yol infrastrukturu genişləndirilməlidir, digər kommunikasiyalar – su, qaz, elektrik xətləri çəkilməlidir. Bax, deməli, demoqrafik artımın əlamətləri bundan ibarətdir. Bu da əlavə xərc tələb edir. Dövlət büdcəsindən infrastruktur layihələrinə qoyulan xərclər daim artır.

Mən giriş sözümdə qeyd etdim ki, keçən il biz nə qədər böyük işlər görmüşük. Ona görə yeni iş yerlərinin yaradılması daimi proses olmalıdır. 2004-cü ildən bu günə qədər iki milyona yaxın yeni iş yeri açılmışdır. Amma baxın, əhali də nə qədər artmışdır. Bu gün Azərbaycan əhalisi 10 milyona yaxınlaşır. Bizim əhalimiz sovet dövrünün son mərhələsində 7 milyon, bəlkə də ondan bir qədər çox idi. Görün, müstəqillik illərində əhalimiz nə qədər artıb. Bu, bizim böyük gücümüzdür, gücümüzü artırır, eyni zamanda, qarşımızda vəzifələr qoyur. Ona görə bu il də yeni iş yerlərinin yaradılması ilə bağlı addımlar atılacaq. İqtisadi sahəyə, sənaye potensialımızın, kənd təsərrüfatının inkişafına göstərilən dəstək və əldə edilən nəticələr deməyə əsas verir ki, yeni iş yerlərinin yaradılması prosesi bu il də sürətlə gedəcək.

İctimai işlərin yaradılması öz müsbət nəticəsini vermişdir. Biz bu işə iki il bundan əvvəl başladıq, buna ehtiyac var idi. Çünki işsizlik artmağa başlamışdı. Dünya iqtisadi və maliyyə böhranı bizə də təsir etmişdi. İşsizliyin qabağını almaq üçün biz ictimai işlərin yaradılmasına başladıq və operativ tədbirlər nəticəsində il ərzində on minlərlə ictimai iş yaradılmışdır. İndi ictimai işlərə tələbat o qədər də böyük deyil. Bölgələrdə olarkən maraqlanıram və mənə məlumat verilir ki, indi kənd təsərrüfatına bu qədər dəstəyin verildiyi bir vaxtda vətəndaşlar – yəni, kəndlilər daha çox kənd təsərrüfatı işləri ilə məşğuldurlar, orada daha çox pul qazanırlar. Ona görə, ictimai işlərə maraq azalıb. Amma yenə bu il də ictimai işlərin yaradılması istiqamətində iş aparılacaqdır ki, Azərbaycanda işsizlik daim aşağı səviyyədə olsun.

Bu yaxınlarda başladığımız özünüməşğulluq proqramının da uğurlu icrası gözlənilir. Bu məqsədlər üçün 35 milyon manat vəsait nəzərdə tutulub və bu, təqribən 7 min ailənin büdcəsinə böyük dəstək olacaq. Özünüməşğulluq proqramının çox böyük gələcəyi var və biz bu proqramın icrası ilə bağlı əlavə tədbirlər görəcəyik. Bu, işsizliyin aradan qaldırılması istiqamətində önəmli təşəbbüsdür. Eyni zamanda, ünvanlı sosial yardım alanların sayı da çoxalmayacaq, azalacaq. Bu yardımı alanlar artıq dövlət tərəfindən biznes üçün lazım olan vasitələrlə təmin ediləcəklər.

Bu il yeni köçkün şəhərcikləri, qəsəbələri salınacaq. Bu il yeni mənzillərlə təmin ediləcək köçkünlərin sayı keçən illə müqayisədə təxminən iki dəfə artacaq. Əgər 2017-ci ildə 12 min insanı biz yeni mənzillərə, evlərə köçürmüşüksə, bu il ən azı 20 min köçkün yeni evlərə, mənzillərə köçürülməlidir. Bu rəqəm çox da ola bilər.

Sosial infrastruktur layihələrinin icrası ilə bağlı dövlət investisiya proqramında kifayət qədər vəsait var. Mən bəzi rəqəmləri səsləndirmək istəyirəm. Bölgələrdə modul tipli 137 məktəb tikiləcək. Beləliklə, hesab edirəm ki, bu məktəblər tikiləndən sonra ölkəmizdə qəzalı məktəb qalmamalıdır. Yüzlərlə məktəbdə təmir işləri aparılacaq. Bakı şəhərində isə 12 məktəb əsaslı təmir ediləcək. Bununla da Bakı şəhərində təmirsiz məktəb qalmamalıdır. Biz bu proqramı da başa çatdırmalıyıq. Altı şəhərdə yeni mərkəzi rayon xəstəxanası istifadəyə veriləcək. Qazax, Qobustan, Şəmkir, Quba, Naftalan və Goranboy şəhərlərində xəstəxanalar açılacaq, Xırdalan, Qəbələ şəhərlərində və Füzuli rayonunda müasir

xəstəxanaların tikintisi davam etdiriləcək. Dörd Olimpiya İdman Kompleksinin tikintisi nəzərdə tutulur. Onlardan ikisi bu il istifadəyə verilməlidir.

Sənaye parklarının yaradılması istiqamətində praktiki addımlar atılır. Keçən il Neftçala Sənaye Məhəlləsi istifadəyə verilib. Hacıqabul, Masallı və Sabirabad sənaye məhəllələrinin yaradılması prosesi davam etdirilir.

Mingəçevirdə Yüngül Sənaye Parkının ilk fabriklərinin açılışı bu il gözlənilir. Sumqayıt Kimya Sənaye Parkında isə işlər çox uğurla gedir. Keçən ilin sonunda dörd yeni müəssisənin açılışı oldu və üç müəssisənin təməli qoyuldu. Əminəm ki, onların istifadəyə verilməsi bu il, ya da ki, gələn ilin əvvəllərində nəzərdə tutulacaq. Beləliklə, Sumqayıt Kimya Sənaye Parkının rezidentlərinin sayı 15-ə çatıb və qoyulan, qoyulacaq sərmayənin həcmi 2,7 milyard dollara bərabərdir. Bax, bu təşəbbüs görün nə qədər gözəl nəticə verir. 2,7 milyard dollar sərmayə qoyuluşu böyük rəqəmdir. Halbuki Sumqayıt Kimya Sənaye Parkının ərazisində hələ iki-üç il bundan əvvəl dağılmış binalar, çürümüş borular, infrastruktur – hamısı bərbad vəziyyətdə idi. Dövlət bu yükü öz üzərinə götürdü, vəsait ayırdı və bütün lazım olan infrastrukturu yaratdı. Digər sənaye parklarımızda da bu işi dövlət öz üzərinə götürür və götürməlidir. O cümlədən dövlət kənd təsərrüfatı ilə bağlı olan işləri – infrastruktur işlərini, meliorativ tədbirləri, kanalların çəkilməsini, suyun sahələrə verilməsini öz üzərinə götürür. Deyə bilərəm ki, bu da dünya praktikasında çox nadir hallarda rast gəlinən məsələdir. Çünki bir çox ölkələrdə sahibkarlar özləri bu işləri görürlər.

Əminəm ki, 2018-ci il də sənaye inkişafı ilə bağlı əlamətdar il olacaq. On yeni xalça fabrikinin açılışı nəzərdə tutulur. Beləliklə, ilin sonuna qədər xalça fabriklərinin sayı 20-yə çatmalıdır. Bu da minlərlə iş yeri deməkdir. Xüsusilə bu fabriklərdə işləyənlər qadınlardır. Bu, qadınlar üçün yaradılan gözəl iş yerləridir ki, onlar öz biliyini, istedadını orada əks etdirə bilirlər və özləri üçün də, ölkəmiz üçün də yaxşı maliyyə imkanları yaradırlar. Onların məhsulları ixrac potensialımız, Azərbaycan xalçasının dünyada təbliği üçün gözəl imkanlar yaradır. Ona görə, bu il on yeni fabrikin açılışı nəzərdə tutulur.

Əminəm ki, 2018-ci il də kənd təsərrüfatının inkişafı üçün uğurlu olacaqdır. Keçən il kənd təsərrüfatı 4,1 faiz artıbdır. Bu, yaxşı göstəricidir. Biz həm ərzaq təhlükəsizliyi məsələlərini həll edirik, həm də kənd təsərrüfatının bizim üçün ənənəvi olan texniki sahəsini inkişaf etdiririk. Qeyd etməliyəm ki, Davos Ümumdünya İqtisadi Forumu da ərzaq təhlükəsizliyi ilə bağlı hesablama aparıb. Ərzaq təhlükəsizliyi indeksinə görə Azərbaycan 57-ci yerdədir. Bu, yaxşı göstəricidir. Ərzaq təhlükəsizliyi ilə, xüsusilə taxılçılıqla bağlı əlavə tədbirlər görüləcək ki, biz keçən il olduğu kimi, bu il də idxaldan asılılığı azaldaq və ixracyönümlü məhsulların həcmi artsın.

Keçən il bölgələrdə pambıqçılıq, baramaçılıq, fındıqçılıq, tütünçülük, çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə müşavirələr keçirilmişdir, bir neçə dövlət proqramı qəbul edilmişdir. Biz görürük ki, bu sahələrdə çox böyük inkişaf var. Bu sahələrə göstərilən diqqət həm iş yerlərinin yaradılmasına gətirib çıxarır, həm də ixrac potensialımızı artırır. Misal üçün, 2017-ci ildə 207 min ton, 2016-cı ildə 89 min ton, 2015-ci ildə isə 35 min ton pambıq yığılıbdır. Yəni, biz iki il ərzində pambıq istehsalını demək olar ki, səkkiz dəfə artırmışıq və 200 minə yaxın insan pambıqçılıq sahəsində çalışır, pul qazanır.

Baramaçılıq. 2015-ci ildə 200 kiloqram, 2016-cı ildə 70 ton, 2017-ci ildə 245 ton barama tədarük edilibdir. Bu da kümçülərin sosial vəziyyətinin yaxşılaşdırılmasına xidmət göstərir. Bu il bu rəqəm 450-500 tona çatmalıdır və biz ipəkçiliyin şöhrətini bərpa edəcəyik.

Keçən il 18 min hektarda fındıq bağları salınıb. Beləliklə, fındıq bağlarının sahəsi 55 min hektara çatıb və bizim hədəfimiz 80 min hektara çatdırmaqdır. Fındıqçılıq kənd təsərrüfatının inkişafı və ixrac imkanlarımızın genişləndirilməsi üçün önəmli yer tutacaq. Bu gün ixrac edilən kənd təsərrüfatı məhsulları arasında fındıqçılıq ikinci yerdədir. Fermerlər bu məhsulun ixracından 100 milyon dollardan çox vəsait əldə ediblər. Birinci yerdə pomidor ixracıdır. Bu sahəyə də çox böyük maraq və tələbat var. Keçən il 140 milyon dollar dəyərində pomidor ixrac edilibdir. İndi ölkəmizdə 400 hektardan böyük bir sahədə yeni istixana komplekslərinin yaradıldığını nəzərə alsaq, təsəvvür etmək olar ki, bizdə tərəvəz ixracı nə qədər artacaq. Çünki biz özümüzü tərəvəzlə çoxdan təmin etmişik.

Tütünçülüyə göstərilən diqqət öz bəhrəsini verir. Əgər 2016-cı ildə 3500 ton tütün tədarük olunmuşdusa, keçən il bu rəqəm 5200 tona çatıb. Bu il də bir çox önəmli tədbirlər görüləcək, qurutma kameraları alınacaq və fermerlərə əlavə dəstək veriləcək. Biz tütünçülüyün bərpasına çox yaxınıq və gələcəkdə tütünü nəinki xammal kimi, hazır məhsul – siqaret şəklində ixrac etməliyik.

Digər sahələrdə – sitrusçuluq, çayçılıq, çəltikçilik sahələrində də inkişaf var. Heyvandarlığa çox böyük diqqət göstərilir və bu il ölkəmizə minlərlə baş cins mal-qara gətiriləcək. Bilirəm ki, 40-dan çox aqroparkın arasında heyvandarlıq arqoparkları da önəmli yer tutur. Beləliklə, əminəm ki, biz yaxın gələcəkdə özümüzü ət və süd məhsulları ilə tam şəkildə təmin edəcəyik.

Yeni kənd təsərrüfatı texnikasının alınması üçün 160 milyon manat vəsait nəzərdə tutulubdur. Burada əsasən taxılbiçən, pambıqyığan kombaynlar, traktorlar, qoşqular, digər avadanlıq nəzərdə tutulur. Keçən il isə ölkəmizə 10 min kənd təsərrüfatı texnikası gətirilib. Dövlət vəsait ayırır, texnika gətirir, lizinq yolu ilə fermerlərə verir. Yəni, kənd təsərrüfatı dövlətin dəstəyi olmadan inkişaf edə bilməz. Bunu hamı bilməlidir. Əlbəttə ki, rentabellilik olmalıdır. Bəzi sahələr rentabelli sahələrdir, bəzi sahələr subsidiya hesabına yaşamalıdır. Bu, inkişaf etmiş ölkələrdə də belədir. Orada da subsidiyalar var, orada da dövlət fermerləri dəstəkləyir ki, ərzaq təhlükəsizliyi təmin edilsin, iş yerləri yaradılsın. Biz də bu yolla gedirik. Ona görə əgər hansısa kənd təsərrüfatı sahəsində istehsal o qədər də rentabelli deyilsə, bu, böyük faciə deyil, bundan faciə düzəltmək lazım deyil. Dövlət ilkin mərhələdə öz dəstəyini göstərir, bundan sonra hər şey yoluna düşəcək. Necə ki, biz indi kənd təsərrüfatının istehsalında bu artımı görürük. Əgər dövlət lazım olan vaxtda öz dəstəyini göstərməsəydi, bu gün kənd təsərrüfatında 4,1 faiz artımdan söhbət belə gedə bilməzdi və əksinə, bəlkə də bu sahə tənəzzülə uğrayardı. Biz indi meliorativ tədbirlər də görürük. Biz unudulmuş sahələri də bərpa edirik, o cümlədən zeytunçuluğu. Bu il minlərlə hektarda zeytun bağları salınacaq. Arıçılığın da çox böyük ixrac potensialı var. Azərbaycan dünya miqyasında arıçılıq, bal istehsalı sahəsində önəmli yer tuta bilər, müvafiq göstərişlər verilib. Əminəm ki, 2018-ci ildə yaxşı nəticələr olacaqdır.

Biz keçən il dörd ticarət nümayəndəliyi yaratmışıq, müxtəlif ölkələrə bir çox ixrac missiyaları göndərilibdir. Bunun da müsbət təsiri var. Bu ticarət nümayəndəliklərinin nəticələri elə olmalıdır ki, bizim ixracımız artsın. Bu missiyaların fəaliyyəti o ölkələrə, yaxud da ki, bölgələrə ixracın həcmindən asılı olacaqdır. Ona görə, bu məsələyə çox ciddi yanaşmaq lazımdır. Bu ticarət missiyalarının yaradılması o məqsədi güdür ki, həmin ölkələrə və bölgələrə ixracımız artsın.

Bu il üç “ASAN xidmət” mərkəzi fəaliyyətə başlayacaq – Mingəçevir, İmişli və Şəki şəhərində. Beləliklə, “ASAN xidmət” mərkəzlərinin sayı 15-ə çatacaq. Eyni zamanda, mən göstəriş vermişəm ki, bu il beş şəhərdə “ASAN xidmət” mərkəzinin tikintisinə başlanılsın. Onlar yəqin ki, 2019-cu ildə istifadəyə veriləcək. Beləliklə, bir ildən sonra bizim 20 “ASAN xidmət” mərkəzimiz olacaq. Bu günə qədər “ASAN xidmət” mərkəzlərinə 20 milyona yaxın müraciət daxil olub. “ASAN xidmət” ictimai xidmət sahəsində çox ciddi dönüş yaratmışdır.

Turizmin inkişafı ilə bağlı bu il də əlavə tədbirlər görüləcək. 2016-cı ildə xarici turistlərin gəlişi 24 faiz artmışdır, keçən il isə əlavə daha 20 faiz artım olmuşdur və rekord səviyyəyə çatmışdır. Ölkəmizə 2,7 milyon xarici vətəndaş gəlmişdir. Bu, çox müsbət haldır. Bunun səbəbləri var, – əlbəttə, mən bu barədə dəfələrlə danışmışam, – həm sabitlik, təhlükəsizlik, qonaqpərvərlik, müasir infrastruktur, tarixi abidələrimiz və turizm sahəsinə göstərilən dövlət dəstəyi və əminəm ki, eyni zamanda, beynəlxalq tədbirlər, beynəlxalq yarışlar turistləri ölkəmizə cəlb edir. Sevindirici hal ondan ibarətdir ki, keçən il turistlər bank kartları ilə 70 faiz çox pul xərcləmişlər. Turistlərin sayı cəmi 20 faiz artmışdır, amma xərclənən pul 70 faiz artmışdır. Bu da çox müsbət haldır. Turizm də ixracın bir növüdür, çünki turizm ölkəyə valyuta gətirir.

Qeyd etdiyim kimi, Cənub Qaz Dəhlizi ilə bağlı önəmli hadisələr gözlənilir. TANAP layihəsinin istifadəyə verilməsi gözlənilir. Nəqliyyat sahəsində Ələt Dəniz Ticarət Limanının birinci mərhələsinin başa çatması nəzərdə tutulur. Mən dünən limanda olmuşam. Biz Ro-Ro terminalının açılışını qeyd etdik. Orada işlərin böyük əksəriyyəti demək olar ki, görülüb. Liman indi fəaliyyət göstərir. Əminəm ki, liman bu ilin birinci yarısında istifadəyə veriləcək. Beləliklə, Azərbaycan Xəzər hövzəsində ən böyük dəniz ticarət limanına sahib olacaq. Bu limanın birinci mərhələdə yükaşırma qabiliyyəti 15 milyon ton yük və 100 min konteynerdir. Gələcəkdə tələbat artdıqca biz qısa müddət ərzində və o qədər də böyük olmayan vəsaitlə limanı 50 faiz, 70 faiz genişləndirə bilərik.

Bu il Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyəti üçün çox önəmli il olacaq. Demək olar ki, Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyətinin birinci ili olacaq. Mən qeyd etmişəm ki, bu yola böyük maraq var və artıq Bakı-Tbilisi-Qars Avrasiyanın nəqliyyat xəritəsini təzələyib və Azərbaycan bu sahəyə öz töhfəsini verib.

Mən giriş sözümdə qeyd etdiyim kimi, Azərbaycan ərazisində Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı bütün işlər görülüb. Ancaq biz böyük yüklər gözləyirik ki, bu yolla daşınacaq. Ona görə, mövcud olan dəmir yolu daha da yaxşı vəziyyətə gətirilməlidir. Yəni, dəmir yolunun sürəti artmalıdır. Bu məqsədlə biz Bakı-Yalama və Bakı-Astara dəmir yolunun tədricən yenidən qurulması, təmiri ilə bağlı işlər görməliyik. Bu ilin investisiya proqramında Bakı-Yalama dəmir yolunun təmiri, yenidən qurulması məsələsi əksini tapıb. Bunu biz başlayırıq. Eyni zamanda, Bakı-Astara dəmir yolunun xüsusilə dənizə yaxın olan hissəsinin köçürülməsi məsələsi də öz

həllini tapacaq. Yəni, texniki-iqtisadi əsaslandırma hazırlanmalıdır. Bunun həm turizm üçün böyük əhəmiyyəti olacaq, çünki sahilin böyük hissəsi indi dəmir yolu infrastrukturu ilə zəbt edilib, eyni zamanda, mövcud yolla istədiyimiz qədər yükləri daşımaq mümkün olmayacaq. Bu, önəmli layihədir. Turizmin inkişafı üçün bir layihəni də biz dövlət investisiya proqramına salmışıq. Bu da Ləki-Qəbələ dəmir yolunun tikintisidir. Beləliklə, Qəbələ şəhərinə dəmir yolunun çəkilişi təmin ediləcək. Bu gün Qəbələ Bakıdan sonra Azərbaycanda ikinci turizm mərkəzidir. Əlbəttə ki, dəmir yolunun Qəbələyə çatdırılması turistlərin axınını daha da sürətləndirəcək.

Növbəti illərdə Şahdağ xizək kurortuna da dəmir yolunun çəkilişini təmin etmək bizim planlarımızdadır. Bu layihəni biz əlbəttə ki, Bakı-Yalama dəmir yolu ilə uzlaşdırmalıyıq. Çünki Şahdağa dəmir yolu ilə getmək üçün gərək o sürətli yol olsun. İndi Bakı-Yalama yolu o vəziyyətdə deyil ki, orada sürətli qatar işləyə bilsin. Bakı-Yalama yolu ilə Qusar rayonuna gedən dəmir yolu bir layihədə öz həllini tapacaq. Bu da bizim planlarımızda var. Ona görə, istərdim ki, Azərbaycan ictimaiyyəti bunu bilsin.

Bu il iki min kilometrdən çox avtomobil yolu çəkilməlidir. Keçən illə müqayisədə bu, təxminən iki dəfə çoxdur. Ən azı altı yüz yeni kəndə avtomobil yolu çəkilməlidir.

Ümumiyyətlə, demək istəyirəm ki, bu layihələr daxil olmaq şərtilə 2004-cü ildən bu ilin sonuna qədər Azərbaycanda 15 min kilometr avtomobil yolunun tikintisi təmin ediləcək. Bu, çox böyük rəqəmdir.

Bu il bölgələrdə qazlaşdırma işlərinin aparılması üçün Dövlət Neft Şirkətinə dövlət büdcəsindən təxminən 100 milyon manat vəsait ayrılacaq. İstəyirəm ictimaiyyət onu bilsin ki, dövlət bu sahədə öz maliyyə imkanlarını təmin edir. Əlbəttə ki, Dövlət Neft Şirkəti özü pul qazanır. Ancaq bu önəmli strateji sosial layihələrə dövlət öz dəstəyini göstərir və ayrılan bu vəsait nəticəsində Azərbaycanda ilin sonuna qədər qazlaşdırmanın səviyyəsi 95 faizə çatmalıdır.

Digər infrastruktur layihələri haqqında da demək istərdim. Bu da suvarma ilə bağlı olan layihələrdir. Bu il 100 min hektardan çox yeni sahələrin su təminatı təşkil edilməlidir. Yerlər müəyyənləşdirilib, layihələr demək olar ki, təsdiqlənib, yeni kanallar çəkiləcək. Beləliklə, kənd təsərrüfatı üçün yeni imkanlar yaranacaq.

Mənim bölgələrə səfərlərim çərçivəsində ictimaiyyət tərəfindən qaldırılan məsələlərdən biri də suvarma ilə bağlı olan problemlərdir. Vətəndaşlar tərəfindən qaldırılmış bütün təkliflər dövlət investisiya proqramında nəzərə alınıb. Ona görə, bu il bu günə qədər suvarılmayan ən azı yüz min hektar torpaqlara su gətiriləcəkdir. Bu il ən azı 300 subartezian quyusu qazılacaq. Hər il 300 quyu qazırıq və bu il də 300 nəzərdə tutulub, çox da ola bilər.

Bunlar görüləcək əsas işlərdir. Əlbəttə ki, görüləcək bütün işləri bu gün sadalamaq mümkün deyil, çox vaxt lazımdır. Amma qarşımızda duran əsas vəzifələr bundan ibarətdir. Bütün bu vəzifələri təmin etmək üçün bizdə texniki imkanlar var. Biz Azərbaycanda uzun illər daxili istehsalın artırılması ilə bağlı çox ciddi məşğuluq. Bizim tikinti materiallarımız və maliyyə imkanlarımız var. Dövlət büdcəmiz 3 milyard manat çox artmışdır. Siyasi iradəmiz var. Ona görə, dediyim bu vəzifələr minimum proqramdır. Ən azı bunlar görüləcək. Prinsipcə görüləcək işlər bundan daha çoxdur. Əminəm ki, 2018-ci il də ölkəmiz üçün uğurlu olacaq.

Bu il biz müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq. Ancaq onu da qeyd etməliyəm ki, indiki Azərbaycan Azərbaycan Xalq Cümhuriyyəti ilə müqayisə edilə bilməz. Çünki o vaxt çətinliklər də olub, müstəqilliyimiz tam imkan vermirdi ki, Azərbaycan müstəqil siyasət aparsın. İqtisadi çətinliklərimiz olub, torpaq itkilərimiz də olub və bizim tarixi şəhərimiz olan İrəvan Ermənistana verilmişdir. Ona görə, biz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini çox düzgün təhlil etməliyik. Bu müsbət və çətin məqamları gizlətməməliyik. Amma bütün çətinliklərə və əlbəttə ki, bizim üçün sağalmayan yara olan İrəvanın Ermənistana verilməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini Azərbaycan dövləti və xalqı yüksək qiymətləndirir.

Bunu nəzərə alaraq mən 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edirəm. İl ərzində həm ölkəmizdə, həm xaricdə bununla əlaqədar bir çox tədbirlər keçiriləcəkdir. Sağ olun.

# Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər**



Qanlı Yanvar hadisələrindən 28 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 28 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə



ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlığından və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına çıxaraq buna qəti etirazını bildirən xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməyən faciəyə səbəb oldu. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlıq əleyhinə törədilən ən ağır cinayətlərdən biri kimi bəşər tarixinə yazıldı. Böyük itkilər, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi mərkəzi hakimiyyət başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini və məğrurluğunu nümayiş etdirdi.

20 Yanvar Azərbaycan xalqının tarixində sadəcə ağrı və acı ilə xatırlanacaq gün deyil. 20 Yanvar Azərbaycan xalqının şan və şərəf günüdür. Xalq həmin gün üstünə şığıyan dəhşətli kabusa, sovet hərbçilərinin qorxunc qaragüruhuna qarşı sinəsini sipər etməyi, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı pozulan hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə sahibdir.

Təəssüf ki, həm SSRİ, həm də o vaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olduğundan nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə bu vəhşiliyi gizlətmək üçün əlindən gələni etdi. 20 Yanvar faciəsindən bir gün sonra ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək xalqımızın kədərini bölüşməsi və qırmızı rejimin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə – azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Bu, keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra – 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar – Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

***

Yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldilər.

Dövlətimizin başçısı “Əbədi məşəl” abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının dövlət himni səsləndi.

***

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etdilər.

***

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Milli Məclisin sədri Oqtay Əsədov və Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak ediblər.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

# 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında

Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl – 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirmiş, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçirmişlər.

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti ermənilərin törətdikləri ağır cinayətlərin araşdırılması üçün Fövqəladə İstintaq Komissiyası yaratmış, komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görmüşdür. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılmış, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınmışdır. Yalnız 80 il sonra – 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilmiş və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir.

Ötən 20 il ərzində aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanmış, Quba şəhərində kütləvi məzarlıq aşkar olunmuşdur. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyası 1918-ci il azərbaycanlıların soyqırımının yüzüncü ildönümünə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsini təmin etsin.

**2.** Azərbaycan Respublikasının Milli Məclisinə soyqırımın 100 illiyi ilə bağlı xüsusi iclasın keçirilməsi tövsiyə edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 yanvar 2018-ci il.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

# Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq **qərara alıram:**

**1.** Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri elan edilsin.

**2.** Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin 2018-ci il aprelin 11-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 fevral 2018-ci il.

# Yeni Azərbaycan Partiyasının VI qurultayı keçirilib

**Bakıda Yeni Azərbaycan Partiyasının VI qurultayı keçirilib. Yeni Azərbaycan Partiyasının VI qurultayı aprelin 11-də keçiriləcək prezident seçkilərində partiyanın sədri, Prezident İlham Əliyevin namizədliyini irəli sürüb**

Fevralın 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) VI qurultayı keçirilib.

YAP-ın 700 mindən çox üzvünü təmsil edən nümayəndələrin iştirak etdikləri qurultayda partiyanın sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söylədi.

## Partiyanın sədri, Prezident İlham Əliyevin nitqi




– Hörmətli Yeni Azərbaycan Partiyasının üzvləri, əziz dostlar.

Bu gün partiyamızın qurultayı keçirilir. Qurultay ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisədir. Çünki Yeni Azərbaycan Partiyası ölkəmizdə aparıcı siyasi qüvvədir. Partiyamızın ideyaları, siyasəti xalq tərəfindən dəstəklənir. Partiyamızın sıraları genişlənir, 700 mindən çox üzvümüz var və çox sevindirici hal ondan ibarətdir ki, gənclər partiyaya üz tuturlar. Gənclərin axını partiyamızın gələcək inkişafı üçün də əsas şərtlərdən biridir.

Keçən ilin noyabrında biz partiyamızın 25 illik yubileyini qeyd etmişik. Bu 25 il ərzində partiyamız uğurlu və şərəfli yol keçmişdir. Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanmışdır və bu 25 il qələbələr salnaməsidir. 1992-ci ildə ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvan şəhərində keçirilmiş partiyamızın təsis konfransı tarixi hadisə idi və 25 ildən sonra biz bunu əyani şəkildə ölkəmizdə mövcud olan vəziyyətdə, əldə etdiyimiz uğurlarda görürük. O vaxt partiyamızın yaradılması dönüş nöqtəsi idi. Əgər o vaxt bu partiyamız yaradılmasaydı, bilmək olmazdı ölkə hansı istiqamətdə inkişaf edəcəkdi. Çünki o vaxt ölkəmizin qarşısında çox ciddi problemlər durmuşdu. Demək olar ki, Azərbaycan, onun gənc müstəqilliyi təhlükə altında idi. O vaxt hakimiyyəti 1992-ci ildə qanunsuz şəkildə zəbt etmiş AXC-Müsavat cütlüyü ölkəmizi uçuruma aparırdı. Azərbaycanda iqtisadi tənəzzül, sənayenin iflic vəziyyətə düşməsi, siyasi, iqtisadi, ondan sonra da hərbi böhran demək olar ki, müstəqilliyimizi şübhə altına alırdı. Belə bir vəziyyətdə Azərbaycan xalqı öz Liderinə üz tutdu və partiyamızın yaradılması, əlbəttə ki, burada həlledici rol oynamışdır. Onu da biz yaxşı xatırlayırıq və əlbəttə partiya üzvləri bunu bilir, Azərbaycan ictimaiyyəti də bilir ki, o vaxt hakimiyyəti qanunsuz

şəkildə zəbt etmiş hakimiyyət imkan verməmişdi ki, partiyamızın qurultayı Bakıda keçirilsin. Fəallar, vətənpərvər insanlar Naxçıvana gəlmiş və Heydər Əliyevin sədrliyi ilə partiyamızın yaradılması haqqında bəyanat verilmişdir. Ondan bir neçə ay sonra xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəldi və ölkəmiz inkişaf yoluna qədəm qoydu. AXC-Müsavat cütlüyü tərəfindən başlanmış vətəndaş müharibəsi dayandırıldı, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, qayda-qanun yaradıldı, milli vətəndaş həmrəyliyi üçün əsas yaradıldı, azərbaycançılıq ideologiyası bəyan edildi və bu gün də bizim əsas ideoloji dayağımızdır. Ölkə Konstitusiyası qəbul edildi, iqtisadiyyatda, siyasi sahədə ciddi islahatlara start verildi, Azərbaycan beynəlxalq təcriddən çıxa bildi və ölkə ilə bağlı həqiqətlər dünya birliyinə çatdırıldı. Bir sözlə, 1993-cü ildən başlayaraq Azərbaycan uğurlu inkişaf yolu ilə gedir və inkişaf üçün əsas şərt – sabitlik tam bərqərar olmuşdur. Çünki sabitlik olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Məhz o illərdə – Ulu Öndər hakimiyyətə gələndən bir il sonra "Əsrin kontraktı" imzalanmışdır. Bu, bu gün də və gələcək illərdə də ölkə iqtisadiyyatı üçün müstəsna rol oynayan kontraktdır. Keçən ilin sentyabrında Ulu Öndərin adını daşıyan bu möhtəşəm Heydər Əliyev Mərkəzində kontraktın 2050-ci ilə qədər uzadılması haqqında qərar verildi. Görün, bu kontraktın nə qədər böyük əhəmiyyəti var ki, artıq yarım əsrdən çox müddətdə Azərbaycan xalqına xidmət edəcəkdir.

Azərbaycana investisiyalar qoyulmağa və ölkəmiz sürətlə inkişaf etməyə başlamışdır. 2003-cü ildən sonra da Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir. 2003-cü ildə prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Şadam ki, Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşir və ölkəmiz uğurla inkişaf edir.

2003-cü ildən bu günə qədər keçən dövr haqqında geniş danışmaq istəmirəm. Mən müntəzəm olaraq həm görülmüş işlərlə və həm də planlarla bağlı Azərbaycan ictimaiyyətinə məlumatlar verirəm. Sadəcə onu demək istəyirəm ki, bu illər Azərbaycanda sürətli inkişaf dövrü olmuşdur və Azərbaycan dünyada analoqu olmayan iqtisadi templərlə inkişaf etmişdir. Ölkə qarşısında duran bütün vəzifələr icra edilmişdir, 2003-cü ildə və ondan sonrakı illərdə verilmiş bütün vədlər həyatda öz əksini tapmışdır.

Bu gün mən gələcək planlar, gələcəklə bağlı fikirlər haqqında öz sözlərimi sizinlə və Azərbaycan ictimaiyyəti ilə bölüşmək istəyirəm ki, biz Azərbaycanı gələcəkdə daha da güclü dövlətə çevirmək üçün hansı işləri görməliyik.

Daxili siyasətlə bağlı. Bizim son illər apardığımız siyasət özünü tam doğrultdu, Azərbaycanda sabitlik mövcuddur. Qeyd etdiyim kimi, sabitlik hər bir inkişafın əsas şərtidir. Biz görürük ki, son 5-6 il ərzində dünyanın müxtəlif yerlərində, bizim regionumuzda çox ciddi, narahatedici proseslər gedir. Qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, ölkələrin bir-birinin işinə kobudcasına qarışması, hərbi müdaxilələr – bütün bunlar bizim gözümüzün önündə baş verən məsələlərdir. Biz görürük və bütün bəşəriyyət əyani şəkildə görür ki, sabitlik pozulduqda heç bir inkişafdan söhbət gedə bilməz. Bu, xalqlara, ölkələrə böyük bəlalar, faciələr gətirir. Bu gün dağılmış vəziyyətdə olan və daxili inteqrasiyanı tamamilə itirən ölkələrin gələcək taleyi böyük sual altındadır. Ona görə həyat və yaxın tarixin mənzərəsi göstərir ki, sabitlik əsas amildir və sabitlik necə təmin edilməlidir? Ancaq düzgün siyasətlə. O siyasət ki, onun mərkəzində xalq dayanır, ölkə vətəndaşı dayanır. Biz məhz bu siyasəti aparırıq. Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır. Xalq-iqtidar birliyi Azərbaycanda sabitliyi şərtləndirən əsas amildir, bu gün var və gündən-günə güclənir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir və o ölkədir ki, xalq-iqtidar birliyi onun uğurlu inkişafını müəyyən edir. Çünki bizim siyasətimiz ictimaiyyət tərəfindən dəstəklənir və ictimaiyyət də görür ki, bizim siyasətimiz real, konkret nəticələrə gətirib çıxarır.

Ölkəmizdə ictimai asayiş qorunur, kriminogen durum çox müsbətdir, Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir. Bunu Azərbaycan vətəndaşları yaxşı bilirlər, ölkəmizə gələn çoxsaylı turistlər görürlər. Təhlükəsizlik və sabitlik bizi fərqləndirən müsbət amillərdir.

Ölkəmizdə, eyni zamanda, bütün azadlıqlar təmin edilir və edilməlidir, bu da bizim siyasətimizdir. Gələcək illərdə də demokratik inkişafla bağlı yeni addımlar atılacaqdır, siyasi islahatlar davam etdiriləcəkdir. Son illər ərzində bu istiqamətdə gözəl nəticələr əldə edilib və bu, daimi prosesdir. Biz çalışmalıyıq ki, dünyanın demokratik baxımdan ən inkişaf etmiş ölkələrinin standartlarına yaxınlaşaq və bunu edəcəyik. Bu gün də vəziyyət çox yaxşıdır, müsbətdir. Bütün azadlıqlar – söz, mətbuat, sərbəst toplaşma azadlığı tam təmin edilir və ediləcəkdir. Bu, bizim prinsipial siyasətimizdir. Mən tam əminəm ki, əgər biz Azərbaycanı inkişaf etmiş ölkəyə çevirmək istəyiriksə, – biz bunu istəyirik, – mütləq siyasi və iqtisadi islahatlar paralel xətlə davam etdirilməlidir.

Azərbaycanda vicdan azadlığı tam təmin edilir və ediləcəkdir. Bundan sonra da Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkə kimi uğurla inkişaf edəcək. Bundan sonra da ölkəmizdə bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayacaq. Bu, bizim böyük sərvətimizdir. Bu, ölkəmizin uğurlu inkişafı üçün əsas şərtlərdən biridir, vətəndaş həmrəyliyi, vətəndaş sülhü üçün əsas şərtdir. Azərbaycanda heç vaxt milli və ya dini zəmində heç bir qarşıdurma, anlaşılmazlıq olmamışdır, bundan sonra da olmayacaq. Bu, dövlət siyasətidir və bu siyasət Azərbaycan xalqı tərəfindən tam şəkildə dəstəklənir. Azərbaycanda yaşayan bütün xalqların, bütün dinlərin nümayəndələri dəyərli vətəndaşlar kimi öz işi, əməyi ilə ümumi inkişafımıza böyük töhfələr verirlər.

Mən xüsusilə bu məsələyə toxundum. Bu, bizim üçün adi haldır. Multikulturalizm bizim üçün həyat tərzidir. Ancaq yenə də əgər biz ətrafda gedən hadisələrə, Avropada, Yaxın Şərqdə, digər bölgələrdə ayrı-seçkiliyə, ksenofobiyaya rəvac verən, güclənən amillərə nəzər salsaq görərik ki, bizim bu sahədəki siyasətimiz təkcə ölkə daxili üçün deyil, dünya üçün də çox önəmlidir. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünya miqyasında multikultural ideyaların təbliği işində nümunəvi ölkə kimi tanınır. Təsadüfi deyil ki, məhz bizim təşəbbüsümüzlə Azərbaycanda bu mövzu ilə bağlı bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Bu il 10 illiyini qeyd edəcəyimiz "Bakı Prosesi" bu gün BMT tərəfindən yüksək qiymətləndirilir və dəstəklənir. Onun da təşəbbüskarı biz olmuşuq. Avropa məkanını müsəlman aləmi ilə yaxınlaşdırmaq istəyimiz böyük nəticə verməsə də, hər halda müsbət tendensiyalara təkan verir. Biz öz siyasətimizi bu istiqamətdə davam etdirəcəyik. Yenə də deyirəm, ölkə daxilində hər hansı bir əlavə addımların atılmasına ehtiyac yoxdur. Ancaq biz bu şərəfli missiyanı beynəlxalq miqyasda davam etdirəcəyik.

Bizim xarici siyasətimizlə bağlı apardığımız xətt özünü tam doğrultdu. Azərbaycan bu gün beynəlxalq birlik tərəfindən çox böyük rəğbətə layiq olan ölkə kimi tanınır. Bizim dostlarımızın sayı artır, bizi dəstəkləyən ölkələrin sayı artır. Təkcə bir misalı gətirmək kifayətdir ki, biz bunu sübut edək, o da 155 ölkənin bizim namizədliyimizi BMT Təhlükəsizlik Şurasına üzv kimi dəstəkləməsidir. Bu, beynəlxalq aləmin mütləq əksəriyyətidir. Bu dəstəyi biz öz siyasətimizlə qazanmışıq. O siyasət ki, beynəlxalq hüquqa və ədalətə əsaslanır. Bu iki vacib prinsip həmişə bizim üçün əsas olub. Biz bu prinsiplərə sadiqik. Bu prinsiplər bütövlükdə beynəlxalq münasibətlərin tənzimlənməsində də üstünlük təşkil etməlidir.

Biz bundan sonra da beynəlxalq arenadakı rolumuzu fəal aparacağıq. Bizim bütün ölkələrlə qarşılıqlı hörmət və biri-birinin işinə qarışmamaq şərti ilə münasibətlərimiz qurulub. Bu münasibətləri biz möhkəmləndirəcəyik. Qonşu dövlətlərlə əlaqələrimiz daha da yüksək pilləyə qalxacaqdır. Mən buna əminəm. Çünki hazırda başladığımız və davam etdirdiyimiz iqtisadi və digər layihələr bunu deməyə əsas verir.

Müsəlman aləmində Azərbaycan çox böyük dəstəyə malik olan bir ölkədir. İslam Əməkdaşlıq Təşkilatı dəfələrlə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədaləti əks etdirən qətnamələr qəbul etmişdir. Baxmayaraq, müsəlman aləmində əfsuslar olsun ki, birlikdən danışmaq mümkün deyil, ancaq biz öz səylərimizlə bu birliyə aparan yolda çox fəal iş görürük. İslam Həmrəyliyi Oyunlarının keçirilməsi, "İslam Həmrəyliyi İli" elan edilməsi müsəlman aləmində çox yüksək qiymətləndirilib. Bu gün hesab edirəm ki, müsəlman aləmində Azərbaycan müəyyən dərəcədə barışdırıcı, əlaqələndirici missiyanı uğurla icra edir. Biz bundan sonra da çalışmalıyıq ki, həmrəyliyi möhkəmləndirək, xoşagəlməz tendensiyalar səngisin.

Eyni zamanda, Avropa ölkələri ilə bizim yaxın münasibətlərimiz var. Keçən il Avropa İttifaqı ilə yeni saziş üzərində danışıqlar başlamışdır. Avropa İttifaqına üzv ölkələr bizim əsas ticarət tərəfdaşlarımızdır, əsas investorlardır. Əlbəttə ki, bizim siyasi, iqtisadi, enerji sahələrində əlaqələrimiz çox yüksək səviyyədədir. Bizim üçün də bu əməkdaşlıq çox önəmlidir. Çünki Azərbaycan müasirliyə gedən yoldadır. Biz inkişaf etməliyik, biz ən qabaqcıl standartları milli dəyərlərimizə uyğun olan şərtlə tətbiq etməliyik. Biz çox möhkəm milli köklər üzərində dayanmışıq və bu, bizim üçün əsasdır. Eyni zamanda, biz həmişə dünyaya açıq olmalıyıq və ən qabaqcıl texnologiyaları ölkəmizə gətirməliyik.

İndi hamı bilir ki, Azərbaycan prinsipial mövqedədir, müstəqil siyasət aparır. O siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir, o siyasət ki, bir çox tərəfdaşlar üçün də əlavə imkanlar yaradır. Beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətimizi uğurla davam etdirəcəyik. Bütün mötəbər beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi dəstəkləyir. BMT, ATƏT, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı – bütün bu aparıcı təşkilatlar münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən qətnamələr, qərarlar qəbul etmişlər. Beləliklə, münaqişənin həlli üçün siyasi əsaslar da qoyulub. Hüquqi əsaslar onsuz da var. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Heç bir ölkə bu qondarma qurumu tanımayıb və əminəm ki, heç vaxt tanımayacaq. Tarixi əsaslar da bizim mövqeyimizi gücləndirir. Çünki Dağlıq Qarabağ bizim əzəli, tarixi torpağımızdır. Beynəlxalq təşkilatların qərar və qətnamələri həm hüquqi, həm siyasi əsasları möhkəmləndirir. Münaqişənin həlli ilə bağlı bizim mövqeyimiz üstünlük təşkil edir, xüsusilə indiki şəraitdə. Dünyanın müxtəlif yerlərində, eyni zamanda, Avropada separatizm meylləri artır. Avropa da görür ki, separatizm nə dərəcədə təhlükəli meyildir. Biz isə təcavüzkar separatizmlə üzləşmişik. Ona görə bütövlükdə münaqişələrlə bağlı dünyada gedən proseslər, yanaşma bizim mövqeyimizi daha da möhkəmləndirir. Təsadüfi deyil ki, keçən ilin noyabrında Avropa İttifaqının Şərq Tərəfdaşlığı Zirvəsində qəbul edilmiş qətnamə Şərq Tərəfdaşlığına üzv ölkələrin suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini birmənalı şəkildə dəstəkləmişdir. Deyə bilərəm ki, ilk dəfə olaraq, bax, bu formada qətnamə qəbul edilmişdir. Bu, Ermənistan üçün növbəti zərbə, onların növbəti məğlubiyyəti idi və bizim növbəti qələbəmiz idi. Əslində bu, haqq-ədalətin növbəti qələbəsi idi. Ona görə bu müsbət meyillər güclənəcək. Biz, sadəcə olaraq, bundan sonra da öz siyasətimizi aparmalıyıq, aparacağıq. Ermənistanı daha da sıxışdırmalıyıq, sıxışdıracağıq və öz həqiqətlərimizi dünya birliyinə çatdırmalıyıq.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Biz heç vaxt imkan verə bilmərik ki, torpağımızda ikinci erməni dövləti yaradılsın. Ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu deyil və heç vaxt olmayacaq. Biz, sadəcə

olaraq, öz səylərimizi daha da artırmalıyıq və artırırıq. Əminəm ki, bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz ədalətli həllini tapacaq, ölkəmizin ərazi bütövlüyü bərpa ediləcək.

Onu da qeyd etməliyəm ki, biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı – bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq.

O ki qaldı, Ermənistana, indi hər kəs görür ki, bu ölkə öz işğalçılıq siyasətinin girovuna, qurbanına çevrilib. Biz onları demək olar ki, bütün beynəlxalq layihələrdən təcrid etmişik, bütün enerji və nəqliyyat xətləri onlardan yan keçir və bunu biz etmişik. Baxmayaraq ki, bu, o qədər də asan məsələ deyildi. Əfsuslar olsun ki, dünyadakı ermənipərəst qüvvələr, erməni lobbisi və erməni pullarına satılmış bəzi siyasətçilər daim çalışırlar ki, Ermənistanı da bizim təşəbbüsçüsü olduğumuz layihələrin tərkibinə daxil etsinlər. Biz həmişə buna çox ciddi etiraz etmişik, təşəbbüsümüzlə həyata keçirilən layihələr Ermənistanı tamamilə kənarda qoymuşdur. Həm Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars layihələri onlardan yan keçmişdir. Bizim siyasətimizə görə, Şimal-Cənub Nəqliyyat Dəhlizi də onlardan yan keçəcəkdir. Biz bunu gizlətmirik. Baxmayaraq, bəziləri çalışırlar bizi ittiham etsinlər ki, biz onları təcriddə saxlayırıq. Bəli, saxlayırıq və saxlayacağıq. O vaxta qədər ki, torpaqlarımız işğaldan azad olunsun. Bu siyasət öz nəticələrini verməkdədir. İndi heç kim Ermənistana sərmayə qoymur. Çünki, birincisi, orada hakimiyyəti zəbt etmiş kriminal, korrupsioner, qaniçən rejim imkan vermir ki, sərmayə qoyulsun, əvvəllər qoyulan və ianə şəklində verilən bütün pullar rejim tərəfindən oğurlanmışdır. Digər tərəfdən, bazarın məhdudluğu və azalan bazar imkan vermir ki, ciddi investor oraya gəlsin və ixrac imkanları da çox məhduddur. Çünki ixrac üçün yollar olmalıdır, yollar olsa da, yenə də tam investisiya cəlb edilməsi üçün şərait yaratmır. Əlbəttə ki, bunu böyük dərəcədə edən məhz biz olmuşuq və bu siyasəti davam etdirəcəyik. Onların özlərinin son statistik məlumatlarına görə, keçən il ölkəni 40 mindən çox insan həmişəlik tərk edib və bu tendensiya hər il gedir və gedəcəkdir. Beləliklə, orada demoqrafik böhran yaşanır. Bizim səylərimiz nəticəsində Ermənistan siyasi, iqtisadi, enerji, nəqliyyat dalanına çevrilib və əlbəttə ki, bu ölkənin gələcək inkişafı çox qaranlıqdır. Biz isə öz siyasətimizi davam etdirəcəyik və bütün imkanlardan, artan gücümüzdən, iqtisadi potensialımızdan, siyasi imkanlarımızdan, hərbi gücümüzdən istifadə edib məsələni həll etməliyik ki, ölkəmizin ərazi bütövlüyü təmin olunsun. Əlbəttə, hərbi sahədə apardığımız siyasət özünü tam doğrultdu. Biz bu siyasəti uzun illərdir ki, aparırıq. Bu məsələ ilə də bağlı bəzən bizə iradlar ünvanlanır ki, nə üçün Azərbaycan silahlanır, nə üçün hərbi quruculuğuna, ordu quruculuğuna vəsait ayırır. Biz isə Ermənistandan fərqli olaraq bu işləri öz imkanlarımız daxilində, öz vəsaitimiz hesabına, öz hesabımıza görürük. Həyat göstərdi ki, biz nə qədər düzgün siyasət aparırıq. Onu da qeyd etməliyəm ki, dünyanın aparıcı ölkələri də daim silahlanırlar və bu proses bir çox ölkələr üçün də xasdır. Biz isə son illər ərzində güclü ordu yaratmışıq. İndi bütün beynəlxalq reytinqlər də ordumuzun gücünü əks etdirir. Bu güc bizə imkan verir ki, istənilən vəzifəni icra edək. 2016-cı ilin aprel döyüşləri bunu əyani şəkildə düşmənə və bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu nəyə qadirdir. Döyüş meydanında bizim şanlı tarixi qələbəmiz əlbəttə ki, məsələnin ədalətli həlli üçün də yeni imkanlar yaradır və yaradacaqdır. Növbəti illərdə hərbi potensialın gücləndirilməsi üçün, ordu quruculuğu üçün nə lazımdırsa, o da ediləcək. Bizim güclü iqtisadi imkanlarımız var. Gündən-günə artan maliyyə resurslarımız, ilk növbədə, ölkə qarşısında duran əsas vəzifələrin həllinə yönələcək və ordu quruculuğu bu məsələdə prioritetdir.

Məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması və mənzillərlə, evlərlə təmin edilməsi istiqamətində bundan sonra da uğurlu siyasət aparılacaq. Bu günə qədər 270 minə yaxın köçkün evlərlə təmin edilib. Bu il 20 minə yaxın, bəlkə də bundan da çox köçkünü biz yeni evlərlə təmin edəcəyik. Bu siyasət davam etdiriləcək. Torpaqlarımız işğaldan azad olunandan sonra biz erməni vəhşiləri tərəfindən dağıdılmış bütün şəhərləri, kəndləri yenidən quracağıq. Cocuq Mərcanlı kəndinin timsalında bütün dünya görür ki, biz buna qadirik, bunu qısa müddət ərzində edə bilərik. Bir daha bütün dünya əyani şəkildə görür ki, Azərbaycan xalqı, köçkünlər bir amalla yaşayırlar – tezliklə öz doğma torpaqlarına qayıtmaq arzuları ilə. Hətta köçkün şəraitində doğulmuş, heç vaxt öz torpağını görməmiş uşaqlar, gənclər də bu arzu ilə yaşayırlar. Bu gün onların bir hissəsi artıq Cocuq Mərcanlıda, öz dədə-baba torpağında məskunlaşıb. Bu da Azərbaycan xalqının yenilməz ruhunu bir daha bütün dünyaya göstərir.

Bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımızı gücləndirməliyik. Növbəti illərdə bu istiqamətdə əlavə addımlar atılacaq. Deyə bilərəm ki, son iki il ərzində çox ciddi iqtisadi islahatlar aparılmışdır. Əvvəlki illərdə də aparılmışdır. Ancaq son iki il ərzində daha fəal və daha səmərəli islahatlar aparılmışdır. Bu islahatlar imkan verdi ki, biz ağır vəziyyətdən, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi nəticəsində yaranmış vəziyyətdən çıxa bilək və çıxmışıq da. Bu gün ölkə iqtisadiyyatı öz templərini artırır. Növbəti illərdə islahatlar mütləq davam etdiriləcəkdir. İndi bəzi suallar səslənir və hətta

beynəlxalq ekspertlər maraqlanırlar ki, indi neftin qiyməti bir qədər qalxıbdır, bəs bu, apardığımız islahatlara təsir edəcək, ya etməyəcək? Bəlkə siz indi islahatları o qədər fəallıqla aparmayacaqsınız. Qətiyyən belə deyil. Mən bir daha demək istəyirəm ki, neftin qiymətinin artması, sadəcə olaraq, bizim valyuta ehtiyatlarımızı artıracaq. Ancaq bütün hökumət qurumları elə işləməlidirlər ki, sanki bizdə neft amili yoxdur. Ona görə biz gələcək iqtisadi inkişafımızı qeyri-neft sektorunun inkişafında görürük. Neft sektoru, sadəcə olaraq, bizə əlavə maliyyə resursu yaradacaq ki, bu da öz növbəsində, bizim siyasi resurslarımızı da gücləndirir. Bu da təbiidir. Ölkə iqtisadiyyatının dayanıqlı inkişafını ancaq bu amillər – qeyri-neft sektoru, sahibkarlıq, idarəetmədə aparılan və aparılacaq islahatlar müəyyən edəcək. Ona görə iqtisadiyyatın şaxələndirilməsi, mütərəqqi beynəlxalq təcrübənin Azərbaycana gətirilməsi, maliyyə, fiskal siyasətində ən qabaqcıl texnologiyalardan istifadə etməyimiz inkişafımız üçün əsas amillər olacaqdır. Deyə bilərəm ki, bu siyasət artıq öz nəticəsini vermişdir. Keçən ilin iqtisadi göstəriciləri göstərdi və sübut etdi ki, biz düzgün yoldayıq. İqtisadiyyatın qeyri-neft sektoru 2,7 faiz, sənayedə qeyri-neft sektoru 3,7 faiz, kənd təsərrüfatı 4,1 faiz, valyuta ehtiyatlarımız 4,5 milyard dollar artmışdır. Bu ilin yanvar ayının nəticələri də mənə məruzə edildi. Bu barədə də demək istəyirəm. Bu, göstərir ki, mən əvvəlki aylarda dediyim kimi, 2018-ci il sürətli inkişaf ili olacaqdır. Beləliklə, yanvar ayında Azərbaycanda ümumi daxili məhsul 2 faiz, qeyri-neft iqtisadiyyatımız təxminən 4 faiz, sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 8,7 faiz artıb. İnflyasiya birinci ayda 5,5 faizdir, əhalinin pul gəlirləri 11 faizdən çoxdur. Yəni, əhalinin gəlirləri inflyasiyanı iki dəfə üstələyir. Bu ilin yanvar ayında bizim valyuta ehtiyatlarımız 2 milyard dollar artıb və bu gün valyuta ehtiyatlarımız 44 milyard dollar səviyyəsindədir. Bu, hələ ilin əvvəlidir. Mən əminəm ki, 2018-ci il sürətli inkişaf ili olacaq və ondan sonrakı bütün illərə çox güclü təkan verəcək. Kənd təsərrüfatında, sənaye sahəsində indi həyata keçirilən layihələr tezliklə, bir-iki il ərzində öz bəhrəsini verəcəkdir.

Biz indi nəhəng enerji layihələrini icra edirik. Bu da qarşıda duran əsas vəzifələrdən biridir. Biz Cənub Qaz Dəhlizini vaxtında təhvil verməliyik, bunu edəcəyik. Bütün maliyyə resursları təmin edilib, həm Azərbaycan, həm beynəlxalq banklar tərəfindən. Müəyyən yubanmalar olmuşdur, onlar da aradan götürüldü. Çünki Cənub Qaz Dəhlizi həm bizim üçün, həm də Avropa üçün strateji əhəmiyyətə malik olan bir layihədir. Azərbaycan öz liderlik missiyasını uğurla icra edir. Biz bu tarixi layihəni – 7 ölkəni, qitələri birləşdirən, 3500 kilometr məsafəsi olan və dənizin altından, dağların başından keçən qaz kəmərini uğurla həyata keçiririk. "Şahdəniz-2" layihəsindən yaxın zamanlarda ilk qaz çıxarılacaq. Onu da deməliyəm ki, Cənub Qaz Dəhlizi, yəni, qaz kəməri artıq qazla təmin edilir. Bu, tarixi layihədir və ölkəmizin uğurlu, dayanıqlı inkişafı üçün əsas resurs bazasıdır.

Qeyd etdiyim kimi, "Azəri-Çıraq" yatağı ilə bağlı kontraktın uzadılması haqqında da tarixi qərar qəbul edilib. Ona görə bundan sonra da neft-qaz sektorunda Azərbaycan uğurla inkişaf edəcək. Ancaq yenə də deyirəm, gələcək fəaliyyətimiz üçün bu, bizdə bir rahatlıq hissi yaratmamalıdır. Biz fəal işləməliyik, qeyd etdiyim kimi, bu, sadəcə olaraq, bizim üçün əlavə maliyyə və siyasi resursdur.

Bu gün biz beynəlxalq arenada bütün məsələlərlə bağlı öz sözümüzü deyirik. Nəyə görə? Əlbəttə ki, güclü siyasi iradəyə görə, cəsarətli siyasətə görə, amma, eyni zamanda, maliyyə imkanlarımıza görə. Əgər bu imkanlar olmasaydı, əgər biz bəzi ölkələr kimi, xarici donorlardan asılı olsaydıq, əgər biz yoxsul, səfil Ermənistan kimi ona-buna dilənsəydik, onda əlbəttə ki, biz müstəqil siyasət aparmaq imkanında olmaya bilərdik, yaxud da ki, bu imkanlar məhdud ola bilərdi. Ona görə iqtisadi güc, maliyyə resurslarımız siyasi müstəqilliyimizi də möhkəmləndirir.

Növbəti illərdə önəmli, tarixi nəqliyyat layihələrini yenə də icra etməklə Azərbaycan – açıq dənizlərə çıxışı olmayan bir ölkə Avrasiyada nəqliyyat mərkəzlərinin birinə çevriləcəkdir. Biz siyasətimiz, qətiyyətimiz, düzgün xarici siyasətimiz nəticəsində bunu da edəcəyik. Çünki xarici siyasət, ilk növbədə, daxili problemlərin həllinə yönəlib. Xarici siyasət daxili siyasətin davamıdır. Biz uğurlu xarici siyasəti təkcə ona görə aparmırıq ki, dünyada bizə olan rəğbət artsın. Bu, real işlərə çevrilir. Uğurlu xarici siyasət bu beynəlxalq layihələri də həll etməyə şərait yaradır. Çünki tranzit ölkə olmaq üçün sən mütləq qonşularla işləməlisən. Qonşular olmadan heç bir ölkə tranzit ölkə ola bilməz. Bütün bunlar bir-birinə bağlı olan məsələlərdir. Bizim gələcək inkişafımızla bağlı çox aydın təsəvvürümüz, proqramlarımız var – bütün sahələrdə, ictimai xidmət sahələrində, korrupsiya, rüşvətxorluğa qarşı mübarizə sahəsində, haqq-ədalətin bərqərar olması sahəsində, bütün istiqamətlər üzrə. Sadəcə olaraq, bir çıxışda bütün istiqamətlər haqqında geniş danışmaq mümkün deyil. Ancaq mən əminəm ki, Azərbaycan növbəti illərdə öz uğurlu, dinamik inkişaf tempini nəinki saxlayacaq, onu daha da möhkəmləndirəcək.

Bizim əsas dəyərimiz, ən böyük nemətimiz müstəqilliyimizdir. Biz müstəqil ölkə kimi yaşayırıq. Müstəqilliyimizin də banisi ulu öndər Heydər Əliyevdir. Məhz onun hakimiyyətə gəlməsindən sonra Azərbaycan, sözün əsl mənasında, müstəqillik yoluna qədəm qoydu.

1993-cü ilə qədər bizim müstəqilliyimiz şərti və yarımçıq xarakter daşıyırdı. Xarici ölkələr, onların Azərbaycandakı nümayəndələri burada hakimiyyətə göstərişlər, təlimatlar verirdi. Əlbəttə ki, bu, tariximizin bəlkə də ən biabırçı səhifələrindən biridir. O ağır vəziyyətdə məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi, – o vaxt bizim hələ ordumuz, iqtisadiyyatımız, pulumuz yox idi, – onun dəmir iradəsi, xalqın ona olan sevgisi, rəğbəti Azərbaycanı, bax, bu müstəqillik yoluna çıxarıbdır. Biz də bu müstəqil yol ilə gedirik və gedəcəyik.




Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi, Baş nazirin müavini Əli Əhmədov dedi:

– Hörmətli qurultay nümayəndələri.

Möhtərəm Prezidentimizin proqram xarakterli, geniş, ətraflı, gələcəyə ünvanlanmış çıxışından sonra hesab edirəm ki, qurultay nümayəndələrinin gündəliyimizin mühüm məsələsi ilə əlaqədar çıxışlara başlamaları üçün əsas yaranır. Buyurun, Yeni Azərbaycan Partiyasının VI qurultayı tərəfindən qarşıdan gələn prezident seçkilərində partiyanın namizədinin irəli sürülməsi ilə əlaqədar təkliflərinizi bildirin.

***

İşğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin sakini Oqtay Həziyev, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri Sevda Quliyeva, Milli Məclisin deputatı Rəşad Mahmudov, Gəncə şəhərindən olan iş adamı Elnur Camalxanov, Qusar şəhərindəki Heydər Əliyev Mərkəzinin direktoru Neva Abdurahmanova, ADA Universitetinin tələbəsi Emil Aslanli çıxış etdilər.

Yeni Azərbaycan Partiyası sədrinin müavini – icra katibi Əli Əhmədov dedi:

– Hörmətli sədr.

Hörmətli qurultay nümayəndələri.

Altı nəfər partiyamızın sədrinin proqram xarakterli çıxışı ətrafında diskussiyada iştirak etdi və qarşıdan gələn növbədənkənar prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədinin irəli sürülməsi haqqında təkliflərini bildirdi. Bütün çıxışlarda Prezident İlham Əliyevin növbədənkənar prezident seçkilərində namizədliyinin irəli sürülməsi haqqında təklif səsləndirildi. Hesab edirəm ki, bununla biz çıxışlara son qoya bilərik.

Növbəti məsələmiz Yeni Azərbaycan Partiyasının VI qurultayının aprelin 11-də keçiriləcək prezident seçkilərində cənab İlham Əliyevin namizədliyinin irəli sürülməsi haqqında qərarının qəbul edilməsi ilə əlaqədardır.

İcazə verin, qurultayın qərar layihəsini təqdim edim.

***

**Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin 2018-ci il aprelin 11-də növbədənkənar prezident seçkilərində namizədliyinin irəli sürülməsi barədə Yeni Azərbaycan Partiyasının VI qurultayının qərarı:**

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən keçən müddət müasir tariximizə ölkənin iqtisadi, sosial, siyasi və mədəni inkişafının dönüş nöqtəsi kimi daxil olub. Bu illər ərzində uğurla həyata keçirilən islahatlar nəticəsində iqtisadiyyat üç dəfədən çox artıb, Azərbaycan dünyanın ən dinamik inkişaf edən iqtisadiyyatı kimi tanınıb, özünün nadir iqtisadi inkişaf modelini təqdim edib.

Ölkənin iqtisadi potensialı əsaslı şəkildə artırılıb, maliyyə imkanlarımız tarixi maksimuma çatdırılıb. Azərbaycan bölgənin ən qüdrətli iqtisadiyyatına çevrilib, Cənubi Qafqazın və ətrafın coğrafiyasını dəyişdirməyə qadir olan möhtəşəm layihələrin təşəbbüskarı missiyasını qətiyyətlə öz üzərinə götürüb. Qürur hissi ilə deyə bilərik ki, Azərbaycan regional iqtisadiyyatın lokomotivinə çevrilib, Avropanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından biri kimi özünü təqdim edib, beynəlxalq Şərq-Qərb, Şimal-Cənub nəqliyyat qovşağı kimi məsuliyyətli vəzifəni layiqincə yerinə yetirməkdədir. Bütün bunların nəticəsində təbii olaraq Azərbaycanın regional və dünya iqtisadiyyatında rolu və əhəmiyyəti xeyli yüksəlib.

Ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial siyasət sayəsində insanların həyat şəraitinin yüksəldilməsi, rifahının yaxşılaşdırılması sahəsində möhtəşəm nailiyyətlər əldə edilib. Hər şeydən əvvəl yoxsulluq həddinin 50 faizdən 5 faizə endirilməsi, başqa sözlə, təxminən 10 dəfə azaldılması, 1 milyon 900 min yeni iş yerinin yaradılması nəticəsində işsizlik səviyyəsinin təxminən 5 faizə endirilməsi kimi tarixi nailiyyətlər qeyd olunmalıdır. Bu müddət ərzində maaşlar orta hesabla 5 dəfə, pensiyalar 8 dəfə, əhalinin real gəlirləri orta hesabla 2,6 dəfə artıb.

Sosial infrastrukturun yenilənməsi sahəsində əldə olunan nailiyyətlər, sözün həqiqi mənasında, möcüzə sayıla bilər. 2003-2017-ci illərdə 3100 məktəb tikilib və ya əsaslı surətdə təmir olunub, 642 xəstəxana qurulub istifadəyə verilib, 43 müasir idman kompleksi yaradılıb.

Məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 92 qəsəbə və yaşayış kompleksi, 48,3 min mənzil və ya fərdi ev tikilib istifadəyə verilib, 245 min məcburi köçkün müasir mənzillərlə təmin olunub.

Ölkənin siması köklü surətdə yenilənib, modernləşmə Azərbaycanın müasir tarixinin fərqləndirici xüsusiyyətinə çevrilib. Bakı dünyanın ən gözəl şəhərlərindən biri kimi şöhrət qazanıb, bölgələrdə həyatın keyfiyyəti köklü surətdə dəyişdirilib. Əzəmətli infrastruktur layihələrin miqyası inşa olunan 12,3 min kilometr müasir yollarda, 443 körpü və yol qovşağında, qazlaşdırmanın 93 faizə çatdırılmasında, əhalinin içməli su ilə təminatının 67 faizə yüksəlməsində ifadə olunur.

Hərtərəfli siyasi islahatlar ölkənin siyasi sisteminin təkmilləşməsini və müasir standartlara uyğunlaşmasını əsaslı surətdə təmin edib. İnsan hüquq və azadlıqları, o cümlədən siyasi azadlıqlar, söz və mətbuat azadlığı tam təmin edilib, idarəetmənin optimallaşdırılması və səmərəliliyinin artırılması sahəsində ciddi addımlar atılıb.

2016-cı ildə keçirilən referenduma əsasən baş tutan Konstitusiya islahatları, vitse-prezident institutunun yaradılması siyasi islahatların dərinləşməsi istiqamətində ən uğurlu addımlardan sayıla bilər. Bu islahatların nəticəsində Azərbaycan dövlətinin daha qüdrətli və möhtəşəm görkəm alması haqlı olaraq xalqın qürur və iftixar mənbəyinə çevrilib. 2012-ci ildə Azərbaycanın Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, mötəbər beynəlxalq təşkilatlarda Azərbaycanın layiqincə təmsil olunması, tam müstəqil xarici və daxili siyasət yürütməsi dövlətimizin qüdrətinin və müstəqilliyinin ən bariz ifadələridir. Bu qüdrətin digər bir ifadəsi isə ordumuzun döyüş qabiliyyətinin heç zaman olmadığı qədər yüksəlməsi hesab edilməlidir. 2016-cı ilin aprel döyüşlərində düşmənə endirilən sarsıdıcı zərbə, düşmən işğalından azad olunaraq yenidən qurulan Cocuq Mərcanlı qəhrəman Azərbaycan Ordusunun döyüş şücaətinin unudulmaz səhifələri, Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrikliyinin parlaq nümunəsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafı tam, bitkin, sistemli xarakter daşıyaraq əsl mənada intibah kimi müasir həyatımıza və tariximizə daxil olub. Bütün sahələrdə olduğu kimi, elm, mədəniyyət, idman sahələrində də əzəmətli layihələr həyata keçirilib və keçirilməkdədir. Azərbaycanın "Eurovision" mahnı müsabiqəsinə, ilk Avropa Oyunlarına, İslam Həmrəyliyi Oyunlarına, bir sıra mötəbər beynəlxalq təşəbbüslərə və tədbirlərə ev sahibliyi etməsi Azərbaycan intibahının miqyasının və beynəlxalq etiraf dərəcəsinin aydın göstəricisidir.

Yeni Azərbaycan Partiyasının VI qurultayı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətli sosial-iqtisadi inkişafını, dövlətçilik ənənələrinin və demokratik təsisatlarının gücləndirilməsini, ölkənin beynəlxalq nüfuzunun və müdafiə qabiliyyətinin ciddi şəkildə möhkəmləndirilməsini, habelə Prezident İlham Əliyevin şəxsində Azərbaycanın inkişaf perspektivlərinə etibarlı təminatı nəzərə alaraq və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 54-cü maddəsinə istinad edərək **qərara alır:**

İlham Heydər oğlu Əliyev 2018-ci il aprel ayının 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizəd irəli sürülsün.






Əli Əhmədov: Hörmətli qurultay iştirakçıları, sizin hərarətli və sürəkli alqışlarınız əslində qurultayın səsləndirilən qərarının birmənalı şəkildə dəstəklənməsidir. Amma, eyni zamanda, mən prosedur qaydalarına görə qurultayın qərarını səsə qoymalıyam.

Kim Prezident İlham Əliyevin növbədənkənar prezident seçkilərində namizədliyini dəstəkləyirsə, xahiş edirəm, səs versin.

Əleyhinə olan, bitərəf qalan, yoxdur.

Beləliklə, Yeni Azərbaycan Partiyasının VI qurultayının İlham Əliyevin namizədliyinin irəli sürülməsi haqqında qərarı yekdilliklə qəbul olunur. Xeyirli olsun! Uğurlu olsun!

Cənab Prezident, Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının VI qurultayının qəbul etdiyi bu qərarı ürəkdən dəstəkləyəcək. Buna qətiyyətlə inanırıq. Eyni zamanda, ona da inanırıq ki, aprel ayının 11-də hər bir seçicimiz böyük həvəslə, ürəkdən səsvermə məntəqəsinə gəlib Sizə səs verəcək və Sizə səs verməklə növbəti 7 il ərzində Azərbaycanın inkişafına, tərəqqisinə, yüksəlişinə, sabitliyinə, əmin-amanlığına səs vermiş olacaqlar.






Cənab Prezident, Siz buna layiqsiniz. Azərbaycan xalqı Azərbaycanın bu gününü, sabahını, gələcəyini Sizinlə, Sizin həyata keçirdiyiniz siyasətlə bir yerdə görür. Alternativ yoxdur və hesab edirəm ki, biz bu gündən artıq aprel ayının 11-də bizi gözləyən qələbə münasibətilə Sizi və bütün partiya üzvlərini, bütün xalqımızı təbrik edə bilərik. Sağ olun cənab Prezident.

***

Prezident İlham Əliyev: Hörmətli qurultay nümayəndələri, mənə göstərilən böyük dəstəyə görə sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Sizi və bütün Azərbaycan xalqını əmin etmək istəyirəm ki, əgər prezident seçkilərində Azərbaycan xalqı mənə yenidən yüksək etimad göstərərsə, doğma xalqıma ləyaqətlə xidmət edəcəyəm. Sağ olun.

***

Yeni Azərbaycan Partiyasının VI qurultayı dövlət himninin səslənməsi ilə başa çatdı.

# Cənab İlham Əliyevə prezidentliyə namizədlik vəsiqəsi təqdim edilib

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov prezidentliyə namizədlik vəsiqəsini İlham Əliyevə təqdim edib**



Martın 5-də Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov 2018-ci il aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə bağlı qeydə alınmış ilk namizəd kimi İlham Əliyevə təbriklərini çatdırdı və namizədlik vəsiqəsini ona təqdim etdi.

Dövlətimizin başçısı qarşıdan gələn prezident seçkilərinin şəffaf, ədalətli, Azərbaycan Respublikasının qanunlarına tam uyğun şəkildə keçiriləcəyinə və bu seçkilərin Azərbaycan xalqının iradəsini əks etdirəcəyinə əminliyini ifadə etdi, Mərkəzi Seçki Komissiyasının işinə uğurlar arzuladı.

Seçkilərə hazırlıq işlərinin lazımi səviyyədə həyata keçirildiyini vurğulayan Məzahir Pənahov seçkilərin Seçki Məcəlləsinin tələblərinə tam uyğun, demokratik və şəffaf şəkildə keçirilməsi üçün bütün şəraitin yaradılması ilə bağlı Azərbaycan Respublikası vətəndaşlarının konstitusion hüquqlarının qarantı kimi Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

# Prezident İlham Əliyev Xocalı soyqırımı qurbanlarının xatirəsini anım mərasimində iştirak edib

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar anım mərasimində iştirak edib**



1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu faciədən 26 il keçir. Həmin kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edirlər.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak etdilər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Birinci vitse-prezident Mehriban Əliyeva, Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev abidənin önünə gül dəstələri qoydular.




Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anım mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzdülər.

Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşən, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etdilər.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları və başları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşə-




riyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürəkağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras və digər ölkələrin parlamentləri, eləcə də ABŞ-ın bir sıra ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.

# Prezident İlham Əliyev Xocalı soyqırımı ilə əlaqədar müsahibə verib

## Prezident İlham Əliyev "Rossiya-24" telekanalının müxbirinə müsahibə verib




Müsahibə telekanalın Xocalı soyqırımı ilə əlaqədar efirə gedən reportajında yer alıb.

Müsahibə təqdim olunur.

**Müxbir:** İlham Heydər oğlu, ağır səhərdir. Hansı düşüncələrlə buraya gəlmisiniz, hansı fikirlərlə yuxudan oyanmısınız? Deməliyəm ki, Rusiyada rusiyalılar bu faciəni xatırlayırlar və bu günü ehtiramla yad edirlər. Hansı düşüncələrlə bu gün buraya gəlmisiniz?

**Prezident İlham Əliyev:** İlk növbədə, belə bir gündə bizimlə birlikdə olmaq və Azərbaycan xalqının faciəsinə münasibət bildirmək üçün Bakıya gəldiyinizə görə sizin telekanala təşəkkür etmək istəyirəm. Mən bunu çox yüksək qiymətləndirirəm və buna görə sizə minnətdaram. Bu gün Azərbaycan xalqının tarixində ən qanlı səhifələrdən biridir, azərbaycanlıların soyqırımı günüdür. Bu günü Azərbaycan xalqı həmişə yadda saxlayacaq və heç vaxt unutmayacaq. Ermənistan 26 il əvvəl azərbaycanlılara qarşı soyqırımı törədib. Bunun nəticəsində 613 dinc sakin öldürülüb, onlardan 106-sı qadın, 63-ü uşaqdır. 1200-dən çox dinc sakin əsir düşüb və işgəncələrə məruz qalıb, 500-ə qədər insan əlil olub, 150 dinc sakin barədə isə heç bir məlumat yoxdur. Onlar itkin düşmüş sayılırlar, amma onların öldürüldüyü ehtimalı daha çoxdur. Həmin müdhiş gün, həmin qanlı faciə barədə çox sayda video, foto materiallar, möcüzə nəticəsində sağ qalmış insanların şahidliyi var. Bu, erməni faşizminin təzahürü idi. Bu, vəhşiliyin təzahürü idi.

Bu gün bütün dünyada “Xocalıya ədalət!” kampaniyası genişlənir. Bu günlər dünyanın bir çox ölkələrində matəm tədbirləri keçirilir. Bu günlər Azərbaycanın diaspor təşkilatları, ictimaiyyət “dəyirmi masa”lar, təqdimatlar, sərgilər keçirir. Bütün foto və video sənədlər bu böyük faciə haqqında şahidlik edir. Biz bunu xatırlayırıq. Bunu heç vaxt unutmayacağıq. Bu faciənin heç vaxt təkrarlanmaması üçün Azərbaycan daha güclü olmalıdır. Siz mənim bu matəm gününü hansı hisslərlə qarşıladığımı soruşdunuz – hər bir azərbaycanlının keçirdiyi hisslərlə, günahsız öldürülənlərə görə dərd, kədər, qurbanlara görə ağrı hissi, eyni zamanda, ölkəmizi möhkəmləndirmək qətiyyəti ilə. Azərbaycan xalqının gələcəkdə heç vaxt belə faciə ilə üzləşməməsi üçün ölkəmizin iqtisadi, hərbi potensialını möhkəmləndirməliyik.

**Müxbir:** İlham Heydər oğlu, bu müsahibəyə, bizimlə vaxt tapıb görüşdüyünüzə görə təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Müxbir: Bu, dövlət üçün kədərlidir.**

**Prezident İlham Əliyev:** Bu gün bizimlə burada olduğunuza görə bir daha sizə təşəkkür etmək istəyirəm. Çox sağ olun.

**Müxbir:** İştirak etməkdən məmnun olduq.

# Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub

## Sükut dəqiqəsi

Fevralın 26-da Bakı vaxtı ilə saat 17:00-da Azərbaycanın bütün ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Həmin anda paytaxtın küçələrində nəqliyyat vasitələrinin hərəkəti dayandırılıb. Ölkəmizin şəhər və rayonlarında, kənd və qəsəbələrində Azərbaycanın dövlət bayraqları endirilib.

Azərbaycan paytaxtının on minlərlə sakini fevralın 26-da səhər saatlarından başlayaraq Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edərək, şəhidlərin xatirəsini ehtiramla anırlar, abidənin önünə qərənfillər düzürlər.

Respublikamızın bütün şəhər və bölgələrində, xarici ölkələrdə anım mərasimləri keçirilir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

# Prezident İlham Əliyev yanğın baş verən Respublika Narkoloji Mərkəzinə gələrək vəziyyətlə tanış olub

**Bakı şəhərinin Xətai rayonundakı Respublika Narkoloji Mərkəzində yanğın baş verib**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dərhal hadisənin baş verdiyi Respublika Narkoloji Mərkəzinə gələrək vəziyyətlə tanış olub.

Aidiyyəti qurumların rəhbərləri yanğının başvermə səbəbləri və nəticələri barədə dövlətimizin başçısına məlumat verdilər.

Yanğın martın 2-də saat 06.10-da beş korpusdan ibarət Respublika Narkoloji Mərkəzinin bir korpusunda baş verib. Hadisə yerinə dərhal Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin canlı qüvvəsi, texnikası, Səhiyyə Nazirliyinin Təcili Tibbi Yardım xidmətləri cəlb edilib. Ərazinin mühafizəsi və xilasedicilərin maneəsiz fəaliyyəti Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayının və Xətai Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən təmin olunub. Operativ surətdə həyata keçirilən tədbirlərlə korpusda olan 55 nəfərdən 30-u xilas edilib, onlardan 3-ü Səhiyyə Nazirliyinin Respublika Toksikologiya Mərkəzinə yerləşdirilib. Yanğın saat 08:30-da söndürülüb. Hadisə yerinin müayinəsi zamanı 25 nəfərin cəsədi aşkar edilib.

Fakt üzrə Baş Prokurorluq tərəfindən dərhal cinayət işi başlanılıb, həmçinin Baş Prokurorluğun, Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin təcrübəli əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb. İlkin araşdırmaların nəticələrinə görə yanğın binanın elektrik şəbəkəsində yaranan nasazlıq səbəbindən baş verib.

Dövlət başçısı hadisənin nəticələrinin tez bir zamanda aradan qaldırılması və yanğının səbəblərinin araşdırılması ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsi ilə əlaqədar müvafiq tapşırıqlarını verdi.

Prezident İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətinin başçısına və səhiyyə nazirinə həlak olanların ailə üzvlərinə kömək göstərilməsi və zərərçəkənlərə təcili olaraq lazımi tibbi yardım edilməsi ilə bağlı göstərişlər verdi.

Həyata keçirilən tədbirlər Azərbaycan Prezidentinin şəxsi nəzarətindədir.

***

Baş vermiş və ağır nəticələrə səbəb olmuş yanğın faktına görə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində Cinayət Məcəlləsinin 225.2 (yanğın təhlükəsizliyi qaydalarını pozma, ağır nəticələrə səbəb olduqda) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanmış, hadisənin baş vermə səbəblərinin müəyyənləşdirilməsi məqsədi ilə müvafiq ekspertizalar təyin olunmuşdur.

Hazırda iş üzrə Baş Prokurorluq, Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu tərəfindən zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

# Prezident İlham Əliyev 8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib

## 8 mart – Beynəlxalq Qadınlar Günü münasibəti ilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi, bütün Azərbaycan qadınlarını 8 mart – Beynəlxalq Qadınlar günü münasibətilə ürəkdən təbrik edirəm. Hər birinizə cansağlığı, səadət və işlərinizdə nailiyyətlər arzulayıram.

Sivilizasiyaların qovuşuğunda özünün misilsiz mədəni-mənəvi sərvətlər xəzinəsini yaratmış xalqımızın bu çoxəsrlik zəngin irsinin yaşadılmasında, milli düşüncəmizin parlaq ifadəçisinə çevrilmiş dilimizin saflığının qorunub saxlanılmasında analarımızın müstəsna xidmətləri vardır. Ədəbiyyatımızda daim gözəlliyin və zərifliyin mücəssəməsi, sədaqətin və ülviliyin rəmzi kimi vəsf olunan dərin mənəviyyatlı Azərbaycan qadını, həmçinin güclü iradəsi, vətənpərvərliyi və fədakarlığı ilə seçilərək yurdun mübarizə salnaməsində silinməz izlər qoymuşdur. Keçmişimizin mürəkkəb sosial-siyasi dəyişikliklərə məruz qaldığı müəyyən dövrlərdə o, həmişə təmkinlilik nümayiş etdirməklə cəmiyyətin sarsılmaz mənəvi dayağı olduğunu sübuta yetirmişdir.

Yüzüncü ildönümünü təntənə ilə qeyd etməyə hazırlaşdığımız Azərbaycan Xalq Cümhuriyyətinin Şərq aləmində ilk dəfə qadınlara seçmək və seçilmək hüququ verməsi məhz ictimai-siyasi fikir və mədəniyyət tariximizin görkəmli simalarının cəmiyyətin ahəngdar inkişafında, taleyüklü məsələlərin ədalətli həllində qadınların fəaliyyətini layiqincə qiymətləndirmələrinin nəticəsidir. Ötən müddət ərzində Azərbaycan xanımları maarifpərvər sələflərinin ənənələrini şərəf və ehtiramla davam etdirmiş, müasirləşmə yolunda çoxsaylı müvəffəqiyyətlər qazanmış və müstəqillik naminə ümumxalq hərəkatının ön sıralarında olmuşlar.

Dövlətçiliyimizin əsaslarının möhkəmləndirilməsinə və ölkəmizin hərtərəfli yüksəlişinin təmin olunmasına yönəlmiş yaradıcı potensialınızı siz bu gün də uğurla gerçəkləşdirməkdəsiniz. Dinamik sosial-mədəni həyatımızın fəal iştirakçıları olaraq sizin milliliklə müasirliyin vəhdətində indiki yüksək nüfuzunuz və ictimai mövqeyinizlə fəxr edə bilərik. Əminəm ki, müqəddəs ailə dəyərlərimizin toxunulmazlığı keşiyində dayanmaqla bərabər gənc nəslin doğma yurdumuza və milli ideallarımıza bağlılıq ruhunda tərbiyəsi üçün bundan sonra da qüvvənizi əsirgəməyəcək, ictimai-mənəvi mühitimizin davamlı zənginləşməsinə yeni-yeni töhfələr verəcəksiniz.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 mart 2018-ci il.

# Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, səadət və uğurlar diləyirəm.

Azərbaycan torpağında qədim tarixi köklərə malik Novruz bayramı uzaq keçmişlərdən mənəvi dünyamızın ən dərin qatlarınadək nüfuz etmiş, müqəddəs dəyərlərimizin təşəkkülünə töhfələr vermiş və milli düşüncə tərzimizin ayrılmaz tərkib hissəsi olmuşdur. Əcdadımızın nikbin həyat fəlsəfəsini dolğun nümayiş etdirən bu bayram Uca Tanrının nemətlərinə minnətdarlıq duyğusunun təcəssümü, böyük hikmətlə yaradılmış təbiətin ilahi nizamına ehtiramın təzahürüdür. Yurdumuzun çoxəsrlik mədəni sərvətlər xəzinəsində Novruz şərəfli yer tutur.

Gələcəyə inamımızı sarsılmağa qoymayaraq bizi ümidlərlə yaşadıb daim yolumuzu işıqlandıran Bahar bayramına fikir tariximizin görkəmli nümayəndələri həmişə rəğbət bəsləmişlər. Novruz bayramı azadlıq və istiqlal duyğularımızın ifadəsinə çevrilməklə möhtəşəm yubileyi ərəfəsində olduğumuz Azərbaycan Xalq Cümhuriyyətinin gerçəkləşməsi və XX əsrin sonlarına doğru xalqımızın müstəqil dövlətçilik idealına yenidən qovuşması üçün zəmin hazırlamış milli özünüdərk amillərindəndir.

Qloballaşma dalğasının sürətlə yayıldığı və dəyişikliklərin qaçılmaz şəkil aldığı indiki dövrdə yazın ölkəmizə gəlişinin ənənəvi rəngarəng mərasimlərlə müşayiət olunması milli köklərə bağlılığımızın təntənəsidir. İnsanlığa xas ülvi dəyərləri yaddaşında toplamış bu əziz bayramın cəmiyyətimizin üzvlərinin vahid mənəviyyat ətrafında daha da yaxınlaşması baxımından müstəsna əhəmiyyəti vardır. Novruzun ümumdünya qeyri-maddi mədəni irsinin şah əsərləri sırasına daxil edilməsi qəlbimizi fərəh hissi ilə doldurur.

Ahəngdar və dinamik yüksəlişə müvəffəq olmuş Azərbaycan bu gün sürətli modernləşmə mərhələsindədir. Ölkəmizin dayanıqlı inkişafına yönələn mühüm islahatlar və hər sahədə özünü göstərən davamlı müasirləşmə meyilləri yaz fəslinin qurub-yaratmaq əzmimizi artıran yeniləşdirici ovqatı ilə həmahəngdir. 2018-ci ilin ictimai-siyasi həyatımızda əlamətdar hadisələrlə zənginliyi bayramın Odlar yurduna builki gəlişinə xüsusi məna qazandırır. Əminəm ki, varlığımızdakı tükənməz yenilikçilik ruhu sayəsində ümummilli mənafelər naminə bütün sınaqlardan bundan sonra da alnıaçıq çıxacaq və taleyüklü məsələlərin layiqincə həllinə nail olacağıq.

Baharı azərbaycançılıq məfkurəsi işığında dünyanın müxtəlif guşələrində bizimlə birgə qarşılayan soydaşlarımıza təbriklərimi yetirirəm. Qoy həmrəyliyimizin rəmzi olan bu el bayramı hər evə xoş əhval gətirsin, hər ocağa bol sevinc, ruzi-bərəkət və firavanlıq bəxş eləsin.

Novruz bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 mart 2018-ci il.

# Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Novruz şənliyində iştirak ediblər**

Martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı – Novruz münasibətilə ümumxalq şənliyi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Novruz şənliyində iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər.

Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnılarının sədaları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.

Bahar qız dövlətimizin başçısına səməni təqdim etdi.

İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.

Ulu Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.

Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.






Novruz
2018



## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

– Əziz dostlar, mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Novruz bayramı bizim sevimli bayramımızdır. Əsrlər boyu Azərbaycan xalqı bu bayramı qeyd edir, öz qəlbində yaşadır. Milli-mənəvi dəyərlərimiz müasir Azərbaycan dövlətinin əsas dayağıdır. Azərbaycan dövləti müasir dövlətdir, ancaq, eyni zamanda, bizim dövlətimiz dərin milli-mənəvi dəyərlər, köklər üzərində qurulubdur. Elə etməliyik ki, gənc nəsil də milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alsın. Onlar da bizim kimi Vətənə bağlı olsunlar, milli maraqlarımızı hər şeydən üstün tutsunlar.

Azərbaycan Novruzu gözəl nəticələrlə qarşılayır. Ölkəmiz hərtərəfli inkişaf edir. Aparılan quruculuq işləri ölkəmizi gücləndirir, Azərbaycanın beynəlxalq nüfuzunu artırır. Daxili vəziyyət sabitdir. Bu sabitliyin əsas təminatçısı Azərbaycan xalqıdır. Xalq-iqtidar vəhdəti sabitliyin əsas təminatçısıdır. Daxili siyasətlə bağlı görülən işlər, aparılan islahatlar öz gözəl nəticələrini verməkdədir. Dünyada gedən proseslər bir daha onu göstərir ki, ancaq sabit olan ölkələr uğurla inkişaf edə bilər. Ancaq sabit olan ölkələrə xarici sərmayə qoyulur, insanlar rahat, təhlükəsizlik şəraitində yaşayırlar. Bu gün dünyanın müxtəlif yerlərində sabitlik pozulur, qanlı toqquşmalar baş verir, müharibələr alovlanır, yeni risklər yaranır. Bu gün dünya gündəliyinin əsas məsələsi məhz təhlükəsizlik məsələləridir. Azərbaycan bu istiqamətdə apardığı siyasətlə dünyada böyük rəğbət qazanmış ölkələrdən biridir. Ölkəmizdə daxili risklər üçün heç bir mənbə yoxdur. Xarici risklərdən isə biz özümüzü qoruyuruq və bundan sonra da qoruyacağıq, Azərbaycan xalqının rahat yaşamasını təmin edəcəyik.

Bizim beynəlxalq əlaqələrimiz genişlənir. Bu gün



Azərbaycan dünya miqyasında çox yüksək reputasiyaya malik olan bir ölkədir və bizim təşəbbüslərimiz regional əməkdaşlığa təkan verir. Bir neçə gün bundan əvvəl VI Qlobal Bakı Forumu keçirilmişdir. Bu forumda 50-dən çox ölkədən 50-yə yaxın fəaliyyətdə olan və sabiq dövlət və hökumət başçısı iştirak etmişdir. Deyə bilərəm ki, Qlobal Bakı Forumu dünyada keçirilən ən mötəbər forumların arasında qısa müddət ərzində özünəlayiq yer tuta bilmişdir. Bu gün Bakı Forumunda müzakirə olunan məsələlər hesab edirəm ki, dünya üçün çox əhəmiyyətlidir. Gələn ay Bakıda Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin konfransı keçiriləcəkdir. Bu da qlobal, mötəbər beynəlxalq tədbirdir. Bu tədbirin Azərbaycanda keçirilməsi Qoşulmama Hərəkatı və təşkilata üzv ölkələr tərəfindən bizə verilən növbəti dəstəyin təzahürüdür.

Azərbaycan regional əməkdaşlıq məsələlərində bir çox hallarda təşəbbüskar kimi çıxış edir. Bir neçə gün bundan əvvəl tarixdə ilk dəfə olaraq Bakıda Azərbaycan, İran, Gürcüstan və Türkiyənin xarici işlər nazirlərinin birinci görüşü keçirilmişdir. Hesab edirəm ki, bu, tarixi hadisədir, tarixi görüşdür. Bundan əvvəlki dövrlərdə yenə də bizim təşəbbüsümüzlə bir neçə regional format yaranmış və uğurla fəaliyyət göstərir. Azərbaycan-İran-Gürcüstan, Azərbaycan-İran-Türkiyə, Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Rusiya üçtərəfli və nəhayət Azərbaycan-İran-Gürcüstan-Türkiyə dördtərəfli formatlar yaranmışdır. Qeyd etməliyəm ki, bütün bu çoxtərəfli formatların təşəbbüskarı Azərbaycan olmuşdur. Bu, bölgədə sabitliyi möhkəmləndirir, əməkdaşlığı gücləndirir və bu formatlarda iştirak edən ölkələrin iqtisadi maraqlarını təmin edir. Müzakirə olunan məsələlər siyasi, iqtisadi, mədəni, nəqliyyat və digər sahələri əhatə edir. Bildiyiniz kimi, bizim təşəbbüsümüzlə regionda çox böyük nəqliyyat layihələri icra edilir. Şərq-Qərb nəqliyyat marşrutu artıq reallaşıb. Keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun açılmasından sonra artıq bu marşrut fəaliyyətdədir. Yaxın gələcəkdə Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tam gücü ilə işləməsi nəticəsində Azərbaycan ərazisindən keçən yüklərin həcmi bir neçə dəfə artacaqdır. Hazırda biz Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə məşğuluq. Azərbaycan ərazisində bu marşrutla bağlı bütün işlər görülübdür. Eyni zamanda, Azərbaycan bu marşrutun tam həyata keçirilməsi üçün əlavə tədbirlər görəcəkdir. Həmçinin bu iki önəmli nəqliyyat dəhlizi yeni təşəbbüslərlə çıxış etmək üçün bizə imkan yaratdı və Bakıda dörd ölkənin xarici işlər nazirlərinin görüşündə, eyni zamanda, Cənub-Qərb

nəqliyyat marşrutu müzakirə edildi. İlk dəfə olaraq, yenə də bizim təşəbbüsümüzlə. Beləliklə, baxmayaraq ki, Azərbaycanın açıq dənizlərə çıxışı yoxdur, biz Avrasiyanın önəmli nəqliyyat mərkəzinə çevriləcəyik və bu istiqamətdə artıq gözəl nəticələr var.

Bir daha demək istəyirəm ki, regional əməkdaşlıq sabitliyi möhkəmləndirir, əməkdaşlığı gücləndirir. Biz bu regionda yaşayırıq, ona görə əlbəttə ki, regional dövlətlərlə bizim uğurlu əməkdaşlığımız davam edəcəkdir.

Biz digər beynəlxalq təşkilatlarla, Avropa İttifaqı ilə fəal əməkdaşlıq aparırıq. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Bu gözəl mənzərə fonunda Ermənistan bütün regional əməkdaşlıq formatlarından tamamilə kənarda qalıbdır. Bu da təbiidir. Çünki bizim siyasətimiz məhz bundan ibarətdir. Ermənistan bütün məsələlərdən təcrid olunmuş vəziyyətdədir, bir dənə də olsun regional əməkdaşlıq formatında iştirak etmir. Təkcə ona görə yox ki, biz buna imkan vermirik, – halbuki, hesab edirəm, bu, əsas amildir, – eyni zamanda, ona görə ki, Ermənistan nə siyasi, nə iqtisadi, nə nəqliyyat baxımından heç bir maraq doğurmur. Siyasi baxımdan bu ölkə müstəqil deyil, bu, satellit ölkədir. Ermənistanın gələcəyi ilə bağlı ölkə daxilində qəbul edilmiş qərarlar böyük məna daşımır. Bu ölkəyə iqtisadi cəhətdən heç bir investisiya qoyulmur, investorlar maraqlı deyillər. Burada bir neçə amil rol oynayır, birinci növbədə, baş alıb gedən rüşvətxorluq, oğurluq, korrupsiya halları, digər tərəfdən vətəndaşların kütləvi surətdə Ermənistandan çıxması, yəni, köç kütləvi xarakter alıbdır. İnvestisiya iqlimi çox bərbaddır və bazar məhdudluğu imkan vermir ki, bu ölkəyə investisiya qoyulsun.

Belə bir mənzərə ilə üzləşən Ermənistan xalqı bir daha çox ciddi fikirləşməlidir və anlamalıdır ki, Ermənistan rəhbərliyinin Azərbaycana qarşı işğalçı siyasətinin gələcəyi yoxdur. Azərbaycan öz ərazi bütövlüyünü onsuz da bərpa edəcəkdir. Ancaq Ermənistan son illər ərzində bölgədə gedən regional əməkdaşlıq proseslərindən tam təcrid olunmuş vəziyyətdədir. Onlar siyasi səhnədə məğlub olublar, bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyir. BMT, onun Təhlükəsizlik Şurası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, AŞPA, digər təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edən çoxsaylı qərar və qətnamələr qəbul etmişlər. Yəni, bu, Ermənistanın siyasi məğlubiyyətidir. Onlar diplomatik cəbhədə məğlubiyyətə uğrayıblar. Dağlıq Qarabağda keçirilmiş qondarma “referendum” heç bir ölkə tərəfindən tanınmayıb, beynəlxalq təşkilatlar da bunu tanımayıblar. Bu, bir daha təsdiqləyir ki, Dağlıq Qarabağ Azərbaycanın torpağıdır, Azərbaycanın əzəli torpağıdır və Azərbaycanın ayrılmaz hissəsidir.

Nəqliyyat siyasəti ilə bağlı Ermənistan dalan ölkədir və açıq deməliyik ki, bunu biz etmişik.

İki il bundan əvvəl Ermənistan döyüş meydanında üzləşdiyi məğlubiyyətdən bu günə qədər də özünə gələ bilmir. Bu gün Azərbaycan bayrağı Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının vaxtilə işğal altında olan torpaqlarında dalğalanır. Gün gələcək ki, bizim bayrağımız Şuşada və Xankəndidə dalğalanacaqdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ancaq və ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Bunun başqa yolu yoxdur. Dəfələrlə demişəm, bir daha demək istəyirəm, bunu hamı bilsin ki, Azərbaycan heç vaxt imkan verə bilməz ki, bizim tarixi torpaqlarımızda ikinci erməni dövləti yaradılsın. Dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, bugünkü Ermənistanın ərazisi tarixi Azərbaycan torpaqlarıdır. Bunu təsdiqləyən çoxsaylı kitablar, xəritələr var. O xəritələrdə indiki Ermənistanın ərazisindəki toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Tarixi kitablarda göstərilir ki, XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin mütləq əksəriyyəti, daha doğrusu 80 faizi azərbaycanlılar olub. Bu, tarixdir, tarixi həqiqətdir. Bunu bilməyənlər də bilsinlər və ən önəmlisi Azərbaycan gəncləri bunu bilsinlər. Bilsinlər ki, indiki Ermənistanın böyük hissəsi Azərbaycanın tarixi torpağıdır. Biz bunu heç vaxt unutmuruq və unutmayacağıq.

Biz uğurla inkişaf edirik. Azərbaycan iqtisadi sahədə də böyük uğurlara imza atıb. Biz bu bayramı gözəl iqtisadi nəticələrlə qarşılayırıq. İki ayda ümumi daxili məhsul 1,3 faiz, qeyri-neft sektorunda isə 2,3 faiz artmışdır. Sənaye istehsalı 1,4 faiz, qeyri-neft sektorunda isə 8,4 faiz artmışdır. Kənd təsərrüfatı məhsullarının istehsalı təxminən 4 faiz, əhalinin gəlirləri isə 10,2 faiz artmışdır. İnflyasiya 4,7 faizdir. Yəni, bizim nəzərdə tutduğumuz vəzifələr icra edilir. İki ayda valyuta ehtiyatlarımız 2,1 milyard dollar artmışdır və hazırda 44 milyard dollara bərabərdir. Bu, böyük rəqəmdir. Biz valyuta ehtiyatlarımızı il ərzində daha da artıracağıq. Manatın məzənnəsi sabitdir. Bütün infrastruktur layihələri uğurla icra edilir. Bir sözlə, son müddət ərzində iqtisadi siyasətlə bağlı aparılan ciddi islahatlar öz gözəl nəticələrini vermişdir. Biz bu islahatları dərinləşdirəcəyik, bundan sonra da aparacağıq və Azərbaycan iqtisadiyyatının dayanıqlılığını bundan sonra da təmin edəcəyik.

Bu rəqəmlər özlüyündə bir göstəricidir və təbii ki, bizim siyasətimizi, aparılan işləri göstərir. Eyni

zamanda, Azərbaycan ictimaiyyəti bunu bilir. Bunu bir daha demək istəyirəm ki, beynəlxalq maliyyə qurumları da bizim islahatlarımızı yüksək qiymətləndirirlər. Aparıcı beynəlxalq maliyyə institutları bizim islahatlarımıza yüksək qiymət verirlər. O ki qaldı, dünyanın bir nömrəli iqtisadi forumunun – Davos Forumunun hesablamalarına görə, – bu rəqəmlər dəfələrlə səslənib, bir daha səsləndirmək istəyirəm, – bu gün Azərbaycan dünyanın 35 ən rəqabətqabiliyyətli ölkəsi arasındadır.

Bizim uğurlu iqtisadi islahatlarımız çox ciddi sosial siyasətlə tamamlanır. Həmişə demişik ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Köklü iqtisadi islahatlar bəzən sosial sahəyə mənfi təsir göstərir. Ona görə hətta əvvəlki illərdə – bir-iki il bundan əvvəl iqtisadi böhran dövründə bir dənə də olsun sosial proqram ixtisara düşməmişdir, bütün sosial öhdəliklər vaxtında yerinə yetirilmişdir. İmkanlarımız artdıqca biz dərhal sosial məsələlərə daha da böyük diqqət göstərməyə başladıq. Daha doğrusu, daha böyük maliyyə vəsaiti ayırmağa başlamışıq. Bu il büdcədən maliyyələşən təşkilatlarda əməkhaqqı 10 faiz artmışdır. Əgər biz dünya xəritəsinə baxsaq, görərik ki, indiki dövrdə nadir ölkələrdə maaşlar artır. Biz imkan daxilində bunu edirik və bundan sonra da edəcəyik. Bir daha demək istəyirəm ki, iqtisadi göstəricilərimiz müsbətə doğru getməyə başlayandan dərhal sonra biz, ilk növbədə, sosial məsələlərin həllinə o maliyyəni ayırdıq. Maaşların, müavinətlərin, pensiyaların artırılmasına bu il büdcədən yüz milyonlarla manat vəsait ayrılır. Bu, bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, bizim əsas vəzifəmiz ondan ibarətdir ki, Azərbaycan vətəndaşları daha yaxşı yaşasınlar, onların rifah halı yaxşılaşsın, Azərbaycanda iqtisadi və sosial islahatlar bir-birini tamamlayaraq ölkəmizin inkişafına xidmət etsin.

Regionlarda böyük abadlıq-quruculuq işləri görülür. Bu il icra edilən Dövlət İnvestisiya Proqramı imkan verəcək ki, bölgələrdə bir çox məsələlər öz həllini tapsın. Sosial infrastruktur, məktəblər, xəstəxanalar, idman kompleksləri, yollar, digər infrastruktur layihələri. Keçən il 500 kəndin yolu salınmışdır, bu il ən azı 600-dən çox kəndin yolu salınacaqdır. Rayonlarımızın siması gözəlləşir, abadlaşır.

Artıq bu, həqiqətdir, Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilibdir. Bakıya gələn hər bir qonaq bunu qeyd edir. Bu gün Bakı doğrudan da, gözəlliyi, tarixi, insanların qonaqpərvərliyi baxımından turistlər üçün ən cəlbedici istiqamətlərdən birinə çevrilibdir. Ölkəmizə gələn turistlərin artan sayı bunun gözəl sübutudur. Gələn qonaqların sayı 2016-cı ildə 24 faiz, 2017-ci ildə 20 faiz, bu ilin iki ayında isə 12 faiz artmışdır. Hər bir gələn qonaq, hər bir qərəzsiz gələn qonaq əlbəttə ki, Bakının gözəlliyini etiraf edir, bunu görür, sonra sosial şəbəkələrdə öz çəkdiyi kadrları paylaşır. Bakı bizim qürur mənbəyimizdir, bizim tarixi şəhərimizdir, qədimliyi ilə müasirliyi özündə birləşdirən nadir şəhərlərdən biridir. Bakının inkişafı, gözəlləşdirilməsi, müasir infrastrukturunun yaradılması üçün bundan sonra da əlavə tədbirlər görüləcəkdir.

Biz indi qədim Qız qalasının önündə bu bayramı qeyd edirik. Qız qalası Bakının qədim rəmzidir və bizim böyük tarixi abidəmizdir. Ancaq, eyni zamanda, bu gün Bakının müasir rəmzləri də vardır. Onların arasında Heydər Əliyev Mərkəzi dünyanın ən gözəl binalarından biridir və bunu müxtəlif sorğular, reytinqlər təsdiqləyir. Alov Qüllələri həm Bakının rəmzini – alovu əks etdirir, eyni zamanda, göylərə ucalan binalar Azərbaycanın inkişafını göstərir və Bakıya əlavə gözəllik verir. Vaxtilə 3,5 kilometr olan bizim tarixi bulvarımızın uzunluğu indi 16 kilometrə çatıbdır və hər yer abadlaşıb, gözəlləşib. Hesab edirəm ki, bu, dünya miqyasında nadir istirahət və gəzinti zonasıdır. Yeni yollar, parklar, xiyabanlar salınır. Bakı bu gün parklar, bağlar şəhəridir.

Bakının ekoloji vəziyyəti yaxşılaşır. Vaxtilə şəhərimizin havasını çirkləndirən Balaxanı zibilxanası tamamilə aradan götürülübdür, indi park salınıbdır. Böyükşor gölü. Onun bir hissəsi, birinci mərhələsi tamamlanıb və təmizlənib. Bibiheybət buruqları ekoloji fəlakət mənzərəsi idi. Bu gün orada park, idman şəhərciyi salınıb. Bakının o hissəsi ilə bağlı bizim əlavə planlarımız var. Yeni yollar salınır. Vaxtilə tikilmiş və yararsız vəziyyətə düşmüş binalar sökülür, vətəndaşlara kompensasiya ödənilir və həmin binaların yerində yeni ictimai zonalar yaradılır. Yəni, Bakının gələcək inkişafı ilə bağlı bizim böyük planlarımız var. Bakının nəqliyyat problemləri də həll olunur. Bakıda onlarla körpü, yol qovşağı tikilmişdir. Əgər vaxtilə tikilməsəydi, biz indi tıxacdan hərəkət edə bilməzdik. Şəhərimizin gələcək hərtərəfli inkişaf planı da diqqət mərkəzindədir. Şəhərimizin hər bir yerində abadlıq işləri getməlidir və əminəm ki, gedəcəkdir.

Əziz dostlar, bir daha demək istəyirəm ki, biz bu gözəl bayramı gözəl nəticələrlə, yaxşı əhval-ruhiyyə ilə qarşılayırıq. Əminəm ki, 2018-ci il də, ondan sonrakı illər də ölkəmiz üçün uğurlu olacaq. Azərbaycan uğurla inkişaf edəcək, qarşıda duran bütün vəzifələr icra ediləcək və ölkəmiz bundan sonra da bir çox ölkələr üçün nümunə olacaqdır.

Sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn gözəl bayram münasibətilə bir daha təbrik edirəm, bütün Azərbaycan xalqına uğurlar, cansağlığı, əmin-amanlıq və sülh arzulayıram. Sağ olun.



Sonra Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ümumxalq şənliyinin iştirakçıları Dənizkənarı Milli Parka gəldilər.

Azərbaycanın müxtəlif bölgələrindən gələn özfəaliyyət dərnəklərinin, rəqs və mahnı qruplarının çıxışları maraqla qarşılandı.

Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar.

Prezidenti və xanımını Kosa və Keçəl bayram münasibətilə təbrik etdilər, dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bayram konsertinə baxdılar.






Dövlətimizin başçısı, xanımı və ümumxalq şənliyinin digər iştirakçıları Novruz bayramı münasibətilə təşkil olunan "Şərq bazarı" ilə tanış oldular.

Burada bərəkətli Azərbaycan torpağında yetişdirilmiş məhsullar nümayiş etdirilir. Paytaxtla yanaşı, regionların da fəal qoşulduğu yarmarkada kənd təsərrüfatı məhsulları ilə yanaşı, əl işləri, sənətkarlıq nümunələri, milli mətbəximizə dair müxtəlif məhsullar təqdim olunur. Yarmarkada yaradılan şərait göstərir ki, son dövrlərdə ölkəmizdə aparılan siyasət nəticəsində digər sahələrdə olduğu kimi, kənd təsərrüfatında da mühüm nailiyyətlər qazanılıb. Bu gün Azərbaycan özünü keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin edir. Bu isə ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Bundan əlavə, ekoloji cəhətdən təmizliyi ilə seçilən məhsullarımıza dünyada da böyük maraq və tələbat var.

Xalqımızın qədim ənənələrini, dəyərlərini, mətbəxini, məişətini əks etdirən stendlər Milli Parkda təşkil olunan bayram şənliyinə xüsusi çalar qatırdı. Burada ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları və hazırlanmış sənətkarlıq nümunələri maraqla qarşılandı. Bir tərəfdə isə gənc pəhləvanlar qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər. Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş etdirildiyi şənlikdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də yer almışdı.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və şənliyin digər iştirakçıları bu səhnələri maraqla izlədilər, qədim el sənətlərinin nümunələrinə, Azərbaycan xalçalarına baxdılar, pəhləvanların, güləşçilərin çıxışlarını izlədilər, "Nənələr", "Rəfti", "Əvəsor" folklor özfəaliyyət kollektivlərinin, "Natiq" ritm qrupunun, aşıqların, Azərbaycan Dövlət Kukla Teatrının nəzdindəki "Oyuq" teatr-studiyasının kollektivinin ifalarını dinlədilər.

Çay süfrəsinə qonaq olan dövlətimizin başçısı və xanımı milli mətbəximizin müxtəlif nümunələrindən daddılar.

Azərbaycan Milli Kulinariya Mərkəzinin direktoru Tahir Əmiraslanov məlumat verdi ki, Novruz bayramı münasibətilə milli mətbəximizə aid xüsusi olaraq 27 poçt markası hazırlanıb.

Prezident və xanımı poçt markalarını imzaladılar.

Novruz xalqımızın tarixi yaddaşından süzülüb gələn ənənələri yaşadan, keçmişimizi və gələcəyimizi bir-biri ilə bağlayan bayramdır. Elə bu səbəbdəndir

ki, sovet hakimiyyəti illərində həyata keçirilən siyasət digər milli-mənəvi dəyərlərimiz kimi, Novruzu da Azərbaycan xalqının şüurundan silə bilmədi. Hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunmasında və inkişafında tarixi şəxsiyyətlərin də üzərinə böyük vəzifələr düşür. Ulu öndər Heydər Əliyevin tariximiz qarşısındakı xidmətləri sırasında Novruzun yenidən xalqımıza qaytarılması kimi ümummilli məsələ də var. Çünki məhz Heydər Əliyevin sayəsində ümumi mədəni hərəkatın tərkib hissəsi kimi milli bayramımız olan Novruz ötən əsrin 70-80-ci illərində əvvəlki dövrlərlə müqayisədə kütləvi qeyd olunmağa başladı. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə Novruz təntənələri xalqımızın həyatına birdəfəlik daxil oldu. Bu gün Prezident İlham Əliyev də mədəni-mənəvi irsimizə xüsusi diqqətlə yanaşır. Novruzun gəlişi ilə bağlı dövlətimizin başçısının hər il xalqa ünvanladığı təbriklər də onun milli-mənəvi dəyərlərimizə böyük ehtiramla yanaşdığını göstərir.

Xalqımız özünün milli və tarixi ənənəsinə çevrilən Novruzu həmişə olduğu kimi, bu il də böyük sevinclə qarşılayır. Yazın gəlişi, təbiətin, bütün canlıların oyanışı, gecə ilə gündüzün bərabərləşdiyi bir günlə bağlı olan bu bayram Azərbaycan xalqının milli düşüncəsini və milli ruhunu özündə əks etdirir.

2010-cu ildə BMT-nin qərarı ilə martın 21-i Beynəlxalq Novruz Günü elan olundu. Bu, böyük bir arealda yaşayan 200 milyondan çox insanın milli-mənəvi yaddaşına dünyanın ən mötəbər qurumu səviyyəsində verilən dəyərin təzahürü idi. Qədim tarixə malik Novruz həm də əcdadlarımızın bizə töhfəsi, onlardan qalan dəyərli mirasdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə paklığı, nəcib insani dəyərləri təcəssüm etdirir. Varlığın yenidən canlanmasını müjdələyən Novruz əsrlər boyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə səsləyir. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradıb.

Dövlətimizin başçısı və xanımı Azərbaycan Gimnastika Federasiyasının stendində bədii, aerobika, akrobatika və idman gimnastlarının nümunəvi çıxışlarına baxdılar. Diqqətə çatdırıldı ki, martın 15-18-də Milli Gimnastika Arenasında Beynəlxalq Gimnastika Federasiyasının idman gimnastikası üzrə dünya kuboku yarışları uğurla təşkil olunub. Bundan başqa, Azərbaycan Gimnastika Federasiyasının təşkilatçılığı ilə aprelin 12-15-də batut









gimnastikası, tamblinq və ikili mini batut üzrə 26-cı Avropa çempionatı, aprelin 27-29-da bədii gimnastika üzrə dünya kuboku, iyunun 22-23-də isə yeniyetmələr arasında Olimpiya Oyunlarına vəsiqə qazandıracaq idman gimnastikası üzrə təsnifat yarışları keçiriləcək.

Son illər ölkəmizdə sürətlə inkişaf edən idman növlərindən biri də velosiped idmanıdır. 2016-cı

ilin avqustunda İsmayıllı rayonunda "ISMA Bikes" velosiped istehsalı zavodunun fəaliyyətə başlaması ölkəmizdə bu idman növünün inkişafına böyük təkan verib. Hazırda bu müəssisədə istehsal olunan velosipedlərə daxildə və xaricdə böyük maraq var.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "ISMA Bikes" zavodunun istehsalı olan velosipedlərə baxdılar.

Qeyd olundu ki, 2018-ci il iyunun 5-9-da Azərbaycanda BMX velosipedi üzrə dünya çempionatı keçiriləcək. Çempionatda təxminən 2 min velosipedçinin iştirakı nəzərdə tutulur. Bu çempionatın keçiriləcəyi BMX treki beynəlxalq standartların dəyişməsi ilə əlaqədar ötən il tamamilə yenidən qurulub.

Prezident İlham Əliyevə BMX velosipedi üzrə dünya çempionatının ilk bileti təqdim olundu.

Son illər inkişafda olan idman növləri arasında cüdo da xüsusilə seçilir. Sentyabrın 20-27-də Bakıda cüdo üzrə dünya çempionatı keçiriləcək. Çempionatda 150-dək ölkədən 800-yə yaxın idmançının iştirakı gözlənilir. Azərbaycan milli komandası dünya çempionatında tam heyətlə iştirak edəcək. Yarışlar Milli Gimnastika Arenasında keçiriləcək.

Dövlətimizin başçısına cüdo üzrə dünya çempionatının ilk bileti təqdim edildi.

Azərbaycanda qılıncoynatma idmanının inkişafına da xüsusi diqqət yetirilir. İdmançılarımız bu il bir sıra beynəlxalq yarışlarda iştirak edəcəklər. Artıq 2005-ci il təvəllüdlü idmançılarımız Türkiyədə təşkil olunacaq beynəlxalq yarışa hazırlıq keçirlər. Bundan başqa, apreldə İtaliyada kadetlər və gənclər arasında dünya çempionatı, həmçinin şpaqa və sablya üzrə dünya kuboku yarışları baş tutacaq. İdmançılarımızın bu yarışlara hazırlığı çərçivəsində təlim-məşq toplanışları təşkil olunur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kəmər güləşi üzrə idmançıların çıxışlarını da izlədilər. Kəmər güləşi türkdilli xalqlar arasında tarixən mövcud olmuş qədim qurşaq güləşinin müasir versiyasıdır. Hazırda kəmər güləşi idman növündə müasir qaydalar tətbiq edilir. Azərbaycan idmançıları kəmər güləşi üzrə dünya və Avropa çempionatlarında bir sıra mükafatlar qazanıblar. İyulda idmanın bu növü üzrə Azərbaycan çempionatı keçiriləcək. Çempionatın qalibləri sentyabrda təşkil olunacaq dünya oyunlarında iştirak edəcəklər.

Ümumxalq şənliyində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərmarka" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Novruz bayramına həsr olunmuş xüsusi stend hazırlanıb. Stenddə ulu öndər Heydər Əliyevin portreti əks olunmuş, "Müslüm





Maqomayev", "Tofiq Quliyev", "Qara Qarayev", "Bakı 2017 IV İslam Həmrəyliyi Oyunları", "Standart buraxılış 2018", "Novruz", "2017", "Formula 1", "XXI Yay Olimpiya Oyunları – Rio 2016"ya həsr olunmuş markalar, "Avropa Oyunları 2015", "Azərbaycan", "İçərişəhər", "Qarabağ", "Eurovision 2012" kitabları, habelə "Turizm", "Avropa" adlı bukletlər və s. poçt məhsulları nümayiş etdirilir.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, "Azərmarka" MMC tərəfindən Azərbaycanın müstəqilliyinə, dövlət atributlarına, iqtisadi inkişafına, milli bayramlarına, memarlıq abidələrinə, görkəmli ictimai-siyasi xadimlərinə, beynəlxalq əhəmiyyətli mühüm tədbirlərə, Qarabağa aid poçt markaları çap olunaraq dövriyyəyə buraxılıb. Eyni zamanda, həmin markaların beynəlxalq aləmdə də yayımı təşkil edilib.

Dövlətimizin başçısı və birinci xanım Novruz bayramına həsr olunan markanın ilk nüsxəsini imzalayaraq möhürlədilər. Bununla da tarixi əhəmiyyət qazanan bu marka "Azərpoçt" MMC vasitəsilə dövriyyəyə buraxıldı.

Hazırda Bakı üçüncü dəfə Formula 1 yarışına hazırlaşır. Aprelin 27-29-da keçiriləcək Azərbaycan Qran-Prisinə hazırlıq işləri sürətlə davam etdirilir. Azərbaycanın bölgələrində gənclər, xüsusilə orta məktəblərin yuxarı sinif şagirdləri arasında Formula 1 yarışları, yol hərəkəti təhlükəsizliyi və avtomobil idmanı haqqında məlumatlılığın artırılması məqsədilə "Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti və Azərbaycan Avtomobil Federasiyası regionlarda avtoidman üzrə maarifləndirmə ayı çərçivəsində "Sənin sürət formulan" şüarı altında altı regionda simulyatorda Formula 1 çempionatı keçirib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin nümayəndələri ilə görüşdülər.

Azərbaycan Prezidenti onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirdi.

Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

Bayram şənliyi incəsənət ustalarının, el sənətkarlarının ifasında rəngarəng konsert proqramı ilə davam etdi.

# Baş Prokurorluqda əməliyyat müşavirəsi keçirilib

**Azərbaycanın prokurorluq orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində zəruri tədbirlər həyata keçirilib**



Yanvarın 5-də Baş Prokurorluqda 2017-ci ildə prokurorluq orqanları tərəfindən görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilmişdir.

Müşavirədə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırmışdır ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiq qalan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi hərtərəfli düşünülmüş müdrik dövlət siyasəti və səriştəli idarəçiliyi nəticəsində 2017-ci ildə dünyada mövcud olan siyasi, iqtisadi böhranlara baxmayaraq ölkə həyatının bütün sahələrində böyük irəliləyişlərə, müstəqil dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, vətənimizin iqtisadi qüdrətinin artırılması ilə nəticələnən möhtəşəm sosial-iqtisadi inkişaf göstəricilərinə nail olunmuşdur. Həyata keçirilən islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı öz dayanıqlılığını saxlaya bilmiş, iqtisadi sabitlik təmin edilmiş və aparılan ciddi və hərtərəfli iqtisadi islahatlar ölkənin gələcək inkişafı üçün perspektivlər açmışdır.

Bildirilmişdir ki, ötən il ölkəmizin hərtərəfli inkişafının parlaq gələcəyinə təminat verən qərarların qəbul edilməsi, regionda sabitliyə, xalqımızın

firavanlığına və iqtisadi inkişafa böyük töhfə verəcək Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istismara verilməsi, Azəri-Çıraq-Günəşli yataqları üzrə yeni sazişin imzalanmaqla "Əsrin Müqaviləsi"nin müddətinin uzadılması, ölkəmizdə "İslam Həmrəyliyi İli"nin elan edilməsi, paytaxt Bakının və respublikamızın digər guşələrinin ideal məkan sayılaraq mötəbər beynəlxalq iqtisadi, humanitar forumlara, dünya miqyaslı idman yarışlarına – "Formula-1 Azərbaycan Qran-Prisi", "IV İslam Həmrəyliyi Oyunları"na ev sahibliyi etməsi və bütövlükdə mövcud ictimai-siyasi sabitliyin qorunması, əhalinin güzəranının yaxşılaşdırılması, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, struktur və institusional islahatların sürətləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi kimi mühüm hadisələrlə yadda qalmışdır.

Müşavirədə ötən ildə ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisənin – Azərbaycan mədəniyyətinin təbliği, xalqlar arasında mədəni əlaqələrin daha da genişləndirilməsi, milli irsin, milli özünüdərkin və azərbaycançılıq ideyalarının qorunması istiqamətində əvəzsiz töhfələr vermiş Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyinatı xüsusi vurğulanmışdır.

2017-ci ildə ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində məqsədyönlü xarici siyasət tədbirləri davam etdirilməklə yanaşı, Milli Ordunun daha da gücləndirilməsi, müasir ordu quruculuğu məqsədlərinə xidmət edən zəruri infrastrukturların yaradılması istiqamətində böyük işlər görülmüş, işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində yeni qəsəbənin açılışı xalqımızın və dövlətimizin tarixində baş vermiş çox əlamətdar hadisələrdən biri olmaqla öz doğma yurdlarından didərgin düşmüş məcburi köçkünlərimizin işğal olunmuş torpaqlara qayıtma əzmini daha da artırmışdır.

Diqqətə çatdırılmışdır ki, 2017-ci il Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu hesabat dövrü olmuşdur. Digər hüquq mühafizə orqanları ilə, ilk növbədə Daxili İşlər Nazirliyi ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunmuşdur. Prokurorluq orqanlarının səyləri ilk növbədə Prezident cənab İlham Əliyevin rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, prokurorluqda islahatların yeni məzmunda davam etdirilməsinə, "Prokurorluq haqqında" Qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılmasına, mövcud çatışmazlıqlar və neqativ təzahürlərin təxirəsalınmadan aradan qaldırılmasına yönəldilmişdir.

Xüsusi vurğulanmışdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradə, əzm və qətiyyəti hesabına yeni müstəvidə reallaşdırılan dövlətçilik siyasətinin məntiqi nəticəsi olaraq prokurorluq orqanları tərəfindən ötən dövrlərdə olduğu kimi 2017-ci ildə də ölkəmizdə korrupsiya və rüşvətxorluğa qarşı kəsərli mübarizə uğurla davam etdirilmişdir.

Hesabat dövründə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi tərəfindən respublikada ictimai rezonansa səbəb olmuş bir sıra cinayətlərin, o cümlədən qəsdən adam öldürmə cinayətlərinin keyfiyyətli istintaq edilməsi və bütün təqsirli şəxslərin ifşa olunaraq məhkəmə məsuliyyətinə verilməsi ilə yanaşı, cinayəti doğuran səbəb və şəraitlərin aşkarlanaraq qabaqlayıcı və profilaktiki tədbirlərin görülməsi təmin edilmişdir.

Prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlərin görülməsi, bütün struktur qurumlarda möhkəm nizam-intizam şəraitinin yaradılması, aşkar olunan hər hansı nöqsan və çatışmazlıqlara qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq nəticələrin çıxarılması 2017-ci ildə də əsas vəzifələrdən biri kimi diqqət mərkəzində saxlanılmışdır.

Əməliyyat müşavirəsində prokurorluq orqanlarında informasiya kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsinin yüksəldilməsi, "Elektron Sənəd Dövriyyəsi" və "Elektron Cinayət" İnformasiya proqramlarının tam fəaliyyət göstərməsi, bu sahədə həyata keçirilən işin səmərəliliyinin artırılması barədə konkret tapşırıqlar verilmişdir.

Bildirilmişdir ki, prokurorluğun fəaliyyət istiqa-

mətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar ətraflı təhlil olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində, cinayətkar hərəkətlər nəticəsində hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilində yol verilən çatışmazlıqların qısa müddətlər ərzində aradan qaldırılması üçün konkret tapşırıqlar verilmişdir. Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə əlaqəli şəkildə 2017-ci ilin nəticələrinə görə artımı müşahidə olunan cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi, eyni zamanda, cəzanın labüdlüyü prinsipinin təmin edilməsi məqsədilə, bağlı qalmış cinayətlərin açılması və təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılmışdır.

Qeyd edilmişdir ki, hesabat dövründə prokurorluqda vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli tədbirlərin görülməsi təmin edilmişdir. Xüsusi vurğulanmışdır ki, Dövlət başçısının tapşırıq və tövsiyələrinə müvafiq olaraq Baş prokuror tərəfindən respublikanın müxtəlif bölgələrində prokurorluğun rəhbər işçilərinin iştirakı ilə vətəndaşların qəbulu keçirilməklə, qaldırılan məsələlərin yerində həll edilməsi və əsaslı müraciətlərin təmin olunması istiqamətində hərtərəfli tədbirlər həyata keçirilmişdir.

Baş prokurorun birinci müavini Rüstəm Usubov hesabat ilində cinayətkarlığa qarşı mübarizə, istintaq işinin və ibtidai araşdırmaya prosessual rəhbərliyin təşkili sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr, Baş prokurorun müavini Namiq Əsgərov "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanununun qəbulu ilə bağlı prokurorluq orqanlarının qarşısında duran vəzifələrin vaxtında və səmərəli icrasının təmin olunması, Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin rəisi Müqəddəs Sultanov Baş Prokurorluğun 2017-ci ilin iş planının icra vəziyyəti və cari ilin birinci yarımili üçün iş planı barədə ətraflı məlumat vermişlər.

Baş Prokurorluğun əlaqədar struktur qurumlarına baş vermə müddətindən asılı olmayaraq əvvəlki illərdə törədilməklə bağlı qalan qəsdən adam öldürmə cinayətlərinin açılması üçün zəruri tədbirlərin görülməsi, daxili işlər orqanları ilə qarşılıqlı əlaqədə konkret hadisələr üzrə istintaq və əməliyyat-axtarış işlərinin real vəziyyətinin öyrənilməsi yolu ilə onların intensivliyinin artırılması, səlahiyyət dairəsində olan bütün imkanlardan istifadə olunmaqla təqsirkar şəxslərin müəyyən olunmasının təmin edilməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.

Əməliyyat müşavirəsində hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar ətraflı təhlil və ciddi tənqid olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi zamanı yol verilən nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində zəruri tədbirlərin görülməsi tələb olunmuşdur.

Baş Prokurorluğun aidiyyəti struktur qurumların rəhbərlərindən tələb edilmişdir ki, əməkdaşların fəaliyyətlərində aşkara çıxarılan neqativ təzahürlərə qarşı mübarizə xətti qətiyyətlə davam etdirilsin, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi məsələlərində prinsipiallıq daha da artırılsın.

Eyni zamanda, 2017-ci il ərzində görülmüş işlərin vəziyyətinin ümumiləşdirilməklə nəticələrinin təsdiq edilmiş cədvələ uyğun olaraq, Baş Prokurorluğun idarə və şöbələrində müzakirələrin aparılması, habelə Baş Prokurorluğun geniş kollegiya iclasının keçirilməsinə hazırlıqla əlaqədar müvafiq tapşırıqlar verilmişdir.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror ümidvar olduğunu bildirmişdir ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi 2018-ci ildə də öz səlahiyyət hədləri daxilində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlərin reallaşdırılmasında, digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsində, dövlətçiliyimizin maraqlarının və ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunmasında zəruri tədbilərin görülməsini təmin edəcəkdir.

**Baş Prokurorluğun Təşkilat-analitik idarəsi**

# Baş Prokurorluqda geniş kollegiya iclası keçirilib

**2017-ci ildə prokurorluq orqanları tərəfindən görülən işlərin vəziyyəti və qarşıda duran vəzifələr müzakirə olunub**



Yanvarın 26-da Azərbaycan Respublikasının Baş Prokurorluğunda Mərkəzi aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon və şəhər, ərazi hərbi prokurorlarının iştirakı ilə prokurorluq orqanları tərəfindən 2017-ci ildə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir.

Kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən Baş prokuror Zakir Qaralov ümummilli lider Heydər Əliyevin müəllifi olduğu strateji əhəmiyyətli milli siyasətin möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə uğurla davam etdirildiyini, 2017-ci ilin ölkəmizdə dərin, köklü və nəticə verən iqtisadi islahatlar həyata keçirilməklə gələcək onilliklər üçün əsası qoyulmuş layihələrin təməlinin atılması ilə zəngin olduğunu bildirmişdir.

Yola saldığımız ildə Azərbaycanın əldə etdiyi mühüm nailiyyətlər sırasında ölkəmizin Davos Ümumdünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda reytinqdə daha iki pillə irəliləyərək 35-ci yerdə qərarlaşması, eyni zamanda həmin təşkilatın ənənəvi inklüziv inkişaf indeksində ölkəmizin dünyada inkişaf edən dövlətlər arasında 3-cü yerə layiq görülməsi, "Əsrin müqaviləsi"nin müddətinin 2050-ci ilədək uzadılması, Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yolun – Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı, idmançılarımızın mötəbər beynəlxalq yarışlarda yüksək nailiyyətlər əldə etməsi və s. uğurlar xüsusi vurğulanmışdır.

Baş prokuror işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində yeni qəsəbənin açılışı və Şıxarx qəsəbəsində yeni şəhərciyin salınması ilə "Böyük Qayıdış" prosesinə start verilməsini ölkəmizin həyatında mühüm hadisə olduğunu diqqətə çatdırmışdır.

Xüsusi olaraq vətəndaş məmnunluğunun təmin edilməsində əvəzsiz rol oynayan "ASAN" xidmət mərkəzlərinin səmərəli fəaliyyəti qeyd edilməklə

mərkəzlərə yarandığı gündən 20 milyona yaxın müraciət edilməsinin, həmçinin 2019-cu ilin sonuna qədər ölkəmizdə "ASAN xidmət" Mərkəzlərinin sayının 20-ə çatdırılmasının dövlət qulluqçusu – vətəndaş münasibətlərində dövlətin həyata keçirdiyi siyasətin mühüm təzahürü kimi vurğulanmışdır.



Cari hesabat dövrünün ölkəmiz üçün müsəlman Şərqində ilk demokratik, parlamentli respublikanın – Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasının 100 illik yubileyinin təntənəli şəkildə qeyd edilməsi ilə əlamətdar olacağı bildirilməklə, Azərbaycan Respublikası Prezidentinin dövlətçilik irsimizə ehtiramın müstəsna nümunəsi kimi 2018-ci ili "Azərbaycan Xalq Cumhuriyyəti ili" elan etməsinin önəmi xüsusi qeyd edilmişdir.

Bununla yanaşı, cari ilin prokurorluq orqanlarının yaradılmasının 100 illik yubileyinin qeyd edilməsi ilə də xüsusi əhəmiyyətə malik olacağı bildirilməklə, prokurorluq orqanlarının hər bir əməkdaşının səmərəli fəaliyyəti və üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə Cümhuriyyətin, o cümlədən Prokurorluğun yaradılmasının 100 illiyinə öz töhfəsini verəcəyinə əminlik ifadə olunmuşdur.

Hesabat məruzəsində bildirilmişdir ki, 2017-ci il Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu hesabat dövrü olmuş, daxili işlər və digər hüquq mühafizə orqanları ilə əlaqəli fəaliyyət göstərilməklə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin həyata keçirilməsi təmin olunmuşdur. Bu dövrdə prokurorluq orqanlarının bütün səyləri, ilk növbədə Dövlət başçısının rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, müasir məzmunlu islahat tədbirlərinin eyni intensivliklə davam etdirilməsinə, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsinə, müasir iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılmasına, möhkəm nizam-intizam yaradılmaqla neqativ təzahürlərin vaxtında aradan qaldırılmasını təmin edən işlək nəzarət mexanizminin yaradılmasına istiqamətləndirilmişdir.

Belə ki, ötən il Respublikamızda insan hüquqlarının daha səmərəli təmin olunması, hüquq və qanunvericilik sisteminin inkişafının yeni mərhələsi sayıla biləcək Ölkə Başçısının "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli proqram xarakterli Sərəncamının bu istiqamətdə görülən işlər üçün yol xəritəsi əhəmiyyətinə malik olması qeyd edilmişdir.

Ölkəmizdə uzun illər cinayətkarlığa qarşı aparılan barışmaz və effektiv mübarizənin məntiqi nəticəsi kimi qəbul edilmiş Sərəncamın əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən humanist siyasətin növbəti təzahürü olması bildirilməklə Sərəncamdan irəli gələn, prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin tam və dəqiq yerinə yetirilməsi, cəza siyasətinin liberallaşdırılması, cinayət təqibi ilə əlaqədar fəaliyyətin səmərəli təşkil edilməsi məqsədilə konkret tapşırıqlar verilmişdir.

Kollegiya iclasında bildirilmişdir ki, 2017-ci ildə də cinayətkarlığa qarşı mübarizə gücləndirilmiş, mütəşəkkil cinayətkarlığın təhlükəli təzahürlərindən olan korrupsiyaya qarşı mübarizə, o cümlədən vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahələrində zəruri tədbirlər görülmüşdür.

Peşəkarlıqla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində qeyri-aşkar şəraitdə törədilmiş, ağır və xüsusilə ağır, quldurluq, soyğunçuluq, oğurluq və dələduzluq cinayətlərinin açılma faizləri yaxşılaşmış, keçmiş illərdən bağlı qalmış 418 cinayətin açılması təmin olunmuşdur.

2017-ci ildə istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin daha səmərəli təşkili üçün




görülən işlər müsbət nəticələrini vermiş, istintaq fəaliyyətini həyata keçirən Prokurorluq, Daxili İşlər, Ədliyyə, Vergilər və Fövqəladə Hallar nazirlikləri, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizlik və Sərhəd xidmətlərinin müvafiq qurumları tərəfindən 12960 şəxs barəsində 10931 cinayət işinin istintaqı yekunlaşdırılaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir.

Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin əməkdaşları tərəfindən bir sıra xüsusilə ağır və ağır cinayətlərin, habelə böyük ictimai rezonans doğuran hadisələrin yüksək peşəkarlıq səviyyəsində istintaq olunması, təqsirkar şəxslərin məsuliyyətə cəlb edilmələri təmin olunmuşdur. Buna misal olaraq, ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin ayrı-ayrı vəzifəli şəxslərinin dövlət büdcə vəsaitlərinin mənimsənilməsi, sahibkarlıq fəaliyyəti subyektləri və digər şəxslərə qarşı törədilmiş qanunsuz azadlıqdan məhrum etmə, özgə əmlakını hədə-qorxu ilə tələb etmə, rüşvət alma, vəzifədən sui-istifadə etmə və sair qanunsuz əməlləri, həmçinin Bakı şəhəri, Nardaran qəsəbəsində hakimiyyət nümayəndələrinə qarşı silahlı müqavimət göstərilməklə onların qəsdən öldürülməsi, terrorçuluq və digər cinayətlər üzrə idarə əməkdaşları tərəfindən keyfiyyətli istintaq aparılması və qanunauyğun tədbirlərin görülməsi təmin olunmuşdur.

Xüsusi vurğulanmışdır ki, hesabat dövründə Prezident cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində prokurorluq orqanları tərəfindən ardıcıl və kəsərli tədbirlər davam etdirilmişdir. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2017-ci ildə rüşvətlə bağlı, vəzifədən sui-istifadə etmə, vəzifə səlahiyyətlərini aşma və bu xarakterli digər faktlar üzrə 305 vəzifəli şəxs barəsində 214 cinayət işinin istintaqı tamamlanaraq aidiyyəti üzrə baxılması üçün müvafiq məhkəmələrə göndərilməsi təmin edilmiş, həmin işlər üzrə müəyyən edilmiş ziyanın ibtidai araşdırma mərhələsində 27 milyon 575 min manatının ödənilməsi, həmçinin qalan ziyanın ödənilməsini təmin etmək məqsədilə 15 milyon 381 min manat məbləğində qiymətləndirilən əmlak üzərinə həbs qoyulması müsbət iş göstəriciləri kimi dəyərləndirilmişdir.

Hesabat müddətində hərbi prokurorluq orqanları tərəfindən Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlarla əlaqəli

şəkildə hərbi birləşmələrdə törədilmiş bir sıra ağır və xüsusilə ağır cinayətlərin açılması təmin olunmuş, mürəkkəb və çoxepizodlu cinayət işlərinin istintaqı aparılmışdır.

Kollegiya iclasında Baş prokuror tərəfindən İşgəncələrə qarşı Avropa Konvensiyası üzrə ölkəmizin götürdüyü öhdəliklərin, müvafiq qanunvericilik aktlarının və Baş Prokurorluq üzrə təsdiq edilmiş əmrin tələblərinə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlar tərəfindən dönmədən əməl edilməsi, cinayət təqibi zamanı işgəncə vermə, yaxud digər formada fiziki və ya psixi zora məruz qalma ilə əlaqədar müraciətlərə təxirəsalınmadan baxılmaqla prinsipial yanaşma göstərilməsi, təqsiri müəyyən edilmiş şəxslər barəsində qanunla nəzərdə tutulmuş qəti tədbirlərin görülməsi barədə konkret tapşırıqlar verilmişdir.

Eyni zamanda diqqətə çatdırılmışdır ki, ibtidai araşdırma zamanı işgəncələrin və insan ləyaqətini alçaldan digər hərəkətlərin qarşısının alınmasına gündəlik nəzarət həyata keçirilməklə hər bir əməkdaşın fərdi məsuliyyət hissi artırılmalı, bu cür faktlar üzrə dərhal müvafiq araşdırmalar aparılmaqla zərurət olduqda cinayət işləri başlanmalıdır.

Hesabat məruzəsində adıçəkilən Konvensiyanın tələblərinə əməl edilməsi ilə əlaqədar prokurorluğun və daixli işlər orqanlarının struktur qurumlarına Baş prokuror və daxili işlər naziri tərəfindən imzalanmış göstəriş xarakterli məktubun göndərildiyi bildirilmişdir.

Kollegiya iclasında qeyd edilmişdir ki, dövlətin həyata keçirdiyi sosial yönümlü siyasətin prioritetlərinə uyğun olaraq əvvəlki illərdə olduğu kimi, 2017-ci ildə də vətəndaşların müraciətlərinə və qəbulu məsələlərinə xüsusi diqqətlə yanaşılmışdır.

Azərbaycan Respublikası Prokurorluğu orqanları tərəfindən hesabat dövründə vətəndaş müraciətlərinə baxılması və onların qəbulu işinin daha da təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirildiyi vurğulanmışdır. 2017-ci ildə bütövlükdə prokurorluq orqanlarına 83 mindən çox, o cümlədən Baş Prokurorluğa 45 min ərizə və şikayət daxil olmaqla, onlardan 32 mininin müvafiq qaydada həlli, o cümlədən 4480 müraciət üzrə vətəndaşların qaldırdığı məsələlər təmin olunmuşdur. Prokurorluq orqanlarında 32 mindən çox, o cümlədən şəxsən prokurorlar tərəfindən 15 min, Baş Prokurorluqda isə 6 minə yaxın vətəndaş qəbul edilmişdir.

Prokurorluğun əlaqədar qurumlarından tələb edilmişdir ki, müraciətlərə baxılması və vətəndaşların qəbulu sahəsində əməkdaşların məsuliyyətinin artırılması, yeni informasiya texnologiyalarının imkanlarından daha geniş istifadə olunması, müraciətlərə formal yanaşma və süründürməçilik, qəbula gələnlərə biganə münasibət göstərilməsi hallarına son qoyulması təmin olunsun.

Xüsusi vurğulanmışdır ki, Dövlət başçısının tapşırıq və tövsiyələrinə müvafiq olaraq Baş prokuror tərəfindən respublikanın 12 bölgəsində prokurorluğun rəhbər işçilərinin iştirakı ilə 290 vətəndaşın qəbulu keçirilməklə, qaldırılan məsələlərin yerində həll edilməsi və əsaslı müraciətlərin təmin olunması istiqamətində hərtərəfli tədbirlər həyata keçirilmişdir.

Kollegiya iclasında qeyd edilmişdir ki, 2017-ci ildə prokurorluq orqanlarında kadr siyasətinin həyata keçirilməsi istiqamətində məqsədyönlü tədbirlər davam etdirilmiş, kadrların şəffaf və obyektiv meyarlar əsasında seçilib yerləşdirilməsi və vəzifədə irəli çəkilməsi, kadr korpusunun müsabiqə yolu ilə dərin biliyə malik yüksək ixtisaslı gənc hüquqşünaslar hesabına mütəmadi komplektləşdirilməsi üçün zəruri tədbirlər görülmüşdür.

Hesabat dövründə xidməti fəaliyyətlərində müsbət iş göstəricilərinə nail olmaqla təşkilatçılıq bacarığı nümayiş etdirmiş 9 nəfərin ilk dəfə müstəqil rayon prokurorları vəzifələrinə təyin edildiyi, 107 prokurorluq işçisinin yuxarı təsnifatlar üzrə müxtəlif vəzifələrə irəli çəkildiyi, ölkəmizdə uğurla reallaşdırılan dövlət gənclər siyasətinə uyğun olaraq 2002-ci ildən başlayaraq keçirilən 17 müsabiqə üzrə prokurorluğa qulluğa qəbul edilmiş 780 gənc hüquqşünasın sayının prokurorluğun kadr tərkibinin 66 faizini təşkil etməsi, eləcə də 60 ştat vahidi üzrə elan edilmiş növbəti qəbul üzrə cari il ərzində vakant vəzifələrə təyinatların aparılacağı prokurorluq orqanlarında həyata keçirilən kadr islahatlarının uğurlu nəticələri kimi dəyərləndirilmişdir.

Prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlərin görülməsi, bütün struktur qurumlarda möhkəm nizam-intizam şəraitinin yaradılması, aşkar olunan hər hansı nöqsan və çatışmazlıqlara qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq nəticələrin çıxarılması 2017-ci ildə də əsas vəzifələrdən biri kimi diqqət mərkəzində saxlanılmışdır.

Qeyd edilmişdir ki, ciddi tələbkarlıq və prinsipiallıq şəraitinin yaradılmasına baxmayaraq, hesabat dövründə aparılmış xidməti yoxlamalar nəticəsində 37 nəfər prokurorluq işçisi intizam məsuliyyətinə

cəlb edilmiş, onlardan 26 nəfərə töhmət və şiddətli töhmət elan edilmiş, 1 nəfər aşağı vəzifəyə keçirilmiş, 7 nəfər vəzifədən azad edilmiş, 3 nəfər isə prokurorluq orqanlarından xaric olunmuşdur. Baş Prokurorluğun əlaqədar struktur qurumları və bütün tabe prokurorlardan möhkəm nizam-intizam yaradılması məsələlərində prinsipiallığın artırılması tələb edilmişdir.

Kollegiya iclasında görülmüş müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar ətraflı təhlil olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində, cinayətkar hərəkətlər nəticəsində hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilində yol verilən çatışmazlıqların qısa müddətlər ərzində aradan qaldırılması üçün konkret tapşırıqlar verilmişdir. Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə əlaqəli şəkildə 2017-ci ilin nəticələrinə görə artımı müşahidə olunan cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi, eyni zamanda, cəzanın labüdlüyü prinsipinin təmin edilməsi məqsədilə bağlı qalmış cinayətlərin açılması və təqsirkar şəxslərin məsuliyyətə cəlb olunması üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılmışdır.

Kollegiya iclasında çıxış edən Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, Baş prokurorun müavini - Respublika Hərbi prokuroru Xanlar Vəliyev, Baş prokurorun müavini Namiq Əsgərov, Baş Prokurorluğun Hüquqi təminat idarəsinin rəisi Natiq Hüseynov, Baş Prokurorluğun İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin rəisi Murad Dadaşov, Sumqayıt şəhər prokuroru Sərdar İmanov və digər natiqlər çıxışlarında 2017-ci il ərzində görülmüş işlər barədə ətraflı məlumatlar verilməklə, "Prokurorluq haqqında" qanunda nəzərdə tutulmuş istiqamətlər üzrə fəaliyyətin səmərəliliyinin daha da artırılması, prokurorluq orqanlarının işinin müasir məzmunda təkmilləşdirilməsinə yönəldilmiş konkret təkliflər irəli sürülmüşdür.

Kollegiya iclasına yekun vuran Baş prokuror prokurorluq orqanlarının kollektivi adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi əmin etmişdir ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi öz qüvvələrini səfərbərliyə almaqla, bundan sonra da digər əlaqədar dövlət təsisatları ilə birlikdə dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində zəruri tədbirlərin görülməsini təmin edəcək, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi yolunda öz xidmətlərini göstərəcəkdir.

**Baş Prokurorluğun Təşkilat-analitik idarəsi**

# Hərbi Prokurorluqda geniş kollegiya iclası keçirilib

**2017-ci ildə hərbi prokurorluq orqanları tərəfindən görülən işlərin vəziyyəti və qarşıda duran vəzifələr müzakirə olunub**

Yanvarın 25-də Azərbaycan Respublikası Hərbi Prokurorluğunda mərkəzi aparat işçilərinin, Naxçıvan Muxtar Respublikası və ərazi hərbi prokurorlarının iştirakı ilə 2017-ci ildə cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir.

Kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən Baş prokurorun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 2017-ci ildə dövlət müstəqilliyimizin daha da möhkəmləndiril-



diyini, demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətləndiyini diqqətə çatdırmışdır. Bildirmişdir ki, 2017-ci ildə həyata keçirilmiş uğurlu iqtisadi islahatlar nəticəsində yerli investorlarla yanaşı, xarici investorlar tərəfindən ölkə iqtisadiyyatına ümumilikdə 14,6 milyard dollar sərmayə qoyulub. İxrac olunan məhsulların həcmi 19 faiz, qeyri-neft ixracı isə 24 faiz artıb, 221 min yeni iş yeri açılıb. İlin yekunlarına görə işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz təşkil edib. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək, dünya miqyasında 35-ci yerdə qərarlaşmışdır.

Həmçinin Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Zirvəsində qəbul edilmiş Bəyannamədə də "Şərq tərəfdaşlığı"na üzv olan ölkələrin ərazi bütövlüyünün, suverenliyinin Avropa İttifaqı tərəfindən birmənalı şəkildə dəstəklənməsi, "Azəri-Çıraq-Günəşli" yatağı üzrə kontraktın müddətinin 2050-ci ilə qədər uzadılması, Cənub Qaz Dəhlizinin uğurlu icrası, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı, Şimal-Cənub nəqliyyat dəhlizinin icrası istiqamətində önəmli addımların atılması, IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi 2017-ci il ərzində dövlətimizin siyasi, diplomatik, iqtisadi və idman sahələrində əldə etdiyi uğurlardır.

Xanlar Vəliyev bildirmişdir ki, il ərzində Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin qısa müddətdə bərpa edilərək məcburi köçgünlərin doğma torpaqlarına qayıdışının təmin olunması göstərir ki, Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımız tezliklə işğaldan azad ediləcək, bütün şəhər və kəndlərimiz yenidən qurulacaq, həmvətənlərimiz doğma torpaqlarına qayıdacaqlar.

Ölkə iqtisadiyyatının dinamik inkişafının və dayanıqlılığının Silahlı Qüvvələrin fəaliyyətinə də müsbət təsir etdiyini söyləyən hərbi prokuror vurğulamışdır ki, son illər Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordumuzun maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, hərbiçilərin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Bunun nəticəsində ordunun döyüş qabiliyyəti xeyli yüksəlib, şəxsi heyətin nizam-intizamının daha da artırılması istiqamətində mühüm irəliləyişlərə nail olunmuşdur.

Hərbi prokuror qeyd etmişdir ki, ötən il Silahlı Qüvvələrdə cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi istiqamətində görülən işlər səmərəli olub, hərbi qulluqçular tərəfindən törədilmiş cinayətlərin, xüsusən də bir sıra ağır və xüsusilə ağır cinayətlərin açılması təmin olunub. Hesabat dövründə qeydə alınmış cinayətlərin 99,3 faizi açılmışdır.

Bildirilmişdir ki, 2016-cı illə müqayisədə 2017-ci ildə də qeydə alınmış böyük ictimai təhlükə törətməyən cinayətlər 8,1 faiz, hərbi xidmətdən



yayınma cinayətlərinin sayı 8,8 faiz, qulluğa səhlənkar yanaşma cinayətlərinin sayı 11,8 faiz, silahla və ya ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma cinayətlərinin sayı 25 faiz, rüşvət alma və rüşvət vermə cinayətlərinin sayı 27,1 faiz, mülkiyyət əleyhinə olan cinayətlərin sayı 3,4 faiz azalıb. 2016-cı illə müqayisədə hesabat dövründə birləşmələr üzrə qeydə alınmış cinayətlərin sayı Dövlət Sərhəd Xidmətinin hərbi hissələri üzrə 21 faiz, Fövqəladə Hallar Nazirliyinin hərbi hissələri üzrə isə 7,7 faiz azalıb. Cinayət hadisələrinin azalmasında hərbi prokurorluq orqanlarının Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlarla yaradılmış qarşılıqlı sağlam və işgüzar əlaqələrinin, eləcə də ilin əvvəlindən planlaşdırılmaqla, il ərzində mütəmadi həyata keçirilmiş müxtəlif xarakterli birgə tədbirlərin çox böyük əhəmiyyəti olub. Bununla belə, ötən il Silahlı Qüvvələrdə bəzi növ cinayətlərin cüzi artımı qeydə alınmışdır.

Qeyd edilmişdir ki, Silahlı Qüvvələrdə ayrı-ayrı cinayətlərin qarşısının alınması məqsədilə hər il olduğu kimi, ötən il də məhkəmə və istintaq təcrübəsi ümumiləşdirilərək Respublika Hərbi Prokurorluğunun kollegiyalarında silahlı birləşmələrin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə müzakirə olunub. Həmin cinayətləri doğurmuş səbəb və şəraitin aradan qaldırılması üçün zəruri qabaqlayıcı tədbirlərin görülməsinə dair kollegiyaların qərarlarına əsasən, Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və başqa struktur qurumların rəhbərlərinə məlumat məktubları, silahlı birləşmələrin komandanlıqlarına təqdimatlar, ərazi hərbi prokurorlarına icmal-məktublar göndərilib. Cinayətlərin qarşısının alınması məqsədilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər qurumlarla birlikdə tədbirlər planları hazırlanıb təsdiq edilərək icrası təmin olunub. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi, əzmi və qətiyyəti hesabına yeni müstəvidə reallaşdırılan dövlətçilik siyasətinin məntiqi nəticəsi olaraq ötən illərdə olduğu kimi, 2017-ci ildə də ölkəmizdə korrupsiyaya və rüşvətxorluğa qarşı kəsərli mübarizə uğurla davam etdirilmişdir. Azərbaycan Prezidentinin bu sahədə qarşıya qoyduğu vəzifələrin icrası ilə əlaqədar hərbi prokurorluq orqanları mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürlərindən biri olan korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyətini daha da gücləndirilmişdir. Bu da Silahlı Qüvvələrin qüdrətinə xələl gətirə biləcək cinayətlərin, o cümlədən mənimsəmə, israf etmə, rüşvətxorluq, vəzifədən sui-istifadə etmə və digər cinayətlərin vaxtında aşkar olunmasına, cinayət törətmiş şəxslərin layiqli cəzaya məhkum edilməsinə şərait yaratmışdır.

Diqqətə çatdırılmışdır ki, respublikanın hərbi prokurorluq orqanları tərəfindən 2017-ci ildə kor-

rupsiya və rüşvətxorluq faktları üzrə 146 şəxs barəsində 123 cinayət işinin istintaqı tamamlanaraq aidiyyəti üzrə müvafiq hərbi məhkəmələrə göndərilmişdir.

Xanlar Vəliyev Azərbaycan Prezidentinin "Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi haqqında" 2009-cu il 22 iyun tarixli Fərmanında və 2016-cı il 27 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda rüşvətxorluğa və korrupsiyaya qarşı daha da ciddi mübarizə aparılması, ictimai nəzarətin gücləndirilməsi ilə əlaqədar prokurorluq orqanlarının üzərinə çox böyük məsuliyyət qoyulduğunu vurğulayaraq bildirmişdir ki, bu qəbildən olan cinayətlərin aşkarlanması istiqamətində struktur qurumları tərəfindən bir sıra işlər görülsə də, bu sahədə tədbirlərin səmərəliliyi və intensivliyi daha da artırılmalıdır.

Xüsusi vurğulanmışdır ki, 2017-cı ildə hərbi prokurorluq orqanları tərəfindən bir çox ağır, mürəkkəb və çoxepizodlu cinayət işlərinin istintaqı tamamlanmış, ibtidai istintaqın keyfiyyətinin yaxşılaşdırılması, cinayət-prosessual qanunvericiliyin tələblərinə dəqiq əməl edilməsi üzərində nəzarət gücləndirilmişdir. Hesabat dövründə dövlət əmlakının mənimsənilməsi ilə bağlı bir sıra cinayət işləri üzrə istintaq yekunlaşaraq təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi təmin olunmuş, onların əməlləri nəticəsində dövlətə vurulmuş maddi ziyanın 86,8 faizi istintaq zamanı ödətdirilmişdir.

Ötən il hərbi prokurorluq orqanları tərəfindən əməliyyat-axtarış tədbirlərinin yerinə yetirilməsi üzərində prokuror nəzarətinin gücləndirilməsi nəticəsində axtarışda olanlardan 36 nəfər tutularaq istintaqa cəlb edilmişdir.

Təhqiqat orqanlarının fəaliyyətində qanunların icrasına nəzarət qaydasında 153 yoxlama keçirilməklə 2887 qanun pozuntusu aşkar edilmiş, qanun pozuntularını doğuran səbəb və şəraitin aradan qaldırılması üçün 268 təqdimat verilmiş, 256 nəfərə xəbərdarlıq elan edilmiş, 28 cinayət işi başlanmışdır. Habelə təhqiqat orqanlarının icraatında olan işlər üzrə 119 yazılı göstəriş verilmiş, cinayət işlərinin başlanmasının rədd edilməsinə dair 670 qanunsuz qərar ləğv olunmuşdur. Onlardan 40-ı üzrə cinayət işi başlanmışdır.

Xanlar Vəliyev ərazi hərbi prokurorlarından bu sahədə görülən işin səmərəliliyinin artırılmasını və ilkin təhqiqatın tam, hərtərəfli və keyfiyyətli aparılması üçün prokuror nəzarətinin daha da gücləndirilməsini tələb etmişdir.

Qeyd edilmişdir ki, hesabat dövründə dövlət ittihamının müdafiəsi şöbəsi tərəfindən birinci instansiya hərbi məhkəmələrinin hökm və qərarlarından verilmiş protestlərin 59 faizi təmin olunub. Cinayətkarlığın profilaktikası üçün məhkəmə qərar və hökmlərinin rolunun artırılması, məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınması, bir sözlə cəzanın məqsədinə nail olunmasının təmin edilməsi üçün hesabat dövründə 68 məhkəmə prosesi səyyar qaydada keçirilmişdir.

Səyyar məhkəmə baxışının cinayətkarlığa qarşı mübarizədə xəbərdaredici funksiyasının əhəmiyyətini xüsusi vurğulayan hərbi prokuror qeyd etmişdir ki, bəzi hərbi məhkəmələrdə qanunvericiliyin bu mexanizmindən yetərincə istifadə olunmur.

Hesabat dövründə prokurorluqda vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli tədbirlərin görülməsi də təmin edilmişdir. Vətəndaşların müraciət etmək imkanlarının genişləndirilməsi və asanlaşdırılması, buna əvvəlkindən daha az vaxt sərf olunması, daxil olmuş müraciətlərə daha diqqətlə yanaşılması və qaldırılan məsələlərin həlli istiqamətində təxirəsalınmaz tədbirlər görülmüşdür.

Ötən il hərbi prokurorluq orqanlarında vətəndaşların 2070 müraciətinə baxılıb, mərkəzi aparatda 973 vətəndaş qəbulda olub, ərazi hərbi prokurorluqlarında 3431 vətəndaşın fərdi qəbulu aparılıb, bilavasitə hərbi hissə və birləşmələrdə isə 2506 nəfər qəbul edilərək müraciətlərinə baxılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət orqanlarının fəaliyyətinin yaxşılaşdırılması, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinin daha da təkmilləşdirilməsi barədə tövsiyə və tapşırıqları müşavirə iştirakçılarının diqqətinə çatdırılaraq onlara əməl edilməsi hər bir əməkdaşdan ciddi tələb edilmişdir.

Xanlar Vəliyev Xocalı, Qaradağlı, Meşəli, Bağanis-Ayrım faciələri, terror, habelə əsir düşmüş şəxslərə işgəncə verilməsi və Ermənistan silahlı qüvvələrinin törətdikləri digər cinayət əməlləri ilə bağlı hərbi prokurorluqda aparılan istintaq barədə kollegiya iştirakçılarına məlumat verərək bildirmişdir ki, həmin cinayət işi üzrə hazırda intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Həmçinin Xanlar Vəliyev bildirmişdir ki, vətəndaşlarımızda vətənpərvərlik hisslərinin yüksəldilməsi, azərbaycanlıların kütləvi qırğınlarının tarixi barədə məlumatların gənclərə verilməsi və düşmən tərəfindən törədilmiş cinayətlər haqqında obyektiv həqiqətlərin ictimaiyyətə çatdırılması məqsədilə müxtəlif dövlət strukturları və ictimai təşkilatlara məktublar göndərilərək 2017-ci il ərzində 4965 nəfərin Memorial Soyqırımı Muzeyini ziyarət etməsi təmin edilib. Həmçinin "Xocalı soyqırımının 25-ci ildönümü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 yanvar tarixli Sərəncamının icrası ilə əlaqədar 2017-ci il fevralın 22-də Azərbaycan Respublikası Hərbi Prokurorluğu tərəfindən Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu ilə birgə Respublika Hərbi Prokurorluğunun nəzdində fəaliyyət göstərən Memorial Soyqırımı Muzeyində elmi-praktiki konfrans keçirilib. Respublika Hərbi Prokurorluğunun və AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun növbəti birgə layihəsi olan "Soyqırımı muzeyi" kitabının və Respublika Hərbi Prokurorluğu tərəfindən hazırlanmış "Əsrin faciəsi" rəqəmsal video filminin təqdimatı keçirilmişdir.

Kollegiyada, görülmüş müsbət işlərlə yanaşı, "Prokurorluq haqqında" Qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar da ətraflı təhlil olunmuşdur. İbtidai istintaq, təhqiqat üzərində prosessual rəhbərliyin həyata keçirilməsində, cinayətkar hərəkətlər nəticəsində hüquqi və fiziki şəxslərə vurulmuş maddi ziyanın ödənilməsi, dövlət ittihamının müdafiəsi, müraciətlərə baxılması və vətəndaşların qəbulu ilə əlaqədar işin təşkilində yol verilmiş nöqsanlar və çatışmazlıqlar ciddi tənqid edilmiş, onların aradan qaldırılması üçün konkret göstərişlər verilmişdir.

Vurğulanmışdır ki, hərbi qulluqçuların hüquqi maarifləndirilməsi sahəsində də müəyyən işlər görülüb, qanunvericiliyin öyrənilməsi ilə əlaqədar "Hərbi prokurorluq orqanları ilə Silahlı Qüvvələrdə hüquq qaydalarının, hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin xəbərdarlıq edilməsi və aradan qaldırılması sahəsində Respublika Hərbi Prokurorluğunun Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti və Daxili Qoşunlarla birgə Tədbirlər Planı"na əsasən, Hərbi Prokurorluğun əməkdaşları müntəzəm qaydada hərbi hissələrdə olub, hərbi qulluqçular qarşısında çıxışlar, məruzələr edib, onlarla söhbətlər aparıb, eləcə də xidmətlərində fərqlənən hərbi qulluqçulara qiymətli hədiyyələr veriblər.

Ötən il hərbi prokurorluq orqanlarının hərbi qulluqçularının sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində müəyyən işlər görülmüşdür. Hərbi Prokurorluğun xidməti vəzifələrini layiqincə yerinə yetirən 20 işçisinə respublika hərbi prokurorunun əmrinə əsasən məharət dərəcələri verilib, Azərbaycan Respublikası baş prokurorunun və hərbi prokurorunun müvafiq əmrləri ilə 11 işçi vəzifədə irəli çəkilib. Xidməti fəaliyyətlərində fərqlənmiş 60 əməkdaş həvəsləndirilib, 12 işçi müxtəlif medallarla təltif olunub, 61 əməkdaşa rütbələr verilmişdir.

Kollegiyada hərbi prokurorluq əməkdaşlarından əmək, xidməti və icra intizamına dəqiq və dürüst əməl etmələri tələb olunmuşdur. Vurğulanmışdır ki, hesabat dövründə bu sahədə yol verdikləri kobud pozuntulara görə hərbi prokurorluğun 11 əməkdaşı Baş prokuror və hərbi prokurorun əmrləri ilə intizam məsuliyyətinə cəlb ediliblər.

Həmçinin 2017-ci ildə Baş prokurorun "Azərbaycan Respublikası Hərbi Prokurorluğunun strukturunda dəyişikliklər edilməsi barədə" 2017-ci il 31 mart tarixli əmri ilə Respublika Hərbi Prokurorluğunda İnformasiya-kommunikasiya texnologiyaları şöbəsi yaradılmışdır.

Sonra məruzə ətrafında çıxışlar olunmuşdur.

Kollegiyada Respublika hərbi prokurorunun müavinləri Şəfahət İmranov və Rasim Kazımov, dövlət ittihamının müdafiəsi üzrə şöbənin rəisi Aydın Ələsgərov, Bakı hərbi prokuroru İmran Əhmədov və Qazax hərbi prokuroru Şahin Zamanov çıxış edərək hesabat dövründə görülmüş işlərdən danışıb, nöqsanların aradan qaldırılması, qanunçuluğun möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, cinayətkarlığa qarşı səmərəli mübarizənin təmin olunması ilə əlaqədar hərbi prokurorluq orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün görüləcək tədbirlər barədə ətraflı məlumat veriblər.

Xanlar Vəliyev kollegiyaya yekun vuraraq bildirmişdir ki, hərbi prokurorluq orqanları Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi yüksək qayğı və etimadı layiqincə doğrultmaq, qanunun aliliyini, hərbi idarəçilik orqanlarında insan və vətəndaş hüquq və azadlıqlarına dönmədən əməl olunmasını, habelə cinayətkarlığa qarşı mübarizəni təmin etmək üçün bütün zəruri tədbirləri bundan sonra da dönmədən həyata keçirəcəklər.

**Hərbi Prokurorluq**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda kollegiya iclası keçirilib

**2017-ci ildə Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən görülən işlərin vəziyyəti və qarşıda duran vəzifələr müzakirə olunub**





Yanvarın 12-də Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən 2017-ci ildə görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilmişdir.

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru vəzifəsini icra edən Səbuhi Şahverdiyev açaraq, məruzəsində qeyd etmişdir ki, Muxtar Respublika Prokurorluğu muxtar respublikanın digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə həyata keçirilən quruculuq işlərinin əsas təminatlarından biri olan ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsini təmin etməyə çalışmışlar. Qanunların icra və tətbiq olunmasına nəzarət, cinayətkarlığa qarşı mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən 2015-2016 və 2017-ci ilin ötən dövründə bütün fəaliyyət istiqamətləri Azərbaycan Respublikası Baş Prokurorluğunun 04.12.2017-ci il tarixli 10/101 №-li sərəncamı ilə yaradılmış komissiya tərəfindən yoxlanılmış və görülmüş işlər müsbət qiymətləndirilmişdir.

Hesabat dövründə Muxtar Respublika ərazisində 5 böyük ictimai təhlükə törətməyən, 12 az ağır, 3 ağır və 4 xüsusilə ağır olmaqla 24 cinayət hadisəsi qeydə alınmış, peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı cinayət hadisəsi qeydə alınmamış, yetkinlik yaşına çatmayanlar və narkomanlar tərəfindən cinayət hadisələri törədilməsi halları baş verməmişdir.

Naxçıvan şəhər və Şərur rayon prokurorluqları tərəfindən aparılmış istintaq hərəkətləri nəticəsində hər birində 1 olmaqla keçmiş illərdə baş verib qapalı qalmış 2 cinayət işinin açılması təmin edilmişdir. Müvafiq şöbələr və tabe rayon (şəhər) prokurorları aidiyyəti orqanlarla əlaqəli şəkildə bu xarakterli hər bir cinayət işi üzrə müzakirələrin keçirməsi, həmin cinayətlərin açılması istiqamətində istintaq və əməliyyat-axtarış tədbirlərinin intensivliyinin və kəsərliliyinin artırılması üçün konkret tədbirlərin müəyyənləşdirilməsi bildirilmişdir.

Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 7 fakt qeydə alınmışdır. Muxtar Respublikanın

sərhəd bölgəsində yerləşməsini və bu cinayətlərin transmilli xarakter daşımasını nəzərə alaraq tabe rayon (şəhər) prokurorları bu sahəyə diqqətin artırması, aşkar oluna biləcək hər bir fakt üzrə narkotik vasitənin əldə edilmə mənbəyi müəyyənləşdirilərək təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb edilmələrinin təmin etməsi, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə profilaktiki işləri daha da gücləndirilməsi vurğulanmışdır.

Prokurorluq orqanlarında 8 cinayət işi istintaq olunmuşdur, onlardan 4 iş ittiham aktı ilə aidiyyəti üzrə məhkəmələrə göndərilmiş, 3 işin icraatına xitam verilmiş, 1 iş isə qalıq qalmış, istintaq olunmuş cinayət işləri üzrə müəyyən olunmuş 26023 manat məbləğində maddi ziyan ibtidai istintaq dövrü tam ödənilmişdir. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında prokurorluq orqanlarına 29 məlumat daxil olmuşdur, onlardan 4 iş üzrə cinayət işi başlanmış, 19 məlumat üzrə cinayət işi başlanması rədd edilmiş, 6 məlumat isə istintaq aidiyyatına göndərilmiş, məlumatların baxılmasında müddət və qanun pozuntularına yol verilməmiş, qəbul edilmiş qərarlardan ləğv ediləni olmamışdır.

Dövlət ittihamının müdafiəsi üzrə şöbənin əməkdaşlarının iştirakı ilə məhkəmələr tərəfindən 30 şəxs barəsində 29 hazırlıq iclası keçirilərək məhkəmə baxışı təyin edilmişdir. Birinci instansiya məhkəmələrində baxılıb nəticə verilmiş 26 şəxs barəsində 25 iş üzrə ittiham hökmləri çıxarılmış, 1 şəxs barəsində 1 iş üzrə cinayət işinin icraatına xitam verilmiş, hazırlıq iclası keçirilmiş 8 şəxs barəsində 7 iş növbəti ilə qalıq qalmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət və hərbi kollegiyaları tərəfindən 28 cinayət işinin ilkin baxışı keçirilərək məhkəmə baxışına təyin edilmiş və onların barəsində müvafiq qərarlar qəbul olunmuş, şöbənin əməkdaşlarının iştirakı ilə məhkəmələrdə hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraat üzrə 16 şəxs barəsində 16 işə baxılaraq nəticə verilmişdir.

Daxili işlər orqanlarında 18 cinayət işi istintaq olunmuş, cinayət işləri üzrə müəyyən edilmiş 32640 manat məbləğində maddi ziyan ibtidai istintaq dövrü tam ödənilmiş, müddət pozuntusu ilə cinayət işi istintaq olunmamış, istintaqı tamamlanmış işlərdən məhkəmə və prokurorluq tərəfindən əlavə istintaqa qaytarılanı olmamış, əsassız cinayət işi başlama, təqsirləndirilən şəxs qismində cəlb etmə və tutma hallarına yol verilməmişdir. Törədilmiş və ya hazırlanan cinayətlər barədə daxili işlər orqanlarında 36 məlumat qeydə alınmışdır.

Cinayət törədərək istintaq və məhkəmə orqanlarından qaçıb gizlənmiş 8 şəxs barəsində 8 axtarış işi olmuşdur, onlardan 6-ı tutularaq istintaq və məhkəmə orqanlarına təhvil verilmiş, 2 şəxsin tutulması isə təmin olunmadığından 01.01.2018-ci ilə qalıq qalmışdır. Axtarışda olan şəxslər Naxçıvan şəhəri ərazisində olduğundan həmin şəxslərin tutulması üçün Naxçıvan şəhər prokurorluğu və digər səlahiyyətli orqanlar ciddi və təxirəsalınmaz tədbirlərin görülməsi tapşırılmışdır.

Muxtar Respublika üzrə 13 yol nəqliyyat hadisəsi qeydə alınmışdır, bu hadisələr nəticədə 12 nəfər ölmüş, 7 nəfər xəsarət almışdır. Cinayətkarlığa qarşı mübarizə işinin ümumi mənafeyinə ziyan vuran amil kimi Muxtar Respublika ərazisində qeydə alınmış ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin qarşısının tam alınmaması həmin hadisələrin profilaktikası istiqamətində tədbirlərin həyata keçirilməsinə ciddi zərurət yaradır.

Dövlət Gömrük Komitəsində istintaq olunan 4 cinayət işi üzrə 3 iş ittiham aktı ilə aidiyyəti üzrə məhkəmələrə göndərilmiş, 1 iş isə istintaqın davam etdirilməsi üçün aidiyyəti üzrə göndərilmişdir. Ədliyyə Nazirliyində də istintaq olunan 4 cinayət işi üzrə 3 iş ittiham aktı ilə aidiyyəti üzrə məhkəmələrə göndərilmiş, 1 iş üzrə icraat isə təqsirləndirilən şəxsin yeri müəyyən olunmadığından dayandırılmış, istintaq zamanı müəyyən olunmuş 18352,06 manat məbləğində  maddi ziyan ödənilmişdir. Vergilər Nazirliyndə 2016-cı ildən qalıq qalmış 1 cinayət işi istintaq olunmuş və həmin iş üzrə cinayət təqibinə xitam verilmiş, iş üzrə müəyyən olunmuş 1925 manat məbləğində maddi ziyan tam ödənilmişdir. Dövlət Təhlükəsizlik Xidmətində istintaq olunan 5 cinayət işi üzrə 2 iş ittiham aktı ilə aidiyyəti üzrə məhkəmələrə göndərilmiş, 2 işin icraatına xitam verilmiş, təqsirləndirilən şəxsin yeri müəyyən olunmadığından 1 işin icraatı isə dayandırılmışdır.

Qeyd olunmuşdur ki, Muxtar Respublika Prokurorluğunun və tabe rayon (şəhər) prokurorluqlarının iş planlarında nəzərdə tutulmuş bütün məsələlər vaxtında və keyfiyyətli icra olunmuş, inzibati qanunvericiliyin tələblərinin pozulması hallarının aşkar olunması ilə əlaqədar müvafiq orqanlara 7 təqdimat verilmişdir.

Prokurorluq orqanlarına vətəndaşlardan daxil olan 40 müraciətdən 19-u prokurorluqda həll edilmiş, 14-ü aidiyyəti üzrə göndərilmiş, 7-i istintaq olunan cinayət işinə və araşdırılan materiallara əlavə edilmişdir. Prokurorluğunun elektron poçt ünvanına 7 müraciət daxil olmuşdur. Prokurorluq orqanlarında 294 nəfər vətəndaş prokurorlar tərəfindən qəbul edilib dinlənilmiş, müraciətlərlə bağlı müvafiq izahlar verilməklə qanuni tədbirlər görülmüşdür.

Prokurorluğun fəaliyyəti və qanunvericiliyin izahı ilə bağlı 937 halda təbliğat aparılmış, kütləvi informasiya vasitələrində 360 dəfə, o cümlədən televiziyada 79, radioda 52, mətbuatda isə 229 dəfə müxtəlif hüquqi mövzularda çıxışlar edilmiş, eyni zamanda yetkinlik yaşına çatmayanlar və gənclərlə əlaqədar 223 halda auditoriyalarda maarifləndirici tədbirlər həyata keçirilmişdir. Babək və Şərur rayon prokurorluqları tərəfindən mətbuatla, Naxçıvan şəhər və Sədərək rayon prokurorluqları tərəfindən isə televiziya və radio ilə əlaqələr daha səmərəli təşkil olunmuşdur. Naxçıvan Dövlət Televiziyasında "Qanunçuluq" televiziya proqramı hazırlanmışdır ki, həmin proqramda 24 dəfə müxtəlif hüquqi mövzularda verilişlər efirə getmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğunun 31 may 2017-ci il tarixli 16/34 saylı icmal məktubunda "Azərbaycan Respublikası Baş Prokurorunun "Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq məsələləri haqqında" 27 iyun 2005-ci il tarixli 09/62 saylı əmrinin icrası ilə əlaqədar 2016-cı ildə prokurorluq orqanları tərəfindən görülmüş işlər barədə ictimaiyyətin məlumatlandırılması işinin vəziyyətinin ümumiləşdirilməsinə dair icmal məktub"da Naxçıvan Muxtar Respublikası Prokurorluğunun müsbət iş təcrübəsinin tabe qurumlarda yayılması məqsədəuyğun hesab olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının Prokurorluq orqanları tərəfindən qanunvericiliyin sistemləşdirilməsi sahəsində müəyyən işlər görülmüş, Baş Prokurorluq üzrə "Prokurorluq orqanlarında hüquqi təminat və qanunvericiliyin sistemləşdirilməsi işinin əsaslı yaxşılaşdırılması tədbirləri haqqında" 27.02.2001-ci il tarixli 02/45 №-li və "Prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsinin aparılması Qaydaları haqqında" Təlimatın təsdiq edilməsi barədə" 02.04.2004-cü il tarixli 08/19 №-li əmrlərin tələblərinə əməl edilmişdir.

Kadr işinin əsas istiqamətləri kimi kadrların seçilib yerləşdirilməsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunmuşdur. Müvafiq əmrlərə əsasən 15 nəfər yuxarı, 1 nəfər aşağı təsnifat vəzifəyə təyin olunmuş, prokurorluq işçilərindən 1 nəfəri vəfat etdiyindən onun adı prokurorluq işçilərinin siyahısından çıxarılmışdır. Prokurorluq orqanlarına işə qəbulun şəffaf şəraitdə müsabiqə qaydasında keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşunaslar hesabına yeniləşdirilməsi üçün ciddi zəmin yaratmışdır. Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş və 23 noyabr 2007-ci il tarixli Fərmanı ilə dəyişikliklər edilmiş «Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında» Əsasnaməyə və «Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi Qaydaları»na müvafiq olaraq 10.11.2017-ci il tarixdə 9 ştat vahidi üzrə işə qəbulla əlaqədar müsabiqə elan edilmiş və hazırda sənəd qəbulu davam etdirilir. Tədris məşğələləri «Prokurorluq işçilərinin ixtisaslarının artırılması, attestasiya olunması işinin təkmilləşdirilməsi haqqında» və Naxçıvan Muxtar Respublikası prokurorunun əmrləri əsasında keçirilmişdir. Prokurorluq işçilərinin nəzəri və peşə hazırlığı ilə əlaqədar Prokurorluğun mərkəzi aparatında və tabe rayon (şəhər) prokurorluqlarında 454 tədris məşğələsi keçirilmişdir.

Sonda əminliklə ifadə olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyyə və tapşırıqlarına müvafiq olaraq bundan sonra da digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarını, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş huquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirləri görəcək, Azərbaycan Respublikasının daha da qüdrətlənməsi naminə sədaqətlə xidmət edəcəkdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Bakı şəhər prokurorluğunda kollegiya iclası keçirilib

**2017-ci ildə Bakı şəhər prokurorluğunda və Bakı şəhərinin rayon prokurorluqlarında görülən işlərin vəziyyəti və qarşıda duran vəzifələr müzakirə olunub**



Yanvarın 24-də Bakı şəhər prokurorluğunda mərkəzi aparatın və ərazi rayon prokurorluqları əməkdaşlarının iştirakı ilə 2017-ci ildə qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilmişdir.

İclasda məruzə ilə çıxış edən Bakı şəhər prokuroru İlqar Abbasov bildirmişdir ki, hesabat dövründə şəhər prokurorluğu tərəfindən cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə sahəsində şəhərin digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə fəaliyyət göstərərək müsbət nəticələr əldə edilmişdir.

Qeyd olunmuşdur ki, hesabat dövründə 2016-cı illə (11940) müqayisədə 182 fakt artaraq 12122 hadisə qeydə alınmış, onların açılma faizi 4,1% artaraq 80%, ağır və ya xüsusilə ağır cinayətlərin sayı 120 hadisə və ya 3,4% azalaraq 1890 olmuşdur.

2016-cı illə müqayisədə hesabat ilində qəsdən adam öldürmə cinayətlərinin sayı 3 fakt azalaraq 59 olmuş, həmin hadisələrdən 1-i istisna olmaqla, o cümlədən qeyri-aşkar şəraitdə törədilmiş qəsdən adam öldürmə cinayətlərinin və 38 qəsdən adam öldürməyə cəhd cinayətinin hamısının açılması təmin edilmişdir.

2017-ci ildə 2016-cı ilə nisbətən 13 quldurluq hadisəsi az baş verməklə, hadisələrin sayı 68 olmuş, onlardan 8-i bağlı qalmışdır.

Ölümlə nəticələnən 203 yol-nəqliyyat hadisəsi qeydə alınmış və həmin hadisələrdən 1-i bağlı qalmışdır.

Şəhərin prokurorluq orqanlarının icraatında olmuş 1047 işdən 563-ü, daxili işlər orqanlarının istintaq şöbələrinin icraatında olan 14432 cinayət işindən 5003-nün istintaqı tamamlanmışdır.

Hesabat dövründə baş vermiş cinayətlər nəticəsində prokurorluqda, o cümlədən şəhər prokurorluğunun İstintaq idarəsində aparılan cinayət işləri üzrə fiziki və hüquqi şəxslərə vurulmuş 2 milyon 437 min manat maddi ziyandan 18,1%-i, yəni 443 min manatı, polis orqanlarında aparılan işlər üzrə isə vurulmuş 30 milyon 194 min manat maddi ziyandan 85,7%-i, yəni 25 milyon 880 min manatı istintaq zamanı ödətdirilmişdir.

Müşavirədə hesabat dövründə əldə edilmiş müsbət nəticələrlə yanaşı yol verilmiş nöqsanlar da diqqətə çatdırılmışdır. Bildirilmişdir ki, quldurluq cinayətlərinin sayının azalmasına baxmayaraq onlardan 8 cinayət



faktının, bağlı qalmış 1 qəsdən adam öldürmə cinayətlərinin tezliklə açılması və təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi üçün intensiv istintaq və əməliyyat-axtarış tədbirlərinin aparılmasının, cinayət nəticəsində vurulmuş ziyanın istintaq zamanı ödətdirilməsi sahəsində dönüş yaradılmasının zəruriliyi vurğulanmışdır. İstintaq və təhqiqat fəaliyyətində aşkar edilmiş nöqsanlar, qanun pozuntuları, süründürməçilik halları konkret misallarla göstərilməklə təhlil edilib onların aradan qaldırılması tələb edilmişdir.

Xüsusi qeyd olunmuşdur ki, vətəndaşların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşılmasının hər bir dövlət orqanının və məmurunun mühüm vəzifələrindən olması barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tələbi rəhbər tutularaq müraciətlərin obyektiv araşdırılması, vətəndaşların mütəmadi olaraq qəbullarının keçirilməsi daim diqqət mərkəzində saxlanılmış, şikayətləri doğuran səbəblərin aradan qaldırılmasına, qanunauyğun və ədalətli qərarların qəbul edilməsinə nəzarət və tələbkarlıq gücləndirilmişdir.

Hesabat dövründə şəhər prokurorluğu orqanlarında vətəndaşların 26266 müraciətinə baxılmış, həmin müraciətlərdən 5259-na baxılaraq həll edilmiş, o cümlədən 1744 müraciət təmin edilmişdir. Həmin dövr ərzində 4597 vətəndaş qəbul edilmiş, rayon prokurorları tərəfindən 2010 nəfər, Bakı şəhər prokurorluğunda 2348 nəfər, onlardan da 448-i şəhər prokuroru tərəfindən qəbul olunmuşdur.

Əməliyyat müşavirəsində bildirilmişdir ki, hesabat dövründə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılmışdır. 2017-ci ildə müxtəlif xətalar törətdiklərinə görə 19 prokurorluq əməkdaşı, o cümlədən 3 rayon prokuroru intizam məsuliyyətinə cəlb edilmiş, onlardan 5 nəfər tutduğu vəzifədən azad olunmuş, 1 nəfər isə prokurorluq orqanlarından xaric edilmişdir.

Tələb edilmişdir ki, şəhər prokurorluğunun bütün struktur qurumlarında xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi, tapşırılan işə görə əməkdaşların məsuliyyət hissinin və neqativ təzahürlərə münasibətdə prinsipiallığının artırılması üçün ən qəti tədbirlər görülsün.

Bakı şəhər prokurorunun müavini Azər Əsgərov, Bakı şəhərinin rayon prokurorları hesabat dövründə görülmüş işlər, yol verilmiş nöqsanlar və qarşıda duran vəzifələr barədə müşavirə iştirakçılarına ətraflı məlumat vermişlər.

Müşavirədə işin səmərəliliyinə mənfi təsir göstərən problemlərin aradan qaldırılması istiqamətində qarşıda duran konkret vəzifələr müəyyənləşdirilmiş və şəhər prokurorluğunun əlaqədar struktur qurumlarına müvafiq tapşırıqlar verilmişdir.

Əməliyyat müşavirəsində inam ifadə olunmuşdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən yeni məzmunlu dövlətçilik siyasətini hərtərəfli dəstəkləyən şəhər prokurorluğu orqanları bundan sonra da digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə Bakı şəhərində ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, dövlət müstəqilliyinin, insan və vətəndaş hüquq və azadlıqların etibarlı müdafiəsi üçün zəruri tədbirlərin görülməsini təmin edəcəkdir.

**Bakı şəhər prokurorluğu**

# Azərbaycan Prokurorluğunun kollektivi Şəhidlər xiyabanını ziyarət edib

**Prokurorluq işçiləri 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər**

Baş Prokurorluğun, Respublika Hərbi və Bakı şəhər prokurorluqları orqanlarının kollektivləri 20 Yanvar faciəsinin 28-ci il dönümü ilə əlaqədar Ümumxalq Hüzn Günü – yanvarın 20-də Şəhidlər xiyabanına gələrək şəhidlərin xatirəsini dərin ehtiramla yad edib, məzarları önünə gül dəstələri qoyublar, "Əbədi məşəl" abidəsinin önündə baş əyiblər.

# Baş prokuror Zakir Qaralov rusiyalı həmkarına müraciət edib

**Azərbaycan vətəndaşı, jurnalist Ülviyyə Şamilqızının vəfat etməsi ilə bağlı Rusiya Federasiyasının Baş prokuroru Yuriy Çaykaya müraciət ünvanlanıb**

Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov Azərbaycan vətəndaşı, jurnalist Ülviyyə Şamilqızının Həştərxan şəhərində yol-nəqliyyat hadisəsi nəticəsində vəfat etməsi ilə bağlı Rusiya Federasiyasının Baş prokuroru Yuriy Çaykaya müraciət edib.

Müraciətdə Ülviyyə Şamilqızının 23 yanvar 2018-ci il tarixdə Rusiya Federasiyasının Həştərxan şəhərində yolu keçərkən avtomobil tərəfindən vurulması nəticəsində vəfat etməsinin ictimaiyyət arasında geniş rezonans doğurması bildirilib.

Faktla bağlı Rusiya Federasiyasının Daxili İşlər Nazirliyinin Həştərxan vilayəti üzrə İstintaq İdarəsi tərəfindən cinayət-prosessual qanunvericiliyin və beynəlxalq hüquq normalarının tələblərinə uyğun olaraq tam, hərtərəfli və obyektiv araşdırma aparılmasına və təqsirkar şəxsin hərəkətlərinə hüquqi qiymət veriləcəyinə əminlik ifadə olunub.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# ATƏT-in DTİHB-nin seçki müşahidə missiyasının rəhbəri Baş Prokurorluqda olub

**Baş prokuror Zakir Qaralov seçki muşahidə missiyasının rəhbəri Korin Yonkeri qəbul edib**

Baş prokuror Zakir Qaralov martın 29-da ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) seçki müşahidə missiyasının rəhbəri Korin Yonkerlə görüşüb.

Ölkəmizdə seçkilərin demokratik və şəffaf şəraitdə keçirilməsi, seçicilərin azad şəkildə öz iradələrini ifadə etməsi məqsədi ilə görülən işlərdən danışan Baş prokuror seçki qanunvericiliyinin pozulması ilə əlaqədar prokurorluq orqanlarının qarşısında duran vəzifələr barədə ətraflı məlumat verərək, seçkilər zamanı yol verilən qanun pozuntuları ilə bağlı Baş Prokurorluğa daxil olan cinayət xarakterli məlumatların təxirəsalınmadan araşdırılmasının təmin edilməsi məqsədi ilə İşçi qrupunun yaradıldığını xüsusi qeyd edilib.

Korin Yonker səmimi qəbula görə minnətdarlığını ifadə edərək, seçki müşahidə missiyasının fəaliyyəti və məqsədləri barədə məlumat verib, müşahidə missiyasının seçkiboyu Baş Prokurorluğun İşçi qrupu ilə əməkdaşlığına önəm verəcəyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

## Baş prokuror Zakir Qaralov Qobustan şəhərində vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Zakir Qaralov yanvarın 19-da Qobustan rayon prokurorluğunun inzibati binasında Qobustan, Göyçay, Kürdəmir, Şamaxı, İsmayıllı və Ağsu rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Qobustan rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda 23 vətəndaş qəbul edilib, onların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində həllini tapıb.

Qəbul zamanı həmçinin, müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilib.

## Baş prokuror Zakir Qaralov İmişli şəhərində vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov fevralın 16-da İmişli rayon prokurorluğunun inzibati binasında İmişli, Biləsuvar, Cəlilabad, Neftçala və Cəbrayıl rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və İmişli rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Qəbul zamanı müraciət edən 27 vətəndaşın hər biri diqqətlə dinlənilib, qaldırılan məsələlərin bir qismi yerində həllini tapıb, həmçinin müraciətlərdə bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq tapşırıqlar verilib.

## Baş prokuror Zakir Qaralov Ağcabədi şəhərində vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov martın 30-da Ağcabədi rayon prokurorluğunun inzibati binasında Ağcabədi, Beyləqan, Tərtər, Ağdam, Füzuli, Laçın və Xocavənd rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Ağcabədi rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Qəbul zamanı müraciət edən 61 vətəndaşın hər biri diqqətlə dinlənilib, qaldırılan məsələlərin bir qismi yerində həllini tapıb, həmçinin müraciətlərdə bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq tapşırıqlar verilib.

***

Vətəndaşlar bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

Yekunda tabe prokurorların iştirakı ilə müşavirə keçirilməklə, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması, vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkili, habelə aprelin 11-də keçiriləcək prezident seçkiləri zamanı seçki qanunvericiliyinin pozulması ilə əlaqədar prokurorluq orqanlarının qarşısında duran vəzifələrlə bağlı konkret tapşırıqlar verilib.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Hərbi Prokurorluqda kollegiya iclası keçirilib

**Hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə cinayətləri üzrə məhkəmə-istintaq təcrübəsi müzakirə olunub**

Fevralın 27-də Hərbi Prokurorluqda Silahlı Qüvvələrin Qoşun Birləşmələrinin yüksək səlahiyyətli nümayəndələrinin iştirakı ilə 2017-ci ilin birinci yarımilində qeydə alınmış hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə cinayətlərinin ibtidai araşdırma və məhkəmə təcrübəsinin ümumiləşdirməsinə həsr olunan kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev dəvəti qəbul edib iclasda iştirak edən qonaqlara öz minnətdarlığını bildirərək tədbirin səmərəli keçəcəyinə ümidvar olduğunu qeyd etdi. Ümummilli lider, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin ordu quruculuğu sahəsində uğurlu dövlət siyasətinin nəticəsində Silahlı Qüvvələrin bütün qoşun növləri üzrə inkişaf edərək möhkəmləndiyini, maddi-texniki bazasının gücləndiyini, döyüş qabiliyyətinin artdığını qeyd edən Xanlar Vəliyev ulu öndər, Azərbaycan Silahlı Qüvvələrinin yaradıcısı Heydər Əliyevin siyasi kursunun bütün sahələrdə olduğu kimi ordu quruculuğunda da möhtərəm Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, iqtisadi inkişafın sürətlənməsinin ölkənin təhlükəsizlik və müdafiə potensialının möhkəmlənməsinə bilavasitə təsir göstərdiyini və Silahlı Qüvvələrdə modern islahatlar aparmağa, hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılmasına zəmin yaratdığını vurğuladı. Həmçinin qeyd olundu ki, dövlət başçısının müntəzəm cəbhə bölgələrinə səfərlər edərək əsgər və zabitlərlə görüş keçirməsi, xidmətdə fərqlənən hərbi qulluqçulara yüksək mükafatlar təqdim etməsi Silahlı Qüvvələrin şəxsi heyətində böyük ruh yüksəkliyi yaratmaqla onları mətin mübarizəyə ruhlandırır.

Bu illər ərzində Azərbaycan Respublikasının Hərbi prokurorluq orqanlarının da ordu quruculuğu işinə öz tövhəsini verməyə çalışdıqlarını, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və başqa silahlı birləşmələrində hərbi intizamın möhkəmləndirilməsi, hərbi nizamnamələrin tələblərinə dönmədən əməl edilməsi, hərbi qulluqçuların hüquq və azadlıqlarının qorunması, baş verə biləcək cinayətlərin və qanun pozuntularının qarşısının alınması üçün kəsərli mübarizə aparılması sahəsində üzərlərinə düşən bütün vəzifələrin icrasını təmin etmək üçün zəruri tədbirlər gördükləri, bunun da nəticəsində Sila" lı Qüvvələrdə qeydə alınmış cinayətlərin, o cümlədən də hərbi cinayətlərin dinamikasında azalma müşahdə edildiyi, lakin Respublikanın hərbi prokurorluq orqanları və Silahlı Qüvvələrin komandanlıqları tərəfindən görülmüş bütün profilaktik və preventiv tədbirlərə baxmayaraq hələ də Silahlı Qüvvələrdə ağır cinayət hadisələrinin qeydə alındığı bildirildi.

Qeyd olundu ki, baş vermiş ağır cinayət hadisələrinin təhlili və ümumiləşdirilməsi nəticəsində müəyyən edilib ki, bir çox hallarda həmin hadisələrin baş verməsinə əsas səbəb və şəraitin məhz hərbi hissələrdə tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarının pozulması, hərbi qulluqçunu döymə, onu təhqir etmə və ya işgəncə vermə cinayətlərinin hərbi hissə komandanlıqları tərəfindən vaxtında aşkara çıxarılmaması, baş vermiş cəzasızlıq mühitindən ruhlanan hərbi qulluqçular tərəfindən onların cinayət əməllərinin davam etdirilməsidir. İnsan həyatının olduqca qiymətli olduğunu, xüsusən də müharibə şəraitində olduğumuz bir vəziyyətdə hərbi hissələrdə baş vermiş cinayət hadisələri nəticəsində hərbi qulluqçuların itkisinin

yolverilməz olduğunu, baş verə biləcək ağır cinayət hadisələrinin qarşısının alınması üçün hərbi prokurorluq orqanlarının hərbi hissə və birləşmə komandanlıqları ilə birgə həyata keçirdikləri tədbirlərin bundan sonra da davam etdirilməsinin zəruridir.

Hərbi Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə şöbənin rəisi Aydın Ələsgərov 2017-ci ilin birinci yarımilində respublikanın hərbi prokurorluq orqanları üzrə qeydə alınmış cinayət hadisələrinin 11%-ni hərbi qulluqçunu təhqir etmə, döymə və işgəncə vermə cinayətlərinin təşkil etdiyini, 2016-cı ilin I yarımili ilə müqayisədə 2017-ci ilin müvafiq dövründə qeydə alınmış həmin cinayətlərin 71% artdığını, qeyd olunan cinayətlərin artımının özünü daha çox Müdafiə Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin tabeliyində olan hərbi hissələrdə daha qabarıq göstərdiyini, Müdafiə Nazirliyinin hərbi hissələri üzrə bu cinayətlərin 36,8%, DSX-nin hərbi hissələri üzrə isə 4 dəfə artdığını, Müdafiə Nazirliyi üzrə artımın əsasən I və III Ordu birləşməsinin tabeliyində olan hərbi hissələr üzrə qeydə alınması barədə məlumat verdi.

Hərbi qulluqçunu  təhqir etmə, döymə və ya ona işgəncə vermə cinayətlərinin baş vermə səbəblərinin və həmin cinayətin törədilməsinə şərait yaradan halların hərbi xidmət keçən və xüsusən də hərbi xidmətə yeni gəlmiş gənc əsgərlərlə mütəmadi fərdi söhbətlərin aparılmaması, əsgərlərlə onların birbaşa komandirləri arasında etibarlı ünsiyyətin yaradılmaması, komandirlərin onların gündəlik qayğıları ilə maraqlanmamaları, təhqir etmə, döymə və ya işgəncə vermə hadisələri üzrə dərhal araşdırma aparılmasının təmin olunmaması, təhqiqatın bir çox hallarda keyfiyyətsiz aparılması, süründürməçiliyə yol verilməsi və bunun da nəticəsində hərbi qulluqçularda cəzasızlıq hissinin formalaşması və s olması xüsusi vurğulandı.

Müdafiə Nazirliyinin səlahiyyətli nümayəndəsi, idarə rəisi Rasim Əliyev göstərilən cinayətlərin artımının təəssüf hissi doğurduğunu, bu cinayətlərin artımında əsas səbəb kimi müddətdən artıq xidmət edən hərbi quluqçuların seçimindəki problemlərin olduğunu, müddətdən artıq xidmət edən hərbi qulluqçuların müddətli həqiqi hərbi qulluqçuların birbaşa rəisləri kimi, onlara diqqət göstərməli, problem və qayğıları ilə maraqlanaraq bu barədə hərbi hissə komandanlığına və ya özündən yuxarı rəislərə məruzə etməli olduğu halda, çox vaxt öz vəzifə borclarının icrasına səhlənkar yanaşdıqlarını, bunun da nəticəsində cinayət hadisələrinin baş verdiyini, bir sıra hallarda isə həmin hərbi qulluqçuların özlərinin cinayət törətdiklərini qeyd edərək müddətdən artıq xidmət edən hərbi qulluqçuların seçimi ilə bağlı, ümumiyyətlə kiçik komandir heyətinin komplektləşdirilməsi qaydaları ilə bağlı konkret təkliflərin hazırlandığını və bu problemin tezliklə aradan qaldırılacağına ümidvar olduğunu bildirdi.

Kollegiya üzvləri və digər qoşun birləşmələrinin nümayəndələri də qeyd olunan cinayətlərin qarşısının alınması məqsədi ilə görülməli olan tədbirlər barədə təkliflərini bildirdilər.

Yekun sözü ilə çıxış edən Respublikanın Hərbi prokuroru Xanlar Vəliyev bildirdi ki, bütün hərbi hissə komandirləri, bölük komandirləri, tağım komandirləri, ümumiyyətlə rəis heyəti öz məsuliyyətlərini dərindən dərk edərək anlamalıdırlar ki, tabeliklərində olan şəxslərə nəzarətin düzgün həyata keçirilməməsi, onların səhlənkarlığı nəticəsində baş vermiş cinayətlərin qarşısının alınmaması, əsgərlərin məişət qayğıları, ailə problemləri ilə maraqlanılmaması, psixoloji durumlarını qiymətləndirməməsi nəticəsində hərbi qulluqçular tərəfindən cinayətlərin törədilməsində onlar birbaşa həm hüquqi, həm də mənəvi məsuliyyət daşıyırlar. Ölkəmizin müharibə şəraitində olduğu bir dövrdə hər an Silahlı Qüvvələrin Ali Baş Komandanının əmrinə əsasən müharibəyə həm fiziki, həm də psixoloji cəhətdən hazır olmalı, dövlət rəhbərliyi tərəfindən aparılan ordu quruculuğu işlərinə əlimizdən gələn köməkliyi göstərməliyik.

**Hərbi Prokurorluq**

# Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar Hərbi Prokurorluqda tədbirlər keçirilib

## Elmi-praktiki konfrans keçirilib






Fevralın 23-də Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar Hərbi Prokurorluğun nəzdində fəaliyyət göstərən Memorial Soyqırımı Muzeyində elmi-praktiki konfrans keçirilib.

Tədbir Xocalı soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Baş prokurorun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev elmi-praktiki konfransı giriş sözü ilə açaraq bəşəriyyətin ən böyük faciələrindən olan, bütün beynəlxalq hüquq normalarının pozulması ilə törədilmiş, kütləviliyi və amansızlığı ilə fərqlənən, eləcə də dövlət müstəqilliyinə və ərazi bütövlüyünə qarşı çevrilmiş terror siyasətinin təzahürü olan Xocalı soyqırımı haqqında iştirakçılara geniş məlumat verərək bildirdi ki, Çar Rusiyası və SSR-i rəhbərliyinin himayədarlığı ilə Azərbaycan torpaqlarının zaman-zaman ermənilərə verilməsi, ardıcıl həyata keçirilən etnik təmizləmə, deportasiya və soyqırımı ilə müşayiət olunan azərbaycanlıların öz dədə-baba ocaqlarından

zorla köçürülmələrinin nəticəsində tarixi Azərbaycan torpaqlarında erməni dövləti yaradılmışdır. Xocalı soyqırımına ilk dəfə ümummilli lider Heydər Əliyev tərəfindən hüquqi və siyasi qiymət verilməsi diqqətə çatdırılaraq bildirildi ki, məhz Heydər Əliyevin 1 mart 1994-cü il tarixdə imzaladığı xüsusi Fərmanla və Milli Məclisin qərarı ilə 26 fevral «Xocalı soyqırımı və milli matəm günü» elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir. Ulu öndərin siyasi xəttinin ən layiqli davamçısı möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən hazırda da soyqırım barədə məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün məqsədyönlü və ardıcıl işlər aparıldığı diqqətə çatdırılaraq, Ermənistanın təcavüzü nəticəsində xalqın üzləşdiyi faciələrə bütün dünyada siyasi və hüquqi qiymətin verilməsinə nail olunması sahəsindəki fəaliyyətdən və görülmüş işlərdən bəhs olundu. Qeyd olundu ki, Ermənistanın dinc azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün tədbirlərin həyata keçirilməsində məqsəd tarixi ədalətin bərpasına nail olmaq, məlum olan cinayətkarları beynəlxalq səviyyədə ifşa etmək və onları dünya ictimaiyyətinin mühakiməsinə verməkdir. Ona görə də bu gün qanında, canında vətən sevgisi olan hər bir azərbaycanlının qarşısında duran ən əsas vəzifələrdən biri dövlətin Xocalı həqiqətlərini dünyaya çatdırmaq, faciəyə beynəlxalq müstəvidə siyasi-hüquqi qiymətin verilməsi istiqamətində görülən işlərə dəstək verməkdir. Azərbaycan Prezidenti möhtərəm İlham Əliyev Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması üçün davamlı və ardıcıl fəaliyyətin vacibliyi barədə deyib: “Azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almalıdır”.






«Xocalıya ədalət» kampaniyası çərçivəsində Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində atılan addımlarda Heydər Əliyev Fondunun müstəsna rolu qeyd edilərək, bu istiqamətdə sistemli və ardıcıl tədbirlərin həyata keçirilməsində Fondun prezidenti, Azərbaycan Respublikasının I vitse prezidenti Mehriban Əliyevanın, həmçinin Heydər Əliyev Fondunun vitse prezidenti Leyla Əliyevanın gərgin əməyi vurğulanılaraq, bunun nəticəsində dünya ölkələrinin erməni qəsbkarlarının insanlığa sığmayan qətlləri haqqında daha dolğun məlumatlandırıldıqları diqqətə çatdırıldı.

Sonra Hərbi Prokurorluğun inzibati binasında yaradılmış «Memorial Soyqırım Muzeyi» barədə tədbir iştirakçılarına ətraflı məlumat verilərək, bugünki gəncliyin tarixə biganə qalmadığı, hər il minlərlə məktəbli və tələbənin həmin muzeyi ziyarət etmələri bildirildi. Dünya ictimaiyyətinin də həqiqətin nədən ibarət olmasını çox yaxşı başa düşməsi vurğulanılaraq, Prezident, Silahlı Qüvvələrin Ali Baş

Komandanı, möhtərəm İlham Əliyevin müdrik siyasəti, qətiyyətli siyasi iradəsi nəticəsində işğal altındakı torpaqlarımızın azad ediləcəyi və xalqımıza qarşı misli görünməyən cinayətlər törətmiş erməni faşistlərinin cinayət məsuliyyətinə cəlb olunacaqları günün uzaqda olmadığı qeyd edildi.

Konfransda iştirak edən Milli Məclisin deputatı, Azərbaycan Milli Elmər Akademiyasının Tarix İnstitutunun direktoru, tarix elmləri doktoru, akademik Yaqub Mahmudov Xocalı soyqırımı ilə əlaqədar 26 il ərzində dövlət və vətəndaş cəmiyyəti tərəfindən aparılan işlərdən söz açaraq «Xocalıya ədalət» kampaniyası çərçivəsində atılan addımların yüksək qiymətləndirildiyini bildirdi.

Konfransda Milli Məclisin deputatları Musa Quliyev və İlham Məmmədov, Azərbaycan Milli QHT Forumunun vitse prezidenti, Beynəlxalq Dialoq və İnkişaf Alyansının sədri, tarix elmləri üzrə fəlsəfə doktoru Nüşabə Məmmədova, Hərbi Prokurorluğun Xüsusi istintaq şöbəsinin rəisi Emil Tağıyev çıxış edərək baş vermiş soyqırımdan keçən 26 il ərzində dövlət və vətəndaş cəmiyyəti tərəfindən aparılan işlərə baxmayaraq, beynəlxalq konvensiyalarda Xocalı soyqırımına hüquqi səviyyədə qiymət verilmədiyini, lakin buna baxmayaraq dövlətimiz tərəfindən «Xocalıya ədalət» kampaniyası çərçivəsində uğurla həyata keçirilən tədbirlər nəticəsində dünyanın 10-dan çox ölkəsində və ABŞ-ın 20-dən çox ştatında Xocalı soyqırımının parlament səviyyəsində tanındığını və digər məsələləri diqqətə çatdırdılar.

Konfransda Xocalı sakini Əbülfət Kərimov çıxış edərək 1992-ci ilin fevral ayının 26-da erməni silahlı dəstələrinin Xocalı şəhərinə hücumu zamanı dinc əhalinin kütləvi surətdə xüsusi amansızlıqla və işgəncələr verilməklə qətlə yetirildiyini bildirib həmin hadisələr zamanı özünün mühasirədən çıxmağa nail olsa da fevralın 28-də girov götürülərək işgəncələrə məruz qaldığını və həmin il aprelin 25-də girovluqdan azad olunduğunu göstərmişdir.

Sonda tədbir iştirakçılarına muzeydə saxlanılan eksponatlar, həmçinin Xocalı Soyqırımının Muzeyinin konfrans zalında Hərbi Prokurorluq tərəfindən hazırlanan «Əsrin faciəsi» adlı videoçarx nümayiş olundu.

## Abşeron rayon İcra Hakimiyyəti ilə birgə tədbir keçirilib

Fevralın 26-da həmçinin Hərbi Prokurorluqda Xocalı faciəsinin 26-cı ildönümünə həsr olunmuş Abşeron rayon İcra Hakimiyyəti ilə birgə tədbiri keçirilib.

Tədbiri giriş sözü ilə açan Hərbi Prokurorluğun Xüsusi istintaq şöbəsinin rəisi Emil Tağıyev Abşeron rayon İcra Hakimiyyətinin nümayəndələrinə və 4 nömrəli tam orta məktəbin müəllim və şagirdlərinə məlumat verərək bildirdi ki, 1988-ci ildən etibarən Dağlıq Qarabağın millətçi ermənilərdən ibarət qanunsuz silahlı dəstələri Ermənistandan Azərbaycan Respublikasının ərazisinə qanunsuz keçmiş silahlı qüvvələrin dəstəyi ilə Dağlıq Qarabağ və ətraf rayonlarında yaşayan azərbaycan millətindən olan yerli əhalinin qanuni yerləşdiyi yerlərdən məcburi hərəkətlərlə didərgin salmış, yaşayış məntəqələrində və dövlət obyektlərində mülkiyyəti talamış və dağıtmış, azərbaycanlı əsir və girovlara dəhşətli işgəncələr vermiş, onların bir qismini öldürmüş və ya şikəst etmişlər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə isə Ermənistandan Azərbaycan Respublikasının ərazisinə keçmiş silahlı qüvvələr, habelə Dağlıq Qarabağın millətçi ermənilərdən təşkil olunmuş qanunsuz silahlı birləşmələri keçmiş SSR-i Silahlı Qüvvələrinin 366-cı motoatıcı alayının komandir heyəti və hərbi texnikası ilə birgə Xocalı şəhərində soyqırımı törətmişlər. Xocalı soyqırımı zamanı azğınlaşmış erməni quldurları mülki əhaliyə, o cümlədən qadınlara, uşaqlara, qocalara aman vermədən qarşılarına çıxan insanlara odlu silahlardan atəşlər açmış, tank, döyüş maşınları və digər texnikanın altına salaraq əzməklə qətlə yetirmişlər.

Sonra muzeydə saxlanılan eksponatlar, Xocalı Soyqırımını əks etdirən tarixi sənədlər barədə məlumatlar verildi.

Abşeron rayonu, Mehdiabad qəsəbəsi, 4 nömrəli tam orta məktəbin direktor müavini Cəmilə Quliyeva tərəfindən məktəbin şagirdləri ilə birgə təşkil edilən Xocalı faciəsinin 26-cı ildönümünə həsr olunmuş «Xocalı qisasa səslər, milləti savaşa səslər» bədii kompozisiyası nümayiş olundu.

Sonda Memorial soyqırımı muzeyinin konfrans zalında Hərbi Prokurorluq tərəfindən hazırlanan «Əsrin faciəsi» adlı videoçarx nümayiş etdirildi.

**Hərbi Prokurorluq**

# Azərbaycanlıların soyqırımının 100-cü ildönümü ilə bağlı Hərbi Prokurorluqda elmi-praktiki konfrans keçirilib

Martın 31-də azərbaycanlıların soyqırımının 100-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun nəzdində fəaliyyət göstərən Memorial Soyqırımı Muzeyində elmi-praktiki konfrans keçirilib.

Əvvəlcə soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Hərbi prokuror Xanlar Vəliyev konfransda çıxış edərək bəşəriyyətin ən böyük faciələrindən biri olan, kütləviliyi və amansızlığı ilə fərqlənən XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törədilmiş soyqırımı haqqında ətraflı məlumat verib. Hərbi prokuror çar Rusiyası, daha sonra isə SSRİ rəhbərlərinin himayədarlığı ilə Azərbaycan torpaqlarının zaman-zaman ermənilərə verilməsi nəticəsində doğma torpaqlarımızda erməni dövlətinin yaradılmasını, azərbaycanlıların dədə-baba ocaqlarından zorla köçürülməsinin ardıcıl şəkildə həyata keçirilən etnik təmizləmə, deportasiya və soyqırımı ilə müşayiət olunmasını bildirib. Qeyd edib ki, ümummilli liderimiz Heydər Əliyevin respublikada hakimiyyətə qayıdışından sonra xalqımıza qarşı törədilmiş soyqırımı barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, həmin cinayətlərə düzgün siyasi və hüquqi qiymət verilməsi üçün məqsədyönlü iş aparılıb. Azərbaycanlılara qarşı müxtəlif illərdə mütəmadi olaraq törədilmiş soyqırımı cinayətlərinə ilk dəfə ulu öndər Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman ilə siyasi qiymət verilib və 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyəti dövründə də bu istiqamətdə ardıcıl fəaliyyət davam etdirilib, o cümlədən Xocalı şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi üçün Bakıda və ölkəmizin digər şəhər və rayonlarında faciə qurbanlarına abidələr ucaldılıb. Dövlət başçısı Azərbaycan xalqına və dünya ictimaiyyətinə müraciətlərində Xocalı faciəsini insanlığa qarşı ən qəddar və amansız kütləvi terror hadisələrindən biri kimi qiymətləndirib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Heydər Əliyev Fondunun "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş qanlı cinayətlərin beynəlxalq ictimaiyyətə çatdırılması və dünya miqyasında tanıdılması məqsədilə 2008-ci ildən etibarən vahid konsepsiyaya uyğun olaraq, planlı şəkildə əhəmiyyətli tədbirlər həyata keçirilib.

Xanlar Vəliyev Respublika Hərbi Prokurorluğunun inzibati binasında yaradılmış Soyqırımı Muzeyi barədə ətraflı məlumat verərək bildirib ki, bugünkü gəncliyin xalqımızın tarixinə biganə qalmaması əlamətdar haldır. Bunun nəticəsidir ki, hər il minlərlə məktəbli və tələbə həmin muzeyi ziyarət edirlər.

Sonda Xanlar Vəliyev artıq dünya ictimaiyyətinin də əsl həqiqətin nədən ibarət olmasını çox yaxşı başa düşdüyünü vurğulayaraq, işğal altındakı torpaqlarımızın Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasəti və qətiyyətli siyasi iradəsi nəticəsində azad ediləcəyi və xalqımıza qarşı misli görülməyən cinayətlər törətmiş erməni faşistlərinin cinayət məsuliyyətinə cəlb ediləcəkləri günün uzaqda olmadığını bildirib.

Konfransda iştirak edən Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı çıxışında əsrlər boyu xalqımıza qarşı törədilən qanlı cinayətlərdən bəhs edib, tarixi hadisələrə bir daha nəzər yetirib. O, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu sahədə görülən tədbirlərin gənclərin maarifləndirilməsi baxımından böyük əhəmiyyətə malik olduğunu vurğulayıb.

Azərbaycan Tibb Universitetinin birinci prorektoru, professor Sabir Əliyev, Hərbi Prokurorluğun xüsusi istintaq şöbəsinin rəisi Emil Tağıyev çıxış edərək tarixi həqiqətlər, erməni millətçilərinin xalqımıza qarşı törətdikləri qanlı cinayətlər və həmin cinayətlərin istintaqı ilə bağlı görülmüş işlər barədə məlumat veriblər.

Konfransın sonunda qonaqlara, habelə tədbirdə iştirak edən Azərbaycan Tibb, Dillər, Dövlət Neft və Sənaye, Bakı Slavyan universitetlərinin və Bakı Musiqi Akademiyasının tələbələrinə Soyqırımı Muzeyində saxlanılan eksponatlar, habelə Azərbaycan xalqına qarşı törədilən soyqırımı cinayətlərini əks etdirən tarixi sənədlər barədə ətraflı məlumat verilib.

Muzeyin konfrans zalında respublika Hərbi Prokurorluğu tərəfindən hazırlanmış "Əsrin faciəsi" videoçarxı nümayiş olunub.

**Hərbi Prokurorluq**



# "Cinayətin provokasiyası" ilə əldə edilmiş sübutların mümkünlüyünün formal və leqal əlamətləri barədə

**Nazir Bayramov,**
*Elm-Tədris Mərkəzinin rəisi,*
*III dərəcəli dövlət ədliyyə müşaviri*

## "Cinayətlərin provokasiyası" cinayət-prosessual fenomen kimi

"Provokasiya" dilimizə latın köklü dillərdən gəlmişdir. İngilis dilində "provocation [ˌprɔvə'keɪʃən]" sözü dilimizə "çağırış", "təxribat", "qıcıqlandırma", "acıqlandırma" kimi tərcümə edilir. Bu söz rus dilində də eyni səslənir – "провокация" və Azərbaycan dilinə "provokasiya, təhrik, fitnə, fitnəkarlıq, fəsad, ara qarışdırma" (ümumi leksika), "xəstəlik hallarının süni surətdə törədilməsi" (tibbi leksika) kimi tərcümə edilir.

Hüquq termini kimi "provokasiya" müəyyən edilməyib; onun tərifi nə qanun normasında, nə doktrinal mənbələrdə yoxdur. Ona məhkəmə-istintaq təcrübəsində də rast gəldiyini deyən hüquqçulara da rast gəlməmişəm. Lakin istisna etmirəm ki, hansısa prosessual sənədlərdə "provokasiya" kimi adlandırılmış konkret əməllər əks etdirilmiş olsun. Bu vəziyyəti normal, yəni cinayətin "provokasiya" edilməsinin neqativ mənada ədalətli məhkəmə araşdırılması və bunu kimi digər fundamental insan hüquq və azadlıqlarının təmin olunmasında oynadığı rola uyğun hesab etməyə çətinlik çəkirəm.

"Cinayətin provokasiyası"nın müxtəlif subyektləri ola bilər, məsələn, zərər çəkmiş şəxs, şahid və ya prosessual statusu olmayan istənilən fiziki şəxs. Bu şəxslərin hərəkətlərinin cinayət-prosessual əhəmiyyəti olsa da, bütövlükdə mühakimənin ədalətliyinə təsir etmir, yalnız konkret cinayət-hüquqi məsələlərinin həllinə (əməldə cinayət tərkibi olub-olmamasına, varsa, onun tövsifinə və s.) verdiyi və ya verə biləcəyi töhfə ilə məhdudlaşır. Təcrübədə cinayətin "provokasiyası" kimi qiymətləndirilməsi ehtimal edilən hərəkətlərin dövlət orqanlarının, daha dəqiq desək, hüquq-mühafizə orqanlarının, xüsusən də əməliyyat-axtarış fəaliyyətini həyata keçirməyə səlahiyyətli olan orqanlarının vəzifəli şəxslərinin törətmələri halları barədə məlumatlara daha çox rast gəlmək mümkündür. Düzdür, bu hərəkətlər nadir hallarda öz adları ilə, yəni "provokasiya" kimi təqdim edilir, əks hallarda onların mötəbərliyi şübhə altına alınmır.

"Cinayətin provokasiyası" cinayətkarlıqla mübarizədə səmərəli vasitə olması peşəkar əməliyyatçılar arasında geniş yayılmış fikirdir. Onların bu məsələyə baxışını qarmaqla balıq ovuna bənzətmək olar. Balıqçı ucuna soxulcan taxdığı qarmağı suya atır, gözləyir ki, soxulcana tamahı düşən balıqlardan biri onu udmağa cəhd etsin və ya udsun, balıq bunu edəndə isə qarmağı dartır və balığı ovlayır. Balıqçı bu işlərə hazırlaşarkən düşünmür və bilmir ki, qarmağa hansı növ, hansı çəkidə, hansı yaşda, hansı cinsdə balıq keçəcək. Onun bildiyi odur ki, ovlanan onun hiyləsinə inanıb qarmağı udan istənilən balıq olacaq. Balıqçının məqsədi konkret balığı deyil, ümumiyyətlə balıq tutmaqdır.

Ədəbiyyatda rast gəldiyimiz tipik cinayətin provokasiyası hallarının sxemi çox sadədir. Məsələn, şəxsiyyəti pərdələnmiş əməliyyatçı və ya onunla gizli əməkdaşlıq edən bir şəxs məlum dairələrdə narkotik axtarması, tapılsa, yaxşı pula satın ala biləcəyi barədə məlumatlar yayır, şəxslərə müraciət edir. Kimsə ona ya qazanc xatirinə, ya həmrəylik xatirinə, ya insanpərvərlik xatirinə, ya da başqa bir motivə görə kömək etməyə razılıq verir, pulu alıb tanıdığı narkotik satıcısından narkotik əldə edir və ona verir.

Əvvəlcədən müvafiq sənədləşmə aparılarsa (çox güman ki, adətən belə də edilir) qanun normalarının formal tələbləri baxımından bu hərəkətləri qüsursuz saymaq olar. Bu yolla əldə edilmiş sübutlar, bir qayda olaraq ittiham üçün məqbul sayılır və istifadə edilir. Bu yolla əldə edilmiş sübutlar da digər sübutlarla eyni qaydada yoxlanılır və qiymətləndirilir.

Yoxlama zamanı cinayət təqibi üzrə toplanmış sübutlar təhlil olunur və bir-biri ilə müqayisə edilir, yeni sübutlar toplanır, əldə olunmuş sübutların mənbəyinin mötəbərliyi müəyyənləşdirilir (CPM-nin 144-cü maddəsi). Sübutların qiymətləndirilməsi onların mənsubiyyəti, mümkünlüyü, mötəbərliyi üzrə həyata keçirilir (CPM-nin 145.1-ci maddəsi).

Yalnız "həqiqiliyinə, yaranma mənbəyinə və əldə edilməsi hallarına şübhələr olmadıqda" məlumatların, sənədlərin və digər əşyaların sübut kimi qəbul olunmasına yol verilir (CPM-nin 125.1-ci maddəsi). Yolverilməz sübutların əlamətlərinin dairəsi qanun norması ilə müəyyən edilib (CPM-nin 125.2-ci maddəsi). Onların arasında sübutların cinayətin provokasiyası ilə əldə edilməsi göstərilməyib. Başqa sözlə, əlamətləri milli qanun norması ilə təyin edilməmiş və buna görə qeyri-müəyyən məzmuna malik "cinayətin provokasiyası" anlayışının bu və ya digər səbəbə görə "mümkünsüz" sübut sayılması üçün hüquqi əsas görünmür. Eyni zamanda israr etmək olmaz ki, milli qanun norması qeyd edilən anlayışa aydınlıq gətirmək üçün ümumi istiqamət müəyyən etməyib. Əslində, edib, lakin onu görmək üçün araşdırma milli qanunvericilik ilə məhdudlaşdırılmış çərçivədən mütləq kənara çıxmalıdır.

CPM-nin 125.2.1-ci maddəsində təsbit edilib ki, "İnsan və vətəndaşların konstitusiya hüquqlarının və azadlıqlarının, yaxud bu Məcəllənin digər tələblərinin pozulması ilə cinayət prosesi iştirakçılarının qanunla təminat verilən hüquqlarından məhrum etmə və ya onları məhdudlaşdırmaqla bu sübutların həqiqiliyinə hər hansı yolla təsir göstərəcəyi və ya göstərə biləcəyi halda" məlumatların, sənədlərin və digər əşyaların cinayət işi üzrə sübut kimi qəbul edilməsinə yol verilmir. Cinayətin provokasiyası halını müəyyən etmək üçün uyğun istiqaməti bu norma göstərə bilər. Daha uyğun konkret norma görmürəm. Lakin "cinayətin provokasiyası"nın bu və ya digər insan hüquq və azadlığının (onların sayı kifayət qədər çoxdur) pozulması ilə əlaqəsini nəinki sübut etmək, hətta "görmək" belə müşkül işdir. Ən azı ona görə ki, bu əlaqənin bütöv məzmunu və ya konkret əlamətləri milli təcrübədə normativ və ya doktrinal qaydada müəyyən edilməyib.

"Cinayətin provokasiyası" əməliyyat-axtarış fəaliyyətidir, onun bir formasıdır. Məlum olduğu kimi, əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar «Əməliyyat-axtarış fəaliyyəti haqqında» qanun normasına uyğun əldə olunduqda, təqdim edildikdə və yoxlanıldıqda, cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər (CPM-nin 137-ci maddəsi). Qeyd edilən qanunda 18 əməliyyat-axtarış tədbiri müəyyən edilib (10-cu maddə). Onların arasında sıraca 12-ci "nəzarət qaydasında mal alınması", 16-cı "cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilmə", 18-ci "əməliyyat eksperimenti, yəni cinayətkar fəaliyyəti təqlid edən davranış modelinin tətbiqi" adlı növlərdir. Provokasiya zamanı bunların hamısı ayrı-ayrılıqda və birlikdə tətbiq edilə bilər. Qanunun norması müəyyən edib ki, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün əsas kimi məhkəmənin (hakimin), istintaq orqanlarının, əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektlərinin qərarları qəbul edilir. Qərarlar başlanmış cinayət işi mövcud olduqda, eləcə də belə iş mövcud olmadıqda, o cümlədən "cinayət hazırlayan, törədən və ya törətmiş şəxs barəsində etimad doğuran, məlum və qərəzsiz mənbədən məlumat daxil olduqda" çıxarılır.

Sadalanan normaların məzmunu və oradakı yuridik faktların (etimad doğuran, məlum və qərəzsiz mənbədən məlumat və s.) qeyri-müəyyənliyi və aşkar olmayan proseduralarla qiymətləndirilməsinin mümkünlüyü ona gətirib çıxarır ki, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqan digərləri üçün əlçatmaz olan öz mülahizələrini rəhbər tutub qərar qəbul edə və müvafiq addımlar ata bilər, o cümlədən cinayət prosesi tərəflərindən birinin (və ya hər ikisinin) "cinayətin provokasiyası" kimi qiymətləndirilə biləcək hərəkətlər edə bilər. Özü də bu hərəkətlərin heç biri qanun normasının formal tələbləri baxımından "qanunsuz" görünməyəcək. Təbii ki, belə "qanuni" yolla əldə edilmiş sübutların qeyri-mümkün hesab edilməsi üçün açıq-aşkar əlamətlər də olmayacaq. Onları müəyyən etmək üçün fərqli yanaşmaların və prinsiplərin nəzərə alınıb tətbiq edilməsi tələb olunur.

"Cinayətkarlıqla mübarizə" və "cinayət işləri üzrə ədalət mühakiməsinin həyata keçirilməsi" arasında bağlılıq var. Cinayət işləri üzrə ədalət mühakiməsinin həyata keçirilməsi özlüyündə cinayətkarlıqla mübarizə olmasa da, bu işə xidmət edir. Cinayətkarlıqla mübarizə geniş anlayışdır, lakin ora "cinayət işləri üzrə ədalət mühakiməsinin həyata keçirilməsi" deyil, onun bir hissəsi olan "cinayət işləri üzrə təqibin həyata keçirilməsi" daxil ola bilər.

**Əməliyyat-axtarış tədbiri nəticəsində əldə edilmiş sübutların mümkünlüyünün leqal əlamətləri problemi**

Əməliyyat-axtarış fəaliyyəti tədbirinin formal əlamətlərə görə deyil, leqal, yəni mahiyyətcə "qanuni" olması, insan hüquq və azadlıqlarını pozmaması əlamətləri milli cinayət-prosessual qanunvericiliyində və təcrübədə təsbit olunmayıb. "İnsan və vətəndaşların konstitusiya hüquqlarının və azadlıqlarının, yaxud bu Məcəllənin digər tələblərinin pozulması ilə cinayət prosesi iştirakçılarının qanunla təminat verilən hüquqlarından məhrum etmə və ya onları məhdudlaşdırma" (CPM-nin 125.2.1-ci maddəsi) prosessual davranışın yalnız "formal" əlamətləridir. Hətta belə davranışın "sübutların həqiqiliyinə hər hansı yolla təsir göstərəcəyi və ya göstərə biləcəyi hal" ifadəsi də sübutların mümkünsüzlüyünün bu əlamətinin "mahiyyətini" açmır. O vaxt "mahiyyət" açılmış olardı ki, normativ və ya doktrinal qaydada göstəriləydi ki, hansı konkret və aydın meyarlar "sübutların həqiqiliyinə hər hansı yolla təsir göstərir" və ya belə təhlükə yarada bilər.

Müvafiq qanun normalarının tələbləri, onların formal xarakter daşımaları yuxarıda qeyd edilib. Azərbaycan Respublikasının Konstitusiya və Ali məhkəmələrinin müvafiq plenum qərarlarında da əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş sübutların mümkünlüyünün yalnız "formal" əlamətlərə dair müddəalar mövcuddur.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 12 fevral 2015-ci il tarixli qərarında göstərilmişdir ki, "Əməliyyat-axtarış tədbirinin aparılması barədə qərara əsasən əldə edilmiş materiallar "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun əldə olunduqda və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tələblərinə uyğun təqdim edildikdə, habelə məhkəmə nəzarəti qaydasında ətraflı yoxlanıldıqda, həmin Məcəllənin 137-ci maddəsinin tələblərinə uyğun olaraq cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər.". Göründüyü kimi, Konstitusiya Məhkəməsi mövqeyini yalnız "formal" əlamətləri göstərməklə ifadə etmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında" 30 mart 2006-cı il tarixli qərarında (19 b.) göstərilib ki, "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə razılıq verilməsi barədə qərarlarında məhkəmələr Azərbaycan Respublikası CPM-in 446.2.5 – 446.2.10-cu maddələrində nəzərdə tutulan məsələlərə münasibətini dəqiq göstərməklə, qərarın qüvvədə olma müddətini qeyd etməlidirlər. Fərdlərin şəxsi həyatına müdaxiləyə yönəlmiş hər bir tədbir qanunvericilikdə nəzərdə tutulmuş ciddi şərt və proseduralara cavab verməlidir. Məhkəmələr nəzərə almalıdırlar ki, şəxsi həyata hər bir müdaxilə mütləq zəruri olmalı və bu ciddi ictimai tələbatın mövcudluğu ilə şərtlənməlidir.".

Başqa bir qərarda – Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun "Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" 04 mart 2011-ci il tarixli qərarında (28 b.) yazılıb: "Məhkəmələrin diqqətinə çatdırılsın ki, Azərbaycan Respublikası CPM-nin 246.2.1-ci maddəsinə əsasən məhkəmənin qərarı olmadan şəxsi axtarış şübhəli şəxs tutulduqda və polis və ya digər hüquq-mühafizə orqanına gətirildikdə aparıla bilər. Azərbaycan Respublikası CPM-nin 153-cü maddəsinin mənasına görə isə tutulmuş şəxs təxirə salınmadan polis və digər tədqiqat orqanlarının müvəqqəti saxlama yerinə gətirilməli və onun tutulması müvafiq protokolla rəsmiləşdirilməlidir. Qanunun bu normalarının düzgün tətbiqi məsələsini nizama salmaq məqsədi ilə məhkəmələrə izah edilsin ki, şəxsi axtarışın şübhəli şəxs qismində tutma protokolu tərtib olunmazdan əvvəl (şəxsi axtarış barədə məhkəmə qərarı olmadan) aparılması halı müəyyən edildikdə məhkəmə buna münasibətini bildirməli və bu yolla əldə olunmuş sübutların mümkünlüyü məsələsini Azərbaycan Respublikası CPM-nin 125.1, 125.2.1 və 125.2.7-ci maddələrinə uyğun olaraq həll etməlidir.".

Ali Məhkəmənin qeyd edilən plenum qərarlarında da eyni yanaşmanın, yəni əməliyyat-axtarış tədbirləri ilə əldə edilmiş sübutların gələcəkdə mümkün hesab edilməsi üçün tələb edilən hərəkətlərin alqoritminin yalnız "formal" göstərişlərlə məhdudlaşdığının şahidi oluruq.

Bəzi ölkələrin məhkəmə-istintaq təcrübəsində əməliyyat-axtarış tədbirlərinin tətbiqi nəticəsində əldə edilmiş məlumatların sübut kimi istifadə olunması meyarlarının dəqiqləşdirilməsi hallarına rast gəlmək mümkündür. Məsələn, RF AM 15.06.2006-cı il tarixli "Narkotik vasitələr, psixotrop, güclü təsir edən və zəhərli maddələrlə bağlı cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" (b.14) plenum qərarında əməliyyat-axtarış fəaliyyəti nəticələrinin sübut etmədə istifadə edilməsinin

aşağıdakı mümkünlük meyarları müəyyən edilmişdir:

1) əməliyyat-axtarış fəaliyyəti nəticələrinin qanun tələblərinə uyğun alınması (belə tələblərə plenum (a) "ƏAF haqqında" Qanunun 11-ci maddəsində nəzərdə tutulmuş əsasların, (b) "nəzarət qaydasında mal alınması" tədbirinin keçirilməsi barədə əməliyyat-axtarış fəaliyyəti həyata keçirən orqanının rəhbərinin təsdiqlədiyi qərarın mövcudluğunu aid etmişdir);

2) məhkəməyə təqdim edilmiş əməliyyat-axtarış fəaliyyəti materialları arasında (a) cinayət törətməyə niyyətin əməliyyat bölmələrinin əməkdaşlarının fəaliyyətindən asılı olmadan formalaşmasını və (b) hüquqa zidd əməlin törədilməsi üçün zəruri olan bütün hazırlıq işlərinin təqsirləndirilən şəxs tərəfindən görüldüyünü təsdiqləyən materialların olması.

Bu müddəaların məhkəmə-istintaq təcrübəsini tamlıqla İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra – Avropa Məhkəməsi) hüquqi mövqeyinə uyğunlaşdırmadığını qeyd etməklə, bir çox nəzəriyyəçilər göstərilən plenum müddəalarının pozitiv əhəmiyyətini bildirmişlər.

Bəs belə tədbirlərlə əldə edilmiş sübutların gələcəkdə ittiham sübutu kimi istifadə etmək üçün, yəni onların mümkün sayılması üçün lazım olan meyarları harada tapmaq olar?

### İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "cinayətin provokasiyası" əlamətlərinin müəyyən edilməsinə dair mövqeyi barədə

Avropa Məhkəməsinin təcrübəsində əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş və sübut kimi mötəbər sayılmış məlumatların əsasında haqsız olaraq təqsirli hesab edilmiş şəxslərin şikayətləri üzrə işlər vardır. Məhkəmə bu işlər üzrə presedent mövqe, yəni qeyd edilən sübutların toplanması, yoxlanması və qiymətləndirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 6-cı maddəsinin tələblərinə əməl edilməsi meyarlarını və prinsiplərini formalaşdıra bilmişdir.

Bu qəbildən olan işlər arasında cinayətin əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar tərəfindən "provokasiya" edilməsi barədə müdafiə tərəfinin dəlillərinin milli məhkəmələr tərəfindən qiymətləndirilməsinə yanaşmalar xüsusi yer tutur.

Avropa Məhkəməsi qərarlarında, xüsusən də narkotiklərin qanunsuz dövriyyəsi və korrupsiyaya qarşı mübarizə ilə bağlı olan işlər üzrə qərarlarında şəxsiyyəti pərdələndirən sənədlərdən istifadə etməklə əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş əməkdaşlarının, bu orqanlarla məxfilik əsasında əməkdaşlıq edən şəxslərin, informatorların xidmətlərindən, ümumiyyətlə gizli iş üsullarından və əməliyyatlardan istifadənin zəruriliyini tanımışdır. Bununla belə, Məhkəmə hesab etmişdir ki, ədalətli məhkəmə baxışı hüququndan irəli gələn ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsi tələbi bütün cinayət işlərinə, o cümlədən aşkar və qeyri-aşkar, sadə və ya mürəkkəb işlərin hamısına şamil edilməlidir. Bu hüquq demokratik cəmiyyətdə elə bir görkəmli yer tutur ki, onu rahatlıq motivlərinə qurban vermək olmaz.

Məhkəmənin mövqeyinə görə, sübutların əməliyyat-axtarış tədbirləri vasitəsi ilə toplanması yalnız insan hüquqlarının pozulması hallarına yol verilmədikdə ədalətli məhkəmə baxışı hüququnu pozmur. Bununla belə, bəzi hallarda polis orqanlarının əməkdaşları xidməti maraqlarının, onun ardınca dövlət və ictimai maraqların mahiyyətini düzgün dərk etməyərək və ya bu məsələdə yanlışlığa yol verərək hüquq pozuntuları ilə nəticələnən hərəkətlərə yol açırlar. Statistikanın bir vasitə kimi idarəetmədə pozitiv rolunu az insan inkar edər. Lakin onun neqativ yönümlü fəsadlarla müşayiət olunmasını normal hal kimi, dialektikadan irəli gələn qanunauyğunluq kimi qəbul etmək və fəaliyyətə bunu nəzərə almaqla lazımi korrektələr etmək gərəkdir. Fundamental insan hüquq və azadlıqları yanlış başa düşülən xidməti, dövləti və ya ictimai maraqlara, onların hər ikisi isə "statistik rəqəmlərə" qurban verilməməlidir.

Hüquq ənənələrinin nisbətən daha konservativ requlyator olması bəlli həqiqətdir. Postsovet ölkələrində uzun ömürlü ənənələrdən biri də cinayətkarlıqla mübarizənin formal əlamətlərə, statistik göstəricilərə görə qiymətləndirilməsi ənənəsidir. Burada faciəvi bir şey yoxdur, sadəcə olaraq real vəziyyət belədir. Əmin olmaq üçün müvafiq orqanların internet resurslarındakı məlumatlara, rəhbərlərin çıxışlarına və s. bu kimi informasiyaya diqqət etmək kifayətdir.

Bəzi növ cinayətkarlığa qarşı mübarizədə əməliyyat-axtarış tədbirləri tətbiq etməklə "statistik effekt" əldə etməyin asan yollarından biri də son zamanlar praktikada və nəzəriyyədə "provokasiya" və ya "cinayət törədilməsinin provokasiya edilməsi" kimi tanınan iş üsulunu göstərmək olar. Vaxt var idi ki, bu üsul açıq-aşkar məqbul sayılırdı, hətta qabaqcıl iş üsulu kimi qiymətləndirilirdi. Söhbət sovet dönəmindən gedir. Sonra bu məsələyə tənqidi yanaşma, daha sonra isə dözümsüz münasibət bəslənməsi dövrü gəldi. Problemin fəlsəfəsi aydın olsa da, hələ də onun reallaşdırılmasını mükəmməl hesab etmək çətindir. Hüquq-mühafizə orqanlarının cinayətkarlıqla mübarizə apararkən istifadə etdikləri

əməliyyat-axtarış tədbirləri arsenalından "provokasiya" tam çıxarılmasını söyləmək hələ tezdir.

Ona görə də, "provokasiya" riskinin mövcudluğu müvafiq əməliyyat-axtarış tədbirlərinin ciddi qanun norması çərçivələri ilə məhdudlaşdırılmasını zəruri edir.

Azərbaycanın məhkəmə-istintaq təcrübəsinə aidiyyəti olan şəxslərin əksər qismi dövlət (cəmiyyət) maraqlarının "provokasiya" hərəkətləri nəticəsində əldə edilmiş sübutlardan cinayət-mühakimə icraatında istifadəyə haqq qazandırdığını şübhə altına almır. Sağlam düşüncə deyir ki, cinayət təqibinin ilk anlarında belə hərəkətlər ortaya gələcəkdə bütövlükdə təqsirləndirilən şəxsin ədalətli məhkəmə baxışı hüququnun pozulması riskini çıxarır.

"Provokasiya" və onun əksi olan "provokasiyasız", yəni qanunun tələblərinə uyğun həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri arasında fərqlərin aydın müəyyən edilməsi bu sahədə hüquq pozuntularının profilaktikasının ilkin və vacib addımı ola bilər. Bu addımı Avropa Məhkəməsi atmışdır.

"Provokasiya"nı hansı əlamətlərə görə müəyyən etmək olar?" – sualına Avropa Məhkəməsinin cavabı təxminən belədir: "Polis provokasiyası o zaman baş verir ki, əməliyyat-axtarış tədbirlərinə cəlb edilmiş "vəzifəli şəxslər və ya onların göstərişi ilə hərəkət edən şəxslər, öz hərəkətlərini yalnız cinayət işinin istintaqını mahiyyətcə aşkar olmayan üsullarla aparmaqla məhdudlaşdırmır, cinayətin aşkarlanmasını, yəni sübutların əldə olunmasını və cinayət işi başlanmasını mümkün etmək məqsədi ilə subyekti cinayət törətməyə təhrik edən təsir göstərirlər, hansı ki, belə təsirsiz həmin cinayət törədilməzdi...".

Bu tərifi nəzərə almaqla Avropa Məhkəməsi tərəfindən bu və ya digər hərəkətin provokasiya olunub-olunmaması müəyyən edilərkən nəzərə alınmalı meyarlar hazırlanmışdır.

İlk belə meyar – obyektiv şübhələrin mövcudluğu meyarıdır. Bu meyara əsasən, əməliyyat tədbirini (nəzarət altında alış[1] və ya operativ eksperiment[2]) qanuni hesab etmək üçün onun keçirilməsi barədə qərar qəbul edilməzdən əvvəl müvafiq orqanlarda şəxsin cinayətkar fəaliyyətə cəlb edilməsinə və ya cinayət törətməyə meylli olmasına dair əsaslı ehtimalın olması lazımdır. Məhkəmə əməliyyat tədbirinin keçirilməsinin söykəndiyi səbəbləri və tədbiri həyata keçirən hakimiyyət təmsilçilərinin davranışını öyrənməlidir. Milli hakimiyyət orqanları "əməliyyat tədbirinin həyata keçirilməsinə kifayət qədər əsaslara malik olmalarını istənilən mərhələdə nümayiş etdirməyə qadir olmalıdırlar". Müvafiq informasiya yoxlanıla bilən olmalıdır. Polis əməkdaşlarının şəxsin narkotiklərin yayılmasına aidiyyəti olması barədə informasiyaya malik olmaları barədə məhkəmədə verdikləri izahatlar əməliyyat-axtarış tədbirinin keçirilməsi üçün əsas kimi qeyri-kafidir, yetərli deyil. Əməliyyat tədbirlərinin tətbiqi yetərli əsasların mövcudluğu inandırıcı şəkildə və əyani olaraq nümayiş etdirilməsi Avropa Məhkəməsinin "Bannikova RF qarşı" işi üzrə qərarında[3] əks etdirilmişdir. Qərara görə, şikayətçinin barəsində Federal Təhlükəsizlik Xidmətinin əməkdaşı B.-nin alıcı kimi iştirakı ilə "nəzarət qaydasında mal alınması" tədbirinin keçirilməsinə qədər Xidmətin sərəncamında şikayətçinin narkotik satıcısı S. ilə icra edilən sazişlə bağlı telefon danışıqları var idi. Bu danışıqlar zamanı "əvvəlki narkotik satışı halları, satılmamış narkotiklərin qalığı, yeni müştərilərin meydana çıxması və digər birgə sazişlərin həyata keçirilməsi perspektivləri yada salınırdı". Məhkəmə iclasında telefon danışıqları araşdırılmışdı və əməliyyatda iştirak etmiş FTX əməkdaşı B. məhkəmə iclasına çağırılaraq çarpaz dindirməyə məruz qalmışdı. Belə situasiyada Avropa Məhkəməsi razılaşdı ki, bu sübutlar ərizəçinin narkotik satışına dair mövcud olan niyyəti barədə rus məhkəməsinin nəticəyə gəlməsinə böyük əminliklə əsas verirdi.

"Xudobin Rusiyaya qarşı" işdə Avropa Məhkəməsi fərqli nəticə çıxarmışdı. Bu iş üzrə qərarda[4] Məhkəmə göstərdi ki, əməliyyatın qanuni əsaslarla keçirilməsi və müəyyən edilmiş qaydada sənədləşdirilməsi özlüyündə avtomatik olaraq bu əməliyyatın qanuni, ondan irəli gələn proseduranı isə ədalətli etmir, Milis işçilərinin əməllərində provokasiya olması məsələsi üzrə nəticə çıxaran Məhkəmə nəzərə aldı ki, tutulmaya qədər ərizəçinin kriminal keçmişi olmayıb. Ərizəçinin keçmişdə narkotik satışı ilə məşğul olması barədə informasiya bir mənbədən – T-dən, milis informatorundan alınmışdı. Bəlli deyildi ki, T. hansı səbəbdən hüquq-mühafizə orqanları ilə

---

1 "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunun 10-cu maddəsinin 12-ci bəndində mahiyyətcə eyni olan "nəzarət qaydasında mal alınması" adlı tədbir nəzərdə tutulub.

2 "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunun 10-cu maddəsinin 18-ci bəndində mahiyyətcə eyni olan "əməliyyat eksperimenti, yəni cinayətkar fəaliyyəti təqlid edən davranış modelinin tətbiqi" adlı tədbir nəzərdə tutulub.

3 *Bax:* CASE OF BANNIKOVA v. RUSSIA, (Application no. 18757/06), judgment 4 November 2010, p.p.66-79.

4 CASE OF KHUDOBIN v. RUSSIA, (Application no. 59696/00), judgment, 26 October 2006, p.p.132-137.

əməkdaşlıq etmək qərarına gəlib. Bundan başqa məhkəmə iclasında o, bildirdi ki, ərizəçiyə heroinin başqa haradan əldə etməyi bilmədiyinə görə müraciət etmişdi. Belə vəziyyətdə İHAM nəticəyə gəldi ki, görünür, milis əməliyyatı şəxsən ərizəçinin deyil, T. üçün heroin almağa razılıq verəcək istənilən şəxsin tutulmasına yönəlmişdi.

Avropa Məhkəməsinin daha bir mövqeyinə görə, konkret şəxsin cinayət törətməyə meylli olmasını əsaslandırmaq üçün sübut etmək lazımdır ki, o, polis əməkdaşlarının müdaxiləsinə qədər bu cinayəti törətməyi planlaşdırırmış. Nəzərə alınmalıdır ki, yalnız şəxsin hüquqa zidd hərəkətlər etməyə razılıq verməsi (yəni "latent cinayətkar niyyəti" büruzə verməsi) halı şəxsin cinayət fəaliyyətə meylli olması barədə nəticə çıxarmaq üçün kifayət deyil. Polis əməliyyatının qanuniliyini əsaslandırmaq üçün şəxsin cinayət törətməyə potensial meylli olması deyil, onun tərəfindən real cinayətkar niyyəti göstərən sübutlar tələb edilir. Beləliklə, Avropa Məhkəməsi hüquq-mühafizə orqanlarının konkret şəxsin cinayətkar fəaliyyətdə iştirakı barədə informasiyanı yoxlamadıqları, bunun əvəzində modelləşdirdikləri şərtlərdə cinayət törədəcək istənilən şəxsi "yaxalamaq" niyyətlərini göstərən "pusqu" situasiyasını provokasiya kimi nəzərdən keçirir.

Müvafiq şəxsin yalnız kriminal keçmişi, Avropa Məhkəməsinin fikrincə, şəxsin cinayətkar fəaliyyətdə iştirakı və ya onun cinayət törətməyə meylli olması barədə obyektiv şübhələrin mövcudluğu barədə nəticə çıxarmaq üçün kifayət deyil.

Bir çox işlərdə Avropa Məhkəməsi şəxsin cinayət törətməyə meylli olmasını, belə niyyətdə olmasını göstərən halları, məsələn, ərizəçinin narkotiklərin mövcud qiymətləri barədə məlumatlı olması və təxirə salmadan narkotik əldə etmək qabiliyyəti (Şannon BK qarşı) qeyd etmişdir. Digər tərəfdən, sazişdən şəxsin heç bir maddi xeyri götürmədiyi hallarının Avropa Məhkəməsi şəxsdə cinayət törətmək niyyətinin olması nəticəsi ilə ziddiyyət təşkil etdiyini bildirmişdir (Xudobin RF qarşı iş).

Beləliklə, Avropa Məhkəməsi hesab edir ki, təqsirləndirilən şəxsin təqsirini təsdiqləyən sübut kimi cinayəti aşkarlamaq məqsədi "axtarış" deyil, yalnız müvafiq orqanların müdaxiləsi olmadan artıq baş verən və ya tezliklə başlayacaq cinayətkar fəaliyyəti sənədləşdirmək məqsədi daşıyan əməliyyat-axtarış tədbirinin nəticəsi qəbul edilə bilər.

Təəssüflər olsun ki, bu məsələ ilə bağlı birmənalı məhkəmə təcrübəsi formalaşmamışdır. Ali Məhkəmə Plenumu tərəfindən müvafiq məzmunlu qərar qəbul edilməmişdir.

Deyilənlərə yekunu yuxarıda qeyd etdiyimiz balıq ovu misalına qayıtmaqla vurmaq istərdim. Əməliyyat-axtarış tədbiri ilə əldə edilmiş sübutların leqal cəhətdən qanuni olması, yəni insan hüquq və azadlıqlarını pozmaması, eləcə də cinayət-prosessual qanunvericiliyinin formal tələblərinə uyğun olması qənaətinə gəlmək üçün "balıq ovu" təsvir edildiyi kimi deyil, "su altı balıq ovu" qaydasında həyata keçirilməlidir. Belə ov zamanı ovçu müvafiq avadanlıqla və geyimlə suyun altına baş vurur, gizlənir, balıqları izləyir, ona lazım olan konkret balığı müəyyən edir və əlindəki silahı (ox, arbalet və s.) ona tuşlayıb istəyinə nail olur. Əməliyyatçılar da təxminən belə hərəkət etməlidirlər, yəni konkret şəxsin cinayət fəaliyyəti ilə məşğul olmasına dair məlumatlar toplamalı, məhz onun yaxalanması üçün tədbirlər görməli, bu zaman hadisələrin gedişinə təsir etməməlidirlər.

Məhkəmə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və dövlət ittihamını müdafiə edən prokurorlar, müstəntiqlər və əməliyyatçılar nəzərə almalıdırlar ki, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 10-cu maddəsinin 12 və 18-ci bəndlərində nəzərdə tutulmuş tədbirlərin – "nəzarət qaydasında mal alınması" və "əməliyyat eksperimenti, yəni cinayətkar fəaliyyəti təqlid edən davranış modelinin tətbiqi"nin həyata keçirilməsinə nə məhkəmə nəzarəti, nə də prokuror nəzarəti mövcuddur. Bu tədbirləri keçirmək üçün, bir qayda olaraq, nə məhkəmədən qərar alınmır, nə prokurordan. Əməliyyatçının müvafiq qərarı sonradan da onlara göndərilmir. Məntiqi baxımdan maraqlı görünsə də, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsi belə tədbirlər aparıldıqdan sonra 48 saat müddətində əməliyyat-axtarış tədbirinin aparılması barədə əsaslandırılmış qərarı məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora yalnız "şəxsiyyət əleyhinə ağır cinayətlərin və ya xüsusi təhlükəli dövlət cinayətlərinin qarşısının alınması" və "cinayəti hazırlayan, törədən, törətmiş, azadlıqdan məhrum etmə və ya həbs yerlərindən, yaxud mühafizə altından qaçmış və gizlənən şəxslərin yaxalanması, yanğın, partlayış və ictimai təhlükəsizliyə qəsd edən və ya qəsd edə biləcək halların aradan qaldırılması" hallarında göndərməyə borcludur (CPM-nin 445.2, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 10-cu maddəsinin IV hissəsi). Qeyd edilən halların yuridik baxımdan qeyri-müəyyən məzmunu və müvafiq proseduranın cinayət təqibinin "informasiya qıtlığı" ilə səciyyələnən ilkin mərhələlərinə aid olması subyektiv amillərin həlledici mövqe tutmağa haqq qazandırmaqla bu "borc"un yerinə yetirilməməsi üçün geniş imkanlar yaradır.

# Residivə görə cəza təyin etmənin xüsusiyyətləri



**Firad Əliyev,**
*Hərbi Prokurorluğun Kadrlar və hüquqi təminat şöbəsinin böyük prokuroru, kiçik ədliyyə müşaviri*

**Cəza təyin etmə cinayət işləri üzrə ədalət mühakiməsi həyata keçirilməsinin mühüm hissəsi olaraq onun məsuliyyətli bir mərhələsidir. Cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli, yəni obyektiv, cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun, başqa sözlə, yüz ölçülüb, bir biçilməlidir ki, qarşıya qoyulmuş məqsədə nail olmaq mümkün olsun. Təbii ki, residivə görə cəza təyin edilərkən onun xüsusiyyətləri ilə yanaşı cəza təyin etmənin ümumi əsasları da nəzərə alınmalıdır. Odur ki, residivə görə cəza təyin etmənin xüsusiyyətlərini araşdırmazdan əvvəl cəza təyin etmənin ümumi əsaslarına diqqət yetirilməsi zəruridir.**

Cəza təyin etmənin ümumi əsaslarını müəyyən edən Azərbaycan Respublikası cinayət qanununun 58-ci maddəsinin tələblərinə əsasən, cinayət törətməkdə təqsirli bilinən şəxsə cəza təyin edilərkən cəzanın ədalətliliyinin, Cinayət Məcəlləsinin ümumi hissəsinin müddəalarının, xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş cəzanın hədlərinin, törədilmiş cinayətin xarakterinin və ictimai təhlükəlilik dərəcəsinin, təqsirkarın şəxsiyyətinin, cəzanı yüngülləşdirən və ağırlaşdıran halların, habelə təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsirinin nəzərə alınması zəruridir.

Məlum olduğu kimi, 1 sentyabr 2000-ci il tarixdə qüvvəyə minən və hazırda qüvvədə olan Azərbaycan Respublikasının Cinayət Məcəlləsində residivə görə cəza təyin etmənin xüsusi qaydasını müəyyən edən ayrıca norma nəzərdə tutulmuşdur. Qeyd etmək lazımdır ki, sözügedən Cinayət Məcəlləsi qüvvəyə minənədək Azərbaycan Respublikasının ərazisində qüvvədə olan cinayət qanunlarının heç birində residivə görə cəza təyin etmənin xüsusi qaydasını müəyyən edən ayrıca norma nəzərdə tutulmamışdır. Bu, prinsip etibarı ilə beynəlxalq təcrübəyə uyğun yanaşmadır. Məsələn, Rusiya Federasiyasının Cinayət Məcəlləsində residivə görə cəza təyin etmənin xüsusi qaydasını müəyyən edən ayrıca norma nəzərdə tutulsa da, bu qayda demək olar ki, Azərbaycan Respublikasının cinayət qanununda olduğu kimi müəyyən edilmişdir. Türkiyə Respublikasının cəza qanununda isə nəinki residivə görə cəza təyin etmənin xüsusi qaydası müəyyən edilməmiş, ümumiyyətlə "residiv" anlayışından istifadə olunmamasına baxmayaraq, cəza qanununda "təkrar cinayət" anlayışı öz əksini tapmış və təkrar cinayətə görə cəza təyin etmənin xüsusi qaydası müəyyən edilmişdir. Hollandiya cinayət qanununda da "residiv" anlayışına müraciət olunmamış, lakin yenidən cinayət törətmiş şəxsə cəza təyin etmənin xüsusi qaydası müəyyən olunmuşdur. Türkiyə və Hollandiyanın cinayət qanunlarından fərqli olaraq isə İspaniya və Çinin cinayət qanunlarında "residiv" anlayışından istifadə edilmiş və cinayətlərin residivi cəzanı ağırlaşdıran hal kimi müəyyən edilmişdir. Bununla belə, residivə görə cəza təyin etmənin xüsusi qaydası müəyyən olunmamışdır.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin residivə görə cəza təyin etmənin xüsusi qaydasını müəyyən edən 65-ci maddəsində qeyd olunmuşdur ki, "Residivə, təhlükəli residivə, və xüsusilə təhlükəli residivə görə cəza təyin edilərkən əvvəllər törədilmiş cinayətlərin sayı, xarakteri, ağırlığı və nəticələri, əvvəlki cəzanın islah təsirinin yetərli olmamasına səbəb olan hallar, habelə yeni cinayətin xarakteri, ağırlığı və nəticələri nəzərə alınır.".

Məhkəmə residivə görə cəza təyin edərkən, yuxarıda sadalananları ayrı-ayrılıqda nəzərə alıb ümumiləşdirərək konkret yekun nəticəyə gəlməlidir.

Fikrimcə, aşağıda təklif olunan halların da cinayət qanununun qeyd olunan maddəsinə əlavə olunması və residivə görə cəza təyin edilərkən sadalananlarla bərabər nəzərə alınması məqsədəmüvafiqdir.

a) əvvəllər törədilmiş cinayətin (cinayətlərin) motiv və məqsədi, habelə yeni törədilmiş cinayətin (cinayətlərin) motiv və məqsədi. Residivə görə cəza təyin edilməmişdən öncə törədilmiş cinayətlərin hər birinin motiv və məqsədini ayrılıqda araşdırmaqla, insanın müəyyən məqsədə çatmağa nə üçün səy etdiyini, bununla da, onun hərəkətlərinin əsl mənasını anlamaq mümkündür.

b) əvvəllər törədilmiş cinayətlə (cinayətlərlə) yeni törədilmiş cinayət (cinayətlər) arasında hər hansı əlaqənin olub-olmaması. Bir halda, şəxs inadkarlıqla islah olunma yoluna düşmək istəmir və cəza çəkdiyi müddətdə nəinki islah olunmaq haqqında düşünmür, hətta növbəti cinayəti törətmək barəsində fikirləşir. Məsələn, A narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz satışı ilə məşğul olan zaman B-ni bu "iş"ə cəlb etmək istədikdə sonuncu bundan imtina etdiyi üçün A onu hədələdikdə, B bu barədə hüquq-mühafizə orqanlarına məlumat verdiyi üçün A bununla əlaqədar cinayət məsuliyyətinə cəlb edilərək, müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunur. Bundan sonra, A cəzaçəkmə müəssisəsində cəzasını çəkdiyi müddətdə islah olunmaq haqqında deyil, cəzanı çəkib qurtardıqdan sonra yenidən öz əvvəlki "iş"i ilə məşğul olmaq, həmçinin B-dən qisas almaq haqqında düşünür və cəzasını çəkib qurtardıqdan sonra düşündüklərini həyata keçirərək yenidən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz satışı ilə məşğul olur, həmçinin B-nin sağlamlığına qəsdən az ağır zərər vurduqda, onun qeyd olunan hər iki əməli ifşa olunaraq cinayət məsuliyyətinə cəlb edilir. Digər halda isə oğurluq cinayətinə görə məhkum olunmuş şəxs müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunur, cəzasını çəkib qurtardıqdan sonra həyat yoldaşına qarşı hörmətsizlik edən şəxslə mübahisə zəminində onun sağlamlığına qəsdən az ağır zərər vurur. Göründüyü kimi, qeyd olunanlar tam fərqli hallardır və cəza təyini zamanı onlara eyni cür yanaşmaq düzgün mövqe hesab edilə bilməz. Odur ki, cəza təyin edilən zaman belə hallara xüsusi diqqət yetirilməli və hər bir hala fərdi yanaşılmalıdır.

c) Cinayətkarın yaşı. Cinayətkarın yaşının nəzərə alınmasının əhəmiyyəti onunla izah edilir ki, cəza təyin edən orqan işin bütün faktiki hallarını araşdırdıqdan, cəza təyin etmənin, o cümlədən residivə görə cəza təyin etmənin xüsusiyyətlərini və digər əhəmiyyət kəsb edən halları nəzərə aldıqdan sonra, həmin şəxsin islah olunacağına daxili inam olduğu təqdirdə məhkum ediləcək şəxsin yaşını nəzərə almaqla ona elə müddətdə cəza təyin etməlidir ki, şəxs cəzasını çəkib qurtaranadək tam qocalmasın və azad cəmiyyətə qayıtdıqdan sonra heç kəsə möhtac olmadan, sərbəst şəkildə öz həyatını qura bilməsi mümkün olsun. Bunun əksi olaraq, inadkarlıqla islah olunmaq istəməyən residivistlərə, onların yaşı nəzərə alınmaqla qanunda nəzərdə tutulmuş daha ciddi və uzun müddətli cəza təyin edilməlidir ki, həmin şəxsin yenidən azad cəmiyyətə qayıtma ehtimalı az olsun, bununla da, onun qanunla qorunan ictimai münasibətlərə yenidən qəsd etmə təhlükəsi minimuma ensin.

Yeri gəlmişkən bir məqama da diqqət yetirilməsi məqsədəuyğundur. Məlum olduğu kimi, bəzi hallarda şəxs konkret çəzaçəkmə müəssisəsində kifayət qədər "nüfuz" qazanır və cəzasını çəkib qurtardıqdan sonra azad cəmiyyətə qayıtdıqda resosializasiya problemləri ilə üzləşir, ailə üzvlərinin, qohumlarının və cəmiyyətin digər üzvlərinin ona qarşı münasibətindən məmnun olmur və bu zəmində əhatəsi ilə onun əlaqələrində gərginlik yaşanır Bəzi hallarda düşdüyü psixoloji vəziyyətdən düzgün və münasib çıxış yolu axtarmaq əvəzinə, şəxs yenidən "doğma" hesab etdiyi, özünü psixoloji baxımdan komfortlu hiss etdiyi cəzaçəkmə müəssisəsinə qayıtmaq istəyir, hətta məqsədinə nail olmaq üçün yenidən cinayət törətməkdən də çəkinmir. Belə hallarda, şəxsin cəzasını əvvəl cəza çəkdiyi müəssisədə çəkməsi barədə qərar hərtərəfli düşünülməklə qəbul edilməsi düzgün olardı.



# Azərbaycan Xalq Cümhuriyyətinin qanunvericilik fəaliyyəti tarixindən

**Cahangir Nəsirov,**
*Prokurorluğun fəxri işçisi, baş ədliyyə müşaviri, Azərbaycan Vəkillər Kollegiyasının və Yazıçılar Birliyinin üzvü, Respublika Veteranlar Təşkilatında şöbə rəisi*

Azərbaycan Respublikasının Prezidenti, çox hörmətli İlham Əliyev ölkənin bu gününün problemlərini həll etməklə yanaşı xalqımızın keçmişini də unutmur, onun şanlı tarixini öyrənməyə, bu tarixdən düzgün nəticələr çıxarmağa, əməlləri ilə qəhrəmanlıq salnamələri yazan babalarımızın irsi ilə qurur duymağa, bu irsə sadiq olmağa səsləyir. Azərbaycan Xalq Cümhuriyyətinin tarixi xalqımızın tarixinin ən möhtəşəm səhifələrindən biridir. Bu il – 2018-ci il may ayının 28-də onun 100 ili tamam olur. Bu hadisə ilə əlaqədar olaraq Prezidentimizin imzaladığı Xalq Cümhuriyyətinin 100-illik yubileyinin keçirilməsi haqqında Sərəncamda xüsusi vurğulanmışdır ki, təsis edilən bu dövlət müsəlman Şərqində ilk parlamentli respublikası olmuşdur. Keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmış qədim və zəngin dövlətçilik ənənəsinə malik Azərbaycan xalqı müstəqil inkişaf yoluna qədəm qoyarkən suveren hakimiyyətin formalaşmasının və idarə olunmasının ən proqressiv üsulunu seçmişdir. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu olaraq meydana çıxmışdır.

**«Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin»**
**Heydər Əliyev**

Prezidentimizin bu məsələ ilə əlaqədar imzaladığı ikinci – 10 yanvar 2018-ci il tarixli Sərəncamla 2018-ci il Azərbaycan Respublikasında «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan edilmişdir. Bununla əlaqədar olaraq ölkə daxilində və xaricində yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Fikrimcə, bu tədbirlər Azərbaycan xalqının zəngin keçmişi ilə bu günkü nailiyyətlərinin əlaqəsini qabarıq şəkildə nümayiş etdirəcəkdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını təsadüfi tarixi hadisə olmadığını hələ xalqımızın ümummilli lideri, Azərbaycan Respublikasının sabiq Prezidenti Heydər Əliyev qeyd etmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin 85 illiyi münasibətilə Azərbaycan xalqına müraciətində o, demişdir: «Müsəlman şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır».

Cümhuriyyətin tarixi kifayət qədər öyrənilmiş, təhlil edilmiş və yayılmışdır. Müddət etibarı ilə nə qədər qısa olsa da, bu tarix Azərbaycan xalqının böyük intellektual və sosial potensiala malik olduğunu nümayiş etdirmişdir. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti özünün həyatiliyini, yüksək işgüzarlıq qabiliyyətini, Azərbaycan xalqının siyasi mədəniyyətinin isə parlament idarəçiliyi səviyyəsinə yüksəldiyini sübut etdi.

Sovetlərin tarix, hüquq və siyasi ədəbiyyatında Azərbaycan Xalq Cümhuriyyətinin və onun hökumətinin demokratik mahiyyəti bilərəkdən təhrif edilmişdir. Sovet hüquq, tarix və siyasi ədəbiyyatında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti quldur, xan-bəy hökuməti kimi təqdim edilmişdir. Şübhəsiz ki, bu fikirlər də həqiqətə uyğun olmamışdır.

Azərbaycan Xalq Cümhuriyyəti gələcək nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 145 iclası keçirilmiş, parlamentin son iclası 1920-ci il

aprelin 27-də olmuşdur. Bu müddətdə Azərbaycan Cümhuriyyəti Parlamentinin müzakirəsinə 270-dən yuxarı qanun layihəsi çıxarılmışdır ki, onlardan da 230-a yaxını təsdiq edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin 28 may 1918-ci il tarixdə qəbul etdiyi ilk normativ hüquqi akt o zamankı Zaqafqaziya Seyminin Azərbaycandan olan deputatları Həsən bəy Ağayev, Fətəli xan Xoyski, Mehdi bəy Hacınski, Xəlil bəy Xasməmmədov və qeyrilərinin, cəmi 25 nəfərin (katib Mustafa Mahmudov) daxil olduğu Müsəlman Milli Şurası tərəfindən qəbul edilən Azərbaycanın İstiqlalı haqqında Bəyannamə idi. Bəyannamədə göstərilirdi: «1. Bu gündən etibarən Azərbaycan xalqları suveren hüquqlara malikdirlər, Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycan tam hüquqlu müstəqil dövlətdir. 2. Müstəqil Azərbaycanın siyasi quruluş forması Demokratik Respublikadır. 3. Azərbaycan Demokratik Respublikası bütün millətlər, xüsusilə qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmağa çalışır. 4. Azərbaycan Demokratik Respublikası öz sərhədləri daxilində milliyyətindən, dinindən, sosial vəziyyəti və cinsindən asılı olmayaraq, bütün vətəndaşlara vətəndaşlıq və siyasi hüquqlar təmin edir. 5. Azərbaycan Demokratik Respublikası öz ərazisi daxilində yaşayan bütün millətlərə azad inkişafı üçün geniş imkanlar verir.6. Müəssisələr Məclisi seçilənə qədər Müvəqqəti Hökumət Milli Şura və Milli Məclis qarşısında məsuliyyət daşıyır və hesabat verir».

Bəyannamə altı bənddən ibarət olmaqla əsli ərəb əlifbası ilə Azərbaycan dilində tərtib olunmuş, lakin Azərbaycan Xalq Cümhuriyyətinin qanunlar külliyyatında rus dilində olan variantı çap edilmişdir. Bu, birinci növbədə, ondan irəli gəlirdi ki, Müsəlman Milli Şurası üzvləri əsasən Avropa təhsilli, o cümlədən rus dilində təhsil almış şəxslər idi. Parlamentin iclasları Azərbaycan dilində aparılmasına baxmayaraq, qəbul olunmuş qanun və qərarlar rus dilində tərtib və çap olunması təsadüfi deyildi.

Müsəlman Milli Şurası tərəfindən cəmisi altı qərar, o cümlədən 28 may 1918-ci il tarixdə Azərbaycan Respublikası Nazirlər Şurasının birinci kabinetinin tərkibinin təsdiq edilməsi barədə, 17 iyun 1918-ci il tarixdə Azərbaycan Respublikasının Nazirlər Şurasının ikinci tərkibinin təsis edilməsi barədə, yenə həmin tarixdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin hüquq və vəzifələri barədə, Azərbaycan Milli Şurasının buraxılması barədə, nəhayət, 20 noyabr 1918-ci il tarixdə Azərbaycan Parlamentinin yaradılması haqqında qanun və qərarlar qəbul edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin dekabr ayında keçirilmiş iclaslarında «Siyasi amnistiya haqqında» Qanun layihəsi müzakirə edilmiş və 8 yanvar 1919-cu il tarixli iclasında qəbul olunmuşdur. Beş bənddən ibarət olan bu Qanunun 5-ci bəndinə əsasən 7 dekabr 1918-ci il tarixə qədər mülki və hərbi hakimiyyətin göstərişi ilə qeyri-məhkəmə qaydasında təyin edilmiş cəzalar, həmçinin, siyasi etibarsızlıq səbəbindən təyin olunmuş cəzalar ləğv edilmiş, onların icrası ilə bağlı aidiyyəti üzrə Daxili İşlər və Hərbi Nazirliyə tapşırıqlar verilmişdir.

Parlament 25 yanvar 1919-cu il tarixdə səpgili yatalaq epidemiyası ilə mübarizə məqsədilə Bakı şəhər bələdiyyəsinə dövlət xəzinəsindən iki milyon iki yüz min rubl, Gəncə bələdiyyəsinə isə dörd yüz əlli min rubl faizsiz kredit ayrılması barədə qanun qəbul etmişdir.

Hələ bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti 9 noyabr 1918-ci il tarixdə milli bayraq haqqında qərar qəbul etmiş, həmin qərarla yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizbucaq ulduzdan ibarət olan milli bayrağın təsviri təsdiq edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti tərəfindən qəbul edilmiş qanunların təhlili göstərir ki, Parlament əhalinin konkret təbəqələrinin maddi-sosial müdafiəsini gücləndirmək məqsədilə bir sıra Qanunlar qəbul etmişdir. Belə ki, Parlament 4 fevral 1919-cu il tarixdə «Dəmiryolu qulluqçularının vəziyyətini yaxşılaşdırmaq haqqında» Qanun qəbul etmişdir.

Azərbaycan Parlamenti tərəfindən əhalinin sosial müdafiəsi ilə bağlı yuxarıda qeyd edilən Qanunun qəbul edilməsi onun fəaliyyətində yeganə hal olmamışdır. 0 mart 1919-cu il tarixdə zəhmətkeş sinfin əmək və məişət şəraitinin yaxşılaşdırılması məqsədilə tədbirlərə əvvəlcədən baxılması üçün «Əmək nazirliyi yanında fəhlə məsələləri üzrə Xüsusi Müşavirənin təsis edilməsi haqqında», 19 mart 1919-cu il tarixdə «Azərbaycan hökumət təşkilatlarının qulluqçularına Novruz bayramı münasibətilə birdəfəlik yardım verilməsi haqqında» qanunlar qəbul olunmuşdur. «Bakı Dövlət Universitetinin Nizamnaməsinin təsdiq edilməsi haqqında» Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 29 aprel 1919-cu il tarixli qərarı Azərbaycan tarixinin sonrakı mərhələlərində də Azərbaycan elminin və tədrisinin inkişafında müstəsna rol oynamışdır. Ümummilli liderimiz Heydər Əliyev bu hadisəni belə qiymətləndirmişdir: «Əsrin əvvəlindən bu günə kimi Azərbaycan elminə və maarifinə çıraq tutan universitetimizin yaradılması

xalqımızın tarixində ən əlamətdar hadisədir». Parlamentin 17 iyul 1919-cu il tarixdə qəbul etdiyi «Qısa müddətli pedaqoji kursların açılması haqqında» Qanun da bu qəbildəndir. Qanunda 1 iyul 1919-cu il tarixdən Qazax, Nuxa (indiki Şəki), Şuşa, Quba, Zaqatala, Salyan, Bakı və Gəncə şəhərlərində iki aylıq pedaqoji kursların açılması və bu məqsədlə Dövlət xəzinəsindən iki milyon üç yüz doxsan min (2390000) rubl ayrılması nəzərdə tutulurdu.

Azərbaycan Xalq Cümhuriyyəti əhalinin maarifləndirilməsi işinə xüsusi diqqət yetirmişdir. 1 sentyabr 1919-cu il tarixdə Parlament 1919-1920-ci tədris ilində Avropaya göndərilən tələbələrə ayda 400 frank, 1000 frank yol xərci, Rusiyaya göndərilənlərə ayda 3 min rubl, 3 min rubl isə yol xərci ödəmək şərti ilə, xarici dövlətlərin ali məktəblərinə yüz (100) abituriyent və tələbə göndərmək üçün xalq maarifi nazirliyinin sərəncamına Dövlət xəzinəsindən yeddi milyon (7000000) rubl vəsait ayrılması barədə qərar qəbul etmişdir.

18 sentyabr 1919-cu il tarixdə Parlament «Xalq məktəblərinin kitabxanaları üçün Azərbaycan dilində yeni kitabların alınması üçün xalq maarifi nazirliyinin sərəncamına Dövlət xəzinəsindən bir milyon (1000000) rubl vəsait ayrılması haqqında» Qanun qəbul etmişdir.

Dövlət hakimiyyətinin bölgüsü prinsipi baxımından nisbətən yeni yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin Məclisi-müəssisan ilə bağlı normativ hüquqi aktın qəbul edilməsinin xüsusi əhəmiyyəti vardı. 21 iyul 1919-cu il tarixdə Parlament tərəfindən qəbul edilmiş «Azərbaycan Respublikası Məclisi-müəssisana seçki haqqında Əsasnamə»yə görə Məclisi-müəssisana 120 nəfər üzvün seçilməsi nəzərdə tutulurdu. Bu Əsasnamənin 3-cü maddəsinə əsasən Məclisi-müəssisana seçkilərdə iştirak etmək hüququna hər iki cinsdən olan və seçki gününədək 20 yaşı tamam olan respublika vətəndaşları malik idi. İnzibati vəzifələr tutan şəxslər o cümlədən: pristavlar, qəza rəislərinin köməkçiləri, qəza rəisləri, polismeysterlər, polismeysterlərin köməkçiləri, qubernatorlar və onların köməkçiləri yalnız aktiv seçki hüququndan (seçmək hüququndan) istifadə edirdilər.

Xüsusi əhəmiyyət kəsb edən qanunlardan biri də Parlamentin 11 avqust 1919-cu il tarixdə qəbul etdiyi «Azərbaycan vətəndaşlığı haqqında Qanun» idi. Qanunun 1-ci maddəsinə əsasən milli və dini fərqlərə baxmayaraq, özləri və ya onların valideynləri Azərbaycan Respublikasının ərazisində doğulmuş keçmiş Rusiya imperiyasının bütün təbəələri Azərbaycan vətəndaşları hesab edilirdilər. Qanunun 2-ci bölməsinin 1-ci maddəsində göstərilirdi ki, birinci bölmənin birinci maddəsində göstərilməyən aşağıdakı şəxslər Azərbaycan vətəndaşlığı hüququnu əldə edirdilər: a) Azərbaycan vətəndaşlarından doğulanlar; b) Azərbaycanlıya ərə gəlmiş əcnəbi qadın; c) on yeddi (17) yaşa çatmamış Azərbaycan vətəndaşını övladlığa götürən əcnəbi vətəndaş.

Cümhuriyyət Azərbaycan xalqının həyatında baş vermiş tarixi faciələrə də biganə qalmamışdır. Ümummilli liderimiz, Azərbaycan Respublikasının sabiq Prezidenti Heydər Əliyevin «Azərbaycanlıların soyqırımı haqqında» 26 mart 1998-ci il Fərmanında qeyd edilmişdir ki, «Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyul ayının 15-də bu faciənin təhqiqi məqsədilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində erməni millətçilərinin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919-1920-ci illər mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi».

Azərbaycan Xalq Cümhuriyyətinin hərbi quruculuq sahəsində atdığı addımları da uğurlu saymaq olar. Nazirlər Şurasının 3 iyul 1918-ci il tarixli qərarı ilə hərbi mükəlləfiyyət keçməkdən ötrü çağırış yaşı 19 yaş müəyyən olunmuşdu. Nazirlər Şurası 11 iyul 1918-ci il tarixdə «1894-1899-cu illərdə anadan olmuş islam dininə etiqad edən şəxslərin ordu sıralarına qəbul edilməsi haqqında» qərar qəbul etmişdi. Qərarın 3-cü bəndində göstərilirdi ki, hərbi mükəlləfiyyəti yerinə yetirməkdən imtina edən şəxslər hərbi vəziyyət qanunlarının bütün şiddəti ilə cəzalandırılacaqlar. Bu baxımdan «Azərbaycan» qəzetinin 15 sentyabr 1918-ci il tarixli 1-ci nömrəsində dərc olunmuş məlumat xüsusi maraq doğurur. Orada göstərilirdi ki, əyalətlərdən verilən məlumatlara görə yeni çağırışçıların ordu sıralarına qəbulu müvəffəqiyyətlə davam edir, Bakıya yaxın kəndlərin bütün döyüş qabiliyyətli kişiləri cəbhəyə göndərilmişlər, Nuxa (indiki Şəki) və Ərəş qəzalarından çağırılmış şəxslər artıq çoxdandır ki, Bakı ətrafındakı döyüşlərdə iştirak edirlər. Qeyd etmək lazımdır ki, Azərbaycan

Xalq Cümhuriyyəti dövründə hərbi nazir tərəfindən qəbul edilmiş əmrlərin də ordu quruculuğunun inkişafında, o cümlədən milli ordunun formalaşdırılmasında əhəmiyyəti az olmamışdır.

Azərbaycan Xalq Cümhuriyyəti öz doğma yurd-yuvalarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin qayğısına qalmağı da yaddan çıxarmamışdır. Belə ki, Cümhuriyyətin Parlamenti 8 yanvar 1920-ci il tarixdə «Qaçqınların ehtiyaclarının ödənilməsi haqqında» Qanun qəbul etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq münasibətlərdə də yüksək əxlaq nümunələri göstərmişdir. Məsələn, 11 mart 1920-ci il tarixdə hökumətin İşlər idarəsinin smetasından üç milyon (3000000) manat zəlzələdən zərər çəkmiş gürcü xalqına öz kömək məqsədi ilə ayrılması haqqında qanun qəbul edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən dövlətin iqtisadi müstəqilliyinin təmin edilməsi üçün gömrük xidmətinin mühüm əhəmiyyəti nəzərə alınaraq bu sahədə də bir sıra qanunlar qəbul edilmişdir. Parlamentin 18 yanvar 1920-ci il tarixdə qəbul etdiyi «Azərbaycan Respublikasında gömrük münasibətlərində sərhəd mühafizəsinin yaradılması haqqında Qanun», bundan əvvəl

1920-ci ilin birinci yarısında «Poylu» dəmiryol stansiyasında, Ağstafa gömrük postunun yaradılması haqqında qəbul etdiyi qanunlar, məhz gömrük xidmətinin təşkili istiqamətində mühüm əhəmiyyət kəsb edən qanunvericilik aktlarındandır.

Azərbaycan Xalq Cümhuriyyəti məhsuldar işlədiyi dövrdə müstəqil respublikanın ədliyyə, məhkəmə, polis və prokurorluq orqanlarının yaradılmasına da xüsusi əhəmiyyət vermişdir. Azərbaycan Respublikasının Ədliyyə Naziri cənab Fikrət Məmmədovun «Azərbaycan ədliyyəsi dünən və bu gün» məqaləsində göstərir: «Azərbaycan Demokratik Respublikasında ədliyyə sisteminin fəaliyyətinə xüsusi əhəmiyyət verilərək Ədliyyə Nazirliyi Cümhuriyyətin yaradılması ilə bir gündə – 1918-ci il may ayının 28-də təsis edilmiş və Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuşdur... Bütün görülən zəruri tədbirlərdən sonra Nazirlər Şurasının qərarları ilə 1918-ci il oktyabr ayının 1-də Bakı Dairə Məhkəməsinin və onun tərkibində prokurorluğun fəaliyyəti bərpa edilmişdir...».

Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə anarxiya dövrünün (Bakı Kommunası dövrü nəzərdə tutulur) müxtəlif adlı məhkəmələri və məhkəmə funksiyalı komissiyaları ləğv edilmiş, Bakı Dairə Məhkəməsinin ona tabe olan idarələri, o cümlədən prokurorluğun fəaliyyəti bərpa olunmşdu. Məhz həmin tarix əsas götürülərək Azərbaycan xalqının ümummilli lideri, Azərbaycan Respublikasının sabiq Prezidenti Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə hər il oktyabrın 1-nin Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı kimi qeyd edilməsi qərara alınmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 14 noyabr 1918-ci il tarixli qərarı ilə «Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə» təsdiq edilmiş və Azərbaycan Məhkəmə Palatası yanında prokuror və onun müəyyən sayda müavini vəzifələri təsis olunmuşdur.

Nazirlər Şurasının «Dövlət dili haqqında» 27 iyun 1918-ci il tarixli qərarının qəbul edilməsi Azərbaycan Xalq Cümhuriyyətinin tarixində ən parlaq səhifələrdən biridir.

1920-ci ilin yanvar ayının 11-də Paris Sülh Konfransında müttəfiq dövlətlər birliyi tərəfindən Azərbaycanın müstəqilliyi tanınmışdı. Fransada, İranda, Dağıstanda, Gürcüstanda və başqa ölkələrdə Respublikanın siyasi nümayəndəliyi artıq fəaliyyət göstərirdi. Azərbaycan həqiqətləri ingilis, fransız, rus, alman və sair dillərə çevrilərək çap olunub yayılırdı.

Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirmək, Respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlanmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında əvəzsiz xidmətləri olan Məmmədəmin Rəsulzadənin, Fətəli Xan Xoyskinin, Həsən bəy Ağayevin, Əlimərdan bəy Topçubaşovun, Mehdi bəy Hacınskinin, Xəlil bəy Xasməmmədovun və qeyrilərin adlarını qədirbilən xalqımız tərəfindən unudulmur və onlar ehtiramla yad edilir. Məhz bu gün biz cəsarətlə deyə bilərik ki, Xalq Cümhuriyyəti rəhbərlərinin arzuları yalnız uzun zamandan sonra 18 oktyabr 1991-ci il tarixdə həyata keçirilmişdir və bu zaman Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etmişdir.

Memarı və qurucusu Heydər Əliyev olan müstəqil dövlətimiz böyük şəxsiyyətin Azərbaycan xalqına ən gözəl töhfəsidir. Heydər Əliyevin Şah əsəri olan müstəqil Azərbaycanı qoruyub yaşatmaq isə hər bir Azərbaycan vətəndaşının borcudur. Onun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla yerinə yetiriləcəyinə, xalqımızın daha xoşbəxt gələcəyə doğru inamla irəliləyəcəyinə heç bir şübhə yoxdur.

# 1988-ci il Sumqayıt iğtişaşları ilə əlaqədar bəyanat

1980-ci illərin sonlarından başlayaraq Ermənistan Azərbaycana qarşı əsassız və qeyri-qanuni ərazi iddialarını həyata keçirməyə cəhd göstərərək zorakılıq əməllərinə, terrora, etnik zəmində təxribatlara və hərbi gücdən istifadəyə əl atdı. Bu zorakılıq əməlləri Azərbaycanın Dağlıq Qarabağ regionu və Ermənistan ərazisində yaşayan köklü Azərbaycan əhalisinə qarşı hücumlarla başlayaraq, 1991-ci ildən Ermənistanın Azərbaycana qarşı açıq hərbi təcavüzü ilə davam etdi, minlərlə azərbaycanlı mülki əhalinin öldürülməsi, bir milyondan artıq azərbaycanlının Ermənistan ərazisində və işğal olunmuş Azərbaycan ərazilərində qanlı etnik təmizləməyə məruz qalması, işğal olunmuş ərazilərin talan edilməsi ilə nəticələndi.

Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalisinin kütləvi qovulmasını, Dağlıq Qarabağın Azərbaycandan ayrılmasını, Ermənistanın Azərbaycana qarşı qeyri-qanuni işğalçılıq və anneksiya siyasətini və bu məqsədə nail olmaq üçün zorakı metodlarını "əsaslandırmaq" üçün anti-Azərbaycan kampaniya həyata keçirən Ermənistan rəhbərliyi, erməni şovinist ideoloqları və ekstremist təşkilatları 80-ci illərin sonlarında Azərbaycanın müxtəlif regionlarında etnik zəmində qarşıdırma planlaşdırır və həyata keçirirdilər.

1988-ci ilin fevralında Sumqayıtda etnik zəmində törədilən iğtişaş həmin dövrdə bu sıradan olan məqsədyönlü təxribatların kulminasiyası idi.

Bakının 30 kilometrliyində yerləşən, on beşdən artıq müxtəlif millətin yaşadığı Sumqayıt şəhərinin əhalisi 1988-ci ildə 258.000 nəfər təşkil edirdi və bunun təqribən 18.000-ni etnik ermənilər idi. 1988-ci ilin fevralına qədər Sumqayıtda etnik zəmində hər hansı qarşıdurma olmamış və bu gün də Sumqayıt digər Azərbaycan şəhərləri kimi çoxmillətli və çox konfessiyalı xüsusiyyətini saxlamaqdadır.

1988-ci ilin 26 fevralında Sumqayıtın mərkəzi meydanı Azərbaycanın Dağlıq Qarabağ regionunda ermənilər tərəfindən iki gəncin öldürülməsinə etiraz olaraq nümayişçilər tərəfindən tutuldu. Erməni ekstremistləri və təxribatçı agentlər tərəfindən bu etiraz aksiyası iğtişaşa doğru təhrik edildi.

İğtişaşı araşdırmaq üçün SSRİ Baş Prokurorluğu tərəfindən cinayət işi başlanmış, xüsusilə mühüm işlər üzrə müstəntiq Vladimir Qalkinin rəhbərliyi ilə ölkənin müxtəlif regionlarından cəlb edilmiş 231 nəfər istintaqçı və bir o qədər də əməliyyatçıdan ibarət xüsusi istintaq-əməliyyat qrupu yaradılmışdır. SSRİ Baş Prokurorluğu tərəfindən aparılan istintaq nəticəsində iğtişaş zamanı 26 erməni, 6 azərbaycanlı olmaqla, 32 nəfərin öldürüldüyü müəyyən edilmiş, məhkəmənin qərarı ilə 92 nəfər uzunmüddətli həbs cəzasına, 1 nəfər isə ölüm hökmünə məhkum olunmuşdur.

Lakin SSRİ Baş Prokurorluğu tərəfindən aparılmiş istintaqla iğtişaş iştirakçılarının yalnız bir qismi müəyyən edilib məhkəmənin qərarı ilə cəzalandırılmış, SSRİ-nin siyasi rəhbərliyi və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təzyiqləri nəticəsində istintaq məntiqi sonluğa çatdırılmamış, onun təşkilatçıları və sifarişçiləri müəyyən edilməmişdir.

Bu cinayətin əsl mahiyyətini açmaq, SSRİ Baş Prokurorluğunun üstündən sükutla keçdiyi məqamları araşdırmaq üçün Azərbaycanın qəti siyasi iradəsinin təzahürü olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi və Azərbaycan Respublikası Baş prokurorunun 19 mart 2010-cu il tarixli qərarı ilə həmin kütləvi iğtişaşlarla əlaqədar keçmiş SSRİ Baş Prokurorluğu tərəfindən istintaqı aparilaraq sonradan dayandırılmış 5 cinayət işinin icraatı təzələnərək vahid icraatda birləşdirilmiş və istintaqın aparılması Baş prokurorun birinci müavininin rəhbərliyi ilə prokurorluq, daxili işlər və təhlükəsizlik xidmətinin müstəntiq və əməliyyatçılarından ibarət yaradılmış istintaq-əməliyyat qrupuna həvalə edilmişdir.

Hazırkı istintaq qrupu tərəfindən toplanmış materialların qiymətləndirilməsi və təhlili təsdiq edir ki, Sumqayıtdakı iğtişaş Azərbaycana qarşı Ermənistan xüsusi xidmət orqanları və SSRİ Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən təşkil edilmiş təxribat olmuşdur. SSRİ Konstitusiyası əsasında Dağlıq Qarabağın Azərbaycandan ayrılmasının qeyri-qanuniliyi dərk edən erməni ideoloqları və SSRİ rəhbərliyində onları açıq dəstəkləyən şəxslər ermənilərin və azərbaycanlıların birgə yaşamasının qeyri-mümkünlüyünü əsaslandırmaq, azərbaycanlıların artıq tam şəkildə Ermənistan ərazisindən qovulmasını təmin etmək və Azərbaycanı nüfuzdan salmaq üçün bu təxribata əl atmışlar.

Həmin təxribatın törədilməsində SSRİ DTK-nın məqsədi SSRİ-nin əyalətlərində vəziyyəti gərginləşdirərək güclənən mərkəzdənqaçma meyllərini dayandırmaq, sərt repressiya metodlara əl atmağa bəraət qazandırmaq və güclü mərkəzi Sovet hakimiyyəti olmadan Sovet respublikalarının müstəqil yaşaya bilməyəcəklərini nümayiş etdirmək olmuşdur. Sumqayıt hadisələrinə bənzər iğtişaş və təxribatlar DTK tərəfindən Oş (Qırğızıstan), Fərqanə (Özbəkistan), Tbilisi (Gürcüstan), Vilnüs (Litva) və digər ərazilərdə təşkil olunmuşdu.

Hadisələr ərəfəsində və hadisələr baş verən gün Sumqayıt şəhərində və ətrafında SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və ordu birləşmələrinin kifayət qədər canlı qüvvəsi və texnikası olsa da, onlar tərəfindən vəziyyətin nəzarət altına alınması üçün vaxtında qabaqlayıcı tədbirlər görülməmişdir.

Evlərə basqın və digər zorakılıq hərəkətləri əvvəlcədən hazırlanmış siyahı və xüsusi plan əsasında əslən erməni olan Sumqayıt şəhər sakini, dəfələrlə məhkum olunmuş Eduard Qriqoryanın bilavasitə rəhbərliyi və göstərişləri üzrə həyata keçirilmiş, hücumlara məruz qalan ermənilər isə Dağlıq Qarabağın Azərbaycandan ayrılması məqsədini güdən gizli "Krunk" və "Karabakh" komitələrinə ianə verməkdən imtina edən şəxslər olmuşlar.

İğtişaşlarda E.Qriqoryan ermənilərə qarşı xüsusi qəddarlığı ilə seçilmiş, zorlamaya məruz qoyduğu erməni Məjlumyan bacıları tərəfindən istintaq zamanı qəti olaraq tanınmışdır. Məhkəmənin hökmü ilə azadlıqdan məhrum edilən E.Qriqoryan SSRİ dağılandan sonra Ermənistanın həbsxanasına köçürülmüş və oradan da dərhal müəmmalı şəkildə azadlığa buraxılmışdır. Hazırda istintaqı aparılan cinayət işi üzrə ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə, qrup halında zorlama və digər ağır cinayətləri törətməkdə təqsirləndirilən, barəsində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarış elan edilmiş E.Qriqoryanın faktiki yaşadığı ünvanın operativ kanallarla müəyyən olunmasına və ictimaiyyətə bu barədə məlumat verilməsinə baxmayaraq, o, Ermənistanın xüsusi xidmət orqanlarının himayəsi altında üçüncü ölkənin ərazisində azadlıqda yaşamaqda davam edir.

Cinayət işinin materialları bir daha göstərir ki, Sumqayıtın azərbaycanlı sakinlərinin fərdi humanizmi və şücaəti olmasaydı, hadisələr planlaşdırılmış təxribat planına uyğun olaraq, daha geniş miqyas alardı. Milliyyətcə erməni olan şahidlərin ifadələrindən göründüyü kimi, onlarla erməni hadisələr vaxtı azərbaycanlı ailələr tərəfindən öz evlərində yerləşdirilməklə xilas edilmişdir.

SSRİ dövründə foto-video çəkilişə xüsusi nəzarət və senzura tətbiq olunmasına baxmayaraq, hadisələrin əvvəlcədən quraşdırılmış vasitələrlə foto-video çəkilişi aparılmış və dərhal SSRİ ərazisindən çıxarılaraq erməni lobbi təşkilatları vasitəsilə anti-Azərbaycan kampaniyasının tərkib hissəsi kimi yayılmışdır.

Ermənistan və erməni lobbisi dairələri tərəfindən Sumqayıt hadisələri qəsdən Azərbaycana qarşı təbliğat və dezinformasiya məqsədilə istifadə edilsə də, Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlər, aparılmış obyektiv və faktlara söykənən istintaq materialları ilə həmin iğtişaşların məhz erməni millətçilərinin və onların havadarlarının öz məkrli niyyətlərinə nail olmaq məqsədilə təşkil edilərək törədilməsi kifayət qədər və təkzibedilməz faktlarla sübuta yetirilmişdir.

Hazırda qeyd olunan iğtişaşların bütün sifarişçisi və iştirakçılarının aşkarlanaraq cinayət məsuliyyətinə cəlb olunması, eləcə də onların və havadarlarının ifşa olunması istiqamətində kompleks istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**Baş Prokurorluq və Xarici İşlər Nazirliyi**

# Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar bəyanat

Ermənistan Respublikası 1980-ci illərin sonlarından Azərbaycanın Dağlıq Qarabağ regionunda aqressiv separatizmi və dövlət səviyyəsində terrorizmi açıq dəstəkləməsinə, Azərbaycana qarşı müharibəyə başlayaraq ərazilərimizin 20 faizini işğal etməsinə, zəbt olunmuş torpaqlarda və Ermənistanın öz ərazisində bir milyondan çox köklü azərbaycanlıya qarşı etnik təmizləmənin həyata keçirilməsinə və çoxsaylı hərbi cinayətlər, insanlıq əleyhinə cinayətlər və soyqırım aktları törətməsinə görə məsuliyyət daşıyır.

Müharibənin gedişində Xocalı şəhərinin işğalı xüsusilə faciəli idi. Münaqişədən əvvəl Azərbaycanın Dağlıq Qarabağ regionunda yerləşən bu şəhərdə 7000 insan yaşayırdı. 1991-ci ilin oktyabr ayından şəhər tamamilə Ermənistan silahlı qüvvələri tərəfindən mühasirəyə alındı. 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə kütləvi artilleriya zərbələrinin ardınca Ermənistan silahlı qüvvələri keçmiş Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) 366 saylı moto atıcı alayının köməyi ilə Xocalının işğalını həyata keçirdilər. İşğalçılar Xocalını darmadağın etdilər və xüsusi amansızlıqla onun dinc əhalisinin qırğınını törətdilər.

Xocalı soyqırımı nəticəsində şəhərin 5379 nəfər əhalisi deportasiyaya məruz qalıb, 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın vəhşicəsinə qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb, 1275 nəfər əsir və girov götürülüb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Ermənistan silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar Azərbaycan dövlətinə və vətəndaşlarına 170 milyon ABŞ dollarından artıq ziyan vurulub.

Ermənistan tərəfindən Azərbaycan Respublikasına qarşı başlanan müharibənin səbəbləri və nəticələrinin ümumi qiymətləndirilməsi və Xocalıdakı faciəvi hadisələrin bütün mövcud faktları qəti şəkildə sübut edir ki, Azərbaycanın bu şəhərində törədilmiş cinayətlər sıradan və təsadüfi hərəkət olmayıb, əksinə əsas məğzini irqi üstünlük, etnik ayrı-seçkilik və nifrət kimi çirkin ideyalar təşkil edən Ermənistanın geniş yayılmış və sistemli zorakılıq siyasətinin tərkib hissəsi olub. Xocalıdakı mülki insanların məqsədyönlü qırğını

sadəcə azərbaycanlı olduqları üçün onların kütləvi məhvinə yönəlmişdi.

Azərbaycan Respublikasına qarşı davam edən təcavüzün fonunda Ermənistan tərəfindən törədilmiş müharibə, insanlıq əleyhinə cinayətlər və Xocalı soyqırımı insan hüquqları və beynəlxalq humanitar hüququn, xüsusilə 1949-cu il Cenevrə Konvensiyaları, Soyqırım Cinayətinin Qarşısının alınması və Cəzalandırılması haqqında Konvensiya, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, İşgəncələrə və Digər Qəddar, Qeyri-insani, yaxud Ləyaqəti Alçaldan Davranış və Cəza növlərinə qarşı Konvensiya, İrqi ayrı-seçkiliyin bütün formalarının Ləğv edilməsi haqqında beynəlxalq Konvensiya, Uşaq Hüquqları haqqında Konvensiya və İnsan Hüquqlarının və Əsas Azadlıqların müdafiəsi haqqında Konvensiyanın ciddi şəkildə pozulmasıdır.

Azərbaycan Respublikası Hərbi Prokurorluğu tərəfindən aparılan istintaqla bir sıra hərbçi qulluqçu və digər şəxslərin Xocalı soyqırımında iştirakı tam sübuta yetirilib və onların Azərbaycan Respublikası Cinayət Məcəlləsinin soyqırım, işgəncə, əhalini deportasiya etmə, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozmağa və digər cinayətlərə görə məsuliyyət nəzərdə tutan maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələri barədə müvafiq qərarlar çıxarılıb.

Xocalı soyqırımı epizodu üzrə aparılan istintaq nəticəsində 7000-ə yaxın istintaq hərəkəti icra edilmiş, o cümlədən 1693 şahid və 2548 zərərçəkmiş şəxs qismində olmaqla 4241 nəfər dindirilmiş, 800-dən artıq müxtəlif ekspertizalar keçirilmiş, digər istintaq hərəkətləri icra edilmişdir.

Avropa İnsan Hüquqları Məhkəməsi 22 aprel 2010-cu il tarixli qərarında Xocalıda törədilmiş cinayətə münasibətdə hücumda iştirak edənlərin davranışını müharibə cinayətləri və ya insanlıq əleyhinə cinayətlərə bərabər tutulan hərəkətlər kimi qiymətləndirərək mühüm nəticəyə gəlibdir.

15-dən çox dövlətin milli qanunvericilik orqanı, həmçinin İslam Əməkdaşlıq Təşkilatı Xocalıda dinc əhalinin qırğınının ən kəskin şəkildə pislənilməsi və Xocalı faciəsinin soyqırım və insanlıq əleyhinə cinayət aktı kimi tanınmasına dair çoxsaylı qətnamə və qərarlar qəbul ediblər.

Beynəlxalq ictimaiyyətin mövqeyini, zəbt olunmuş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin dərhal, qeyd-şərtsiz və tam geri çəkilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərini tamamilə inkar edərək və beynəlxalq hüququ kobudcasına pozaraq, Ermənistan qəsb olunmuş ərazilərdə hərbi mövcudluğunu gücləndirərək, həmin ərazilərin demoqrafik, mədəni və fiziki xarakterini dəyişərək, yüz minlərlə azərbaycanlının həmin ərazilərdə yerləşən doğma yurd-yuvalarına qayıtmasının qarşısını alaraq, Ermənistan və Azərbaycan arasında sərhəd və təmas xətti boyunca sıx yaşayan mülki insanlara müntəzəm şəkildə hücum edərək Ermınistan işğala əsaslanan mövcud status-kvosunu daha da möhkəmləndirilməsinə yönəlmiş səy göstərməyə davam etməkdədir. Rüşvətxor əcnəbi siyasətçilərin və lobbi qruplarının dəstəyi ilə Ermənistan təcavüz, işğal və qanlı etnik təmizləmə nəticəsində Azərbaycanın işğal olunmuş torpaqlarında yaratdığı qanunsuz və qondarma separatçı rejimin təşviqatının aparılması istiqamətində saxta məlumatlar və aktiv dezinformasiyaya köklənən kampaniyalar aparır.

Ermənistan Respublikasının beynəlxalq hüquqa zidd fəaliyyətləri ilə bağlı məsuliyyətləri ilə yanaşı, beynəlxalq cinayət hüququnun adət və müqavilə normalarına əsasən Xocalı şəhərindəkilər də daxil olmaqla silahlı münaqişə kontekstində törədilmiş müəyyən fəaliyyətlər beynəlxalq cinayət əməlləri hesab olunur və ona görə də bu əməllərin törədilməsində iştirak etmiş şəxslər, onlarla əlbir olan və onlara kömək edənlər də fərdi qaydada məsuliyyət daşıyırlar.

Məlumdur ki, Ermənistanın indiki və əvvəlki rəhbərliyi, digər çoxlu yüksək rütbəli siyasi və hərbi rəsmiləri və Azərbaycanın işğal olunmuş ərazisində Ermənistan tərəfindən yaradılmış separatçı rejimin rəhbərləri ilə birlikdə Azərbaycan torpaqlarının zəbt olunmasında və Xocalı da daxil olmaqla azərbaycanlı mülki şəxslərə və hərbçilərə qarşı zorakılıqda şəxsən iştirak etmişlər.

Öz təqsirliliyini utanmadan etiraf etmiş Ermənistanın o dövrdəki müdafiə naziri və hazırkı prezidenti Serj Sarqsyan Britaniya jurnalisti Tomas de Vaala müsahibəsində demişdir: “Xocalıdan qabaq azərbaycanlılar düşünürdü ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməyən xalqdırlar. Biz bu stereotipi sındırdıq” (Tomas de Vaal, Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında (Nyu York və London, Nyu York Universiteti Nəşriyyatı, 2003), səh. 172)).

Danılmaz faktdır ki, bu gün heç bir rəsmi və ya siyasi status ən qatı beynəlxalq cinayətlər, o cümlədən hərbi cinayətlər, insanlıq əleyhinə cinayətlər, soyqırım və etnik təmizləmədə adı hallandırılan heç bir şəxsə immunitet verə bilməz.

Azərbaycan Respublikası əmindir ki, milli səviyyədə, həmçinin mövcud beynəlxalq hüquq çərçivəsində görülən davamlı tədbirlər cəzasızlığa son qoyulmasına və Ermənistanın Azərbaycana qarşı təcavüzü fonunda törədilmiş ağır cinayətlərə görə məsuliyyət daşıyan şəxslərin ədalət məhkəməsinə gətirilməsinə xidmət edəcəkdir.

**Baş Prokurorluq və Xarici İşlər Nazirliyi**

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2017-ci il ərzində görülmüş işlərə dair hesabatla çıxış edib




Yanvarın 17-də Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində 2017-ci il ərzində görülmüş işlərlə bağlı kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilmişdir.

Mətbuat konfransını giriş sözü ilə açan Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə milli iqtisadiyyatın liberallaşdırılması və rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, şəffaflığın daha da artırılması və azad rəqabətin tam təmin olunması, daha yüksək hədəflərə nail olmaq üçün ölkədə aparılan islahatlara, inkişaf proseslərinə mane olan neqativ halların tam aradan qaldırılması, daha çevik və keyfiyyətli idarəetməni təmin edilməsi məqsədilə ardıcıl hüquqi və institusional islahatlar 2017-ci ildə də uğurla həyata keçirilmişdir. Məhz bunun nəticəsidir ki, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və digər mötəbər beynəlxalq qurumlar Azərbaycanda gedən proseslərə yüksək qiymət vermişdir. Belə ki, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək, dünya miqyasında 35-ci yerdə, Dünya Enerji Şurasının ötən il üçün tərtib etdiyi "energetika trilemmasının indeksi" üzrə isə reytinqdə bir sıra yeni sənayeləşmiş ölkələri geridə qoyaraq Yaponiyadan sonrakı 31-ci yerdə qərarlaşmışdır.

Kamran Əliyev xüsusi vurğulamışdır ki, prokurorluq orqanları korrupsiya ilə mübarizəni öz fəaliyyətinin prioritet xətti kimi müəyyən etmiş, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi isə əvvəlki illərdə olduğu kimi fəaliyyətini 2017-ci il ərzində də uğurla davam etdirmişdir.




Həmin müddət ərzində Baş İdarə tərəfindən vətəndaşların 7809 müraciətinə baxılmış, həmçinin 280 cinayət xarakterli material araşdırılmışdır. Həmin materiallardan 181 (65%) material üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmış, 99 (35%) material üzrə digər prokuror təsir aktlarının tətbiq edilməsi təmin edilmişdir.

Hesabat dövründə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə 4183 müraciət daxil olmuşdur. Baş İdarə rəisi çıxışında bildirmişdir ki, 2016-cı illə müqayisədə ötən il "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərin sayı 1309 vahid (23,8%) azalmışdır ki, bu da "ASAN xidmət" mərkəzlərinin fəaliyyət coğrafiyasının daha da genişlənməsi və göstərilən xidmət növlərinin sayının artması ilə əlaqədardır.

"Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlər əsasında 23 cinayət işi başlanmış, həmçinin əlaqəli dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində digər müraciətlərin müsbət həll olunması təmin edilməklə vətəndaşların pozulmuş hüquqları bərpa edilərək aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması məqsədi ilə müvafiq təşkilatlara təqdimatlar göndərilmişdir.

Hesabat dövründə Baş İdarənin əməliyyat qurumları öz vəzifələrini uğurla icra edərək keçirdikləri əməliyyat tədbirləri nəticəsində cinayət başında yaxalanmış şəxslər barəsində 5, habelə əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 17 olmaqla cəmi 22 cinayət işi başlanmışdır.

2017-ci il ərzində Baş İdarədə dövlət və özəl sektorda çalışan 305 vəzifəli şəxs barəsində barəsində 214 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir.

Məhkəmələrə göndərilmiş 305 şəxs barəsində 214 cinayət işindən 127 şəxs barəsində 83 iş qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və israf etmə, 67 şəxs barəsində 56 iş qulluq mövqeyindən istifadə etməklə dələduzluq, 35 şəxs barəsində 25 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 17 şəxs barəsində 7 iş rüşvət alma (passiv rüşvətxorluq), 19 şəxs barəsində 11 iş rüşvət vermə (aktiv rüşvətxorluq), 8 şəxs barəsində 7 iş vəzifə saxtakarlığı, qalanları isə digər korrupsiya cinayətləri ilə bağlı olmuşlar.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə 83 milyon 486 min manat ziyanın ibtidai araşdırma mərhələsində 27 milyon 575 min manat və ya 33.03% ödənilməsi təmin edilmiş, həmçinin qalan ziyanın ödənilməsini təmin etmək məqsədilə 15 milyon 381 min manat məbləğində əmlak üzərinə həbs qoyulması ilə yanaşı, qanunla nəzərdə tutulmuş digər tədbirlər görülmüşdür.

Hesabat dövründə Baş İdarə rəisi və digər vəzifəli şəxslər tərəfindən ümumilikdə 1635 vətəndaşın qəbul edilməsi təmin edilmişdir.

Ötən il ərzində korrupsiyaya qarşı mübarizə sahəsində Baş İdarə əməkdaşları tərəfindən bir sıra qabaqlayıcı tədbirlər həyata keçirilmiş, 20 xüsusat üzrə inzibati pozuntu aşkar edildiyindən İnzibati Xətalar Məcəlləsinin 43, 44 və 54-cü maddələrinin tələblərinə əsasən, inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərarlar qəbul edilərək, baxılması üçün aidiyyəti üzrə dövlət orqanlarına göndərilmiş, araşdırmalar nəticəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması və gələcəkdə bir daha təkrar törədilməməsi üçün müxtəlif dövlət qurumları və vəzifəli şəxslərə göndərilən 88 təqdimat nəticəsində 53 vəzifəli şəxsin intizam məsuliyyətinə cəlb edilməsi təmin olunmuşdur.

Kamran Əliyev qeyd etmişdir ki, insan hüquq və azadlıqlarının, onların layiqli həyat səviyyəsinin təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan edən Konstitusiyamızın ruhu ilə səsləşən dövlət siyasəti və reallaşdırılan islahatlar ədalət, qanunçuluq, hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi prinsipləri ilə yanaşı, humanizm prinsiplərinə də söykənir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1993-cü ildə Azərbaycanda ölüm cəzasının icrasına moratorium qoyulması, 1998-ci ildə isə ölüm cəzasının ləğv edilərək cəzanın sistemindən çıxarılması, cənab Prezident İlham Əliyev tərəfindən mütəmadi şəkildə imzalanan və indiyədək minlərlə insanı əhatə etmiş əfv Sərəncamları, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul edilən və 40 minə yaxın insanı əhatə edən 4 amnistiya aktı humanizm dəyərlərinin dövlət siyasətinin təməllərindən olmasının əyani sübutlarındandır. Hesabat dövrü ərzində dövlət başçısı tərəfindən 10 fevral 2017-ci il tarixdə imzalanmış "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam dövlət idarəçiliyinin əsas prinsiplərindən biri olan humanizm siyasətinə sadiqliyin və korrupsiyaya qarşı kəsərli mübarizəyə dair qətiyyətli siyasi iradənin növbəti bariz nümunəsi olmuşdur. Qeyd olunan sənəddə Azərbaycan Respublikasının Prokurorluğuna edilmiş tövsiyələrdən irəli gələrək Sərəncamda əks olunmuş vəzifələrin icrası məqsədilə 31 may 2017-ci il tarixli 10/41 nömrəli əmrlə Baş Prokurorluq üzrə bir sıra əmrlərə dəyişikliklər edilmişdir. Bu gün Baş İdarə dövlət başçısı tərəfindən imzalanmış bu Sərəncama, həmin sənəddən irəli gələrək qanunvericiliyə edilmiş dəyişikliklərə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində öz fəaliyyətini davam etdirir.

Tədbirdə iştirak edən Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Kamal Cəfərov bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq standartlara cavab verən institusional, qanunvericilik və inzibati tədbirlər həyata keçirilmişdir. Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı 2017-ci ildə dövlət orqanları tərəfindən 86% icra edilmişdir. Milli Fəaliyyət Planının icra vəziyyəti ilk dəfə olaraq Elektron Monitorinq Sistemi ilə qiymətləndirilmiş və dövlət orqanlarının hesabatları hər bir bənd və dövlət orqanı üzrə onlayn rejimdə qiymətləndirilmişdir.

"Elektron hökumət" portalına inteqrasiya olunan qurumların sayı 91-ə, elektron xidmətlərin sayı isə 437-yə çatdırılmışdır. İqtisadi sahədə törədilən cinayətlərə görə məsuliyyətin yüngülləşdirilməsi və dekriminalaşdırılması ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə dəyişikliklər edilmişdir. Tikilməkdə olan və ya tikilmiş və istismara qəbul edilməmiş çoxmənzilli binalarda mənzillərin bir neçə şəxsə satılması kimi neqativ hallarının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər edilmişdir. Etik davranış qaydalarının əhatə dairəsinin genişləndirilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikası Milli Məclisi deputatlarının və bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında qanunlar qəbul edilmişdir.

Kamal Cəfərov qeyd etmişdir ki, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən sistemli institusional islahatlar çərçivəsində "ASAN xidmət"

mərkəzlərinin sayı 12-yə çatdırılmış və fəaliyyət istiqamətləri genişləndirilmişdir. Bu günə qədər "ASAN xidmət" mərkəzlərinə 20 milyona yaxın müraciət daxil olmuş və vətəndaş məmnunluğu əmsalı isə 100 faizə yaxın olmuşdur. Bütün dövlət xidmətlərinin "ASAN xidmət" standartlarına uyğunluğunu yoxlamaq məqsədilə dövlət orqanlarının xidmətləri "ASAN xidmət indeksi"ni təşkil edən parametrlər üzrə qiymətləndirilmiş və indeksin nəticələri, mövcud problemlər və onların təkmilləşdirilməsi istiqamətində təkliflər aidiyyəti dövlət orqanlarına verilmişdir. Korrupsiyanın qarşısının alınması sahəsində sistemli təlim və maarifləndirmə tədbirləri həyata keçirilmişdir. Avropa Şurası və Avropa İttifaqı ilə birgə əməkdaşlıq şəraitində dövlət qulluqçuları və tələbələr üçün etik davranış qaydaları və anti-korrupsiya mövzuları üzrə tədris proqramı hazırlanmış, yerli təlimçi bazası formalaşdırılmış, regionlarda müxtəlif hədəf qrupları üçün təlimlər keçirilmişdir.

Bundan başqa, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017–2019-cu illər üçün Milli Fəaliyyət Planı"na müvafiq olaraq dövlət orqanlarının bu sahədə fəaliyyətlərinin effektiv əlaqələndirilməsini təmin edən koordinasiya mexanizminin yaradılması,  qanunvericiliyin beynəlxalq standartlara tam uyğunlaşdırılması, institusional potensialın və hesabatlılıq sisteminin gücləndirilməsi sahələrində mühüm nailiyyətlərin əldə edilməsini qeyd etmişdir.

Tədbirdə iştirak edən qeyri-hökumət təşkilatlarının nümayəndələrindən "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev və "Şəffaflıq Azərbaycan" təşkilatının icraçı direktoru Rəna Səfərəliyeva çıxış edərək korrupsiyaya qarşı mübarizə sahəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 2017-ci il ərzində gördüyü işləri müsbət dəyərləndirmişlər.

Mətbuat konfransında bildirilmişdir ki, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alaraq hesabat dövründə Baş İdarə tərəfindən bu sahədə ixtisaslaşmış beynəlxalq qurumlar və digər ölkələrin müvafiq hüquq mühafizə orqanları ilə əlaqələrin daha da genişlənməsinə xüsusi diqqət yetirilmişdir.

Belə ki, 2017-ci il iyunun 6-dan 7-dək Azərbaycan Hökumətinin dəstəyi ilə Bakıda üzvlərinin böyük əksəriyyəti islam dövlətlərindən olan İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin prokurorluq, ixtisaslaşdırılmış korrupsiyaya qarşı mübarizə qurumları rəhbərlərinin və ombudsmanlarının üçüncü iclası keçirilmişdir.

Yüksək səviyyəli tədbirə ölkəmizlə yanaşı, Türkiyə, İran, Qazaxıstan, Pakistan, Əfqanıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkmənistanın dövlət qurumlarının, eləcə də ECO, Beynəlxalq Anti-Korrupsiya Akademiyasının (IACA) rəhbər vəzifəli şəxsləri qatılmış, Baş İdarə rəisi, digər yerli və xarici nümayəndələr hesabat məruzələri ilə çıxış etmiş, həmçinin konfrans çərçivəsində tərəfimdən Türkiyə, Pakistan, İran və digər dövlətlərin nümayəndə heyətlərinin rəhbərləri ilə ikitərəfli görüşlər keçirilmiş və tədbirin sonunda ECO-ya üzv dövlətlərdə korrupsiyaya qarşı mübarizəyə dair Bakı Bəyannaməsi qəbul edilmişdir.

2017-ci ilin 9-11 oktyabr tarixlərində Baş İdarənin inzibati binasında Azərbaycan Respublikası Prokurorluğu və Beynəlxalq Prokurorlar Assosiasiyasının, həmçinin Avropa İttifaqı və Avropa Şurasının birgə təşkilatçılığı ilə Şərqi Avropa, Balkan regionu və Mərkəzi Asiya ölkələrinin hüquq mühafizə orqanlarının 50-dək əməkdaşı, beynəlxalq ekspertlər, Beynəlxalq Prokurorlar Assosiasiyasının rəsmi şəxsləri, həmçinin ölkəmizin hüquq mühafizə orqanları nümayəndələrinin iştirakı etdiyi kibercinayətlər və informasiya-kommunikasiya  texnologiyalarından istifadə etməklə törədilən çirkli pulların yuyulması və digər cinayətlərin ibtidai istintaqı və cinayət təqibi, elektron sübutların əldə edilməsi, ortaya çıxan problemlər və onların həlli yolları kimi mövzuları əhatə edən "Kibercinayətkarlıqla mübarizəyə dair Konfrans" keçirilmişdir.

Azərbaycan Respublikası Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (QREKO) 3-cü dəyərləndirmə raundunu tamamlamış, Avropa Şurasının MONEYVAL Komitəsinin 2017-ci il 25-29 sentyabr tarixlərində keçirilən plenar iclasında dördüncü raund qiymətləndirmə ilə əlaqədar Azərbaycan Respublikası üzrə tərəqqi hesabatı qəbul edilmiş və hesabatda ölkəmizdə bu sahədə əhəmiyyətli irəliləyişin olması qeyd edilmişdir.

Bundan başqa, 2017-ci il  fevralın 20-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının IV Monitorinq Raundu

çərçivəsində ölkəmiz üzrə qəbul edilmiş hesabat təqdim edilmişdir.

Həmçinin, 25-27 oktyabr 2017-ci il tarixlərdə həmin beynəlxalq təşkilatın Azərbaycan Respublikası Prokurorluğu və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyası ilə birgə təşəbbüsü ilə Baş İdarənin inzibati binasında keçirilmiş OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin (ACN) Hüquq Mühafizə Orqanları Şəbəkəsinin "Korrupsiya cinayətlərinin istintaqı və cinayət təqibi: cinayət yolu ilə əldə edilmiş gəlirlərin müsadirəsi, əmlakın bərpası və prokurorların müstəqilliyi" mövzusunda beynəlxalq konfransına Şərqi Avropa və Mərkəzi Asiya regionundakı 20-dən artıq ölkənin korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşmış qurumlarının rəhbər şəxsləri, bilavasitə korrupsiya cinayətlərinin istintaqı və cinayət təqibini həyata keçirən müstəntiq və prokurorlar, anti-korrupsiya məsələləri üzrə ixtisaslaşmış beynəlxalq ekspertlər, OECD-nin rəsmiləri, eləcə də ölkəmizin hüquq mühafizə orqanlarının nümayəndələri olmaqla 70-dən artıq iştirakçı qatılmışdır.

Tədbir çərçivəsində Baş İdarə əməkdaşları tərəfindən də bir sıra təqdimatlar keçirilmiş, ölkəmizin bu sahədə əldə etdiyi müsbət iş təcrübəsi önə çəkilmiş, bununla yanaşı, təmsilçilərimizlə Latviya, Rumıniya, Ukrayna və digər ölkələrin nümayəndə heyətləri arasında ikitərəfli görüşlər keçirilmiş, Baş İdarə tərəfindən ibtidai istintaqı aparılan cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımla bağlı sorğuların icra vəziyyəti və əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

Bundan başqa Avropa İttifaqının Avropa Qonşuluq Siyasətinin "Şərq Tərəfdaşlığı" və TAİEX (Texniki Yardım və İnformasiya Mübadiləsi) aləti çərçivəsində, Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsi (EACN), Avropa Şurasının Korrupsiyaya qarşı mübarizə aparan dövlətlər qrupu (GRECO), Beynəlxalq Prokurorlar Assosiasiyası (İAP), Beynəlxalq Antikorrupsiya Akademiyası (İACA), Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatı (GUAM) və digər təşkilatlarla səmərəli əməkdaşlıq aparılmışdır.

Hesabat dövrü ərzində Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla yanaşı, bu sahədə qabaqcıl və müsbət təcrübəyə malik olan ölkələrin ixtisaslaşmış antikorrupsiya qurumları ilə də ikitərəfli səmərəli əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində zəruri tədbirlər görülmüşdür. Belə ki, Azərbaycan Respublikası və Bolqarıstan Baş Prokurorluqları arasında imzalanmış bir illik Baş İdarə və "ASAN xidmət"in fəaliyyətlərinin öyrənilməsini nəzərdə tutan birgə fəaliyyət planına uyğun hər iki ölkə prokurorluqlarının nümayəndə heyətlərinin qarşılıqlı işgüzar səfərləri olmuşdur.

Bununla yanaşı, ötən il Bolqarıstan Respublikasının Baş prokuroru Sotir Tsatsarovun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri zamanı nümayəndə heyəti dövlət başçısı cənab İlham Əliyev tərəfindən qəbul edilmiş, görüş çərçivəsində ölkələrimizin hüquq mühafizə orqanları arasında əməkdaşlıq əlaqələrinin gücləndirilməsinin münasibətlərimizin gələcək inkişafına öz müsbət töhfələrini verməsi bildirilmişdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən korrupsiyaya qarşı mübarizə fəaliyyətində qeyri-hökumət təşkilatları ilə sıx münasibətlərin qurulmasına xüsusi önəm verilmiş, Baş İdarənin fəaliyyəti, bu sahədə son vaxtlar qəbul edilmiş qanunvericiliyin tələbləri, beynəlxalq əməkdaşlıq nəticəsində həyata keçirilən tədbirlər, həmin tədbirlərin reallaşmasında dövlət qurumlarının və vətəndaş cəmiyyətinin rolu və digər mühüm məsələlər ilə əlaqədar Baş İdarə əməkdaşlarının kütləvi informasiya vasitələrində məqalələri dərc edilmişdir.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan rüşvətxorluq və korrupsiya kimi neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması sahəsində verdiyi göstərişlərə uyğun olaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən bundan sonra da korrupsiya hüquqpozmalarını doğuran səbəb və şəraitin müəyyən edilməsi və cinayətlərin qarşısının alınması istiqamətində sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərinin davam etdirilməsi təmin ediləcəyi xüsusi vurğulanmışdır.

Sonda QHT və KİV nümayəndələrinin sualları ətraflı cavablandırılmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Prokurorluq orqanlarına qulluğa qəbulla bağlı elan edilmiş müsabiqənin ilkin mərhələsi olan test imtahanı keçirilib



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən təməli qoyulmaqla Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla reallaşdırdığı dövlət gənclər siyasətinə uyğun olaraq prokurorluq orqanlarında müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsi kadr korpusunun şəffaf prosedurlar əsasında formalaşmasının ən sivil yoludur. Bu yolla həyata keçirilən işə qəbul prokurorluğun kadr tərkibinin hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaratmış, ölkə həyatının bütün sahələrində gənclərin əməyindən hərtərəfli istifadə olunması barədə Dövlət başçısının verdiyi tapşırıqların icrası yolunda mühüm vasitə olmuşdur.

2002-ci ildən başlayaraq müsabiqə yolu ilə qulluğa qəbul edilmiş 780 gənc mütəxəssis hazırda prokurorluğun kadr korpusunun 65 faizini təşkil etməklə təyinat aldıqları müxtəlif vəzifələrdə səmərəli fəaliyyət göstərirlər.

Fevralın 28-də Baş Prokurorluq tərəfindən Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında” Əsasnaməyə müvafiq olaraq elan edilmiş sayca 18-ci müsabiqənin ilkin mərhələsi olan test imtahanı keçirilmişdir.

Prokurorluq orqanlarına işə qəbulla əlaqədar saat 10:00-dan başlayaraq 3 saat ərzində vahid auditoriyada – Bakı İdman Sarayında Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə keçirilən imtahanı dövlət qurumla-







rının nümayəndələri ilə yanaşı, qeyri-hökumət və beynəlxalq təşkilatların, habelə kütləvi informasiya vasitələrinin nümayəndələri müşahidə etmişlər.

İmtahan başa çatdıqdan sonra namizədlərin cavab kartları Dövlət İmtahan Mərkəzində yoxlanılmış və imtahanda iştirak edən 410 namizəddən 222-si müsabiqənin növbəti mərhələsi olan yazılı imtahanda iştirak etmək hüququ qazanmışdır.

Test imtahanının nəticələri Baş Prokurorluğun rəsmi internet səhifəsində (http://www.genprosecutor.gov.az/) yerləşdirilib.

**Baş Prokurorluğun Kadrlar idarəsi**

# “Prokurorluğun normativ hüquqi aktları” informasiya sistemi yaradılıb




*"Prokurorluğun normativ hüquqi aktları" informasiya sisteminin interfeysi*

Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən xüsusi proqram təminatı ilə idarə olunan “Prokurorluğun normativ hüquqi aktları” informasiya sistemi hazırlanıb tətbiq edilməyə başlanmışdır.

Sistem yüksək istehlak imkanlarına (axtarış, təhlil və sair) malik olmaqla prokurorluğun normativ hüquqi aktlarından səmərəli istifadəni təmin edir. İnternet üzərindən işləyən sistemin məlumat bazasına daxil olan aktların lokal daşıyıcılara, o cümlədən fərdi kompüterlərə yüklənməsi mümkündür. Bazada olan məlumatlar mütəmadi olaraq yenilənir. Bazanın strukturu ora daxil olan aktların növlərinə və statuslarına uyğun aparılmış bölgüyə (təsnifata) əsasən müəyyən edilib. Hər bir akta 10 meyar üzrə fərdi indeks (yəni hər bir akta onun sistemdəki yerini müəyyən edən rəqəmsal xarakteristika) verilib.

Sisteminin məlumat bazasına 2001-ci ildən hazıradək qəbul olunan müxtəlif növlü (əmr, sərəncam, göstəriş, əsasnamə, təlimat, reqlament, qayda, tədbirlər planı və sair) 440 ədəd sənədin



*İnformasiya sisteminin Baş Prokurorluqda təqdimatı*

mətni daxil edilib. Aktların elektron versiyası yaradılıb, onların məzmunları yoxlanılıb, elektronlaşdırma zamanı yaranan qüsurlar aradan qaldırılıb, mətnləri dəyişikliklərə uyğun olaraq yenilənib, dəyişikliklər, əlavələr və ləğv etmələr barədə məlumatlar haşiyələrdə göstərilməklə son mətn məlumat bazasına daxil edilib. Ləğv edilmiş (qüvvədən düşmüş) aktların mətninin də bazaya daxil edilməsi bazanın tarixi əhəmiyyətə malik olduğunu göstərir.

İnformasiya sistemindən istifadə yalnız prokurorluq işçiləri üçün nəzərdə tutulub. Sistemə buraxılış əldə etmək üçün hər bir prokurorluq işçisi üçün müəyyən edilmiş autentifikasiya məlumatları (istifadəçi adı və parol) onlara çatdırılıb.

Sistemindən istifadə qaydası barədə məlumat müvafiq səhifədə yerləşdirilməsinə baxmayaraq, Mərkəzin işçiləri tərəfindən Baş Prokurorluğun idarələrində və tabe prokurorluqlarda (fevralın 17-də Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət, DİO-nın istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət, Dövlət ittihamının müdafiəsi üzrə idarələrinin, fevralın 24-də Hüquqi təminat, Beynəlxalq əlaqələr, Ədliyyə və Vergi Nazirlikləri, Dövlət Gömrük Komitəsinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət, Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizlik və Dövlət Sərhəd Komitələrinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarələrində və Mətbuat xidmətində, martın 3-də Bakı şəhər prokurorluğunda, martın 17-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində, martın 31-də Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində) təqdimatlar keçirilib.





*İnformasiya sisteminin Bakı şəhər prokurorluğunda təqdimatı*

İnformasiya sisteminə inzibatçılıq Mərkəz tərəfindən həyata keçirilir. Prokurorluq işçiləri bazadan səmərəli istifadə edirlər. Onları maraqlandıran hər bir suala sistem daxilində ətraflı cavab verilir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Beynəlxalq ekspertlər Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin fəaliyyətinə maraq göstərirlər

## Beynəlxalq Miqrasiya Təşkilatının ekspertləri Elm-Tədris Mərkəzinin fəaliyyəti ilə tanış olublar

ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilən "Azərbaycanda potensialların artırılması və texniki dəstək vasitəsilə insan alverinə qarşı mübarizənin səmərəliliyi üçün əməkdaşlığın gücləndirilməsi – VI Faza" layihəsi çərçivəsində Beynəlxalq Miqrasiya Təşkilatı, Miqrantlara yardım şöbəsinin rəhbəri xanım Şaren Tuladhar, beynəlxalq ekspert Könül Qasımova, Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı Nümayəndəliyinin işçiləri yanvarın 9-da Baş Prokurorluğun Elm-Tədris Mərkəzində qəbul ediliblər.

Qonaqlara Mərkəzin statusu barədə ümumi məlumat verildikdən sonra prokurorluğun fəaliyyət sahələri və ya ayrı-ayrı konkret məsələlər üzrə nəzəri və praktiki tədqiqatlar, onların nəticələrindən prokurorluq işçilərinin fəaliyyətinin təkmilləşdirilməsi, elmi-nəzəri və metodiki baxımdan daha da təminatlı olması, prokurorluq orqanlarına işə qəbul və prokurorluq işçilərinin attestasiyasına hüquqi-texniki yardım, gənc mütəxəssislərinin hazırlıq proqramları, prokurorluq işçilərinin peşə biliklərinin artırılması və digər məsələlər barədə məlumatlar verilib. Bu sahələrdə, eləcə də Mərkəz tərəfindən prokuror fəaliyyətinin digər sahələrində tətbiq olunan informasiya-kommunikasiya texnologiyalarının müasir imkanlarının tətbiqi qonaqların xüsusi marağına səbəb olub və onların müvafiq sualları ətraflı cavablandırılıb.

## Beynəlxalq ekspert Elm-Tədris Mərkəzinin fəaliyyəti ilə tanış olub



Dünya Bankı tərəfindən maliyyələşdirilən "ədliyyə ehtiyaclarının qiymətləndirilməsi" layihəsi çərçivəsində beynəlxalq ekspert Mariya Naumovska Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının işçiləri ilə birgə yanvarın 24-də Baş Prokurorluğun Elm-Tədris Mərkəzində qəbul ediliblər.

Qonaqlara prokurorluqda ixtisasartırma, metodiki və elmi-nəzəri və nəşriyyat işinin təşkili, Mərkəzin, eləcə də bütövlükdə prokurorluğun fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının və rəqəmsal texnikanın tətbiqi barədə ətraflı məlumat verilib, onların xahişi ilə bəzi avadanlıqların və proqram təminatlarının işi, o cümlədən "İmtahan" informasiya sisteminin imkanları real iş rejimində nümayiş etdirilib.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Baş Prokurorluğun işçiləri "Azərbaycanda ədliyyə islahatlarına dair təşəbbüslərə dəstək" layihəsinin təqdimatına həsr olunmuş konfransda iştirak ediblər




Yaxşı idarəçilik üçün Tərəfdaşlıq çərçivəsində həyata keçirilən "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun Azərbaycanda tətbiqi" adlı Avropa İttifaqının və Avropa Şurasının birgə layihəsi üzrə ABŞ-nin Azərbaycandakı səfirliyinin qarşılıqlı təşkilatçılığı ilə vəkillərin, hakimlərin, prokurorluq işçilərinin, habelə bir sıra qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə fevralın 14-15-də Bakı şəhərində "Azərbaycanda ədliyyə islahatlarına dair təşəbbüslərə dəstək" yeni layihəsinin təqdimatına həsr olunan konfrans keçirilib.

Konfransda Avropa Şurasının İnsan hüquqları siyasəti və inkişaf departamentinin rəhbəri Mixal Lobov, Avropa Şurasının Bakıdakı Ofisinin rəhbəri Zoltan Herneys, Azərbaycan Respublikası Ədliyyə Akademiyasının Rektor vəzifəsini icra edən Elçin Xələfov, Avropa Şurasının Layihə meneceri Mahir Müştehidzadə, Avropa İnsan Hüquqları Məhkəməsinin katibliyinin baş hüquqşünası Xəqani Quliyev, Plexanov adına Rusiya İqtisad Universitetinin Hüquqi Tədqiqatlar və Regional İnteqrasiya İnstitutunun Direktoru professor Rəşad Qurbanov, habelə Avropa Şurasının HELP Məşvərət Şurasının üzvü, britaniyalı vəkil Saymon Otul, Vəkillər Kollegiyasının sədri Anar Bağırov və digər dövlət, hüquq-mühafizə orqanları, qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Tədbirdə Baş Prokurorluqdan Elm-Tədris Mərkəzinin rəisi Nazir Bayramov, Təşkilat-analitik idarəsinin rəis müavini Rauf Zeynalov, Dövlət Ittihamının müdafiəsi üzrə idarənin Birinci instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin rəisi – idarə rəisinin müavini Elşən Albəndov, Hüquqi təminat idarəsinin rəis müavini Aynur Osmanova, Elm-Tədris Mərkəzi, İnsan hüquq və azadlıqlarının müdafiəsi problemləri kafedrasının rəisi Talıb Cəfərov və digər işçilər təmsil olunublar.

Avropa Şurasının Siyasət və insan hüquqlarının inkişafı departamentinin rəhbəri Mixail Lobov yeni layihənin Avropa Şurası və Azərbaycan arasında birgə əməkdaşlığın rəmzi olduğunu vurğulayıb və ədliyyə sahəsində müxtəlif treyninqlərin əvvəllər yaxşı nəticələr verdiyini qeyd edib.

Avropa Şurasının Bakıdakı Ofisinin rəhbəri Zoltan Herneys Avropa Şurasının hazırda Azərbaycanda ədliyyə və hüquq sahələrində iki böyük layihə icra etdiyini, onların məqsədinin bu sahələrdə həyata keçirilən islahatlara dəstək vermək olduğunu, müvafiq






təlimlərə bu vaxta qədər 38 təlimçi, 1000-dək hüquq işçisi cəlb edildiyini göstərib.

Natiqlər "Avropa Məhkəməsi effektiv müdafiə vasitəsi kimi: problemlər və həllər", "AİHM qərarlarının Rusiya tərəfindən icra olunması kontekstində mülkiyyət hüquqları", "Avropa insan hüquqları standartlarının tətbiqində Milli Təlim İnstitutlarının rolu", "Təlim Avropa İnsan Hüquqları Konvensiyasının implementasiyasında yardım kimi" və "Azərbaycanda vəkillər üçün insan hüquqları təliminin problemləri və perspektivləri" mövzularda çıxışlarını təqdim edib, insan hüquqları üzrə təlimlərin təkmilləşdirilməsi perspektivləri barədə baxışlarını sərgiləyiblər.

Konfrans işini plenar sessiyalarda davam etdirib.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Prokurorluq işçiləri hakimlərin toxunulmazlığının məhdudlaşdırılmasına dair qanun layihəsinin müzakirəsində iştirak ediblər



Martın 15-də Bakı şəhərində Avropa İttifaqı və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin birgə təşkilatçılığı ilə "Azərbaycanda ədliyyə sisteminin inkişafına və cinayət işləri üzrə məhkəmə qərarlarını icra edən qurumların göstərdiyi xidmətlərin təkmilləş-






dirilməsinə dəstək" layihəsi çərçivəsində hakimlərin toxunulmazlığının məhdudlaşdırılmasına dair qanun layihəsinin müzakirəsinə həsr olunan dəyirmi masa keçirilib.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Heydər Məmmədov tədbiri açıq elan edərək korrupsiyaya qarşı mübarizənin ölkəmizdə dövlət siyasətinin prioritet istiqaməti olduğunu, bu sahədə çoxsaylı islahatlarının keçirildiyi bildirib.

İşçi qrupu tərəfindən hazırlanan hakimlərin toxunulmazlığının məhdudlaşdırılmasını nəzərdə tutan "Məhkəmələr və hakimlər haqqında" Qanuna təklif olunan dəyişikliklərlə bağlı qanun layihəsi iştirakçıların diqqətinə çatdırılıb. Qanun layihəsi ətrafında fikir mübadiləsi aparılmaqla müxtəlif qurumların nümayəndələrini maraqlandıran suallar Avropa İttifaqının ekspertləri tərəfindən cavablandırılıb.

Tədbirdə prokurorluq və ədliyyə işçilərinin, məhkəmə hakimlərinin və qeyri-hökumət təşkilatlarının təmsilçiləri iştirak ediblər. Baş Prokurorluğun Elm-Tədris Mərkəzindən İnsan hüquq və azadlıqlarının müdafiəsi problemləri kafedrasının rəisi Talıb Cəfərov və Mütəşəkkil cinayətkarlıqla mübarizənin problemləri kafedrasının prokuroru Anar Tağıyev təmsil olunublar.

Sonda iştirakçılara müvafiq sertifikatlar təqdim edilib.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi tərəfindən seminarlar təşkil olunub

**Baş Prokurorluq üzrə «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» 10/100 №-li əmrin müddəaları öyrənilir**




Martın 12-də Sumqayıt şəhər prokurorluğunda Baş Prokurorluq üzrə «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» 10/100 №-li əmrin müddəalarının öyrənilməsi məqsədilə seminar keçirilib.

Seminara Sumqayıt şəhər, Abşeron, Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran, Xızı, Şuşa, Qubadlı və Zəngilan rayon prokurorluqlarının işçiləri cəlb ediliblər.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin Vətəndaşların qəbulu şöbəsinin prokuroru Toğrul Əhmədov prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən ardıcıl tədbirlər barədə məlumat verib, bu sahədə işin düzgün təşkili, o cümlədən yuxarı və tabe prokurorluqlara daxil olan müraciətlərlə iş, təkrar müraciətlərə baxılma prosedurası ilə bağlı konkret metodiki tövsiyələr verib. Çıxışda vətəndaşların prokurorluqda və yaşayış yerləri üzrə qəbulunun prosedurları izah edilib, onların planlaşdırılması, təşkili və həyata keçirilməsinin xüsusiyyətləri, rayon prokurorlarının və vətəndaşların qəbuluna məsul olan prokuror köməkçilərinin vəzifələri dəqiqləşdirilib, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun əhəmiyyəti vurğulanıb. Müraciətlərə baxılması və vətəndaşların qəbulu işində tətbiq edilən müasir informasiya kommunikasiya vasitələrinin əhəmiyyəti vurğulanıb, son illərdə prokurorluq orqanlarında bu sahədə görülən işlər barədə məlumat verilib. Baş Prokurorluq üzrə 10/100 №-li əmrdə aparılan dəyişikliklərin mahiyyəti izah edilib, onların tətbiqinə dair tövsiyələr verilib, o cümlədən Baş prokurorun müavininin 19.01.2016 və 06.04.2016-cı il tarixli tövsiyə məktublarının əhəmiyyəti qeyd olunub.



Seminarda təcrübədə yaranan problemlər müzakirə edilib, tabe prokurorluqların fəaliyyətində daha çox yol verilən nöqsan və pozuntular təhlil olunub, maraq doğuran məsələlər üzrə suallar cavablandırılıb.

## Mülki müdafiə məsələləri üzrə məşğələ keçirilib





Martın 14-də Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi və Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə idarəsinin təşkilatçılığı ilə Baş Prokurorluqda xilasetmə, yanğınsöndürmə, sanitar - hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin üzvlərinə mülki müdafiə üzrə məşğələ keçirilib.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin məxfiçilik və mülki müdafiə məsələləri üzrə prokuroru Yadigar Aslanov hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin fövqəladə hallar zamanı yerinə yetirdikləri hərəkətlərin məqsəd və mahiyyəti, aralarında təşkil edilən əlaqələndirmənin zəruriliyi, dəstə komandirlərinin əsas vəzifələri, ilkin qərarların qəbul edilməsi qaydası və digər taktiki məsələlər barədə məlumat verib.

Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili baş idarəsinin məsul işçisi Elşən Yolçuyev əlavə edib ki, hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin şəxsi heyəti ilə xəbərdarlıq və toplanış məşqlərinin keçirilməsində məqsəd şəxsi heyətin komplektləşdirilməsi, təchizatı, rabitə və xəbərdarlıq sisteminin hazırlığı vəziyyətinin yoxlanılması, onların təkmilləşdirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsidir. Ona görə də, məşq keçirilərkən mülki müdafiə dəstələrinin şəxsi heyətinin qarşısına qoyulmuş funksional vəzifələrə aid nəzəri biliklərə yiyələnmənin vəziyyəti və zəruri vərdişləri mənimsəməsi yoxlanılmaqla, məşqin keçirildiyi dövrdə təhlükəsizlik qaydalarına riayət olunması üzrə tədbirlərin görülməsi təmin edilir.

Mülki müdafiə dəstələrinin şəxsi heyətinin öz vəzifələrindən irəli gələn nəzəri biliklərə yiyələnmələri qənaətbəxş hesab olunub. Verilən suallar cavablandırılıb, fikir mübadiləsi aparılıb.

**Baş prokurorluğun Müraciətlərə baxılması idarəsi**

# Culfa rayon prokurorluğunda "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanununun öyrənilməsi məqsədilə tədbir keçirilib

Yanvarın 8-də "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanununun qəbulu ilə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğunun Tədbirlər Planı"na əsasən, Culfa və Ordubad rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20.10.2017-ci il tarixli Qanununun öyrənilməsi məqsədilə Culfa rayon prokurorluğunda tədbir keçirilmişdir.

Qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamı ölkə başçısı cənab İlham Əliyevin humanist siyasətinin növbəti təzahürü olmaqla dövlət idarəçilik sisteminin müasirləşdirilməsi və məhkəmə-hüquq islahatları sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi cinayət təqibi və cəzaların icrası sahələrində hüquq islahatlarının yeni mərhələsidir. Sərəncamda cinayət-hüquq siyasətinin liberallaşdırılması, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs və azadlıqdan məhrumetmə tədbirlərinin tətbiqinin məhdudlaşdırılması, cinayətlərin dekriminallaşdırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyaya şərait yaradan halların aradan qaldırılması və müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üçün kompleks institusional tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

Sərəncamın icrası ilə əlaqədar qəbul olunmuş "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanunu ilə Cinayət Məcəlləsinə edilmiş dəyişikliklər cinayətlərin, xüsusilə mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində bəzi cinayətlərin dekriminallaşdırılmasını, cinayətlərin sanksiyalarına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə olunmasını, alternativ cəzaların tətbiqi əsaslarının təkmilləşdirilməsini, bu məqsədlə Cinayət Məcəlləsinə yeni cəza növü kimi – məhkumun cəmiyyətdən tam təcrid olunmadan yaşayış yeri üzrə nəzarət altında saxlanılmasından ibarət olan azadlığın məhdudlaşdırılması cəzasının daxil edilməsini, zərərçəkmiş şəxslə barışıq institutunun daha da təkmilləşdirilməsini və digər məsələləri əhatə etmişdir. Qanuna əsasən, Cinayət Məcəlləsinə ümumilikdə 300-ə yaxın dəyişiklik edilmiş, 18 cinayət əməli dekriminallaşdırılmış, 24 cinayətə görə zərərçəkmiş şəxslə barışma və ziyanın ödənilməsi, 25 cinayətə görə ziyanın ödənilməsi və dövlət büdcəsinə ödəniş edilməsi, 2 cinayətə görə məhkəmə qərarının icrası və ya əmək müqaviləsinin bağlanması şərti ilə cinayət məsuliyyətindən azad etmə müəyyən olunmuş, 1 cinayətə görə narkomanlıq xəstəliyinə düçar olmuş təqsirləndirilən şəxsin tibbi xarakterli məcburi müalicə tədbirlərinin tətbiqindən sonra sağaldıqda cinayət məsuliyyətindən azad edilməsi, 152 cinayətin sanksiyasına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə edilməsi və 36 cinayətə görə azadlıqdan məhrum etmə cəzasının yüngülləşdirilməsi nəzərdə tutulmuşdur.

Sonra Cinayət Məcəlləsinə edilmiş dəyişikliklər barədə suallar caavablandırılmış və qeyd olunan Qanunun tətbiqi zamanı vahid istintaq-məhkəmə təcrübəsinin formalaşması məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsi və Baş Prokurorluğu tərəfindən məhkəmələrdə və prokurorluq orqanlarında Qanunun tətbiqi ilə əlaqədar hüquqi məsələlərə dair toplanmış suallar və birgə işçi qrupu tərəfindən hazırlanaraq Azərbaycan Respublikasının Ali Məhkəməsinin veb-saytında (http://www.supremecourt.gov.az/post/view/871) yerləşdirilmiş 20 oktyabr 2017-ci il tarixli Qanunun tətbiqi ilə bağlı suallar və onların cavablarının öyrənilməsi tövsiyə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Prokurorluğunun Hüquqi**
**təminat və informasiya şöbəsi**

# Naxçıvan şəhər prokurorluğunda "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi (Ədalətli məhkəmə araşdırması hüququ)" mövzusunda seminar keçirilib

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin təşkilatçılığı ilə fevralın 12-də Naxçıvan şəhər və Babək rayon prokurorluqları əməkdaşlarının iştirakı ilə Naxçıvan şəhər prokurorluğunda "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi (Ədalətli məhkəmə araşdırması hüququ)" mövzusunda seminar keçirilmişdir.

Tədbirdə qeyd edilən Konvensiyanın hüquq və azadlıqlar kataloquna daxil olan "ədalətli məhkəmə araşdırması" hüququnun məzmunu, əhəmiyyəti, milli məhkəmə-istintaq təcrübəsinə, ümumiyyətlə ölkənin hüquq mədəniyyətinin və hüquq sisteminin inkişafına pozitiv təsiri barədə ətraflı məlumat verilmişdir. Göstərilmişdir ki, Avropa Konvensiyasında təsbit edilmiş hüquq və azadlıqlar Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən edilmiş hüquq və azadlıqlarla üzvü vəhdət təşkil edir, bir-birini tamamlayır və məzmunca zənginləşdirir.

Konstitusiyasının 148-ci məddəsində Azərbaycan Respublikasının tərəfdar cıxdığı beynəlxalq müqavilələrin Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi olduğu təsbit olunmuşdur. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində qanunçuluq, hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi, Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması, azadlıq hüququnun təmin edilməsi, şəxsiyyətin toxunulmazlığı hüququnun təmin edilməsi, mülkiyyət hüququnun təmin edilməsi, hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsi, özünü və qohumlarını ifşa etməkdə sərbəstlik, təqsirsizlik prezumpsiyası, məhkəmə baxışını tələb etmək hüququnun təmin olunması, cinayət mühakimə icraatının yalnız məhkəmə tərəfindən həyata keçirilməsi, cinayət mühakimə icraatının yalnız məhkəmə tərəfindən həyata keçirilməsi, cinayət mühakimə icraatının aşkarlığı, cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi, eyni əmələ görə təkrar məhkum etmənin yolverilməzliyi, məhkəməyə təkrar müraciət etmək və digər hüquqlar təsbit olunmuşdur.

Prokurorluq orqanlarında ədalətli məhkəmə apaşdırması hüququnun təmin edilməsi məqsədilə mühüm tədbirlər həyata keçirilir.

Seminarda qarşıya çıxan suallar cavablandırılmış və "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi üzrə Təlimat"ın öyrənilməsi tövsiyə edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

# Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında vakant vəzifələrin tutulması üçün test imtahanı keçirilib

Martın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test Mərkəzində Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında vakant vəzifələrin tutulması üçün elan olunmuş müsabiqənin test imtahanı keçirilib.

İmtahan başlanmazdan əvvəl namizədlərə slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumat verilib. İmtahanda namizədlərə qanunvericilik üzrə 80, məntiqi təfəkkürün yoxlanılması üzrə 20 sual olmaqla, ümumilikdə, 100 sual təqdim edilib. Sualları cavablandırmaq üçün onlara 3 saat vaxt verilib. Test imtahanında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb. İmtahan bitdikdən dərhal sonra namizədlərə cavab kartı və test imtahanının nəticəsinə dair arayış təqdim olunub.

Test imtahanında Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanının əməkdaşları müşahidəçi qismində iştirak ediblər.



Müsabiqədə 9 vakant vəzifənin tutulması üçün sənəd təqdim etmiş 44 namizəddən 36-sı test imtahanında iştirak edib, onlardan 22 nəfəri keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb.

Test imtahanının nəticələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet səhifəsində (http://www.dqmk.nmr.az/) yerləşdirilib.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən http://www.naxcıvantv.az/ saytında "Hüquq guşəsi" yaradılıb




Hüquqi, demokratik və dünyəvi bir cəmiyyətdə vətəndaşların müasir hüquqi düşüncəyə və yüksək hüquq mədəniyyətinə malik olmaları böyük əhəmiyyət kəsb edir. Hüquq düşüncəsi – insanların hüquqa, qanunçuluğa və ədalət mühakiməsinə münasibətinin, onların nəyin hüquqi və nəyin hüquqa zidd olması haqqındakı təsəvvürlərinin və ideyaların cəmini özündə birləşdirir. Cəmiyyətin hüquq mədəniyyətinə onun hüquq düşüncəsinin səviyyəsi,

ictimai şüurun hüquqa münasibəti əhəmiyyətli dərəcədə təsir edir. Onu yüksəltmək üçün hüququn təbliği işi yüksək səviyyədə təşkil olunmalı, hüquqi dövlət quruculuğunun vacib elementi kimi qəbul olunmalıdır. Vətəndaşın hüquq mədəniyyəti onun öz hüquqlarını dürüst bilməsi, habelə öz vəzifələrini layiqincə yerinə yetirməsindən asılıdır. Hüquq təbliğatın zəif olması, təzadlı, düzgün olmayan tərbiyə ilə cəmiyyətdə hüquq pozuntularının sayının artması arasında səbəbli əlaqə heç kimdə şübhə yaratmır. Bu səbəbdən hüquq tərbiyəsi, hüququn təbliği və qanunvericiliyin izahı cinayətkarlığın qarşısının alınmasında ən mühüm vasitə kimi nəzərdən keçirilir.




Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov hüquqi maarifləndirmə işinin əhəmiyyətini qeyd edərək demişdir: "Hüquqi maarif işinin təşkil edildiyi bir cəmiyyətdə işləmək də, yaşamaq da rahatdır və belə cəmiyyət inkişaf edir. Ona görə də bizim əsas vəzifələrimiz hüquq maarifi işini gücləndirməkdən ibarət olmalıdır". Qanunvericiliyin izahı, hüquq maarifinin yüksək səviyyədə olması və hüquqi biliklərin təbliği üçün Muxtar Respublika Prokurorluğunun əməkdaşları da işlərini günün tələbləri səviyyəsində qurmağa çalışırlar.

Naxçıvan Muxtar Respublikasının Prokurorluğu cinayətkarlığa qarşı mübarizə sahəsində əsas diqqəti qanunvericiliyin izahı, hüquqi maarifləndirməyə və həyata keçirilən profilaktiki tədbirlərin kəsərliliyinin artırılmasına yönəltmiş, Naxçıvan Muxtar Respublikasının Dövlət Televiziya və Radio Verilişləri Komitəsi ilə birlikdə Prokurorluğun Hüquqi təminat və informasiya şöbəsi tərəfindən http://naxcivantv. az/index.php/news.html saytında "Hüquq guşəsi" yaradılmışdır. Guşədə vətəndaşlardan daxil olmuş suallara "onlayn" rejimdə hüquqi cəhətdən əsaslandırılmış cavablar veriləcək.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

# Baş Prokurorluğun nümayəndə heyəti İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin Baş prokurorlarının III görüşündə iştirak edib




Yanvarın 30-dan 31-dək Pakistan İslam Respublikasının paytaxtı İslamabad şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin Baş prokurorlarının III görüşü keçirilmişdir.

Təşkilata üzv dövlətlərin prokurorluq orqanları əməkdaşlarının iştirak etdiyi tədbirdə ölkəmizi Baş prokurorun müavini Namiq Əsgərovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Baş prokurorun müavini çıxışında Azərbaycan və Pakistan arasında formalaşmış zəngin tarixə malik və ildən-ilə daha da genişlənməklə dərinləşən ikitərəfli münasibətlərin inkişafı, hər iki dövlət başçılarının siyasi iradələri nəticəsində ölkələrimiz arasındakı münasibətlərin daha da genişləndiyini, ölkəmizin ECO çərçivəsində əməkdaşlığa böyük önəm verdiyini, təşkilatın möhkəmlənməsi istiqamətində müvafiq işlər gördüyünü, bir çox səmərəli təşəbbüslərin müəllifi olduğunu iclas iştirakçılarının diqqətinə çatdıraraq, 2017-ci ilin 6-7 iyun tarixlərində ECO-ya üzv dövlətlərin prokurorluq, ixtisaslaşdırılmış korrupsiyaya qarşı mübarizə qurumları rəhbərlərinin və ombudsmanlarının Bakıda keçirilmiş üçüncü iclasının əhəmiyyətini xüsusi vurğulamışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 10 fevral tarixli sərəncamından sonra ölkəmizdə həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verən Namiq Əsgərov Cinayət, Cinayət-Prosessual və Cəzaların İcrası



**A DELEGATION OF ATTORNEYS/PROSECUTORS GENERAL OF ECO COUNTRIES LED BY SECRETARY GENERAL OF ECO HALIL IBRAHIM AKCA CALLED ON PRESIDENT MAMNOON HUSSAIN AT THE AIWAN-E-SADR, ISLAMABAD ON JANUARY 31, 2018.**

məcəllələrinə edilmiş dəyişikliklərin humanist mahiyyəti barədə danışmışdır.

Daha sonra Azərbaycan nümayəndə heyəti Pakistanın Baş prokuroru Aştar Ausaf Ali, həmçinin Türkiyə, Qazaxıstan, Özbəkistanın, Tacikistan nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirərək geniş fikir mübadiləsi aparmışdır.

Yanvarın 31-də nümayəndə heyətlərinin rəhbərlərini qəbul edən Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn ECO-ya üzv dövlətlərinin prokurorluq orqanları arasında səmərəli əməkdaşlığın transmilli cinayətkarlıqla mübarizə sahəsində zəruriliyini vurğulamışdır.

Azərbaycan Respublikasının Pakistan İslam Respublikasındakı Səfirliyinin əməkdaşları tədbirdə yaxından iştirak etmişlər.

Tədbirin yekununda İslamabad bəyannaməsi qəbul edilmişdir.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

## Azərbaycan və Türkiyə dövlətlərinin məhkəmə, prokurorluq və ədliyyə orqanları arasında əməkdaşlıq genişlənir



Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev, Baş prokurorun müavini Namiq Əsgərov və hər iki dövlət qurumunun əməkdaşlarından ibarət nümayəndə heyəti Türkiyə Ali Məhkəməsinin sədri Rüştü Ciritin dəvəti ilə Türkiyə Ali Məhkəməsinin yaradılmasının 150 illiyi münasibətilə keçirilən tədbirlərdə iştirak etmək üçün martın 5-6-da Türkiyə Respublikasında səfərdə olmuşdur.

Martın 5-də nümayəndə heyəti Türkiyə Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Cirit və Baş prokuror Mehmet Akarca ilə görüşmüşdür. İsmayıl Rüştü Cirit və Mehmet Akarca bütün sahələrdə olduğu kimi, ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın da yüksək səviyyədə olduğunu bildirmişlər.

Görüşdə tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyi bildirilməklə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın siyasi iradələri ilə reallaşan nəhəng enerji və nəqliyyat layihələrinin ölkələrimizi daha da yaxınlaşdırdığı, xalqlarımızın rifahına xidmət etdiyi vurğulanmışdır.




Səfər çərçivəsində Türkiyənin ədliyyə naziri Əbdülhəmid Gül ilə keçirilmiş görüşdə ölkələrimizin hüquq mühafizə orqanları arasındakı səmərəli işgüzar münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyi qeyd olunmuşdur. Görüşdə ölkəmizdə cəza siyasətinin humanistləşdirilməsi istiqamətində aparılan mütərəqqi tədbirlər barədə məlumat verilmiş, hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmaqla həm ikitərəfli, həm də çoxtərəfli, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət, habelə hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsi məsələləri müzakirə olunmuşdur.

Ölkəmizin nümayəndə heyəti martın 6-da Türkiyə Ali Məhkəməsinin yaradılmasının 150 illiyi münasibətilə Türkiyənin dövlət və hökumət rəsmiləri, ölkə ictimaiyyətinin nümayəndələri, həmçinin 17 ölkədən olan qonaqların qatıldığı mərasimdə iştirak etmişdir.

Mərasimdə Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan və Baş nazir Binəli Yıldırım çıxış edərək məhkəmə və hüquq mühafizə orqanları əməkdaşlarının yubiley münasibətilə təbrik etmiş, Ali Məhkəmənin yaradılmasını Türkiyənin dövlətçilik tarixində mühüm hadisə kimi dəyərləndirmişlər.

Daha sonra Türkiyə Ali Məhkəməsinin yeni inzibati binasının təməlqoyma mərasimi keçirilmişdir.

Tədbirlərdə Azərbaycan Respublikasının Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri Xəzər İbrahim iştirak etmişdir.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# Quba şəhərində sərhədyanı əməkdaşlıq məsələlərinə həsr edilmiş tədbir keçirilib






Azərbaycan və Qazaxıstan Respublikası prokurorluq orqanları, o cümlədən sərhədyanı ərazilərin prokurorluqları arasında cari məsələlərin, gələcək əməkdaşlıq və işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi məqsədilə Qazaxıstan Respublikasının Baş nəqliyyat prokuroru Marat Alixanovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfəri çərçivəsində martın 13-də Quba rayonunda olmuşdur.

Qonaqlar rayonda Heydər Əliyev Mərkəzinin, rayon məhkəməsinin, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Quba "ASAN həyat" Kompleksinin fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Daha sonra Quba şəhərində hər iki prokurorluq orqanlarının nümayəndələrinin sərhədyanı əməkdaşlıq məsələlərinə dair işçi görüşü keçirilmişdir.

Görüşdə Azərbaycan tərəfini Baş Prokurorluğun müvafiq struktur qurumlarının rəhbərləri və sərhədyanı rayonların prokurorları, həmçinin Dövlət Sərhəd Xidmətinin əməkdaşları təmsil etmişlər.

Tədbirdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılmış, transmilli cinayətkarlıqla mübarizə, iqtisadi qaçaqmalçılıq, narkotiklərin qanunsuz dövriyyəsi, nərə cinsli balıqların qanunsuz ovlanması, qanunsuz sərhədkeçmə, Xəzər dənizinin ekologiyasının qorunması və yaxşılaşdırılması, ekstradisiya və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımın göstərilməsi məsələləri müzakirə edilərək, iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilmişdir.

Görüşdə cari məsələlər və gələcək əməkdaşlığın perspektivləri müzakirə olunaraq konkret təkliflər irəli sürülmüşdür.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, I kitab, maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2, I kitab, maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035; Azərbaycan Respublikasının 2017-ci il 2 oktyabr tarixli 797-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 144-cü maddə üzrə:

**1.1.1.** 144.2-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"144.2-1.** Sərəncam verən tərəfin sərəncam hüququnun və öhdəliklərinin, eləcə də əmlakın mövcud yüklülüyünün daşınmaz əmlakın dövlət reyestrində yoxlanılması məqsədilə "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq notariuslarla daşınmaz əmlakın dövlət reyestri arasında məlumat və sənəd mübadiləsi imkanı, o cümlədən notariusların daşınmaz əmlakın dövlət reyestrinə elektron qaydada birbaşa çıxışı təmin olunmalıdır.";

**1.1.2.** 144.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"144.3.** Notarius daşınmaz əmlak üzərində sərəncam verilməsinə dair müqaviləni təsdiqlədikdən dərhal sonra onu elektron formada informasiya sistemləri vasitəsilə və təsdiqlənmiş yazılı formada sifarişli poçt göndərişi vasitəsilə daşınmaz əmlakın dövlət reyestrinə göndərməlidir. Belə müqavilə ondan irəli gələn mülkiyyət və digər əşya hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılmasına dair ərizə hesab olunur və həmin müqavilə əsasında müvafiq hüquqlar dövlət qeydiyyatına alınır.";

**1.1.3.** 144.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"144.5.** Daşınmaz əmlaka mülkiyyət hüququ əmlakın fiziki cəhətdən bölünməsini nəzərdə tutmayan, lakin yaranacaq ümumi paylı mülkiyyətdə payların nisbətini faizlə müəyyənləşdirən bölünmə planı əsasında bölünə bilər. Mülkiyyətçi tərəfindən tərtib edilən belə bölünmə planı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada təsdiq edildikdən sonra mülkiyyətçinin bölünmə nəticəsində yaranan payların hər birinə mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydə alınır.".

**1.2.** Aşağıdakı məzmunda 144-1-ci maddə əlavə edilsin:

**"Maddə 144-1. Tikintisi başa çatmayan binanın tərkib hissələrinə sərəncam verilməsinin xüsusiyyətləri**

**144-1.1.** Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə müvafiq olaraq tikintisinə icazə alınmış, lakin həmin Məcəlləyə uyğun olaraq istismarına icazə verilməmiş binalar tikintisi başa çatmayan binalar hesab edilir.

**144-1.2.** Mülkiyyətindəki torpaq sahəsində tərkib hissələrdən ibarət binanın tikintisinə icazə almış mülkiyyətçi tikiləcək binanın tərkib hissələrinin sayına və sahəsinə mütənasib olaraq həmin torpaq sahəsini bu Məcəllənin 144.5-ci maddəsində nəzərdə tutulmuş qaydada bölünmə planı əsasında paylara bölə bilər və bölünmə nəticəsində yaranan payların hər birinə mülkiyyət hüququnun qeydə alınmasını tələb edə bilər.

**144-1.3.** Mülkiyyətindəki torpaq sahəsində tərkib hissələrdən ibarət binanın tikintisinə icazə almış şəxs bölünmə planına əsasən yaranan paylara və tikintisi başa çatmayan binanın həmin paylara bağlı olan tərkib hissələrinə bölünmə nəticəsində yaranan payların hər birinə mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydə alındıqdan sonra sərəncam verə bilər.

**144-1.4.** Bölünmə planına əsasən mülkiyyətindəki torpaq sahəsində yaranan paylara və tikintisi başa çatmayan binanın həmin paylara bağlı olan tərkib hissələrinə sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməli və tərkib hissələri əldə edən şəxslərin xeyrinə bu Məcəllənin 147-ci maddəsinə uyğun olaraq təminat qeydi aparılmalıdır.

**144-1.5.** Bu Məcəllənin 144-1.4-cü maddəsində nəzərdə tutulan müqavilədə digər müddəalarla yanaşı, tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində müvafiq tərkib hissələrin bağlı olduğu payların alqı-satqı şərtləri, təminat qeydinin aparılmasına dair torpaq sahəsi mülkiyyətçisinin və torpaq sahəsinə hüquq əldə etmək istəyən şəxsin bu Məcəllənin 178.8-ci maddəsində nəzərdə

tutulan öhdəlikləri və 147.2-ci maddəsində nəzərdə tutulan razılıqları, habelə bu Məcəllənin 178.8-ci maddəsində nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsindən sonra torpaq sahəsində müvafiq paya və tərkib hissəyə mülkiyyət hüququnun xeyrinə təminat qeydi aparılmış şəxsə keçməsinə dair torpaq sahəsi mülkiyyətçisinin razılığı açıq-aydın ifadə edilməlidir.

**144-1.6.** Xeyrinə təminat qeydi aparılmış şəxs tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində müvafiq tərkib hissənin bağlı olduğu pay ilə əlaqədar hüquqlarını və öhdəliklərini yazılı formada sifarişli poçt göndərişi vasitəsilə torpaq sahəsinin mülkiyyətçisini məlumatlandırmaqla notariat qaydasında təsdiq edilmiş müqavilə əsasında üçüncü şəxsə ötürə bilər. Müqavilədə digər müddəalarla yanaşı, hüquqların və öhdəliklərin ötürüldüyü məqamda mövcud olmuş həcmi və həmin həcmdə ötürülməsi, aparılmış təminat qeydində hüquqların və öhdəliklərin ötürüldüyü üçüncü şəxsin xeyrinə müvafiq dəyişikliklərin edilməsinə dair hər iki tərəfin razılıqları aydın şəkildə ifadə edilməlidir. Belə hüquqlar və öhdəliklər onların üçüncü şəxsə ötürüldüyü məqamda mövcud olmuş həcmdə və şərtlərlə ötürülməlidir. Notarius bu müqaviləni təsdiqlədikdən dərhal sonra onu elektron formada informasiya sistemləri vasitəsilə və təsdiqlənmiş yazılı formada sifarişli poçt göndərişi vasitəsilə daşınmaz əmlakın dövlət reyestrinə, habelə təsdiqlənmiş yazılı formada sifarişli poçt göndərişi vasitəsilə torpaq sahəsinin mülkiyyətçisinə göndərməlidir. Belə müqavilə daşınmaz əmlakın dövlət reyestrində aparılmış təminat qeydində müvafiq dəyişikliklərin edilməsinə dair ərizə hesab olunur və həmin müqavilə əsasında müvafiq qeydiyyat hərəkətləri aparılır.".

**1.3.** 146.6-cı maddə ləğv edilsin.

**1.4.** 147-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 147. Torpaq sahəsi barədə təminat qeydi**

**147.1.** Torpaq sahəsi (üzərindəki tikilmiş və ya tikintisi başa çatmayan tikinti obyektləri də daxil olmaqla) ilə bağlı hər hansı hüququn əldə edilməsinə yönəlmiş tələbləri təmin etmək məqsədilə daşınmaz əmlakın dövlət reyestrində torpaq sahəsi barədə təminat qeydi aparıla bilər. Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu paylarla əlaqədar təminat qeydinin aparılmasının xüsusiyyətləri bu maddənin tələbləri nəzərə alınmaqla, bu Məcəllənin 144-1-ci maddəsində müəyyən ol**unur.**

**147.2.** Təminat qeydinin aparılması üçün torpaq sahəsinin mülkiyyətçisi ilə torpaq sahəsinə hüquq əldə etmək istəyən şəxs arasında notarial formada bağlanılmış müqavilə tələb olunur. Müqavilədə digər müddəalarla yanaşı, torpaq sahəsinin mülkiyyətçisinin öz mülkiyyətində olan torpaq sahəsi barədə təminat qeydinin aparılmasına və torpaq sahəsinə hüquq əldə etmək istəyən şəxsin həmin torpaq sahəsi barədə öz xeyrinə təminat qeydinin aparılmasına dair razılıqları, habelə müvafiq tələblər yerinə yetirildikdən sonra müqavilədən irəli gələn hüquqların xeyrinə təminat qeydi aparılmış şəxsə keçməsinə dair torpaq sahəsi mülkiyyətçisinin razılığı aydın şəkildə ifadə edilməlidir.

**147.3.** Təminat qeydi daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı vaxtdan yaranır.

**147.4.** Torpaq sahəsi barədə daşınmaz əmlakın dövlət reyestrində aparılmış təminat qeydinin öz hüquqi qüvvəsini saxladığı müddətdə həmin torpaq sahəsi barədə növbəti təminat qeydi aparıla bilməz.

**147.5.** Daşınmaz əmlakın dövlət reyestrini aparan orqanın və notariusların torpaq sahəsi barədə təminat qeydinin aparılması ilə bağlı hərəkətləri bu Məcəllə, "Notariat haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

**147.6.** Notarius təminat qeydinin aparılması üçün bağlanılması nəzərdə tutulan müqavilənin qanunauyğunluğunu müəyyən etdikdən sonra onu notariat qaydasında təsdiq edib daşınmaz əmlakın dövlət reyestrinə göndərir və daşınmaz əmlakın dövlət reyestrində 3 gün ərzində təminat qeydi aparılır.

**147.7.** Torpaq sahəsi barədə təminat qeydinin öz hüquqi qüvvəsini saxladığı müddətdə həmin torpaq sahəsinə və ya ona olan hüquqa dair bağlanan müqavilələr və (və ya) digər formada verilən sərəncamlar təminat qeydinin əsası olmuş tələbin həyata keçirilməsinə təsir etdiyi və ya mane olduğu hissədə etibarsızdır. Həmin qayda sərəncamın məcburi icra və ya həbsin qoyulması qaydasında və ya əmlak inzibatçısı tərəfindən iflas prosesi zamanı verildiyi halda da tətbiq edilir.

**147.8.** Daşınmaz əmlakın dövlət reyestrində torpaq sahəsi barədə aparılmış təminat qeydi aşağıdakı hallarda öz hüquqi qüvvəsini itirir:

**147.8.1.** xeyrinə təminat qeydi aparılmış şəxsin bu Məcəllənin 147.2-ci maddəsində nəzərdə tutulan müqavilədən irəli gələn hüquqları bu Məcəlləyə uyğun olaraq daşınmaz əmlakın dövlət reyestrində qeydə alındıqda;

**147.8.2.** bu Məcəllənin 147.2-ci maddəsində nəzərdə tutulan müqavilə bu Məcəllənin 421-424-cü maddələrinə uyğun olaraq ləğv edildikdə;

**147.8.3.** aparılmış təminat qeydində bu Məcəllənin 144-1.6-cı maddəsində nəzərdə tutulan müqavilə əsasında hüquqların və öhdəliklərin ötürüldüyü üçüncü şəxsin xeyrinə müvafiq dəyişikliklər edildikdə.

**147.9.** Torpaq sahəsinin (üzərindəki tikilmiş və ya tikintisi başa çatmayan tikinti obyektləri də daxil olmaqla) əldə edilməsi üçün bu Məcəllənin 147.2-ci maddəsinə uyğun olaraq bağlanılan müqavilədə xeyrinə təminat qeydi aparılan şəxsin ipoteka kreditindən istifadə etmək imkanı müəyyən edildiyi halda, şəxs həmin torpaq sahəsinin əldə edilməsinin maliyyələşdirilməsi məqsədi ilə ipoteka müqaviləsi bağlaya bilər. Həmin ipoteka yalnız ipoteka predmeti olan torpaq sahəsinin (üzərindəki tikilmiş və ya tikintisi başa çatmayan tikinti obyektləri də daxil olmaqla) əldə edilməsinin maliyyələşdirilməsi üçün istifadə olunan kreditin təminatına xidmət edə bilər.".

**1.5.** 178-ci maddə üzrə:

**1.5.1.** 178.1-ci maddənin birinci cümləsində "mülkiyyət hüququ" sözlərindən sonra "qanunla müəyyənləşdirilmiş əsaslarla" sözləri əlavə edilsin;

**1.5.2.** 178.8-ci maddə aşağıdakı redaksiyada verilsin;

**"178.8.** Tikintisi başa çatmayan binanın tərkib hissəsini əldə etmək istəyən şəxslə binanın yerləşdiyi torpaq sahəsinin mülkiyyətçisi (satıcı) arasında bu Məcəllənin 39-cu fəsli ilə nəzərdə tutulan podrat münasibətləri əmələ

gəlir və belə münasibətlərdə torpaq sahəsinin mülkiyyətçisi (satıcı) podratçı, tikintisi başa çatmayan binanın tərkib hissəsini əldə etmək istəyən şəxs isə sifarişçi hesab edilir. Bu zaman digər öhdəliklərlə yanaşı, satıcı (podratçı) bu Məcəllənin 144-1.4-cü maddəsində nəzərdə tutulan müqavilədə müəyyənləşdirilən müddətdə binanın tikintisini başa çatdırmaq və istismarına icazə almaq, tərkib hissəni əldə etmək istəyən şəxs (sifarişçi) isə razılaşdırılmış məbləği hissə-hissə vaxtında satıcıya ödəmək vəzifəsi daşıyır. Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsinin mülkiyyətçisinin (satıcının, podratçının) və (və ya) həmin binanın tərkib hissəsini əldə etmək istəyən şəxsin dəyişməsi onlar arasında yaranan münasibətlərə bu Məcəllənin 39-cu fəslində nəzərdə tutulan podrat münasibətlərinin tətbiqini istisna etməməlidir.".

**1.6.** 232-ci maddənin birinci cümləsində "qabaqcadan onu daşınmaz əmlakın dövlət reyestrində qeydə aldırmış" sözləri "daşınmaz əmlakın dövlət reyestrində xeyrinə təminat qeydi aparılmış" sözləri ilə əvəz edilsin.

**1.7.** 252.6-cı maddədə "qabaqcadan qeydə alına" sözləri "təminat qeydi aparıla" sözləri ilə əvəz edilsin.

**1.8.** 394-cü maddədə "əşyaya mülkiyyəti" sözlərindən sonra "və ya digər əşya hüquqlarını" sözləri əlavə edilsin.

**1.9.** Aşağıdakı məzmunda 648.3-cü maddə əlavə edilsin:

**"648.3.** Alqı-satqı müqaviləsinin predmetini digər müddəalarla yanaşı, tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu paylar təşkil edirsə, alıcının üzərinə həmin payların alış qiymətini tikinti başa çatmazdan əvvəl tam şəkildə ödəmək öhdəliyi qoyula bilməz. Bu zaman ödəmələr bu Məcəllənin 770-1-ci maddəsində nəzərdə tutulmuş şərtlər nəzərə alınmaqla və tikintinin mərhələləri üzrə hissələrlə həyata keçirilməlidir.".

**1.10.** Aşağıdakı məzmunda 770-1-ci maddə əlavə edilsin:

**"Maddə 770-1. Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu payların özgəninkiləşdirilməsi zamanı yaranan podrat münasibətlərində alış qiymətinin (muzd) ödənilməsi**

**770-1.1.** Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu payların özgəninkiləşdirilməsi zamanı yaranan podrat münasibətlərində alış qiymətinin (muzdun) ödənilməsi yalnız aşağıdakı şərtlər mövcud olduqda tələb edilə bilər:

**770-1.1.1.** bu Məcəllənin 144-1.4-cü maddəsində nəzərdə tutulan müqavilə notarial qaydada təsdiq edilmişdirsə;

**770-1.1.2.** daşınmaz əmlakın dövlət reyestrində binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu paylar barədə əldə edənin xeyrinə təminat qeydi aparılmışdırsa.

**770-1.2.** Bu Məcəllənin 770-1.1-ci maddəsində müəyyən edilən şərtlər tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu paylar üzərində mülkiyyət hüququnun keçməsi barədə satıcı qismində çıxış edən podratçının öhdəlik götürdüyü hallara da şamil edilir.

**770-1.3.** Bu Məcəllənin 770-1.1-ci və 770-1.2-ci maddələrində nəzərdə tutulan müqavilələrdə ayrı mərhələ və hissələr nəzərdə tutulmayıbsa, alış qiymətinin (muzdun) ödənilməsi tikintinin mərhələləri üzrə hissələrlə aşağıda göstərilən faizlərdən çox olmamaq şərti ilə aparıla bilər:

**770-1.3.1.** torpaq-qazma işlərinin başlanılmasından sonra – müqavilə məbləğinin 30 faizi;

**770-1.3.2.** tikilinin yan və daxili divarları, dam örtüyü hazır olduqdan sonra – müqavilə məbləğinin 10 faizi;

**770-1.3.3.** dam səthlərinin və navalçaların (novların) qurulması işləri başa çatdıqdan sonra – müqavilə məbləğinin 8 faizi;

**770-1.3.4.** istilik təchizatı sistemlərinin quraşdırılması başa çatdıqdan sonra – müqavilə məbləğinin 3 faizi;

**770-1.3.5.** su xətlərinin çəkilməsi başa çatdıqdan sonra – müqavilə məbləğinin 3 faizi;

**770-1.3.6.** elektrik xətlərinin çəkilməsi başa çatdıqdan sonra – müqavilə məbləğinin 3 faizi;

**770-1.3.7.** pəncərələrin quraşdırılması (şüşələrin taxılması da daxil olmaqla) başa çatdıqdan sonra – müqavilə məbləğinin 10 faizi;

**770-1.3.8.** daxili suvaq (malalama) işləri başa çatdıqdan sonra – müqavilə məbləğinin 6 faizi;

**770-1.3.9.** birdən artıq tərkib hissəsi olan binada birdən artıq tərkib hissəyə xidmət edən sahələrin döşəmələri hazır olduqdan sonra – müqavilə məbləğinin 3 faizi;

**770-1.3.10.** fasad işləri başa çatdıqdan sonra – müqavilə məbləğinin 10 faizi;

**770-1.3.11.** su anbarı da daxil olmaqla, binaya xidmət edən və binadan ayrıca inşa edilən obyektlərin tikintisi başa çatdıqdan sonra – müqavilə məbləğinin 9 faizi;

**770-1.3.12.** bina tam hazır olduqdan və onun istismarına icazə verildikdən sonra – müqavilə məbləğinin 5 faizi.

**770-1.4.** Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu payların alqı-satqı müqavilələrinə bu Məcəllənin daşınmaz əşyaların alqı-satqısı haqqında müddəaları müvafiq surətdə tətbiq edilir.".

**Maddə 2.** Bu Qanunun 1.1.3-cü, 1.2-ci, 1.3-cü, 1.4-cü, 1.5.2-ci, 1.6-cı, 1.7-ci, 1.9-cu və 1.10-cu maddələri 2018-ci il iyulun 1-dən qüvvəyə minir.

**Maddə 3.** Bu Qanunun 1.1.3-cü, 1.2-ci, 1.3-cü, 1.4-cü, 1.5.2-ci, 1.6-cı, 1.7-ci, 1.9-cu və 1.10-cu maddələri qüvvəyə minənədək Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq bina, habelə onun tərkib hissələri barəsində aparılmış qabaqcadan qeydiyyat və onun hüquqi nəticələri həmin maddələr qüvvəyə mindikdən sonra da öz hüquqi qüvvəsini saxlayır və daşınmaz əmlakın dövlət reyestrində müvafiq hüquqların qeydə alınması üçün əsasdır. Bu Qanunun 1.1.3-cü, 1.2-ci, 1.3-cü, 1.4-cü, 1.5.2-ci, 1.6-cı, 1.7-ci, 1.9-cu və 1.10-cu maddələri qüvvəyə minənədək aparılmış qabaqcadan qeydiyyat öz hüquqi qüvvəsini saxladığı müddətdə onunla əlaqədar məsələlər Azərbaycan Respublikası Mülki Məcəlləsinin və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun qabaqcadan qeydiyyatın aparıldığı günə mövcud olmuş müvafiq normaları ilə tənzimlənir.

**Maddə 4.** Bu Qanun, bu Qanunun 1.1.3-cü, 1.2-ci, 1.3-cü, 1.4-cü, 1.5.2-ci, 1.6-cı, 1.7-ci, 1.9-cu və 1.10-cu maddələri qüvvəyə minənədək, tikintisi başa çatdırılmamış daşınmaz əmlak üzərində "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq qabaqcadan qeydiyyatın aparılmasından imtinaya əsas ola bilməz.

**Maddə 5.** Üzərində hüquqlar qabaqcadan qeydiyyata alınmış bina, habelə onun tərkib hissələri barəsində bu Qanunun 1.1.3-cü, 1.2-ci, 1.3-cü, 1.4-cü, 1.5.2-ci, 1.6-cı, 1.7-ci, 1.9-cu və 1.10-cu maddələri qüvvəyə mindikdən sonra, bu Qanunun 1.1.3-cü, 1.2-ci, 1.4-cü, 1.5.2-ci və 1.9-cu maddələrinin tələbləri nəzərə alınmaqla, tərəflərin razılaşması ilə təminat qeydi aparıla bilər. Bu halda daşınmaz əmlakın dövlət reyestrində aparılmış qabaqcadan qeydiyyat təminat qeydi ilə əvəz edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 dekabr 2017-ci il
№ 918-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ni Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 364; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 312, № 6, maddə 415; 2007, № 8, maddə 754; 2008, № 8, maddə 709; 2010, № 4, maddə 274, № 12, maddə 1056; 2011, № 2, maddə 71; 2016, № 1, maddə 9) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"nin 7-ci maddəsinin dördüncü abzası aşağıdakı redaksiyada verilsin:

"inzibati xətalara görə – Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsində bilavasitə nəzərdə tutulmuş hallarda intizam məsuliyyətinə, qalan hallarda isə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada inzibati məsuliyyətə;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 dekabr 2017-ci il
№ 924-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483, № 11, maddə 1286; 2016, № 6, maddə 1004, № 11, maddə 1789, № 12, maddə 2033; 2017, № 6, maddə 1034, № 7, maddə 1305; Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 813-VQD nömrəli Qanunu) 31-ci maddəsinin birinci hissəsinə "cinayət işlərinə" sözlərindən sonra ", habelə inzibati xətalar haqqında işlərə" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 dekabr 2017-ci il
№ 927-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105, № 5, maddə 502, № 6, maddə 686, № 11, maddələr 1256, 1276; 2016, № 11, maddələr 1758, 1784, 1795, № 12, maddə 1993; 2017, № 2, maddələr 138, 150, № 5, maddə 727, № 8, maddə 1507) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4-cü maddənin birinci hissəsinin 25-ci bəndinə "inzibati" sözündən sonra "xətalar haqqında" sözləri əlavə edilsin.

**2.** 27-ci maddə üzrə:

**2.1.** I hissənin ikinci cümləsinə "rüsumların" sözündən sonra ", yol hərəkəti və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati xətalara görə tətbiq edilmiş inzibati cərimələrin" sözləri əlavə edilsin;

**2.2.** IV-I hissənin 5-ci bəndinə "dövlət rüsumunun" sözlərindən sonra ", bu Qanunun 27-ci maddəsinin V hissəsində nəzərdə tutulan inzibati cərimənin" sözləri əlavə edilsin;

**2.3.** IV-I hissəyə aşağıdakı məzmunda 5-1-ci bənd əlavə edilsin:

**"5-1)** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 57.1–57.4-cü və 97.4-cü maddələrində nəzərdə tutulmuş qaydada çatdırmaq mümkün olmayan yol hərəkəti və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlər üzrə sənədlərin çatdırılması;";

**2.4.** V hissənin birinci cümləsinə "müvafiq sənədlər verildiyi" sözlərindən sonra ", onun barəsində qanuni qüvvəyə minmiş və icrası təxirə salınmamış və ya icrasına möhlət verilməmiş yol hərəkəti və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati xəta haqqında iş üzrə tətbiq edilən cərimə ödənildiyi" sözləri əlavə edilsin;

**2.5.** VI-I hissənin birinci cümləsinə "həvalə etdiyi şəxsin" sözlərindən sonra "(nəqliyyat vasitəsinin sürücüsünün)" sözləri əlavə edilsin.

**3.** 30-cu maddə üzrə:

**3.1.** VI-I hissənin 4-cü bəndinə "dövlət rüsumunun" sözlərindən sonra ", bu Qanunun 30-cu maddəsinin VIII hissəsində nəzərdə tutulan inzibati cərimənin" sözləri əlavə edilsin;

**3.2.** VI-I hissəyə aşağıdakı məzmunda 4-1-ci bənd əlavə edilsin:

**"4-1)** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 57.1–57.4-cü və 97.4-cü maddələrində nəzərdə tutulmuş qaydada çatdırmaq mümkün olmayan yol hərəkəti və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlər üzrə sənədlərin çatdırılması;";

**3.3.** VIII hissəyə "təqdim edildikdə" sözlərindən sonra "və onun barəsində qanuni qüvvəyə minmiş və icrası təxirə salınmamış və ya icrasına möhlət verilməmiş yol hərəkəti və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati xəta haqqında iş üzrə tətbiq edilən cərimə ödənildikdə" sözləri əlavə edilsin.

**4.** 35-ci maddə üzrə:

**4.1.** IV-I hissənin 1-ci bəndinə "dövlət rüsumunun" sözlərindən sonra ", şəxs barəsində qanuni qüvvəyə minmiş və icrası təxirə salınmamış və ya icrasına möhlət verilməmiş yol hərəkəti və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati xəta haqqında iş üzrə tətbiq edilən inzibati cərimənin" sözləri əlavə edilsin;

**4.2.** IV-I hissəyə aşağıdakı məzmunda 1-1-ci bənd əlavə edilsin:

**"1-1)** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 57.1–57.4-cü və 97.4-cü maddələrində nəzərdə tutulmuş qaydada çatdırmaq mümkün olmayan yol hərəkəti və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlər üzrə sənədlərin çatdırılması;";

**4.3.** VII hissəyə "kateqoriyalar saxlanılmaqla," sözlərindən sonra "bu Qanunun 35-ci maddəsinin VIII hissəsində nəzərdə tutulan sənədlər təqdim edildikdə və şəxs barəsində qanuni qüvvəyə minmiş və icrası təxirə salınmamış və ya icrasına möhlət verilməmiş yol hərəkəti və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati xəta haqqında iş üzrə tətbiq edilən inzibati cərimə ödənildikdə" sözləri əlavə edilsin;

**4.4.** IX hissədə "dördüncü" sözü "beşinci" sözü ilə əvəz edilsin;

**4.5.** XII hissəyə "baxılmamasında və ya" sözlərindən sonra "baxılarkən" sözü əlavə edilsin.

**5.** 37-ci maddənin III hissəsinin 2-ci bəndində "qüvvədə

olan qanunvericiliklə" sözləri "qanunla" sözü ilə əvəz edilsin.

**6.** 46-cı maddənin II hissəsinin 6-cı bəndindən ", müəyyən olunmuş qaydada təchiz edilməyən" sözləri çıxarılsın.

**7.** 54-cü maddənin I hissəsinin üçüncü cümləsindən "və ya daxil olmaqdadırsa" sözləri çıxarılsın.

**8.** 85-ci maddənin 9-cu bəndi aşağıdakı redaksiyada verilsin:

**"9)** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 96.1-ci maddəsində nəzərdə tutulmuş hallarda fiziki şəxsləri nəqliyyat vasitəsinin idarə olunmasından kənarlaşdırır və həmin hallar aradan qaldırılanadək nəqliyyat vasitəsini saxlanılması üçün müvəqqəti olaraq müvafiq icra hakimiyyəti orqanının mühafizə olunan duracağına göndərir (nəqliyyat vasitəsinin saxlanılması iki nüsxədə olan aktla rəsmiləşdirilir, onun birinci nüsxəsi inzibati xəta haqqında protokola əlavə edilir, surəti isə nəqliyyat vasitəsini idarə edən şəxsə verilir).

**Qeyd:** Nəqliyyat vasitəsinin saxlanılması səbəbinin aradan qaldırıldığı barədə lazımi sənədlər təqdim edildikdən və ya inzibati xəta törətmiş şəxs barəsində inzibati xəta haqqında protokol tərtib edildikdən, nəqliyyat vasitəsinin duracağa gətirilməsi və onun orada saxlanılması üçün haqq ödənildikdən dərhal sonra, saxlanılmış nəqliyyat vasitəsi sahibinə qaytarılır. Belə nəqliyyat vasitələrinin duracaqdan buraxılması üçün xüsusi icazə tələb olunmur. Nəqliyyat vasitəsi qanunsuz saxlanılmışdırsa və ya lazımi qaydada saxlanılmaması nəticəsində maddi zərər vurulmuşdursa, onun sahibi qanunla müəyyən edilmiş qaydada məhkəməyə müraciət edə bilər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 dekabr 2017-ci il
№ 928-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 62; 2004, № 2, maddə 57, № 3, maddə 133) 1-ci maddəsinin birinci hissəsinin 8-ci bəndində "islah işləri" sözləri "ictimai işlər" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 dekabr 2017-ci il
№ 930-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq, "Polis haqqında" Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Polis haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 611; 2001, № 11, maddə 699, № 12, maddə 731; 2002, № 3, maddə 118, № 6, maddə 328; 2003, № 1, maddə 22, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2006, № 2, maddələr 74, 75, № 11, maddə 927; 2007, № 8, maddə 756; 2008, № 4, maddə 251, № 7, maddə 602, № 8, maddə 696, № 10, maddə 883; 2009, № 6, maddələr 399, 401; 2010, № 2, maddə 74, № 3, maddə 171; 2014, № 2, maddə 87, № 11, maddə 1360; 2015, № 5, maddə 486, № 11, maddə 1277, № 12, maddə 1444; 2016, № 2, I kitab, maddə 197, II kitab, maddə 216, № 3, maddə 400, № 5, maddə 838; Azərbaycan Respublikasının 2017-ci il 2 oktyabr tarixli 789-VQD nömrəli Qanunu) 18-ci maddəsinin birinci hissəsinin 3-cü bəndində "baxış keçirmək" sözləri "axtarış aparmaq" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 dekabr 2017-ci il
№ 933-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq, “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 688; 2000, № 7, maddə 494; 2002, № 8, maddə 464; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 202; 2005, № 10, maddələr 874, 876, 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddə 1, № 2, maddə 82; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 11, maddə 944; 2011, № 4, maddə 269, № 7, maddə 611, № 11, maddə 987; 2012, № 6, maddə 519; 2014, № 3, maddə 237; 2016, № 6, maddələr 1012, 1017) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4-cü maddənin birinci hissəsi üzrə:

**1.1.** yeddinci abzasa “məhkəmə qərarlarından” sözlərindən sonra “və səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərarlarından və ya qərardadlarından” sözləri əlavə edilsin;

**1.2.** səkkizinci abzas doqquzuncu abzas hesab edilsin və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati xəta haqqında iş üzrə icraata başlama haqqında qərar qəbul edir;”.

**2.** 21-ci maddənin birinci hissəsi üzrə:

**2.1.** yeddinci abzasa “məhkəmə qərarlarından” sözlərindən sonra “və səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərarlarından və ya qərardadlarından” sözləri əlavə edilsin;

**2.2.** beşinci – yeddinci abzaslar müvafiq olaraq altıncı – səkkizinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

“qərardad;”.

**3.** Aşağıdakı məzmunda 24-1-ci maddə əlavə edilsin:

**“Maddə 24-1. Qərardad**

Prokuror Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan hallarda inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında əsaslandırılmış qərardad qəbul edir.”.

**4.** 27-ci maddə üzrə:

**4.1.** adına “Məhkəmə qərarlarından” sözlərindən sonra “və səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərarlarından və ya qərardadlarından” sözləri əlavə edilsin;

**4.2.** birinci hissədə “prosessual qanunvericiliyində” sözləri “Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində” sözləri ilə əvəz edilsin və həmin hissəyə “məhkəmə qərarlarından” sözlərindən sonra “və səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərarlarından və ya qərardadlarından” sözləri əlavə edilsin;

**4.3.** ikinci hissədə “Protest” sözü “Məhkəmə qərarlarından protest” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 dekabr 2017-ci il
№ 934-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 19; 2001, № 12, maddə 736; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 8, maddə 599, № 10, maddə 787; 2005, № 8, maddə 686; 2006, № 12, maddə 1005; 2007, № 4, maddə 322; 2009, № 7, maddə 517, № 11, maddə 878; 2010, № 5, maddə 375; 2011, № 2, maddə 71, № 6, maddə 478; 2013, № 11, maddə 1272; Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 855-VQD nömrəli Qanunu) aşa**ğıdakı dəyişikliklər edilsin:**

**1.** 16-cı maddənin III hissəsində “prosessual qanunvericiliyi” sözləri “Cinayət-Prosessual Məcəlləsi və Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi ilə, inzibati xə-

talar haqqında işlər üzrə icraatda müdafiəçi və ya nümayəndə qismində iştirakını istisna edən hallar isə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi" sözləri ilə əvəz edilsin.

**2.** 20-ci maddənin I hissəsinin birinci cümləsində "Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada inzibati və" sözləri "İnzibati qaydada tutulmuş şəxslərə," sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 dekabr 2017-ci il
№ 936-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299; Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 811-VQD, 814-VQD, 817-VQD nömrəli, 31 oktyabr tarixli 847-VQD, 851-VQD nömrəli, 17 noyabr tarixli 857-VQD, 870-VQD, 874-VQD, 876-VQD nömrəli, 1 dekabr tarixli 901-VQD və 913-VQD nömrəli qanunları) 43.1-ci maddəsində "602-1.1 (müvafiq icra hakimiyyəti orqanı tərəfindən məlumatların lisenziya verilmiş fəaliyyət növü üzrə müvafiq nəzarət orqanına verilməməsinə münasibətdə), 602-1.4 (müvafiq icra hakimiyyəti orqanı tərəfindən tədbirlərin görülməməsinə münasibətdə)" sözləri "602-1 (müvafiq icra hakimiyyəti orqanı tərəfindən inzibati xətaların törədilməsinə münasibətdə)" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 dekabr 2017-ci il
№ 969-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 755-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi q**ərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299; Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 811-VQD, 814-VQD, 817-VQD nömrəli, 31 oktyabr tarixli 847-VQD, 851-VQD nömrəli, 17 noyabr tarixli 857-VQD, 870-VQD, 874-VQD, 876-VQD, 882-VQD nömrəli, 1 dekabr tarixli 898-VQD, 901-VQD, 913-VQD nömrəli və 15 dekabr tarixli 949-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 43.1-ci maddədə "394-1," rəqəmləri "394.0.5 (açıq məkanda reklam qurğularının tikintisi zamanı tikinti norma və qaydalarının pozulmasına münasibətdə), 394.0.6 (açıq məkanda reklam qurğularının istismara verilməsi qaydalarının pozulmasına münasibətdə), 394.0.7 (müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun göstərişlərinə və qərarlarına əməl etməməsinə münasibətdə), 394-1, 395.1-1," sözləri ilə əvəz edilsin.

**2.** 394.0.7-ci maddəyə "qərarlarına" sözündən sonra ", habelə reklam qurğularının tikintisi işləri ilə bağlı müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun həmin Məcəllə ilə müəyyən edilmiş yazılı göstərişlərinə və qərarlarına" sözləri əlavə edilsin.

**3.** aşağıdakı məzmunda 395.1-1-ci maddə əlavə edilsin:

**"395.1-1.** Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun icazəsi alınmadan ölçülərindən asılı olmayaraq açıq məkanda reklam qurğularının tikintisinə, quraşdırılmasına və onlara konstruktiv dəyişikliklərin edilməsinə görə –

fiziki şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər on min manatdan on beş min manatadək məbləğdə cərimə edilir.".

**4.** 395.2-ci maddəyə "obyektlərinin" sözündən sonra "(açıq məkanda reklam qurğuları istisna olmaqla)" sözləri əlavə edilsin.

**5.** 428.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"428.7.** Açıq məkanda reklam haqqında qanunvericiliyin pozulmasına, yəni:

**428.7.1.** müvafiq icazə, texniki şərtlər pasportu və icazə müqaviləsi olmadan, həmçinin onların tələbləri pozulmaqla açıq məkanda reklam yerləşdirilməsinə;

**428.7.2.** "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun və digər qanunvericilik aktlarının tələblərinə cavab verməyən reklamın açıq məkanda yerləşdirilməsinə;

**428.7.3.** müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun açıq məkanda reklam sahəsində nəzarətin həyata keçirilməsi çərçivəsində verdiyi yazılı göstərişlərin və qərarların (bu Məcəllənin 394.0.7-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) vaxtında və tam yerinə yetirilməməsinə görə –

fiziki şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan on min manatadək məbləğdə cərimə edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 fevral 2018-ci il
№ 981-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299; Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 811-VQD, 814-VQD, 817-VQD nömrəli, 31 oktyabr tarixli 847-VQD, 851-VQD nömrəli, 17 noyabr tarixli 857-VQD, 870-VQD, 874-VQD, 876-VQD, 882-VQD nömrəli, 1 dekabr tarixli 898-VQD, 901-VQD, 913-VQD nömrəli və 15 dekabr tarixli 949-VQD nömrəli qanunları) 275.2-ci maddəsində "çirklənməsi normalarının" sözləri "çirklənməsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi normalarının" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 fevral 2018-ci il
№ 984-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 543-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 452, № 12, maddə 731; 2002, № 12, maddə 706; 2005, № 10, maddə 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddələr 1, 4, № 2, maddə 82, № 6, maddə 570, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008, № 3, maddə 155, № 4, maddə 250, № 8, maddə 696; 2009, № 6, maddə 399, № 11,

maddələr 877, 878; 2010, № 3, maddə 171, №11, maddə 944; 2011, № 2, maddə 71, № 11, maddə 988; 2012, № 11, maddə 1039; 2014, № 3, maddə 238; 2016, № 2 (I kitab), maddə 193, № 6, maddələr 982, 1018; Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 885-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1. 20.13-cü maddənin birinci abzasında "25" rəqəmləri "35" rəqəmləri ilə əvəz edilsin.**

**2.** 32.4-cü maddədə "25 il qulluq etmiş işçilər xidmət illərinə" sözləri "35 il qulluq etmiş prokurorluq işçiləri (xüsusi rütbələrdən məhrum edilmiş prokurorluq işçiləri istisna olmaqla) yaşa" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 mart 2018-ci il
№ 1030-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cinayət Məcəlləsini "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 16 may tarixli 674-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, №5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, №11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, №2, maddə 68, №5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, №12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, №7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, №7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, №2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, №4, maddələr 634, 636, 638, 653, №5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, №2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978; Azərbaycan Respublikasının 2017-ci il **17 noyabr tarixli 868- VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:**

**1.** 168-1.1-ci maddədə "tərəfindən" sözündən sonra "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmadan" sözləri əlavə edilsin.

**2.** 168-1.2-ci maddədə "Əcnəbi" sözü "Dini mərkəz tərəfindən dəvət edilmiş din xadimləri istisna olmaqla, əcnəbi" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 mart 2018-ci il
№ 1037-VQD

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Res-

publikasının 2017-ci il 2 oktyabr tarixli 786-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 794; 2008, № 1, maddə 9; 2011, № 3, maddə 183, № 4, maddə 273, № 5, maddə 379; 2013, № 6, maddə 653; 2014, № 7, maddə 816; 2017, № 3, maddə 375) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"nin 7.6-cı bəndinə "orqanlarına" sözündən sonra ", yerli özünüidarəetmə orqanlarına, publik hüquqi şəxslərə" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 fevral 2018-ci il
№1850

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789; Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli 1746 nömrəli və 22 dekabr tarixli 1753 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** aşağıdakı məzmunda 11-1-ci, 28-1-ci, 31-1-ci, 54-1-ci, 55-1-ci, 66-1-ci və 73-1-ci hissələr əlavə edilsin:

**"11-1.** Məcəllənin 185-188-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi adından — Agentliyin İdarə Heyətinin sədri, İdarə Heyətinin üzvləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.";

**"28-1.** Məcəllənin 379-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

**28-1.1.** fərdi məlumatların informasiya sistemlərinə münasibətdə — bu Siyahının 26-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

**28-1.2.** digər informasiya sistemlərinə münasibətdə — bu Siyahının 28-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.";

**"31-1.** Məcəllənin 394-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi adından — Komitənin sədri, onun müavinləri, Aparatın rəhbəri, şöbə müdiri.";

**"54-1.** Məcəllənin 515.0.2 — 515.0.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

**54-1.1.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi adından — bu Siyahının 36.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**54-1.2.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından — bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.";

**"55-1.** Məcəllənin 517-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

**55-1.1.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından — bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

**55-1.2.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti adından – bu Siyahının 28-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.";

**"66-1.** Məcəllənin 552-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar (Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində törədilən inzibati xətalar istisna olmaqla) haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından – bu Siyahının 26-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.";

**"73-1.** Məcəllənin 602.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

**73-1.1.** yoxlayıcı orqanlara (yoxlayıcılara) münasibətdə yuxarı dövlət orqanının rəhbəri, onun müavini, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, baş məsləhətçi, böyük məsləhətçi;

**73-1.2.** yoxlayıcı orqanlara (yoxlayıcılara) münasibətdə yuxarı dövlət orqanının olmadığı hallarda Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından — bu Siyahının 44.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.";

**1.2.** 23-cü hissədə "286-cı maddəsində" sözləri "286 və 459-1-ci maddələrində" sözləri ilə əvəz edilsin;

**1.3.** 26-cı hissəyə "369" rəqəmlərindən əvvəl "325.1, 326," rəqəmləri əlavə edilsin;

**1.4.** 41.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 41.4-cü bənd əlavə edilsin:

**"41.4.** audiovizual əsərlərə, fonoqramlara, kompüter proqramlarına, məlumat toplularına, kitab nüsxələrinə münasibətdə Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi adından — bu Siyahının 11-1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.";

**1.5.** 48.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 48.4-cü bənd əlavə edilsin:

**"48.4.** audiovizual əsərlərə, fonoqramlara, kompüter proqramlarına, məlumat toplularına, kitab nüsxələrinə münasibətdə Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi adından — bu Siyahının 11-1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.";

**1.6.** 54-cü hissədə "515" rəqəmləri "515.0.1" rəqəmləri ilə əvəz edilsin;

**1.7.** 55-ci hissə üzrə:

**1.7.1.** 55.1-ci bəndə "Azərbaycan Respublikasının" sözlərindən və 55.2-ci bəndə "yerli icra hakimiyyəti" sözlərindən əvvəl "inzibati xətanı aşkar etmiş" sözləri əlavə edilsin;

**1.7.2.** 55.2-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 55.3-cü bənd əlavə edilsin:

**"55.3.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından — bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.".

**2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:**

**2.1.** Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.4.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 fevral 2018-ci il
№1855

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında

Vətəndaşların yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun həyata keçirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və ədalət mühakiməsinin səmərəli fəaliyyəti üçün güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyəti vardır. Hüquqi dövlətdə bu təsisatın rolunu nəzərə alaraq, ölkəmizdə məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi sahəsində görülən işlər çərçivəsində vəkilliyin inkişafına dəstək vermək məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

**1.1.** Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin və Kollegiyanın digər strukturlarının fəaliyyətinin təmin edilməsi məqsədilə onun Bakı şəhərində müvafiq bina ilə təmin olunması üçün tədbirlər görsün;

**1.2.** Azərbaycan Respublikasının regionlarında apellyasiya məhkəmələrinin, ağır cinayətlər məhkəmələrinin və inzibati-iqtisadi məhkəmələrin yerləşdikləri Gəncə, Lənkəran, Sumqayıt, Şəki və Şirvan şəhərlərində Azərbaycan Respublikası Vəkillər Kollegiyasının vəkil qurumlarının fəaliyyətinin təmin edilməsi məqsədilə onların müvafiq binalarla (yerlərlə) təmin olunması üçün tədbirlər görsün;

**1.3.** vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərə dövlət hesabına göstərilən hüquqi yardıma görə "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinin I hissəsinə müvafiq olaraq müəyyən edilmiş məbləğin 3 dəfə artırılmasını təmin etsin;

**1.4.** Azərbaycan Respublikası Vəkillər Kollegiyasının maddi-texniki təminatı ilə bağlı məsələlərin həlli üçün tədbirlər görsün, o cümlədən Kollegiyanın istifadəsində olan binaların təmiri, zəruri kompüter avadanlığının və digər avadanlığın, habelə nəqliyyat vasitələrinin alınması məqsədilə vəsait ayırsın.

**2.** Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına tövsiyə edilsin ki:

**2.1.** ixtisas imtahanlarının müntəzəm keçirilməsini təşkil etməklə, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına yeni üzvlərin, xüsusən gənc hüquqşünasların qəbul edilməsi üçün şərait yaratsın;

**2.2.** göstərilən hüquqi xidmətlərin keyfiyyətinin daim yüksəldilməsi məqsədilə vəkillərin peşə hazırlığının və ixtisasının artırılması ilə bağlı zəruri tədbirlər görsün;

**2.3.** vəkillərin öz fəaliyyətində qanunçuluğa, ədalət mühakiməsinin prinsiplərinə və yüksək peşə standartlarına, o cümlədən əldə etdikləri məlumatların konfidensiallığı, hüquqi yardım üçün müraciət etmiş şəxslərə münasibətdə vicdanlı və nəzakətli davranış tələblərinə ciddi riayət etmələrini təmin etsin;

**2.4.** Azərbaycan Respublikasının şəhər və rayonlarında vətəndaşların yüksək keyfiyyətli hüquqi yardıma tələbatını təmin etmək məqsədilə regionlarda vəkillərin fəaliyyətinin stimullaşdırılması üçün tədbirlər hazırlayıb həyata keçirsin;

**2.5.** hüquqi məsləhətə ehtiyacı olan aztəminatlı şəxslər üçün Azərbaycan Respublikasının Vəkillər Kollegiyası tərəfindən pulsuz hüquqi xidmətlər göstərilməsini təşkil etsin;

**2.6.** Azərbaycan Respublikası Vəkillər Kollegiyasının fəaliyyətində şəffaflığın artırılması və ictimaiyyətlə əlaqələrin daha da genişləndirilməsi ilə bağlı tədbirlər görsün;

**2.7.** Azərbaycan Respublikası Vəkillər Kollegiyasının və vəkillərin fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini və hüquqi xidmətlərin elektron formada göstərilməsi təcrübəsini genişləndirmək üçün vəkilliyin vahid elektron informasiya sisteminin təşkili və bu sistemin "Elektron məhkəmə" informasiya sisteminə inteqrasiyası istiqamətində tədbirlər görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 fevral 2018-ci il
№3707

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**
**№ 10/09**

Bakı şəhəri 13 fevral 2018-ci il

**Azərbaycan Respublikası Baş prokurorunun "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında" 01 noyabr 2010-cu il tarixli 10/100 nömrəli əmrinə dəyişikliklər edilməsi barədə**

Prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılmasının, bu sahədə vəzifələrin daha dəqiq və ardıcıl surətdə yerinə yetirilməsinin təmin edilməsi məqsədilə, «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutub,

**ƏMR EDİRƏM:**

1. «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» Azərbaycan Respublikası Baş prokurorunun 01.11.2010-cu il tarixli 10/100 nömrəli əmrinə aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** Əmrin 1-ci bəndində "prokurorluğu" sözü "Prokurorluğu" sözü ilə əvəz edilsin.

**1.2.** Əmrin 13-7-ci bəndinin 2-ci abzasında "13-1-ci bəndində" sözlərindən əvvəl "bu əmrin" sözləri əlavə edilsin.

**1.3.** Əmrin 35.1.2-ci bəndində "Azərbaycan Respublikası Milli Məclisinin sədrindən" sözlərindən əvvəl "Azərbaycan Respublikasının vitse-prezidentlərindən," sözləri əlavə edilsin.

**1.4.** Əmrin 50.8-ci bəndində "Cinayət" sözü "cinayət" sözü ilə əvəz edilsin.

**2.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, habelə bütün tabe prokurorluqlara göndərilsin və «Azərbaycan Prokurorluğu» jurnalında dərc edilsin.

**Zakir Qaralov,**
Azərbaycan Respublikasının Baş prokuroru
I dərəcəli dövlət ədliyyə müşaviri

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**
**№ 10/21**

Bakı şəhəri 30 mart 2018-ci il

**Baş Prokurorluq üzrə bəzi əmrlərə dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Prokurorluğunun beynəlxalq hüquqi əməkdaşlıq sahəsində işinin səmərəliliyinin daha da artırılması, respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş öhdəliklərin icrasının səmərəliliyini yüksəltmək və ekstradisiya məsələlərinin həlli istiqamətində zəruri tədbirlərin dəqiq və hərtərəfli yerinə yetirilməsinin təmin edilməsi məqsədilə «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 6-cı və 10-cu maddələrini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Baş Prokurorluq üzrə «Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə müəyyən edilmiş məsələlərin icrası və beynəlxalq əməkdaşlığın səmərəliliyinin artırılması ilə əlaqədar prokurorluq orqanlarının vəzifələr barədə» 14.02.2007-ci il tarixli, 10/13 №-li əmrə (11.02.2010-cu il tarixli 10/14, 16.09.2011-ci il tarixli 10/82, 03.08.2012-ci il tarixli 10/84, 03.09.2015-ci il tarixli 10/79, 04.02.2016-cı il tarixli 10/07, 27.01.2017-ci il tarixli 10/04, 26.07.2017-ci il tarixli 10/53 və 24.11.2017-ci il tarixli 10/100 №-li əmrlərlə edilmiş dəyişikliklərlə) aşağıdakı məzmunda 14-1-ci bənd əlavə edilsin:

**"14-1.**Şəxsin ekstradisiyası məsələsinə məhkəmələrdə baxılarkən İdarənin prokurorlarının iştirakı təmin edilməklə, zəruri hallarda apellyasiya və kassasiya protestləri verilsin."

**2.** Baş Prokurorluq üzrə "Məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında prokurorluğun iştirakının səmərəliliyinin artırılması barədə" 07.02.2005-ci il tarixli, 08/16 №-İİ əmrin (03.12.2007-ci il tarixli 10/102, 16.09.2011-ci il tarixli 10/82, 01.09.2015-ci il tarixli 10/77 və 31.05.2017-ci il tarixli 10-41 №-İİ əmrlərlə edilmiş dəyişikliklərlə) 2-ci bəndinin sonuncu cümləsində "müraciətlərə" sözündən sonra "(şəxsin ekstradisiyası məsələsinə baxılması halları istisna olmaqla)" sözləri əlavə edilsin.

**3.** Əmr elan və icra olunması üçün Azərbaycan Respublikası Prokurorluğunun struktur qurumlarına göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Azərbaycan Respublikası Baş Prokurorluğunun normativ hüquqi aktları" informasiya sisteminə daxil edilsin.

**Zakir Qaralov,**
Azərbaycan Respublikasının Baş prokuroru
I dərəcəli dövlət ədliyyə müşaviri